PEDAQOJİ UNİVERSİTETİN

# XƏBƏRLƏRİ

# TRANSACTIONS

## OF PEDAGOGICAL UNIVERSITY

ISSN 2520-2014

*Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası*

*Series of humanitarian, social, pedagogical and psychological sciences*

**2023, C. 71, № 2**

**Jurnal 24 may 1991-ci il tarixdə Azərbaycan Respublikası Mətbuat Komitəsində qeydiyyatdan keçmişdir (şəhadətnamə № 307)**
***(1953-cü ildən nəşr edilir)***

# PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ

***Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası*, 2023, C. 71, № 2**

**BAŞ REDAKTOR** T.ü.e.d., prof. C.M.Cəfərov
**EDITOR-IN-CHIEF** Prof. Dr. J.M.Jafarov

**REDAKSİYA HEYƏTİ**

F.-r.e.d., prof. A.D.Zamanov ***(baş redaktorun müavini)***, psix.e.d., prof. R.İ.Əliyev, f.ü.e.d., prof. M.N.Hüseynova, p.ü.e.d., prof. M.İ.İlyasov, f.e.d., prof. H.Ə.Qasımov, p.e.d., prof. F.A.Rüstəmov, f.ü.e.d., prof. F.Ç.Rzayev, t.e.d., prof. O.B.Sultanov

**REDAKSİYA ŞURASI**

F.e.d., prof. Y.M.Babayev, f.e.d., prof. T.S.Cavadov, p.e.d., prof. M.R.Dadaşova, p.ü.e.d., prof. M.M.Əmirov, p.e.d., prof. R.L.Hüseynzadə, f.e.d., prof. Z.A.Xəlilov, s.ü.e.d., prof. J.H.Qədimova, t.e.d., prof. X.M.Məmmədov, f.ü.e.d., dos. N.M.Sadıqova, p.ü.f.d., prof. İ.N.İsayev, p.ü.e.d., dos. Ş.Q.Əliyeva, p.ü.f.d., dos. N.Ə.Abdullazadə, p.ü.f.d., dos. N.T.Hüseynova
F.ü.f.d. N.Q.Aslanova ***(məsul katib)***

**EDITORIAL BOARD**

Prof. Dr. A.D.Zamanov ***(ass. editor)***, Prof. Dr. R.I.Aliyev, Prof. Dr. M.N.Huseynova, Prof. Dr. M.I.Ilyasov, Prof. Dr. H.A.Gasimov, Prof. Dr. F.A.Rustamov, Prof. Dr. F.Ch.Rzayev, Prof. Dr. O.B.Sultanov

**ADVISORY BOARD**

Prof. Dr. Y.M.Babayev, Prof. Dr. T.S.Javadov, Prof. Dr. M.R.Dadashova, Prof. Dr. M.M.Amirov, Prof. Dr. R.L.Huseynzadeh, Prof. Dr. Z.A.Khalilov, Prof. Dr. J.H.Gadimova, Prof. Dr. Kh.M.Mammadov, Ass. prof. Dr. N.M.Sadigova, Prof. Phd I.N.Isayev, Ass. prof. Dr. Sh.Q.Aliyeva, Ass. prof. Phd N.A.Abdullazadeh, Ass. prof. Phd N.T.Huseynova
Phd N.G.Aslanova ***(executive secretary)***

***© ADPU, 2023***
***© ASPU, 2023***

# MÜNDƏRİCAT

## *Humanitar elmlər*

***Hüseynoğlu S.***
ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ TƏRCÜMEYİ-HAL MATERİALLARININ ÖYRƏNİLMƏSİNƏ YENİ YANAŞMA ………….....………............................... 9
***Mehdiyeva N.A.***
İNGİLİS DİLİNDƏ NEOLOGİZMLƏRİN YARANMASININ PRODUKTİV VASİTƏLƏRİ ……………....…………………………………………......…… 25
***Məmmədzadə A.T.***
AŞPAZLIQ SƏNƏTİ İLƏ BAĞLI LEKSİKANIN İŞTİRAKI İLƏ FORMALAŞAN FRAZEOLOGİZMLƏRİN DİL XÜSUSİYYƏTLƏRİ (“KİTABİ-DƏDƏ QORQUD” DASTANININ MATERİALLARI ƏSASINDA)........... 33
***Yunusova G.K.***
“FÜYUZAT”ÇILARIN ƏDƏBİ DİL SİYASƏTİ VƏ MİLLİ ƏDƏBİ DİLİ “OSMANLILAŞDIRMAQ” TƏŞƏBBÜSLƏRİNİN ETNOTÜRKÇÜ MAHİYYƏTİ.... 41

## *İctimai elmlər*

***Əsədova Q.M.***
AZƏRBAYCAN MƏİŞƏTİNDƏ QADIN ƏMƏYİNİN TƏTBİQİNƏ DAİR (XIX-XX ƏSRLƏRDƏ) ........................................................................................ 48
***Həsənov H.N.***
HACI ZEYNALABDİN TAĞIYEV VƏ ŞOLLAR-BAKI SU KƏMƏRİNİN TİKİNTİSİ................................................................................................ 57
***Hüseynli R.M.***
HEYDƏR ƏLİYEV - ULU ÖNDƏR VƏ XX ƏSRİN DÖVLƏT XADİMİ...................... 66
***Kərimov Z.H.***
XEYİR VƏ XEYİRXAHLIQ MƏSƏLƏLƏRİNİN ULU QAYNAQLARI VƏ DİNİ-MİFOLOJİ KÖKLƏRİ .................................................................................. 74
***Qəniyeva F.M.***
HEYDƏR ƏLİYEVİN MİLLİ İDENTİKLİK SİYASƏTİ................................................ 83
***Qurbanlı Ə.C.***
NÜVƏDİ KƏNDİNİN ERMƏNİSTAN SSR-yə VERİLMƏSİ VƏ DEPORTASİYASI TARİXİ MƏSƏLƏLƏRİ.................................................................................... 89
***Məmmədov N.R.***
HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN DAĞLIQ QARABAĞ BÖLGƏSİNİN SOSİAL-MƏDƏNİ YÜKSƏLİŞİ (1970-1985-ci illər)........................................................ 99
***Musayeva M.A.***
HEYDƏR ƏLİYEV İRSİNİN ELMİ METODLARLA ÖYRƏNİLMƏSİ ....................... 110
***Musayev H.M.***
SƏRHƏD TƏHLÜKƏSİZLİYİ SİYASƏTİ MİLLİ TƏHLÜKƏSİZLİK SİYASƏTİNİN TƏRKİB HİSSƏSİ KİMİ......................................................................... 117

## *Pedaqoji-psixoloji elmlər*

***Əmirova G.N.***
XXI ƏSRİN TƏHSİL SƏRİŞTƏLƏRİ: GÖZLƏNİLƏN NƏTİCƏLƏR ........................ 127
***Hümbətova A.A.***
MÜƏLLİMİN PEDAQOJİ DAVRANIŞ MODELİNİN PSİXOLOJİ ASPEKTLƏRİ..... 136

***Hüseynova F.M.***
İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ QİYMƏTLƏNDİRMƏNİN FUNKSİONAL MƏQSƏDLƏRİ ........................................................................................................ 143
***İbrahimli N.Q.***
AUTENTİK DİALOQLARIN İSTİFADƏSİNDƏ SOSİAL-PSİXOLOJİ AMİLLƏR..... 151
***İsayev İ.N.***
HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN MİLLİ TƏHSİL KONSEPSİYASININ BƏZİ İSTİQAMƏTLƏRİ......................................................................................... 159
***Qasımova A.Y.***
ALİ PEDAQOJİ MƏKTƏBLƏRDƏ TƏHSİLİN MƏZMUNUNUN REALLAŞDIRILMASINDA SEMİNAR MƏŞĞƏLƏLƏRİNİN ROLU …......…......... 168
***Nəzərov M.H., Mədədov P.Y., Quliyeva S.B.***
TƏHSİL PROSESİNİN TƏŞKİLİNDƏ İNNOVATİV TƏLİM TEXNOLOGİYALARININ TƏTBİQİ..…….................................................................. 176
***Novruzəliyeva S.C.***
KOMMUNİKASİYA VƏ EQONUN NEQATİV TƏSİRLƏRİ ......……........................ 187
***Zamanova N.İ.***
REYTİNQ QİYMƏTLƏNDİRİLMƏ RƏQƏMSAL DÜNYADA................................. 196

# СОДЕРЖАНИЕ

## *Гуманитарные науки*

***Гусейноглы С.***
НОВЫЙ ПОДХОД К ИЗУЧЕНИЮ БИОГРАФИЧЕСКИХ МАТЕРИАЛОВ НА УРОКАХ ЛИТЕРАТУРЫ........ 9
***Мехтиева Н.А.***
ПРОДУКТИВНЫЕ СПОСОБЫ ОБРАЗОВАНИЯ НЕОЛОГИЗМОВ В АНГЛИЙСКОМ ЯЗЫКЕ ........ 25
***Мамедзаде А.Т.***
ЯЗЫКОВЫЕ ОСОБЕННОСТИ ФРАЗЕОЛОГИЧЕСКИХ ЕДИНИЦ, ОТНОСЯЩИХСЯ К ЛЕКСИКЕ, СВЯЗАННОЙ С КУЛИНАРНЫМ ИСКУССТВОМ (ПО МАТЕРИАЛАМ ЭПОСА «ДЕДЕ ГОРГУД»)........ 33
***Юнусова Г.К.***
ЛИТЕРАТУРНО-ЯЗЫКОВАЯ ПОЛИТИКА «ФЬЮУЗАТИСТОВ» И ЭТНОТЮРКСКАЯ СУЩНОСТЬ ИНИЦИАТИВ ПО «ОСМАНИЗАЦИИ» НАЦИОНАЛЬНОГО ЛИТЕРАТУРНОГО ЯЗЫКА ........ 41

## *Общественные науки*

***Асадова Г.М.***
О ПРИМЕНЕНИИ ЖЕНСКОГО ТРУДА В АЗЕРБАЙДЖАНСКОМ ХОЗЯЙСТВЕ (В XIX-XX ВВ.) ........ 48
***Гасанов Г.Н.***
ГАДЖИ ЗЕЙНАЛАБДИН ТАГИЕВ И СТРОИТЕЛЬСТВО ШОЛЛАРО-БАКИНСКОГО ВОДОПРОВОДА ........ 57
***Гусейнли Р.М.***
ГЕЙДАР АЛИЕВ – ВЕЛИКИЙ ЛИДЕР И ГОСУДАРСТВЕННЫЙ ДЕЯТЕЛЬ XX ВЕКА ........ 66
***Каримов З.Г.***
ВЕЛИКИЕ ИСТОКИ И РЕЛИГИОЗНО-МИФОЛОГИЧЕСКИЕ КОРНИ ВОПРОСОВ ДОБРА И ДОБРОТЫ ........ 74
***Ганиева Ф.М.***
ПОЛИТИКА НАЦИОНАЛЬНОЙ ИДЕНТИЧНОСТИ ГЕЙДАРА АЛИЕВА ........ 83
***Гурбанли А.Дж.***
ИСТОРИЧЕСКИЕ ВОПРОСЫ ДЕПОРТАЦИИ И ПЕРЕДАЧИ СЕЛА НУВЕДИ АРМЯНСКОЙ ССР ........ 89
***Мамедов Н.Р.***
ГЕЙДАР АЛИЕВ И СОЦИАЛЬНО-КУЛЬТУРНЫЙ ПОДЪЕМ НАГОРНО-КАРАБАХСКОГО РЕГИОНА АЗЕРБАЙДЖАНА (1970-1985 гг.) ........ 99
***Мусаева М.А.***
НАУЧНЫЕ МЕТОДЫ ИЗУЧЕНИЯ НАСЛЕДИЯ ГЕЙДАРА АЛИЕВА ........ 110
***Мусаев Х.М.***
ПОЛИТИКА БЕЗОПАСНОСТИ ГРАНИЦ КАК ЧАСТЬ ПОЛИТИКИ НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ........ 117

## *Педагогико-психологические науки*

***Амирова Г.Н.***
ОБРАЗОВАТЕЛЬНЫЕ КОМПЕТЕНЦИИ XXI ВЕКА И ОЖИДАЕМЫЕ РЕЗУЛЬТАТЫ ………........…………………………………………….......... 127
***Гумбатова А.А.***
ПСИХОЛОГИЧЕСКИЕ АСПЕКТЫ МОДЕЛИ ПЕДАГОГИЧЕСКОГО ПОВЕДЕНИЯ УЧИТЕЛЯ ........................................................................................ 136
***Гусейнова Ф.М.***
ФУНКЦИОНАЛЬНЫЕ НАЗНАЧЕНИЯ ОЦЕНИВАНИЯ В ОБУЧЕНИИ АНГЛИЙСКОМУ ЯЗЫКУ ...................................................................................... 143
***Ибрагимли Н.Г.***
СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ФАКТОРЫ ИСПОЛЬЗОВАНИЯ АУТЕНТИЧНЫХ ДИАЛОГОВ ......................................................................... 151
***Исаев И.Н.***
ГЕЙДАР АЛИЕВ И НЕКОТОРЫЕ НАПРАВЛЕНИЯ КОНЦЕПЦИИ АЗЕРБАЙДЖАНСКОГО НАЦИОНАЛЬНОГО ОБРАЗОВАНИЯ …......………... 159
***Гасымова А.Я.***
РОЛЬ СЕМИНАРСКИХ ЗАНЯТИЙ В РЕАЛИЗАЦИИ СОДЕРЖАНИЯ ОБРАЗОВАНИЯ В ВЫСШИХ ПЕДАГОГИЧЕСКИХ ШКОЛАХ ........................... 168
***Назаров М.Г., Мададов П.Я., Гулиева С.Б.***
ПРИМЕНЕНИЕ ИННОВАЦИОННЫХ ТЕХНОЛОГИЙ ОБУЧЕНИЯ В ОРГАНИЗАЦИИ УЧЕБНОГО ПРОЦЕССА ……..………………..………………. 176
***Новрузалиева С.Дж.***
КОММУНИКАЦИЯ И НЕГАТИВНЫЕ ЭФФЕКТЫ ЭГО…........………………… 187
***Заманова Н.И.***
РЕЙТИНГОВАЯ ОЦЕНКА В ЦИФРОВОМ МИРЕ .................................................. 196

# TABLE OF CONTENTS

## *Humanitarian sciences*

***Huseynoghlu S.***
A NEW APPROACH TO THE STUDY OF BIOGRAPHICAL MATERIALS IN THE LESSONS OF LITERATURE........................................................................ 9
***Mehdiyeva N.A.***
PRODUCTIVE WAYS OF FORMATION OF NEOLOGISMS IN THE ENGLISH LANGUAGE ........................................................................................................ 25
***Mammadzade A.T.***
LINGUISTIC FEATURES OF PHRASEOLOGICAL UNITS RELATING TO VOCABULARY RELATED TO CULINARY ART (BASED ON THE MATERIALS OF "DEDE GORGUD" EPIC)........................................................... 33
***Yunusova G.K.***
THE LITERARY LANGUAGE POLICY OF THE "FYUUZATISTS" AND THE ETHNO-TURKIC ESSENCE OF THE INITIATIVES TO "OTTOMANIZE" THE NATIONAL LITERARY LANGUAGE............................................................ 41

## *Social sciences*

***Asadova G.M.***
ABOUT THE APLICATION OF WOMEN LABOUR IN TRADITIONAL HAUSEHOLD OF AZERBAIJAN (IN THE XIX AND - XX CENTURY) ……........... 48
***Hasanov H.N.***
HAJI ZEYNALABDIN TAGIEV AND CONSTRUCTION SHOLARO-BAKU WATER PIPELINE ...................................................................................... 57
***Huseynli R.M.***
HEYDAR ALIYEV - GREAT LEADER AND STATESMAN OF THE 20TH CENTURY ……………………….......…………………………………….. 66
***Karimov Z.H.***
GREAT SOURCES AND RELIGIOUS-MYTHOLOGICAL ROOTS OF THE ISSUES OF GOOD AND KINDNESS ………………………......………………….... 74
***Ganiyeva F.M.***
NATIONAL IDENTICAL POLICY OF HEYDAR ALIYEV……..........……………… 83
***Gurbanli A.J.***
HISTORICAL ISSUES OF DEPORTATION AND TRANSMISSION OF THE VILLAGE OF NUVEDI TO THE ARMENIAN SSR ……………........…………….... 89
***Mammadov N.R.***
HEYDAR ALIYEV AND SOCIAL-CULTURAL RISE OF THE UPPER KARABAKH AZERBAIJAN (1970-1985 years) ……..……….........………………..… 99
***Musaeva M.A.***
SCIENTIFIC METHODS STADING HEYDAR ALIEV'S HERITAGE …...........…… 110
***Musayev H.M.***
BORDER SECURITY POLICY AS PART NATIONAL SECURITY POLICIES ........ 117

## *Pedagogical-psychological sciences*

***Amirova G.N.***
EDUCATIONAL COMPETENCIES OF THE XXI CENTURY AND EXPECTED RESULTS ......................................................................................................... 127

***Humbatova A.A.***
PSYCHOLOGICAL ASPECTS OF THE TEACHER'S MODEL OF PEDAGOGICAL BEHAVIOR ........................................................................ 136
***Huseynova F.M.***
FUNCTIONAL PURPOSES OF ASSESSMENT IN ENGLISH LANGUAGE TEACHING ........................................................................................................ 143
***Ibrahimli N.G.***
SOCIAL-PSYCHOLOGICAL FACTORS IN USING AUTHENTIC DIALOGUES... 151
***Isayev I.N.***
HAYDAR ALIYEV AND AZERBAIJAN NATIONALSOME DIRECTIONS OF THE CONCEPT OF EDUCATION ............................................................................ 159
***Gasimova A.Y.***
THE ROLE OF SEMINAR CLASSES IN THE IMPLEMENTATION OF THE CONTENT OF EDUCATION IN HIGHER PEDAGOGICAL SCHOOLS ................ 168
***Nazarov M.H., Madadov P.Y., Guliyeva S.B.***
APPLICATION OF INNOVATIVE LEARNING TECHNOLOGIES IN THE ORGANIZATION OF THE EDUCATIONAL PROCES ............................................ 176
***Novruzaliyeva S.J.***
COMMUNICATION AND NEGATIVE EFFECTS OF EGO..................................... 187
***Zamanova N.I.***
RATING ASSESSMENT IN THE DIGITAL WORLD .............................................. 196

# Humanitar elmlər

*UOT 372.8:82*

***S.Hüseynoğlu***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*soltanhuseynoglu@mail.ru*

## ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ TƏRCÜMEYİ-HAL MATERİALLARININ ÖYRƏNİLMƏSİNƏ YENİ YANAŞMA

***Açar sözlər:*** *tərcümeyi-hal, yazıçı şəxsiyyəti, əlavə mənbələr, müzakirə, ekskursiya*

Məktəb ədəbiyyat kursunun əhatə etdiyi məsələlər çox olmaqla yanaşı, məzmunca da mürəkkəbdir. Bu isə həmin kursla bağlı ardıcıl olaraq araşdırmaların aparılmasını zərurətə çevirir. Məsələnin başqa tərəfi də var: müasir təlimi yanaşmaların, yeni təhsil proqramının tətbiqi də kursun – ədəbiyyat fənninin ümumi və mühüm istiqamətlərinin, onun əhatə etdiyi problemlərin bu günün tələbləri baxımından araşdırılmasını diqqət mərkəzinə çəkir. Bu baxımdan ümumtəhsil məktəblərində tərcümeyi-hal materiallarının öyrədilməsi yollarının tədqiqata cəlb edilməsi aktual sayılır. Həm də ona görə ki, bu həm təlimi, həm də tərbiyəvi baxımdan xüsusi əhəmiyyət kəsb edir.

Məqalədə ədəbiyyat fənninin öyrədilməsinin müxtəlif mərhələlərində bioqrafik məlumatların mənimsədilməsi yolları şərh edilmiş, ədəbiyyat dərsliklərində, məktəb təcrübəsindəki vəziyyət təhlilə cəlb olunmuşdur.

***С.Гусейноглы***

## НОВЫЙ ПОДХОД К ИЗУЧЕНИЮ БИОГРАФИЧЕСКИХ МАТЕРИАЛОВ НА УРОКАХ ЛИТЕРАТУРЫ

***Ключевые слова:*** *биография, личность писателя, дополнительные источники, дискуссия, экскурсия*

Вопросы, охватываемые школьным курсом литературы, не только многочисленны, но и сложны по содержанию. Это делает необходимым последовательное проведение исследований по этому курсу. Есть и другая сторона вопроса: внедрение современных подходов к обучению, новая образовательная программа, также обращает внимание на рассмотрение общих и важных направлений курса - предмета литературы, освещаемых им проблем с точки зрения сегодняшнего требования. С этой точки зрения представляется актуальным привлечение к исследованию способов преподавания биографических материалов в общеобразовательных школах. Еще и потому, что это имеет особое значение как с точки зрения обучения, так и воспитания.

В статье объясняются способы усвоения биографических сведений на разных этапах преподавания предмета литературы, анализируется ситуация в учебниках литературы и школьном опыте.

***S.Huseynoghlu***

**A NEW APPROACH TO THE STUDY OF BIOGRAPHICAL MATERIALS IN THE LESSONS OF LITERATURE**

***Keywords:*** *biography, writer's identity, additional sources, discussion, excursion*

The questions covered by the school literature course are not only numerous, but also complex in content. This makes it necessary to carry out consistent research in this course. There is another side of the issue: the introduction of modern approaches to learning, the new educational program, also draws attention to the consideration of general and important areas of the course - the subject of literature, the problems it covers from the point of view of today's requirements. From this point of view, it seems relevant to involve in the study of methods of teaching biographical materials in secondary schools. Also because it is of particular importance both in terms of training and education.

The article explains the ways of assimilation of biographical information at different stages of teaching the subject of literature, analyzes the situation in literature textbooks and school experience.

Məktəb ədəbiyyat kursuna yazıçı tərcümeyi-halının daxil edilməsi məsələsi metodikada zaman-zaman mübahisələrə səbəb olmuşdur. Sovet dönəmində ən nüfuzlu qəzet və jurnallarda bu məsələyə dönə-dönə qayıdılmış, fərqli, ziddiyyətli fikirlər irəli sürülmüşdür. Yeni təhsil proqramının – kurikulumun hazırlanması prosesində də bu məsələ ciddi mübahisə obyekti oldu. Proqramın hazırlanmasına rəhbərlik edən nazirliyin məsul işçisi tərcümeyi-hal materiallarının öyrədilməsinin əleyhinə çıxır, milli məsləhətçilərin işinə əngəl törədirdi. Nəticədə bilavasitə bu materialların öyrədilməsinə yönəlik məzmun standartlarının müəyyənləşdirilməsi kölgədə qaldı.

Məlumdur ki, bədii əsərlərin təhlilində müəllif mövqeyinin aydınlaşdırılması, təsvir olunanlara onun münasibətinin aşkara çıxarılması, səsinin eşidilməsinin zəruriliyi və s. diqqət mərkəzində saxlanılır.

Suallar yaranır: Yazıçı barədə bu məzmundakı biliklər kifayətdirmi? Ədəbiyyat təlimində yazıçının tərcümeyi-halı öyrənilməlidirmi?

Bu suallara tutarlı cavab vermək üçün məsələyə fərqli yanaşanların mövqeyinin aydınlaşdırması vacibdir. Tərcümeyi-hal materiallarının öyrədilməsinin lehinə və əleyhinə olanlar müxtəlif dəlillər üzərində dayanırlar. Belə materialların tədrisini məqsədəuyğun saymayan tədqiqatçıların dəlilləri,

əsasən, aşağıdakılardır.

Ədəbiyyat fənni bədii əsərlərin öyrənilməsi, ədəbiyyat nəzəriyyəsi və icmal mövzuların mənimsənilməsi, şifahi və yazılı nitqin inkişaf etdirilməsi, şagirdlərdə əqli fəallığın və müstəqilliyin formalaşdırılması kimi mühüm vəzifələri yerinə yetirir. Bu fənn şagirdlərin ədəbi inkişafına nail olmağı əsas vəzifə kimi qarşıya qoymuşdur. Şagirdlərdə həm xüsusi, həm də həyati bacarıqların formalaşdırılması ədəbiyyat təliminin başlıca vəzifələrinin sırasındadır. Bu qədər mühüm vəzifəni yerinə yetirən ədəbiyyatın tədrisi metodikasının tərcümeyi-hal materiallarının öyrədilməsi ilə məşğul olması, məktəbdə mövzunun öyrənilməsinə saatların ayrılması, sadəcə, yersiz və əhəmiyyətsiz sayılmalıdır.

Bu mövqedə olanların fikrincə, ədəbiyyat fənninin bütövlükdə məzmunu tərcümeyi-hal materialları olmadan da təlim və tərbiyə ilə bağlı vəzifələri uğurla yerinə yetirir.

Bu alimlərin gəldikləri qənaət belədir: yazıçının yaradıcılığı, tədris olunan əsəri onun şəxsiyyəti, dünyagörüşü, zəhməti barədə təsəvvür yaradır. Beləliklə, tərcümeyi-hal materiallarının ayrıca öyrənilməsinə ehtiyac qalmır.

Tərcümeyi-hal materiallarının tədrisini vacib sayanlar isə aşağıdakı dəlilləri əsas gətirirlər. Şagirdlər:

– yazıçının şəxsiyyəti barədə məlumat öyrənirlər (tərbiyəvi əhəmiyyət);

– yazıçı əməyi, onun zəhmətlə dolu ömür yolu barədə təsəvvür qazanırlar (tərbiyəvi əhəmiyyət);

– yazıçının həyata baxışı, estetik görüşü, idealları barədə təsəvvür əldə edirlər (müəllifin yaradıcılığını anlamağa kömək edir).

Bu mövqedə olan alimlərin fikrincə, bütövlükdə mədəniyyətimizi təmsil edən yazıçılar milli qürurumuzdurlar. Onların hər biri vətənini özlərinəməxsus şəkildə sevmiş və inkişafına əmək sərf etmişlər. Deməli, məktəblilərin onları tanımaları vacibdir və bu, "gənclərin mənəvi və estetik tərbiyəsində əhəmiyyətli rol oynayır" [4, s.18]. Məktəb məzunları təkcə ədəbi bilik, bacarıq və vərdişlərin mənimsənilməsi ilə məhdudlaşmamalı, xalqın görkəmli insanları ilə tanış olmaq imkanından məhrum edilməməlidirlər. Şagirdlər söz sənətkarlarını şəxsiyyət kimi qavramalı, hər birinin vətənpərvərliyi, cəmiyyətə verdiyi töhfələr barədə aydın təsəvvür qazanmalıdırlar. Başlıcası isə hər bir sənətkara yaşadığı dövrün, onu əhatə edən ictimai-siyasi mühitin fonunda qiymət verilməlidir.

Göründüyü kimi, ikinci qisim alimlər də öz mövqelərini əsaslandırmağa çalışmış, məntiqli dəlillərə söykənmişlər.

Mövqelərdən hansı faydalıdır?

Tərcümeyi-hal materiallarının öyrənilməsinin həm təlimi, həm də tərbiyəvi əhəmiyyəti vardır. Sənətkarın həyatının elə məqamları olur ki, onları bilmədən nəinki bu və ya digər əsərini, hətta bütövlükdə yaradıcılığının mahiyyətini

anlamaq çətin olur. Ömrü boyu yaradıcılıq axtarışlarında olan sənətkarın həyata, cəmiyyətə, insana, mühüm sosial-siyasi hadisələrə münasibəti birdən-birə formalaşmır. Onun bədii ədəbiyyata – söz sənətinə yanaşmasında da enişli-yoxuşlu dönəmlər, hətta ziddiyyətli məqamlar da müşahidə edilir. Müəyyən tarixi dövrdə yaşayıb-yaradan sənətkarın şəxsiyyətinin, estetik görüşünün, həyata baxışının formalaşması onun yaradıcılığının mahiyyətini, məzmununu və ideya istiqamətini təyin edir. Buradan açıq-aşkar görünür ki, yazıçının ömür yolunu araşdırmadan, dərindən öyrənmədən yaradıcılığının məğzini anlamaq və dəyərləndirmək çox çətin olar, bəlkə də heç mümkün olmur.

Sənətkarın bir şəxsiyyət kimi inkişafı onun yaradıcılıq fəaliyyətindəki inkişafla sıx bağlıdır. Elə buna görə də yazıçının yaradıcılığının müxtəlif dövrlərinin müqayisəli öyrədilməsinin əhəmiyyətli olduğunu unutmaq olmaz. Onun dünyagörüşündə və sənətkarlığında baş verən dəyişiklik, inkişaf müxtəlif illərdə qələmə aldığı əsərlərində özünü büruzə verir. Bunun başa düşülüb qiymətləndirilməsində bioqrafik məlumatların əhəmiyyətli rolunu nəzərə almamaq mümkün deyildir.

Söz sənətinin yaradıcıları, hətta eyni bir dövrdə yaşayanlar belə fərqli ömür və yaradıcılıq yolu keçirlər. Eləcə də müasiri olduqları həyata, tarixi keçmişə, ictimai-siyasi hadisələrə münasibətlərinə görə fərqlənirlər. Hər bir sənətkarın həyatının öyrənilməsində bu fərdiliyi, bu şəxsi yanaşmanı şagirdlərin aydın təsəvvür etmələrinə nail olmaq tərcümeyi-hal dərslərinin başlıca qayğısı olmalıdır. Məsələnin başqa tərəfi də var: hər bir sənətkarın həyatı və yaradıcılığı həm də yaşadığı dövrün ictimai və ədəbi özəlliklərini əks etdirmiş olur. Bunun aşkara çıxarılması, mənimsənilməsi və dəyərləndirilməsi tərcümeyi-hal dərslərinin mühüm vəzifələrindən hesab edilir. Bu deyilənlərin təlim prosesində necə təzahür etdiyinə iki nümunə əsasında nəzər salaq.

Məlumdur ki, Cəfər Cabbarlı Azərbaycan Demokratik Cümhuriyyətinin qurulmasını ürəkdən alqışlayan, milli dövlətimizin fəaliyyətində yaxından iştirak edən sənətkarlardan olmuşdur. Milli dövlətimizin süqutu onu sarsıtmış, yeni hakimiyyətin təqiblərinə məruz qalmış, bir neçə dəfə həbs olunmuşdur. Özünün azadlıq ideallarına zidd olan yeni rejimin mədəni inqilab siyasəti onu cəlb etmişdir. Buna əməli işi ilə cavab verməyi qərara alan sənətkar coşqun ədəbi fəaliyyətini dayandırmamışdır. Xalqının inkişafını, mədəni tərəqqisini həmişə arzulayan C.Cabbarlı bu istiqamətdə çalışmağı özünə məqsəd seçir. Lakin onun əsərlərində bolşevik hakimiyyətinin sonralar iflasa uğrayan kənd siyasətinin ifşasına da yer verilirdi. O, həmçinin kommunist ideologiyasının xalqımızın keçmişinə qənim kəsilməsi ilə barışmır, bu mövqeyi incə üsullarla, mətnaltı mənalarla tənqid etməkdən çəkinmirdi.

Sənətkar, təkrar da olsa, qeyd edirik ki, öz ideallarına zidd olan ictimai quruluşun təsirinə, sıxıntılarına baxmayaraq, xalqının mədəni inkişafı,

vətəninin tərəqqisi naminə ardıcıl və gərgin fəaliyyətinə ara vermirdi. Məsələnin bu yöndən aydınlaşdırılması şagirdlərin dünyagörüşünə təsir etməyə bilməz.

C.Cabbarlı iyirminci yüzilliyin 20-ci illərində Azərbaycanda mövcud olmuş ictimai və ədəbi mühitin mərkəzində idi. Bu, onun təkcə yaradıcılığında deyil, şəxsi həyatında da özünü göstərirdi. Ədəbi mübahisələr, ardıcıl və qızğın müzakirələr, ədəbi qəhrəmanların "mühakiməsi" və s. sənətkarın hər gün iştirak etdiyi hadisələr, yaşadığı həyatın ayrılmaz parçası idi. Bütün bunların tərcümeyi-hal dərslərində əhatə olunması şagirdlərin dünyagörüşünün, estetik tərbiyələrinin zənginləşməsinə az təsir etmir.

Əhməd Cavadın – "qırmızı terrorun" qurbanı olan yurdsevər sənətkarın ömrü boyu xalqına, vətəninə xidmət etməsi, müstəqilliyinə qəsd edilmiş Azərbaycanın açıq və gizli tərənnümündən usanmaması, dövlətimizin suverenliyini hər şeydən uca tutması barədə təsəvvür qazanan şagirdlər onun bütövlükdə yaradıcılığını, xüsusən "Səsli qız" poemasının mənasını qavramaqda çətinlik çəkmirlər.

Bədii əsərin yazılması, ərsəyə gəlməsi böyük zəhmətin sayəsində mümkün olur. Onun hər cümləsində, hər səhifəsində müəllifin nəfəsi duyulur, səsi eşidilir, yəni yazıçı şəxsiyyəti və mövqeyi əsərdə ardıcıl əksini tapır. Bütün bunları hələ mütaliə bacarığı, eləcə də həyat təcrübəsi zəif və məhdud olan oxucu – şagird müstəqil anlaya bilməz. Anlaması isə vacibdir. Ona görə vacibdir ki, tərcümeyi-hal materialları yazıçının yaradıcılığının, tədris olunan əsərinin başa düşülməsində mühüm rol oynayır. Ona görə vacibdir ki, bu materialların böyük tərbiyəvi əhəmiyyəti vardır.

Hər bir sənətkar həyatı, gerçəklikdə baş verənləri fərqli şəkildə duya bilər. Deməli, yazıçılar, artıq qeyd olunduğu kimi, gerçəkliyi dərk etmək və onu sənətin dili ilə ifadə etmək baxımından fərqlənirlər. Yazıçının həyata baxışında, estetik görüşlərində fərqin olması təbiidir. Bunun əhatəli başa düşülməsində tərcümeyi-hal materiallarının rolunu inkar etmək olmaz. Sənətkarın inkişafı, həyat və insan haqqında, cəmiyyətdə baş verən mühüm sosial-siyasi hadisələr barədə düşüncələrinin durulaşması, təsəvvürünün mükəmməl şəkil alması isə zaman tələb edir. Onun yaradıcılıq səriştəsi ilə yanaşı, həyat təcrübəsi də inkişaf edir, tədricən formalaşır. Yazıçının yaradıcılığının müxtəlif dövrləri ilə tanış olan şagird bu inkişafı anlamalıdır. Əks halda yazıçı onun üçün naməlum olaraq qala bilər. Aydınlaşır ki, yazıçı bioqrafiyasının mənimsənilməsi onun yaradıcılıq laboratoriyasına daxil olmağa, sənətinin özəlliklərini başa düşməyə imkan yaradan əhəmiyyətli vasitədir.

Tərcümeyi-hal materiallarının öyrənilməsi yazıçının yaradıcılığında özünü göstərən başlıca istiqaməti anlamağa, onun məhz bu yolu tutmasının səbəbini aydınlaşdırmağa imkan verir. Eləcə də bu və ya digər əsərinin yaranmasının səbəbinin aydınlaşdırılmasına şərait yaradır.

Tərcümeyi-hal materiallarının öyrənilməsi üzrə işin təşkili müəllimdən böyük zəhmət və diqqət tələb edir. Bu materialların mənimsənilməsində ən mühüm cəhət hansı məsələlərin ön plana çəkilməsinin vacib olmasıdır. Yazıçının həyat yolu fakt və hadisələrlə zəngindir. Lakin onlardan məhz hansılarının obyekt seçilməsi məsuliyyətli işdir. Yazıçı idealının, mənəviyyatının və estetik görüşlərinin formalaşmasına təsir edən amillərin aşkara çıxarılıb bütün aydınlığı ilə mənimsədilməsi bioqrafik məlumatların öyrənilməsində önəmlidir. Bu elə ustalıqla edilməlidir ki, şagirdlərdə yazıçı şəxsiyyətinə maraq oyansın. Yazıçı şəxsiyyətinə yaranan maraq onun yaradıcılığının öyrənilməsinə aparan yoldur.

Tərcümeyi-hal materiallarının öyrədilməsində qarşıya çıxan digər bir çətinlik ədəbiyyat fənninin tədrisi mərhələlərində gerçəkləşdirilən işlərin həcmi, məzmunu və ardıcıllığıdır. Müxtəlif dövrlərdə məsələyə fərqli yanaşılmışdır. Uzun illər yuxarı siniflərdə tərcümeyi-hal materialları "yazıçının həyatı" başlığı altında geniş əks etdirilmiş, aşağı siniflərdə isə məlumat verilməmişdir. 1960-1970-ci illərdə aşağı siniflərin dərsliklərində də yığcam tərcümeyi-hal materiallarına yer ayrılmşdır. Daha sonralar bundan imtina edilmişdir. Belə yanaşmanın səbəbi fənn proqramında konkret tələblərin qoyulmaması olmuşdur.

Təhsil proqramının (kurikulumun) təkmilləşdirilməsi, yaxud yenilənməsi dərsliklərin məzmun və strukturunda dəyişikliyin aparılmasını labüd edir. Lakin elə metodik yanaşmalar var ki, onlar bütün zamanlar üçün sabit olaraq qala bilir. Bu baxımdan ümumtəhsil məktəblərində tərcümeyi-hal materiallarının öyrədilməsinin ümumi prinsipləri işlənilib hazırlanmalıdır. Aşağıda qeyd olunanlar həmin prinsiplərin əsasını təşkil edə bilər:

– tərcümeyi-hal materiallarının məzmunu, həcmi ədəbiyyat fənninin öyrədilməsi mərhələlərinə uyğun işlənilib hazırlanmalıdır;

– birinci mərhələdə (V-VII siniflərdə) tərcümeyi-halla bağlı məlumat sənətkarın tədris edilən əsəri ilə əlaqəli olmalıdır. Bu məlumat rəqəm, tarixi faktlarla yüklənməməli, yazıçının həyatından parlaq bir səhifəni əks etdirməlidir. Məsələn, V sinifdə Əli Tudənin "Yaşayanlar görəcəklər" şeiri tədris olunarkən şairin Cənubi Azərbaycanın azadlıq mücahidi olduğu, şah rejiminə qarşı çıxdığı, doğma yurdundan didərgin düşdüyü bir neçə cümlə ilə xatırladılır.

Yaxud yenə V sinifdə Əhməd Cavadın "Azərbaycan! Azərbaycan!" şeiri keçilərkən müəllifin Azərbaycan Demokratik Cümhuriyyətinin nəğməkarı olması, ən gözəl şeirlərini vətənə həsr etdiyi barədə danışmaq faydalıdır.

Sinifdən-sinfə keçdikcə məlumatın məzmununda dəyişikliyin edilməsi zəruri olur. Bu zənginləşdirmə şagirdlərin yaş və bilik səviyyəsinin nəzərə alınması ilə həyata keçirilir.

Bu siniflərin dərsliklərində şagirdlərin fəaliyyətinə istiqamət verən yığcam

tövsiyə-tapşırıqların əks etdirilməsi məqsədəuyğundur.

– VIII-IX siniflərdə tərcümeyi-hal materialları V-VII siniflərdə təklif edilənlərdən məzmunca əhatəli olması ilə fərqlənməlidir. Bu siniflərin dərsliklərindəki tövsiyə-tapşırıqların daha geniş məlumatı əks etdirməsinə diqqət yetirilməlidir. Eləcə də şagirdlərin müxtəlif mənbələr üzrə axtarışlar aparmalarına, sənətkarın həyatı, yaradıcılığı ilə bağlı məlumat toplamalarına istiqamət verilməlidir. Lakin bu siniflərdə də tərcümeyi-hal materiallarının rəqəm, fakt yığınına çevrilməsinə yol verməmək olmaz. Əldə olunan nəticə yazıçının şəxsiyyəti, parlaq, aydın ədəbi siması barədə təsəvvür yaratmalıdır.

– X-XI siniflərdə tərcümeyi-hal materialı monoqrafik mövzunun tərkib hissəsi olur. Deməli, bu, elmi tərcümeyi-hal adlandırıla bilər. Bu material yazıçının ömür və yaradıcılıq yolunun özünəməxsusluğunu rəqəmlərlə yox, faktlara əsaslanan cəlbedici təsvirlərlə, bədii-elmi lövhələrlə əks etdirməlidir. Şagird yazıçının həyatının müxtəlif dövrlərini və yaradıcılıq yolunu izləməkdən estetik zövq almalıdır.

Bəs bu gün ümumtəhsil məktəblərində tərcümeyi-hal materiallarının öyrədilməsi hansı məzmunda və strukturda gerçəkləşdirilir?

Yeni təhsil proqramında – kurikulumda tərcümeyi-hal materialları ilə bağlı məzmun standartları əks etdirilməmişdir. Lakin elə standartlar var ki, onlar ya qismən *(1.2.4. Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır),* ya da bütövlükdə *(2.1.1. Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir; 2.2.1. Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir)* tərcümeyi-hal materiallarının öyrənilməsi prosesində tətbiq oluna bilər.

Tərcümeyi-hal materiallarının öyrənilməsində üçüncü məzmun xəttinin (yazılı nitqin) standartlarından da istifadə etmək mümkün və faydalıdır.

Kurikulum əsasında hazırlanmış və ümumtəhsil məktəblərində tətbiq olunan dərsliklərdə tərcümeyi-hal materiallarının öyrənilməsi aşağıdakı qaydada əks olunmuşdur:

1)V və VII siniflərin dərsliklərində tərcümeyi-halla bağlı məlumat verilməmişdir (V sinfin alternativ dərsliyində və VI sinfin dərsliyində vəziyyət fərqlidir).

1) VIII-IX siniflərin dərsliklərində isə tərcümeyi-hal materiallarının öyrənilməsi müstəqil işlərin icrası yolu ilə reallaşdırılır. Daha dəqiq deyilsə, dərsliklərdəki hər bölmədən sonra müstəqil iş üçün tapşırıq təklif edilmişdir. Tapşırıq bölmədəki sənətkarların həyatı haqqında müxtəlif mənbələr (internet, məktəb kitabxanasındakı kitablar və s.) əsasında məlumat toplamağı tələb edir.

2) X və XI siniflərin dərsliklərində isə tərcümeyi-hal materialları yazıçının

yaradıcılıq haqqındakı məlumatla qovuşuq mənimsədilir. Bu siniflərin (X-XI) digər materiallarında olduğu kimi, tərcümeyi-hal materiallarının öyrənilməsində də şagirdlərin əlavə mənbələrdən istifadə etməklə araşdırma aparmaları məqsədəuyğun sayılmışdır.

Bu deyilənləri, yəni V-VII, VIII-IX, X-XI siniflərdə tərcümeyi-hal materiallarının öyrədilməsindəki özəlliyi aydınlaşdıraq.

Sual yaranır: V-VII siniflərdə yazıçının tərcümeyi-halı haqqında dərsliklərdə məlumat, sual və tapşırıq yoxdursa, müəllim bunun üstündən sükutla keçməlidirmi?

Söz yox ki, V-VII siniflərdə yazıçı ilə şagirdlərin, belə demək mümkünsə, görüşünü təşkil etməkdən imtina etmək doğru olmaz. Lakin bunun hansı məzmunda və formada həyata keçirilməsi metodik ustalıq, səriştə tələb edir. Başlıcası isə məktəbə bu istiqamətdə metodik köməyin göstərilməsi vacibdir.

Aşağıdakı sualların cavablandırılması məsələyə aydınlıq gətirər. V-VII siniflərdə:

– Bioqrafik məlumatlara hansı hallarda müraciət olunmalıdır?
– Bu məlumat hansı həcmdə olmalıdır?
– Bu məlumat hansı mənbələrdən əldə edilməlidir?

Birinci sualın (Bioqrafik məlumatlara hansı hallarda müraciət olunmalıdır?) qısa cavabı belədir: Bu siniflərdə yazıçının həyatı haqqında verilən məlumat tədris edilən əsəri ilə bağlı olmalıdır. Məsələn, V sinifdə Xəlil Rza Ulutürkün “Oğul həsrəti” şeiri keçilir. Milli-azadlıq carçısı olan müəllif haqqında şagirdlərin bildiklərini soruşmaq, yazıçı haqqında, onun mübarizəsi barədə bir neçə, amma yaddaqalan cümlə ilə kifayətlənmək mümkündür.

Yaxud VII sinifdə Ə.Məmmədxanlının “Qızıl qönçələr” hekayəsi öyrənilərkən müəllifin müharibə illərində Cənubi Azərbaycana getməsini, müşahidələri əsasında maraqlı, təsirli əsərlər yazmasını diqqətə çatdırmaq olar.

İkinci sualın (Bu məlumat hansı həcmdə olmalıdır?) cavabı daha sadədir: bu siniflərdə tərcümeyi-halla bağlı verilən məlumat yığcam, cəlbedici olub, birbaşa əsərlə bağlanmalıdır.

Təəssüf ki, təcrübəsiz müəllimlər V-VII siniflərdə şagirdlərin yaş və bilik səviyyəsini nəzərə almadan çoxlu həcmdə məlumat çatdırmağa cəhd edirlər. Bu, şagirdləri əsas məqsəddən yayındırır.

Üçüncü sualın (Bu məlumat hansı mənbələrdən əldə edilməlidir?) cavabı da sadədir: məktəbin imkanları (kitabxana, internet resurslarından istifadə və s.) nəzərə alımalıdır.

V-VII siniflərin (eləcə də yuxarı siniflərin), “Ədəbiyyat” dərsliklərində şagirdlərin yazıçılarla ilk görüşünü təşkil etmək üçün digər bir maraqlı vasitə də vardır. Bu, hər bir sənətkarla bağlı epiqrafın verilməsidir. Onlar ya sənətkarların öz sözləridir, ya da digər sənətkarların, yaxud elm adamlarının fikirləridir. Həmin epizodlar üzrə işin təşkili müəllimin yanaşmasından asılıdır.

Mətnin fərdi səssiz oxusu üçün vaxt ayırmaq və mənimsənilənləri müsahibə ilə aşkara çıxarmaq variantlardan biri ola bilər. Yaxud səsli oxudan sonra suallar verməklə qavranılanların bəndlər şəklində ümumiləşdirilməsini təklif etmək mümkündür.

Bəs VIII-IX siniflərdə tərcümeyi-hal materiallarının öyrənilməsi necə təşkil edilməlidir?

Bu siniflərdə bioqrafik məlumatların, artıq qeyd olunduğu kimi, müstəqil işlərin təşkili yolu ilə öyrənilməsi nəzərdə tutulmuşdur. Dərsliklərdə hər bölmədən sonra şagirdlərin müstəqil yerinə yetirmələri üçün tapşırıq təklif edilmişdir. Məsələn, VIII sinfin "Ədəbiyyat" dərsliyində beş bölmə vardır. Bu bölmələrdə sənətkarların sayı fərqlidir. Elə bölmə var ki, onda iki, eləsi var ki, üç sənətkar əhatə edilmişdir. Bölmələrin sonunda, tapşırıq verilmişdir: "Bölmədə tanış olduğunuz sənətkarların həyatı haqqında kitabxana və ya internetdəki mənbələrdən məlumat toplayıb öyrənin. Qənaətlərinizi sinif yoldaşlarınız, müəllimləriniz və valideynlərinizlə bölüşün".

Bölmədəki bütün yazıçıların həyatı haqqında bir şagirdin məlumat toplanması, öyrənməsi vacib deyildir. Şagirdlərin arasında bölgü aparmaq məqsədəuyğundur.

Əlbəttə, müəllim bu müstəqil işin necə icra olunduğu, nəticələri ilə ciddi maraqlanmalıdır.

IX sinfin dərsliyində isə "Müstəqil iş üçün" başlığı altında verilən tapşırıq məzmunca VIII sinifdəkindən fərqlənir: "Bölmədə tanış olduğunuz sənətkarların həyatı haqqında kitabxana və ya internetdəki mənbələrdən topladığınız məlumat əsasında təqdimata hazırlaşın".

Bu tapşırıqda "təqdimata hazırlaşın" tələbi irəli sürülmüşdür. Bu o deməkdir ki, təqdimatların dinlənilməsini və müzakirəsini keçirmək vacibdir.

Müəllim bu işi necə təşkil etməlidir?

Bu, əlbəttə, fərqli formalarda ola bilər. Məsələn, kiçik qrupların yaradılması mümkündür, hər qrupa bir sənətkarla bağlı araşdırma aparmaq həvalə olunur, nəticələr təqdimatların dinlənilməsi əsasında müzakirə edilir və s.

X-XI siniflərin dərsliklərində isə tərcümeyi-hal materialları yazıçıların yaradıcılığı ilə bağlı məlumatla qovuşuq verilmiş, sənətkarın "həyatı və yaradıcılıq yolu" adlandırılmışdır. Bu mövzunun tədrisinə bir saat ayrılmışdır. Dərslikdəki məlumatın mənbələrdən əldə edilmiş biliklərlə zənginləşdirilməsi və tamamlanması ev tapşırığı kimi təklif edilmişdir.

Lakin həmin mənbələrlə kifayətlənmək olmaz. Təcrübə göstərir ki, tədqiqatın, araşdırmanın faydasını və zövqünü duyan yuxarı sinif şagirdləri könüllü olaraq digər mənbələrə də müraciət edir, material toplayır, onlara tənqidi münasibət bəsləyir, ümumiləşdirmə aparır, dərslikdəki məlumatlarla uzlaşdırır, öyrəndilkərini zənginləşdirirlər.

Bu deyilənlərin daha aydın təsəvvür edilməsinə imkan yaradan bir nümunəyə nəzər salaq.

X sinfin dərsliyində Q.Zakirin "həyatı, yaradıcılıq yolu" mövzusuna həsr edilmiş materialın həcmi heç 1,5 səhifə də deyil. Əvvəlki dərsliklərlə müqayisədə bu, çox azdır. Eləcə də əhatə edilən məsələlərin həcminə görə də dərslikdəki material xeyli yığcamdır. Deməli məqsəd şagirdləri tədqiqata cəlb etmək, mənbələrdən yararlanmaqla Q.Zakirin həyatı, yaradıcılığı barədə dolğun təsəvvür qazanmalarına nail olmaqdır.

Dərslikdəki digər mövzular kimi, bu mövzudakı mətləblər də mətnkənarı suallar əsasında diqqətə çatdırılmışdır.

Birinci mətnkənarı sual belədir: *Q.Zakirin həyatı, yaradıcılığı üçün səciyyəvi olanlar nədir?*

Göründüyü kimi, sual geniş cavab tələb edir. Şagirdlər Q.Zakirin həyatı ilə bağlı mühüm məqamlar barədə təsəvvür qazanmadan bu suala əhatəli cavab verə bilməzlər. Başqa sözlə, şagirdlər:

– şairin anadan olduğu ailə, onun təhsili, dünyagörüşünün formalaşmasına təsir edən amillər;

– Zakirin həyata, zəmanəsində baş verən mühüm ictimai-siyasi hadisələrə münasibəti;

– şairin şəxsiyyəti, əlaqə saxladığı müasirləri və s. barədə əlavə məlumat əldə etməli, dərslikdəki suala cavab verməlidirlər.

Şagirdlər, həmçinin şairin yaradıcılığı üçün səciyyəvi olan cəhətlər barədə dərslikdə yığcam deyilənləri mənbələr hesabına zənginləşdirməlidirlər.
Şagirdləri tədqiqata, araşdırmaya yönləndirən dərslikdə bu göstərilənlər ya qismən əhatə olunmuş, ya onlara işarələr edilmiş, yaxud da ümumiyyətlə toxunulmamışdır.

Dərslikdə Zakirin Şuşada bəy ailəsində dünyaya göz açdığı, mollaxanada təhsil aldığı, Xındırıstan kəndində yaşadığı qeyd olunub.

Mənbələrin araşdırılması isə bu məlumatın aşağıdakı məzmunda zənginləşdirilməsinə səbəb olur:

– Zakir Şuşa şəhərinin binasını qoyan Pənah xanın doğma qardaşı Hüseynəli ağanın nəticəsidir. Bu nəsil Qarabağda "Cavanşir" adı ilə məşhurdur.

– Zakir Mehdiqulu xanın ona bağışladığı Xındırıstan kəndində yaşamışdır.

– Mollaxanada təhsil alan Zakir ərəb, fars dillərini öyrənmiş, Firdovsi, Nizami, Sədi, Hafiz kimi sənətkarların yaradıcılığı ilə tanış olmuşdur.

Dərslikdə yazılır:

"Zakir Qarabağ mahalında baş verən bütün mühüm hadisələri izləyir, haqsızlığın baş alıb getməsinə dözə bilmirdi. Elə buna görə də çar hakimiyyətinin rüşvətxor məmurları, ədalətsiz bəy və mülkədarlar, ikiüzlü ruhanilər onun amansız satirasının tənqid hədəfinə çevrilirdilər. Şairin düşmənləri çoxalır, o, müxtəlif bəhanələrlə günahlandırılır, həbsxana, sürgün

həyatı yaşayır” [1, s.117-118 ].

Mənbələrlə tanış olan şagirdlər bu məlumatı zənginləşdirirlər:

*Zakirin satiralarında rüşvətxor çar hakimləri, fitnəkar bəylər, cəhalət və mövhumat yayan ruhanilər, savadsız, elmsiz həkimlər, baqqal və tacirlər tənqid olunmuşlar.*

*Çar idarə və məhkəmələrində olan süründürmələr, çıxarılan ədalətsiz qərarlar, hakimlərin rüşvətxorluğu Zakir satiralarının əsas tənqid hədəfləri idi.*

*Qarabağın ozamankı hakimlərindən Xandəmirovun və knyaz Konstantin Tarxan-Mouravovun özbaşınalıqları o dərəcəyə çatmışdı ki, şair onları həcv etməyə məcbur olmuşdu.*

*Zakirin yerli hökumət tərəfindən təqib olunmasının əsl səbəbi də məhz hakim təbəqələrə qarşı satirik şeirlər yazmasından irəli gəlmişdir.*

Şagirdlər mənbələrdən öyrənirlər ki, qardaşı oğlu Behbud bəy Cavanşirin qaçaqçılığını bəhanə edən hakim dairələr şairi Bakıya, oğlu Nəcəfqulu bəyi və qardaşı oğlu İsgəndər bəyi Rusiyaya sürgün etmişlər.

Dərslikdə şairin mənzum hekayələri və təmsilləri, yaradıcılığının bədii xüsusiyyətləri barədə verilmiş yığcam məlumat da mənbələrdən əldə edilmiş biliklərlə tamamlanır, zənginləşdirilir. Deyilənlərdən aydınlaşır ki, kurikulum əsasında X və XI siniflər üçün hazırlanmış “Ədəbiyyat” dərslikləri tərcümeyi-hal materiallarının şagirdlərin tədqiqatı əsasında öyrənilməsinə istiqamət vermiş, maraqlı metodik tövsiyələri, tutarlı materialları özündə əks etdirmişdir.

Tərcümeyi-hal materiallarının öyrənilməsində yazıçının yaradıcılığına müraciət etmədən keçinmək olmur. Məhz buna görə də təhsil proqramı (kurikulum) əsasında X və XI siniflər üçün yazılmış ədəbiyyat dərsliklərində yazıçının həyat və yaradıcılığının qovuşuq əks etdirilməsi məqsədəuyğun sayılmışdır. Bu yol yazıçının şəxsiyyət və sənətkar kimi inkişafının izlənilməsinə imkan verir.

Sənətkarın həyat və yaradıcılığı barədə dərslikdə verilmiş məlumatla kifayətlənmək məqbul sayılmır. Həmin məlumatların sonunda araşdırma üçün mənbələr göstərilmişdir. Lakin bu mənbələrin çoxaldılması faydalıdır, başqa sözlə, digər mənbələrə də müraciət etmək mümkün və faydalıdır.

Metodik ədəbiyyatda həmin mənbələr belə təqdim olunur:

– elmi-monoqrafik əsərlər;

– qəzet, jurnal, internet və s. mənbələrdə çap olunmuş materiallar;

– avtobioqrafik əsərlər: a) yazıçının yazdığı tərcümeyi-halı; b) tərcümeyi-hal xarakterli bədii əsərlər;

– yazıçının ictimai məzmunlu məktubları.

Yuxarı siniflərdə həyatı, yaradıcılığı öyrənilən sənətkarların, demək olar, hamısı haqqında monoqrafiyalar çap edilmişdir. Məsələn: Y.Bertels, Nizami Gəncəvi, H.Araslı, Məhəmməd Füzuli və s.

Bu qəbildən əsərlərin bütövlükdə oxunması orta məktəb şagirdinin imkanı

xaricindədir. Lakin onlarla tanış olmaq, diqqətçəkən sitatlar seçmək faydalıdır. Müəllim bu məsələdə şagirdə yardımçı olmalı, onun fəaliyyətinə səmərəli istiqamət verməlidir.

Bu və ya digər sənətkar haqqında dərc edilmiş maraqlı qəzet və jurnal məqaləsinə şagirdlərin diqqətinin cəlb edilməsi də səmərəlidir. Yaradıcılığı tədris edilən sənətkarın yeni əsərinə həsr olunmuş məqalə, eləcə də klassiklər haqqında orijinal fikir əks etdirən məqalələrdən parçalarla tanışlıq faydalı olar.

Avtobioqrafik əsərlərdən ədəbiyyat dərslərində istifadə təlim-tərbiyə baxımından əhəmiyyətlidir. Bu qəbildən əsərləri iki qismə ayırırlar: a) Yazıçının yazdığı tərcümeyi-halı; b) Tərcümeyi-hal xarakterli bədii əsər. Məktəbdə istifadə baxımından birinciyə nümunə olaraq C.Məmmədquluzadənin "Xatıratım", ikinciyə isə İ.Şıxlının "Cəbhə gündəliyi"ni qeyd etmək olar.

Yazıçının ictimai məzmunlu məktubları onun sosial-siyasi hadisələrə münasibətini, elm, ədəbiyyat, incəsənət barədəki düşüncələrini və s. öyrənmək baxımından maraqlıdır. Metodik ədəbiyyatda mənbələrin sırasında bədii əsərlər də göstərilir. Bu qəbildən əsərlərin mütaliə edilməsi faydalıdır. Lakin onları elmi mənbə kimi qəbul etmək doğru sayıla bilməz.

Yeni texnologiyaların meydana çıxması, internetin hüdudsuz imkanları mənbələrin növünü və sayını əhəmiyyətli dərəcədə artırmışdır. Bu, bioqrafik məlumatların və yazıçının yaradıcılığının öyrənilməsində rəngarəng iş növlərinin tətbiqinə geniş şərait yaradır. Yazıçının həyatını və yaradıcılıq yolunu ardıcıl müşahidə etməyə imkan verən videogörüntülərin hazırlanması, dərslərdə onlardan fraqmentlərin nümayiş etdirilməsi məqsədəuyğundur.

İndi artıq yazıçı ömrünün müxtəlif dövrlərinə aid portret və şəkillərin toplanması, çıxış və müsahibələrindən videogörüntülərin, yaradıcılığı ilə bağlı sənədli filmlərdən fraqmentlərin əldə edilməsi çətin deyildir.

Toplanmış, sistemə salınmış materialın hamısından bir dərsdə istifadə etmək mümkün olmadığı kimi, vacib də deyildir. Bu materialdan monoqrafik mövzuya həsr edilmiş bütün dərslərdə, yeri gəldikcə, istifadə olunmalıdır.

Yuxarı siniflərin ədəbiyyat dərsliklərində əksini tapmış "yazıçının həyatı, yaradıcılıq yolu" mövzusunun tədrisi üçün fərqli məzmunda metodik tövsiyələr təklif edilmişdir. Məsələn: X sinfin dərsliyində "Nəsiminin həyatı, yaradıcılıq yolu" mövzusu "Araşdırmaya hazırlaşın" başlıqlı tapşırıqla başlanır. Tapşırığın tələblərinə əsasən şagirdlər:

– şairin həyatı, yaradıcılığı və yaşadığı dövrlə bağlı bildiklərini dərsin əvvəlində yada salmalı, müxtəlif fənlərdən mənimsədikləri bilikləri də tətbiq etməklə yığcam müzakirə aparmalıdırlar;
– BİBÖ cədvəlinin ilk iki sütununda qeydlər etməlidirlər;
– kiçik qruplar yaradaraq aşağıdakı tapşırıqları yerinə yetirməlidirlər:

a) mətnkənarı suallarla bağlı dərslikdəki cavabları oxumalı, məzmununu

ümumiləşdirib bir neçə cümlə ilə yazmalıdırlar;

b) digər qruplara vermək üçün mətnlə bağlı bir neçə sual hazırlamalıdırlar;

c) təqdimatlar etməklə gəldikləri nəticələrlə bağlı məlumat mübadiləsi və müzakirə aparmalıdırlar.

d) BİBÖ cədvəlinin sonuncu sütununda qeydlər etməlidirlər.

Bunun ardınca dərslikdəki 2,5 səhifəlik materialın oxusu əsasında tapşırığa cavab hazırlanır.

Sonra dərslikdə “Evdə iş” başlığı altında tapşırıq verilmişdir. Bu tapşırığın istiqaməti “Araşdırmanı davam etdirin” sözləri ilə müəyyənləşdirilmişdir.

“Evdə iş” tapşırığının tələbləri aşağıdakılardır:

1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.

2. Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:

a) “Nəsimi poeziya tariximizdə siyasi-fəlsəfi şeirin ilk böyük nümayəndəsidir” fikrini necə əsaslandırarsınız?

b) Şair ilahi və dünyəvi məzmunda yazdığı şeirlərində hansı mənəvi-əxlaqi dəyərləri daha önəmli sayır?

c) İ.Nəsiminin şeirlərini hansı mövzular üzrə qruplaşdırmaq olar?

3. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.

Sonda isə istifadə ediləcək mənbələr əks etdirilmişdir.

Göründüyü kimi, dərslik şagirdləri tədqiqatçı mövqeyində görür, araşdırma aparmaqla mövzunu əhatəli öyrənməyə istiqamətləndirir.

İstər X, istərsə də XI sinfin dərsliyi üçün hazırlanmış metodik vəsaitlərdə tərcümeyi-hal dərslərinin fəal təlimin tələbləri əsasında tədrisi üçün aydın, müəllimlərin şəxsi yaradıcılığına imkan yaradan dərs nümunələri təklif edilmişdir. Bu nümunələrdə dərsliyin konsepsiyası nəzərə alınmış, dərslikdəki yığcam cavablar əsasında əlavə mənbələr üzrə araşdırma aparılmasına nail olmaq məqsədi güdülmüşdür. Bunun mahiyyətini dərk edə bilməyənlər sənətkarın həyat yolunu kölgədə qoyan, yaradıcılığı barədə mücərrəd tələbləri əks etdirən tapşırıqları özünə daxil edən sxematik dərs nümunələri təklif edirlər.

Əlbəttə, “yazıçının həyatı, yaradıcılıq yolu” mövzusunun öyrənilməsini dərsliklərdəki formalarla məhdudlaşdırmaq olmaz. Metodika uzun illər ərzində istər tərcümeyi-hal materiallarının, istərsə də yazıçının yaradıcılığı barədə məlumatın öyrənilməsi ilə bağlı rəngarəng metodik tövsiyələr işləyib hazırlamışdır. Bunların yeni təlimi yanaşmalarla, yeni təlim texnologiyaları ilə uzlaşdırılması istiqamətində araşdırmaların aparılmasına bu gün ciddi ehtiyac duyulur. Həmin metodik formalardan bu gün yaradıcılıqla istifadəyə laqeyd qalmaq olmaz. Məsələn:

– Məruzələrin hazırlanması.

– Disputların keçirilməsi.
– Kinofilmlərdən fraqmentlərin nümayişi və müzakirəsi.
– Qiyabi ekskursiya və s.

Məruzə, disput və s. üçün mövzular müəyyənləşdirilərkən hər iki istiqamətin (tərcümeyi-hal və yazıçının yaradıcılıq yolu) tələblərinin nəzərə alınması vacibdir.

Metodik forma kimi qeyd olunan qiyabi ekskursiya çox maraqlı olsa da, məktəb təcrübəsində nadir hallarda tətbiq edilmişdir. Bunun obyektiv səbəbi var; müəllimlərə metodik kömək göstərən yazılar çox azdır. Subyektiv səbəb kimi müəllimlərin özlərinin yaradıcı işə qoşulmamasıdır.

Etiraf edilməlidir ki, qiyabi ekskursiyaların hazırlanması mürəkkəb prosesdir və böyük zəhmət tələb edir. Yazıçının həyatı ilə bağlı qiyabi ekskursiyanın hazırlanması işinə ssenarinin tərtibi ilə başlanılır. İlk növbədə diqqət mərkəzində saxlanılmalıdır ki, qiyabi ekskursiya bütöv dərsimi əhatə edəcək, yoxsa dərsə bir epizod kimi daxil olunacaq...

Sonra materiallarla tanışlıq və onların toplanması həyata keçirilir.

Materiallara daxil olanlar, əsasən, bunlardır:

– Xatirələr.
– Məktub, gündəlik, əsərlər.
– Fotoşəkillər, portretlər.
– Səs fonu (musiqi, yazıçının səs yazısı və s.)

Ekskursiya rəhbərinin hazırlığından çox şey asılıdır. O, emosional, canlı nitqi ilə şagirdləri cəlb etməlidir. Ekskursiya materiallarını üzvi şəkildə əlaqələndirməyi, görüntü materialları ilə nitq – danışıq arasında məntiqi əlaqə yaratmağı bacarmalıdır.

Qiyabi ekskursiya üçün mövzu fərqli ola bilər: yəni yazıçının həyatından seçilmiş bir mühüm məqam, yaxud fəaliyyəti üçün səciyyəvi olan mərhələ və s. Məsələn: "Mikayıl Müşfiq və sənət dostları", "Mirzə İbrahimovun ictimai fəaliyyəti", "İsmayıl Şıxlı müəllim kimi" bu qəbildəndir.

Qiyabi ekskursiya yazıçını şagirdlərə daha da yaxınlaşdırır və sevdirir. Şagirdlərdə yaradıcı təfəkkürün inkişafına səbəb olur.

Məktəb təcrübəsinin öyrənilməsi, pedaqoji ədəbiyyatın, mətbuatın izlənilməsi, müəllimlərlə müsahibə belə bir nəticə çıxarmağa əsas verir ki, tərcümeyi-hal materiallarının öyrənilməsində müəyyən nöqsanlara yol verilir. Əgər mövzu "yazıçının həyatı, yaradıcılıq yolu" adlanırsa, deməli, hər iki tərəfin (mövzunun) nisbəti (əhatə olunması) gözlənilməlidir. Lakin məlum olur ki, bir sıra müəllimlər yazıçının həyatı ilə bağlı faktlara daha geniş yer ayırır, yaradıcılığının səciyyəvi cəhətlərini unudur.

Dərsliklərdə isə məsələ başqa cür təqdim edilmişdir: yazıçının yaradıcılığındakı inkişafın onun həyata baxışının, dünyagörüşünün formalaşması ilə üzvi şəkildə bağlı olduğu faktlarla əsaslandırılmışdır. Deməli,

hər iki istiqamətin – yazıçının həyatının və yaradıçılığının qarşılıqlı əlaqədə öyrənilməsi vacibdir və bu, təmin edilməlidir. X və XI siniflərin dərsliklərində həmin mövzuların ciddi ümumiləşdirmə əsasında yazılması da buna imkan yaradır. Yəni yazıçının həyatında baş vermiş bu və ya digər mühüm hadisənin onun yaradıcılığında geniş əksini tapdığı ümumiləşdirmə yolu ilə əks etdirilmişdir.

Bir nümunəyə diqqət edək.

"C.Məmmədquluzadənin həyatı və yaradıcılıq yolu" materialı XI sinfin dərsliyində aşağıdakı mətnkənarı suallar üzrə ümumiləşdirmə əsasında təqdim edilmişdir:

*1. Ədibin həyat yolunun başlanğıcı hansı cəhətləri ilə diqqəti cəlb edir?*

– Onun ailəsi.

– Təhsili (mollaxana, üçsinifli Naxçıvan şəhər məktəbi, Qori Müəllimlər Seminariyası).

– Müəllimlik fəaliyyəti (İrəvan quberniyasının və Naxçıvanın kəndlərində 10 il müəllimlik)

– Həyatı müşahidə etməsi, ilk əsərlərini yazması.

*2. Yazıçının həyatında Tiflis mühiti hansı rolu oynamışdır?*

– "Şərqi-rus" qəzetində çalışması. Jurnalist, publisist kimi formalaşması.

– "Kişmiş oyunu", "Poçt qutusu" hekayələrini "Şərqi-rus" qəzetində çap etdirməsi.

– "Molla Nəsrəddin"i nəşr etdirməsi.

*3. Yazıçının Təbriz həyatı üçün önəmli olanlar nədir?*

– "Molla Nəsrəddin"i çap etdirir.

– "Ölülər"i tamaşaya qoyur.

*4. Mirzə Cəlilin Bakı həyatı hansı cəhətləri ilə səciyyəvidir?*

– "Fəhlə-kəndli hökuməti"nə əvvəl inanması.

– Nöqsanları "Yeni yol" qəzetində tənqid etməsi.

– Ümidlərinin boşa çıxması.

– 1931-ci ildə jurnalın baş redaktorluğundan imtina etməsi.

*5. Yazıçının nəsr əsərlərində hansı problemlər diqqət mərkəzinə çəkilmişdir? Bu problemlərin yaranmasının səbəbini o nədə görürdü?*

– Mədəni gerilik, avamlıq, qadın hüquqsuzluğu, ictimai ədalətsizlik, dini fanatizm və s.

*6. Yazıçının dramatik əsərlərinin mövzu, problem, konflikt özəlliyi hansılardır?*

– Ümumiləşdirmə ilə: "Ölülər", "Dəli yığıncağı", "Kamança" və s. əsərləri barədə fikir ifadə olunub.

*7. Mirzə Cəlil publisistikasında daha çox hansı problemlərə diqqət yetirilmişdir? Bu problemlərin həlli yolunu o nədə görürdü?*

– Dünyagörüşü zənginləşən, həyata baxışı mükəmməl səciyyə qazanan

Mirzə Cəlilin fanatizmi, mövhumatı, avamlığı, Rusiyanın müstəmləkə siyasətini və s. publisistik əsərlərində kəskin tənqid etmişdir.

Göründüyü kimi, yazıçının həyatı və yaradıcılıq yolu qarşılıqlı əlaqədə – qovuşuq şərh edilmişdir. Bu, dərs prosesində də özünü beləcə göstərməlidir.

Məktəb təcrübəsində digər nöqsanlara da yol verilir.

Məsələn:

– Yazıçının öz mühiti, ictimai həyatla əlaqəsi qədərincə açıqlanmır.
– Dərsi “maraqlı” etmək üçün lüzumsuz məlumatlara geniş yer verilir.
– Rəqəm və faktların sadalanması qədərindən çox olur.

Tədqiqat belə bir nəticənin çıxarılmasına əsas vermişdir ki, yazıçının həyat yolu barədə şagirdlərdə dolğun təsəvvürün yaradılması onun yaradıcılığının səmərəli öyrənilməsinə, şagirdlərdə mənəvi və estetik tərbiyənin inkişafına əhəmiyyətli dərəcədə təsir edir.

## ƏDƏBİYYAT

1. *Əliyev S., Həsənov B., Mustafayeva A.* Ədəbiyyat: 10-cu sinif üçün dərslik, Bakı: Bakınəşr, 2017, 208 s.
2. *Hüseynoğlu S.* Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. Bakı: Bakınəşr, 2009, 200 s.
3. *Həsənli B.* Ədəbiyyatın tədrisi metodikası. Bakı: Müəllim, 2016, 452 s.
4. *Маранцман В.Г.* Биография писателя в системе эстетического воспитания школьников. М.; Л.: Просвещение, 75 с.
5. *Ядровская Е.Р.* Методика преподавания литературы. Москва: Юрайт, 2021, 236 с.

Redaksiyaya daxil olub 25.05.2023

*УДК 811.111*

***Н.А.Мехтиева***
*Азербайджанский государственный педагогический университет*
*nargiz.mehdiyeva@adpu.edu.az*

# ПРОДУКТИВНЫЕ СПОСОБЫ ОБРАЗОВАНИЯ НЕОЛОГИЗМОВ В АНГЛИЙСКОМ ЯЗЫКЕ

***Ключевые слова:*** *неологизм, суффиксы, сокращения, словосложение*
Слова или фразеологические обороты, входящие в язык в связи с ростом культуры и техники, развитием или изменениями в быту и условиях жизни людей и ощущаемые говорящими как новые называются неологизмами. Существует множество продуктивных способов образования новых слов (неологизмов) в английском языке. В работе мы остановимся на таких способах образования неологизмов, как: аффиксальный способ (префиксальный и суффиксальный способы), словосложение и сокращение. Наиболее распространенным способом образования неологизмов является образование слов путем добавления приставок и суффиксов. Однако, следует отметить, что методы образования неологизмов зависят от контекста и тематики, описываемой словом. Например, в науке и технологиях широко используется образование слов на основе новых терминов и названий для описания новых идей и концепций, тогда как в разговорном английском языке часто используется создание новых слов путем слияния двух или более слов или использование сленга и неформальной лексики.

***N.A.Mehdiyeva***

# İNGİLİS DİLİNDƏ NEOLOGİZMLƏRİN YARANMASININ PRODUKTİV VASİTƏLƏRİ

***Açar sözlər:*** *neologizm, şəkilçi, abbreviasiya, birləşmə*
Mədəniyyətin və texnikanın, insanların həyat tərzinin inkişafı və ya dəyişməsi ilə əlaqədar dilə daxil olan və danışanlar tərəfindən yeni kimi hiss olunan söz və ya frazeoloji birləşmələrə neologizmlər deyilir. İngilis dilində yeni sözlər (neologizmlər) yaratmaq üçün bir çox üsul mövcuddur. Məqalədə biz affiks metodu (prefiks və şəkilçi vasitəsilə), birləşmə və abbreviasiya kimi neologizmlərin yaranması yollarına diqqət yetirəcəyik. Neologizmlərin əmələ gəlməsinin ən geniş yayılmış yolu prefiks və şəkilçi əlavə etməklə söz yaratmaqdır. Bununla belə, neologizmlərin əmələ gəlmə üsulları sözün təsvir etdiyi kontekstdən və mövzudan asılıdır. Məsələn, elm və texnologiyada yeni ideya və anlayışları təsvir etmək üçün yeni termin və adlar əsasında sözlərin əmələ gəlməsindən geniş istifadə edilir, ingilis danışıq dilində isə çox vaxt iki və ya daha çox sözü birləşdirərək yeni sözlərin yaradılmasından və ya jarqon və qeyri-rəsmi lüğətdən tez tez istifadə edilir.

***N.A.Mehdiyeva***

## PRODUCTIVE WAYS OF FORMATION OF NEOLOGISMS IN THE ENGLISH LANGUAGE

***Keywords:*** *neologism, suffixes, abbreviation, compounding*

Words or phraseological units that enter the language in connection with the growth of culture and technology, development or changes in the way of life and living conditions of people and felt by the speakers as new are called neologisms. There are many productive ways to form new words (neologisms) in the English language. In this paper, we will focus on such ways of forming neologisms as: affixal method (prefixal and suffixal methods), compounding and abbreviation. The most common way to form neologisms is to form words by adding prefixes and suffixes. However, it should be noted that the methods of formation of neologisms depend on the context and subject matter described by the word. For example, science and technology make extensive use of word formation from new terms and names to describe new ideas and concepts, while spoken English often uses the creation of new words by merging two or more words, or the use of slang and informal vocabulary.

Неологизмы – это слова, которые являются новыми лексическими единицами для данного исторического периода. Такие слова ещё не успели войти в активный словарный запас, поэтому могут быть не знакомыми определённой части людей. Неологизмы сначала могут использоваться небольшим количеством людей, затем, если они достаточно выразительны и по своему звучанию соответствуют характеру фонетической системы английского языка, они получают хождение во все более и более широких социальных и профессиональных коллективах, а по мере знакомства с обозначаемыми ими новыми явлениями большинство говорящих по-английски людей, они переходят в общенародную лексику. Возникают неологизмы на базе уже имеющегося в языке материала, по установившимся словообразовательным моделям, т.е. применительно к уже существующей в языке системе средств и способов словообразования. В данной статье мы подробнее изучим более распространенные способы образования неологизмов в английском языке.

**Аффиксальные неологизмы**

Аффиксальные единицы, как правило, складываются целиком в русле английских словообразовательных традиций, их морфологическая структура и характер значения укладываются в сложившееся у носителей английского языка представления об обычном, стандартном слове. Поэтому появление производных неологизмов сознательно отмечается носителями языка только тогда, когда они осознают новизну

обозначаемого. Этот способ преобладает при создании неологизмов. Производное слово, так же, как и сложное, характеризуется, в отличии от простого, наличием внутренней предикации.

Аффиксальные единицы по данным Кеннона (Cannon 1986: 732) составляют 24% всех новообразований и в незначительной степени уступают сложным словам. Однако никогда ещё в истории английского языка число аффиксов и их дистрибуция не были настолько богаты и разнообразны, как в настоящий период. В последнее время в образовании новых слов было использовано более 100 суффиксов: -age, -ance, -ant, -ar, -arium, -ary, -ase, -ate, -ation, -ative, -dom, -ectomy, -ed, -ee, -eer, -erne, -emia, -er/or, -ers, -cry, -et, -eteria, -ette, -fest, -hood, -ia, -ic, -ica, -idan, -ics, -idase, -ie, -ification, -ify, -igenic, -ine(nominal), -in, -ing, -ino, -ion, -ional, -ism, -ist, -ite (person), -scape, -sville, -ure, -y (adj), -y(nominal), -atic, -phobia, -cide, -phile, -maniac, -monger, -worthy, -like, -some, -scape, -scope, -gamy.

В образовании новых единиц активное участие принимают полусуффиксы; -friendly, -manship, - oriented, -a/oholic.

Префиксальные новообразования менее многочисленны, хотя количество префиксов и полупрефиксов превышает количество суффиксов и полусуффиксов, и среди префиксов и полупрефиксов, преобладают единицы латинского происхождения (префиксы греческого происхождения немногочисленны): -a(n)-, aero-, agri-, agro-, ambi-, anti-, aqua-, astro-, audio-, auto-, bi-, bio-, cardio-, chemo-, cine-, co-, counter-, cyto-, de-, demi-, eco-, estro-, endo-, eutero-, epi-, ethno-, eu-, Euro, hemi-, hetero-, holo-, hydro-, hyper-hypno-, immuno-, inter-, intra-, iso-, kako-, kine-, leparo-, litho-, luteo-, macro-, magni-, maxi-, mal-, mega-, meso, meta-, mis-, mono-, multi-, ortho-, paleo-, petro-, photo-, phyto-, proto-, pseudo-, psycho-, psychoto-, socio-, sono-, sub-, super-, supra-, tele-, tera-, trans-, tri-, tropo-, turbo-, ultra-, un-, under-, ur-, uro-, xeno-.

Среди наиболее продуктивных префиксов следует отметить: anti-, co-, de-, non-, post-, pre-, ne-, sub-, in-.

Префиксальные единицы демонстрируют возросшую роль полупрефиксов. Как известно, полупрефиксы в большей степени, чем префиксы семантически нагружены и в большей степени влияют на семантику производной единицы. Основной источник полупрефиксов-латинский, французский и греческий языки; acro-, bio-, xeno-, micro-, euro-, tele-, и т.д. Их употребление, как правило, ограничено научно-техническими сферами. Однако в связи с популяризацией и распространением технических новшеств в быту полупрефиксы входят в общее употребление. Чрезвычайно популярен в американском неформальном общении префикс mega-, выступающий как усилительная частица. Этот префикс активно используется в лексиконе подростков.

Например, для выражения высшей оценки события, явления, человека употребляется слово megadual (totally awesome) нечто чрезвычайно хорошее. Dual в данном случае употребляется в значении «в два раза лучше».

Особого внимания заслуживают полусуффиксы, вычлененные из неологизмов. Например, aholic/holic были вычленены из слова workaholic, человек одержимый работой, chocoholic, coffeholic, cheesoholic; общее значение этих суффиксов- одержимость чем-либо. Как и все другие элементы языка, аффиксы подвержены изменениям и расширению значений. Изменениям подверглись словообразовательные элементы anti-, super-, counter-. К исходному значению anti- «противодействие» прибавилось новое – «относящийся к гипотетическому миру», «состоящий из антивещества»: antihero, antipodes (used by people of Australia and New Zealand).

У суффикса –ism появился новый оттенок значения «приверженность к чему-либо»: ageism-дискриминация людей пожилого возраста, heightism- дискриминация людей высокого роста. Таким образом, современное состояние аффиксальной системы характеризуется появлением совершенно новых аффиксов и полуаффиксов, новых значений аффиксов и вариантов (оттенков) значений, новых моделей и ограничений на их употребление. В целом для деривации на новейшем этапе развития языка характерно наращивание семантического потенциала при большом семантическом и структурном разнообразии производящих основ. Отмечается прагматическая дифференциация аффиксов по различным сферам употребления.

**Словосложение**

В последнее время возрастает роль словосложения. Среди сложных неологизмов преобладают двухкомпонентные единицы. Основными моделями продолжают оставаться модели **N+N=N; A+N=N.**

Среди новых сложных единиц-существительных преобладают эндоцентрические: glue-sniffing вдыхание клея с целью ощущения наркотического эффекта, think-tank коллективный мозг. Экзоцентрические существительные менее характерны: low-rise низкое здание, high-rise многоэтажный дом. Также увеличивается количество образований имен с первым компонентом-именем собственным: Kirlian photograph-фотография Кирлиана- фотография биополя человека. Усиливается тенденция к образованию сложных единиц с соединительным компонентом –o-: bacteriophobia-боязнь бактерий; suggestopedia-суггестопедия. Среди сложных единиц значительную долю составляют слова, образованные при помощи частиц и наречий, особенно это

характерно для прилагательных и глаголов. Так, особой продуктивностью отличается модель:

**Part II + Adv A:**

laid-back расслабленный, релаксирующийся, spaced-out находящийся под влиянием наркотиков, burned-out усталый, выжатый, buttoned-down традиционный, консервативный. Употребление данной модели, как правило, ограничено ситуацией неформального общения. При всей активности она не является новой. Также, как и для аффиксальных новообразований, для сложных неологизмов характерно усиление тенденции к многокомпонентным комбинациям. Более 500 единиц состоят из трех компонентов: point-in-time конкретное время. Одной из самых употребительных многокомпонентных моделей стала модель со словом line, которая находится на грани сложных слов и словосочетаний: straight-line responsibility прямая ответственность; dotted-line responsibility ответственность, поделенная на двоих; top-of-the-line самый лучший (ограничено американским вариантом, в британском варианте используется top-of-the-market); bottom-line окончательный. Данная модель ограничена в употреблении ситуациями неформального общения представителями деловых кругов. В целом, многокомпонентные единицы, употребляемые в неформальном общении, более характерны для американского варианта, например: to nickel-and-dime уделять большое внимание мелочам, nuts-and-bolts базисный, meat-and-potatoes основной.

**Сокращения**

Среди нерегулярных способов образования морфологических неологизмов наиболее продуктивными последнее время являются сокращения, которые отражают тенденцию к рационализации языка, к экономии языковых усилий. Несмотря на то, что сокращения составляют лишь незначительный процент от общего количества неологизмов, их число растет. Из четырех видов сокращений (акронимы, усечения, слияния, аббревиатуры) преобладают усеченные слова. Основным типом усечений являются апокопы (усечение финальной части). При этом усечению подвергается целая морфема: anchor - anchorman обозреватель новостей, координирующий теле- или радиопрограммы. Слово ограничено в употреблении американским вариантом (в британском варианте ему соответствует presenter); detox-detoxification часть больницы или клиники, где лечат алкоголиков и наркоманов.

I went to detox again, it has been several years since I came out.

Иногда усечению подвергается часть морфемы: lib-liberation. В соответствии с нормой и традицией менее многочисленны инициальные сокращения (эферизис): upmanship-oneupmanship умение добиваться превосходства над окружающими. Примеры усечения середины слова

(синкопы) немногочисленны: closed caption-closed circuit caption титры телевизионных программ для глухих; ecotecture-ecological architecture архитектурный дизайн, подчиняю-щий задачи сегодняшнего дня задачам охраны окружающей среды. Смешанный тип усечения непродуктивен: scrip-prescription (амери-канский вариант), litcrit-literary criticism (британский вариант). Особенностью усечений является их сниженная стилистическая окраска, и, соответственно, их употребление ограничено рамками разговорной речи. Усечение наиболее характерно для различных типов сленга (школьного, спортивного, газетного). Среди сокращений большое место занимают аббревиатуры и акронимы. Чаще всего аббревиации подвергаются технические термины, названия групп и организаций. Обычно аббревиатуры употребляются чаще, чем сами термины: BRB - "скоро вернусь" (be right back), используется в онлайн-чатах и сообщениях, чтобы сообщить, что вы уйдете на некоторое время и вернетесь скоро, MTV (Music Television канал кабельного телевидения, передающий музыку). Как правило, аббревиатуры произносятся по буквам: I.V. (intravenous) внутривенно. Новым является отсутствие точек после каждой буквы аббревиатур, что приближает их к акронимам. В отличии от аббревиатур, акронимы произносятся как полные слова. Например: SALT (Strategic Arms Limitation Talks) переговоры по ограничению стратегического оружия; MIPS (million instructions per second) миллион инструкций в секунду (компьютерный термин), NASA (National Aeronautics and Space Administration) Американское космическое агентство. Среди акронимов последних десятилетий наблюдается явление омонимии. Один из самых популярных акронимов GASP употребляется в речи нескольких групп, борющихся против загрязнения окружающей среды: Group Against Smoke and Pollution, Greater Washington Alliance to stop Pollution. Сферы употребления акронимов, как правило, четко ограничены. Ограничения на употребление акронимов предписаны денотативным значением слов, входящих в них. Так, единицы типа MIPS, RAM (random-access memory), ROM (read-only memory) ограничены в употреблении рамками компьютерной техники; SWAT (special weapons and tactics) употребляются в юриспруденции; DOMSAT (domestic satellite), TEFL (Teaching English as a Foreign Language), всем известная Международная организация преподавателей английского языка как иностранного IATEFL (International Association of Teachers of English as a Foreign Language) и американская организация TESOL (Teachers of English to Speakers of Other Languages); в сфере охраны окружающей среды: UNEP (United Nations Environmental Program). Иногда акронимы создаются из стремления к оригинальности, например, организация, борющаяся с курением, создала акроним ASH пепел (Action on Smoking and Health), NOW

(National Organization for Women). В связи с широким распространением акронимов лингвисты заговорили о необходимости приостановить этот процесс, который они характеризуют как акроманию. В связи с этим возникла необходимость упорядочить список акронимов и процесс их создания. Одним из проявлений закона экономии речевых средств, «принципа наименьшего усилия», можно считать образование телескопных номинаций, слов-портмоне, слов-слитков. Среди неологизмов последних десятилетий намечается тенденция к увеличению единиц этого типа. Среди них преобладают частичные слова-слитки, т.е. единицы, в которых соединяется один усеченный элемент и полная форма другого элемента. Наиболее продуктивен тип финального усечения первого компонента: Europlug (European plug), менее типичны инициальные усечения второго элемента: airtel (air, hotel). Единицы с финальным усечением обоих компонентов менее многочисленны: sitcom (situation, comedy). Основная масса этих новообразований используется в средствах массовой информации и в рекламе. В силу свежести и неожиданности формы, они привлекают внимание и оказывают прагматический эффект на читающего.

В данной статье мы рассмотрели, изучили и сравнили развитие тенденций словарного состава современного английского языка и выявили основные способы создания морфологических неологизмов. В целом морфологические неологизмы отличаются от фонологических и заимствований более высокой степенью расчлененности и мотивированности, а также наличием в большинстве из них имплицитной предикативной связи (внутренней предикации). Можно сказать, что в английском языке намечается тенденция к увеличению композиционных семантических структур. С другой стороны, рост многокомпонентных, расчлененных единиц, отвечает тенденции к рационализации и экономии, так как новые многокомпонентные единицы являются результатом стяжения словосочетаний, единиц, характеризующихся большей степенью расчлененности. В структурном отношении современные морфологические неологизмы повторяют некоторые модели, издавна продуктивные в английском языке. Однако происходит накопление новообразований на базе более новых моделей. Как правило, наиболее продуктивные способы создания новых слов изменяются со временем, поскольку язык постоянно развивается и адаптируется к новым условиям и технологиям.

## ЛИТЕРАТУРА

1. *Арнольд И.В.* Стилистика современного английского языка. М.: Просвещение, 1990, 301 с.

2. *Александрова О.И.* Неологизмы и окказионализмы // Вопросы современного русского словообразования лексики и стилистики: науч. Труд / Самарский гос. пед. ин-т. Самара, 2004
3. *Брагина А.А*. Неологизмы в русском языке, 2003, 250 с.
4. *Ерастова Д.А.* Неологизмы и способы их образования в английском языке // Лингвокультурология, 2019, №13, с.80-86
5. *Заботкина В.И.* Новая лексика современного английского языка. М.: Высшая школа, 1990, 124 с.
6. *Ильина А.Н., Кибасова С.Г.* Словообразование в современном английском языке, СПб.: Изд-во СПбГУЭФ, 2012, 90 с.
7. *Кеннон К.И.* Word structure, 1986
8. *Козырев В.А., Черняк В.Д.* Вселенная в алфавитном порядке: Очерки о словарях русского языка. СПб.: Изд-во РГПУ им. А.И.Герцена, 2000, 356 с.
9. *Лопатин В.В.* Рождение слова. Неологизмы и окказиональные образования. М.: Наука, 2003, 286 с.
10. *Мельников, Г.П.* Системная типология языков: принципы, методы, модели/ Г.П. Мельников. М.: Наука, 2003, 395 с.
11. *Попова Т.В*. Неология и неография современного русского языка: учеб. пособие/ Т.В. Попова. М.: Флинта: Наука, 2005, 168 с.
12. Словарь новых слов и значений в английском языке / Dictionary of New Words and Meanings / З.С.Трофимовой АСТ, Восток-Запад, 2006, 320 с.
13. *Green J*. Bloomsburry Dictionary of New Words. М.: Вече, Персей. 2000, 204 p.
14. Linguistics, New words in English, Rice University, 2006
15. The Oxford Dictionary of New Words (Paperback) by Sara Tulloch, Elizabeth Knowles, Julia Elliott, 2006
16. Urdang L. Dictionary of Difficult Words. М.: Вече, Персей. 2006

Redaksiyaya daxil olub 15.05.2023

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2023, C.71, №2, s. 33-40
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2023, V.71, №2, pp. 33-40

*UOT 811.512.162*

***A.T.Məmmədzadə***
*Azərbaycan Dövlət Aqrar Universiteti*
*almazmamedzade@yahoo.com.tr*

# AŞPAZLIQ SƏNƏTİ İLƏ BAĞLI LEKSİKANIN İŞTİRAKI İLƏ FORMALAŞAN FRAZEOLOGİZMLƏRİN DİL XÜSUSİYYƏTLƏRİ (“KİTABİ-DƏDƏ QORQUD” DASTANININ MATERİALLARI ƏSASINDA)

***Açar sözlər:*** *“Kitabi-Dədə Qorqud” dastanı, frazeologizm, aşpazlıq leksikası ilə bağlı frazeoloji vahidlər, arxaik söz, üslubi frazeologizmlər*

Məqalədə “Kitabi Dədə Qorqud” dastanının frazeologiya sahəsi üzrə dil xüsusiyyətləri araşdırılır. “Kitabi Dədə Qorqud” dastanında aşpazlıq frazeologiyasının dil xüsusiyyətləri baxımından araşdırılmasının dilçilik sahəsi üçün önəmi vurğulanır. Burada dastanın yazılı nüsxələrinin ilk dəfə aşkarlanması tarixi haqqında qısaca bəhs olunur. Dastanın ilk tədqiqatçılarının Fridrix Fon Dits, Ettori Rossi, V.V.Bartold, H.Araslı və M.H.Təhmasib kimi alimlər olduğu bildirilir. Dastanın dil xüsusiyyətlərinin ilk tədqiqatçısının Ə.Dəmirçizadə olduğu göstərilir. H.Bayramovun frazeoloji vahidləri o dövrdən müasir dövrədək işlənmə müxtəlifliyini nəzərə alaraq 4 qrupa ayırdığı təsnifatı verilir. Həmin təsnifata uyğun dastanda rast gəlinən aşpazlıq frazeologiyası verilir. Dastanda rast gəlinən aşpazlıq frazeologiyasının sintaktik struktur və komponentlərindəki arxaik sözlər və ya leksik-fonetik dəyişikliklər aydınlaşdırılır. Dastandakı aşpazlıq frazeologiyasının əksəriyyəti müasir dildə işlənən frazeologizmlərdir. Az sayda dastana məxsus üslubi frazeologizmlər aşkarlanmışdır.

Dastanın həm bədii dilinin, həm də linqvistik xüsusiyyətlərinin zənginliyi Azərbaycan xalqının uzun əsrlik tarixi, mədəniyyəti ilə əsaslandırılır.

***А.Т.Мамедзаде***

## ЯЗЫКОВЫЕ ОСОБЕННОСТИ ФРАЗЕОЛОГИЧЕСКИХ ЕДИНИЦ, ОТНОСЯЩИХСЯ К ЛЕКСИКЕ, СВЯЗАННОЙ С КУЛИНАРНЫМ ИСКУССТВОМ (ПО МАТЕРИАЛАМ ЭПОСА «ДЕДЕ ГОРГУД»)

***Ключевые слова:*** *эпос «Китаби-Деде Горгуд», фразеологизм, фразеологизмы, относящиеся к кулинарной лексике, архаическое слово, стилистическая фразеология*

В статье рассматриваются языковые особенности эпоса «Китаби Деде Горгуд» в области фразеологии. Подчеркивается важность изучения кулинарной фразеологии в эпосе «Китаби Деда Горгуд» с точки зрения лингвистических особенностей в области языкознания. Показана краткая история впервые обнаруженных письменных экземпляров эпоса. Говорится о том, что первыми исследователями эпоса являются такие ученые, как Фридрих фон Дитц, Эттори

Росси, В.В.Бартольд, Х.Арасли и М.Х.Тахмасиб. Показано, что первым исследователем языковых особенностей эпоса был азербайджанский языковед А.Демирчизаде. Х.Байрамовым дана классификация фразеологизмов на 4 группы с учетом разнообразия обработки с того периода до настоящего времени. Согласно этой классификации дается кулинарная фразеология, встречающаяся в эпосе. Уточняются такие языковые особенности, как встречающиеся в эпосе архаичные слова или лексико-фонетические изменения компонентов кулинарной фразеологии, а также их синтаксическая структура. Большая часть кулинарной фразеологии в эпосе — это фразеология, используемая в современном языке. Обнаружено небольшое количество стилистических фразеологизмов, принадлежащих эпосу.

Богатство эпоса как с точки зрения художественного языка, так и языковых особенностей обосновывается многовековой историей и культурой азербайджанского народа.

***A.T.Mammadzade***

**LINGUISTIC FEATURES OF PHRASEOLOGICAL UNITS RELATING TO VOCABULARY RELATED TO CULINARY ART (BASED ON THE MATERIALS OF “DEDE GORGUD” EPIC)**

***Keywords:*** *"Kitabi-Dada Gorgud" epic, phraseological unit, culinary phraseology, archaic word, stylistic phraseology*

The article researches the language features of the "Kitabi Dada Gorgud" saga in the field of phraseology. The importance of studying the culinary phraseology in the saga "Kitabi Deda Gorgud" is emphasized in terms of linguistic features for the field of linguistics. A brief history of the written copies of the saga discovered for the first time is shown. It is reported that the first researchers of the saga are such scientists as Friedrich von Dietz, Ettori Rossi, V.V.Bartold, H.Arasli and M.H.Tahmasib. It is shown that A.Demirchizade was the first researcher of the language features of the epic. H.Bayramov's classification of phraseological units into 4 groups is given, taking into account the variety of processing from that period to the present. According to that classification, the culinary phraseology found in the epic is given.

Language features such as archaic words or lexical-phonetic changes in the components of culinary phraseology encountered in the epic, as well as their syntactic structure, are clarified. Most of the culinary phraseology in the epic is phraseology used in modern language. A small number of stylistic phraseologisms belonging to the epic have been discovered.

The richness of the epic in terms of both artistic language and linguistic features is justified by the long history and culture of the Azerbaijani people.

Azərbaycan xalqının həm şifahi, həm də yazılı ədəbiyyatının nadir incisi “Kitabi-Dədə Qorqud” dastanı Oğuz türklərinin bütün türk dünyası mədəniyyətinə misilsiz ərmağanıdır. “Kitabi-Dədə Qorqud” dastanının həm

bədii dil mükəmməlliyi, həm də linqvistik baxımdan dil xüsusiyyətlərinin zənginliyi diqqəti cəlb edir. Bu epos Türk dünyası üçün əvəzolunmaz bir abidədir. "Kitabi-Dədə Qorqud" dastanı türk düşüncə tərzini, adət-ənənələrini, dünyagörüşünü, mədəniyyətini, ozan-qopuz sənətinin şeiriyyətini və gözəlliyini özündə əks etdirir. Belə geniş və dərin informativ zənginliyə sahib bir dastanın dil xüsusiyyətləri baxımından araşdırılması dilçilik sahəsi üçün önəmlidir.

"Kitabi-Dədə Qorqud" dastanı XIX əsrdən tədqiqata cəlb olunmuşdur. "Kitabi-Dədə Qorqud" dastanının ilk tədqiqi XIX əsrdə yaşamış alman şərqşünası Fridrix Fon Ditsə məxsusdur. O, Drezden kitabxanasında müqəddimə və 12 boydan ibarət "Kitabi-Dədə Qorqud" dastanını aşkar etmişdir və 1815-ci ildə "Basatın Təpəgözü öldürdüyü boy"unu alman dilinə tərcümə etmişdir. "Kitabi-Dədə Qorqud" dastanının müqəddimə və 6 boydan ibarət nüsxəsini 1952-ci ildə italyan şərqşünası Ettori Rossi Vatikan kitabxanasında aşkar etmiş və nəşr etdirmişdir. "Kitabi-Dədə Qorqud" dastanının əsas tədqiqatçısı V.V.Bartold hesab olunur. O, bütün boyları rus dilinə tərcümə edib, çap etdirmişdir [4, s.38].

"Kitabi-Dədə Qorqud" dastanının Azərbaycanda ilk nəşri Azərbaycan alimləri H.Araslı və M.H.Təhmasibin adı ilə bağlıdır. 1939-cu ildə H.Araslı ilk dəfə olaraq "Kitabi-Dədə Qorqud" dastanını tərtib və nəşr etdirmişdir. Daha sonra o, M.H.Təhmasib ilə "Kitabi-Dədə Qorqud" dastanını 1950-ci ildə Bakıda nəşr etdirmişlər [4, s.39]. Beləcə "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan oxucuları üçün əlçatan olmuş və dilçilər tərəfindən dastanın dil xüsusiyyətlərini tədqiq etmək daha rahat olmuşdur.

Azərbaycan dilçiliyində "Kitabi-Dədə Qorqud" dastanının dilini tədqiq edən ilk alim professor Ə.Dəmirçizadədir. O, 1959-cu ildə "Kitabi-Dədə Qorqud dastanının dili" adlı kitabını və dastanla bağlı məqalələrini nəşr etdirmişdir [4, s.39].

H.Araslıya əsasən, dastanda bəhs olunan hadisələrin səsləşdiyi dövr daha çox X-XI əsrləri əhatə edir. Dastanın ilk yazıya alınmağa başlanılan tarix olaraq XI-XII əsrlər olduğu göstərilir. Professor Ə.Dəmirçizadə dastanın IX-XII əsrlərdə dədələr, ozanlar tərəfindən yaradıldığını və yazıya köçürüldüyünü bildirir [4, s.41]. Dastanda Oğuz türklərinin qəbul etdiyi islam dini ilə bağlı hadisələr göstərilir, həmçinin islamdan öncəki dövrlər ilə bağlı qədim türk adət və ənənələrini əhatə edən xeyli sayda məqamlar da özünə yer tapır. Bu da dastanın tarixinin daha əvvəlki əsrlərə aid olduğunu iddia etməyə imkan verir.

K.Abdullayev dastanın qədim bir dövrün məhsulu olduğunu göstərir, "*Dədə Qorqud" dastanı insan cəmiyyətindən – insan keçidin ən ümumi, ən aparıcı məqamlarını təsvir etdiyi surətlərində, hadisələrində yaşadır... Bu anlamda dastan indi təsəvvür ediləndən də çox-çox qədim bir dövrün məhsuludur və heç şübhəsiz ki, yaradılan dastanla yazılan dastan bir-birinin eyni deyil*" [1, s.4]. Dastanın dil xüsusiyyətləri bu qədim eposun yaradılan və

yazılan tarixinin təsirlərini, izini daşıyır.

“Kitabi-Dədə Qorqud” dastanının bir ədəbi əsər olaraq yaradan müəllifin Dədə-Qorqud olduğu iddia edilir. Bu yazılı abidənin Dədə-Qorqud adlı şəxsiyyətin təhkiyəsi, nitqi olduğu şübhəsizdir. Ancaq dastanın geniş bir tarixi dövrü əhatə etməsi hadisələrin müxtəlif təhkiyəçilər tərəfindən tərtib olunduğu yəni, ozan və aşıqların nitqi olduğu fikrini irəli çıxarır və müəlliflik dastanın ilk yaradıcısı olan Dədə Qorquda, vahid bir şəxsə aid edilir. Dədə Qorqud Oğuz türklərinin başbiləni, yolgöstərənidir [4, s.41]. Dastan həm nəzm, həm də nəsrlə yazılmışdır.

H.Bayramov “Kitabi Dədə Qorqud” dastanını tədqiq edib frazeoloji vahidləri araşdırmışdır. H.Bayramov dastanlarda 300-dən artıq frazeoloji vahidin işləndiyini bildirir [3, s.28].

“Kitabi Dədə Qorqud” dastanlarında işlənən frazeoloji vahidlərə bir neçə nümunə gətirmək olar: *üz-gözində canı olmaq* [2, s.185], *qol-bud olmaq* [2, s.185], *dil-damağı qurumaq* [2, s.185], *yüzinə toxinc olmaq* [2, s.184], *yürəgin dağlamaq* [2, s.184], *ödü sınmaq* [2, s.184], *könlin uca tutmaq* [2, s.184], *qulağına səs toxunmaq* [2, s.184], *qapırğalı böyümək* [2, s.184], *qanına susanmaq* [2, s.184], *göz qaqmaq* [2, s.183], *göz ucu ilə baxmaq* [2, s.183], *əl qavşırmaq* [2, s.183], *ağzının suyu axmaq* [2, s.180], *bağrı yanmaq* [2, s.180], *cigərin tağlamaq* [2, s.182], *damarı sızlamaq* [2, s.182], *dişdən çıxmaq* [2, s.182], *dodağı təbsirmək* [2, s.182], *əlinə girmək* [2, s.182] və s.

“Kitabi Dədə Qorqud” dastanında peşə-sənət ilə bağlı frazeologiya işlənmişdir. Müxtəlif peşə-sənət ilə bağlı frazeologizmlərin arasından az sayda olsa da, aşpazlıq ilə bağlı frazeoloji vahidlər dastanda işlənmişdir.

Oğul atadan görməyincə süfrə çəkməz [5, s.20].

Dövlətlü oğul qopsa, ocağmın közidir [5, s.20].

Oğlan anda yıqıldıqda Boz atlu Xızır oğlana hazır oldı, üç qatla yarasın əliylə sığadı: “Sana bu yaradan qorxma, oğlan, ölüm yoqdur; dağ çiçəgi anan südiylə sənin yarana məlhəmdir”, - dedi, qayib oldı [5, s.32].

Bir yigidün qara dağ yumrısınca malı olsa, yığar-dərər, tələb eylər, nəsibindən artuğın yiyə bilməz [5, s.19].

Buğa qatı daşa buynuz ursa, un kibi ügidərdi [5,s.27].

Yigit barmağın ısırdı, aydır: “Bunda minnətlə almaqdan isə, anda babam yanında minnətsiz almaq yegdir!”- dedi [5,s.54].

Aydır: “A bəglər! Uruz xub söylədi, şəkər yedi [5, s.79].

Ayğır atım boğazlayub aşum versün [5, s.89]!

Buğa dizin çökdi, buynuzıyla bir mərmər daşı yoğurdı, penir kibi ditdi [5, s.108].

Qara buğa gəldügində xurd-xaş eylədin [5, s.110].

Ayğır atum boğazlayub, aşum vergil [5, s.148]!

Şunda bir dəlü yigit yolçmın-yolıqçın, çobanın çolığın ətməgin alur [5,

s.150].

Əski donun biti, öksüz oğlanın dili acı olur [5, s.146].

Mən Qazanın nemətini çoq yemişəm, Bilməzsəm, gözümə dursun [5, s.166]!

Anlar bir yedigində sən iki yegil [5, s.45]!

H.Bayramov frazeoloji vahidlərin o dövrdən müasir dövrədək işlənmə müxtəlifliyini nəzərə alaraq, haqlı olaraq, onları 4 qrupa ayırmışdır [3, s.29-30].

1) Heç bir məna dəyişikliyinə uğramadan müasir dilimizdə işlənənlər;

2) Mənaca eyni olub, yalnız komponentlərindən biri arxaik səciyyə daşıyanlar;

3) Komponentlərindən biri həm ilk mənbədə, həm də müasir dilimizdə işlək sözlərdən ibarət olmaqla eyni məna ifadə edənlər;

4) Müasir dilimiz üçün arxaik səciyyə daşıyanlar.

Bu təsnifatı əsas götürərək Azərbaycan dilinin aşpazlıq leksikası ilə bağlı frazeologiyasını "Kitabi-Dədə Qorqud" dastanında rastlanan nümunələr üzrə tarixi müxtəlifliyi müşahidə etmək və müvafiq şəkildə qruplaşdırmaq olar.

1) Heç bir məna dəyişikliyinə uğramadan müasir dilimizdə işlənənlər; *ətməgin almaq* [5, s.150], *dili acı olmaq* [5, s.146], *onlar bir yedigində sən iki yegil* [5, s.45].

2) Komponentlərindən biri həm ilk mənbədə, həm də müasir dilimizdə işlək sözlərdən ibarət olmaqla eyni məna ifadə edənlər; *süfrə çəkmək* [5, s.20], *ana südü* [5, s.32], *nəsibindən artuğın yiyə bilmək* [5, s.19], *un kibi ügidmək* [5, s.27], *nemətini çoq yemək* [5, s.166].

3) Müasir dilimiz üçün arxaik səciyyə daşıyanlar; *ocağın közü* [5, s.20], *şəkər yemək* [5, s.79], *aşını vermək* [5, s.89], *penir kibi ditmək* [5, s.108].

Mənaca eyni olub, yalnız komponentlərindən biri arxaik səciyyə daşıyan aşpazlıqla bağlı frazeoloji vahidə dastanın dilində təsadüf etmədik.

"Kitabi Dədə Qorqud "dastanında bir qrup ifadələr ilə qarşılaşırıq ki, onları müasir Azərbaycan dilində işlətmirik, o tip nümunələr nitqimizdə mövcud deyil. Ancaq dastanın işləndiyi dövrdə həmin ifadələr mövcud olub. Onları ya o dövrə məxsus olduğu ehtimal ediləsi frazeoloji vahid kimi qəbul etmək olar, ya da dastanın təhkiyəçisinin üslubca yaratdığı frazeoloji vahid kimi yanaşmaq olar.

*Dəpə kibi ət yığ, göl kibi qımız sağdır* [5, s.26] ifadəsi bir frazeoloji vahid kimi ekspressivlik baxımından mübaliğə bildirir və dastandakı məzmuna əsasən, Dirsə xanın comərdliyini, qonaqpərvərliyini, səxavət və əliaçıqlığını göstərir [7, s.18]. *Dəpə kibi ət yığ, göl kibi qımız sağdır* ifadəsini Dədə Qorqud təhkiyəsinə məxsus yaranmış üslubi frazeoloji vahid şəklində qəbul etməyi nəzərdə tutmaq olar.

Dastanda *atdan - ayqırdan, dəvədən buğra, qoyundan qoç qırdırmaq* [5, s.84] kimi bir ifadə işlənir; bu nümunəni müasir dilimiz üçün arxaik səciyyə

daşıyan frazeoloji vahid kimi qəbul etmək olar. Dastanın müxtəlif yerlərində fərqli variantlarda işlənmişdir, amma müasir dildə bu şəkildə bir ifadə işlənmir. Bunu dastanın dövründə mövcud olmuş frazeoloji vahid və üslubi variantları kimi qəbul etmək olar.

Dastanda *...ağ saqallu qocanın ağzın sögdi, ağ birçəklü qarınun südin dartdı* [5, s.28] ifadəsi işlənmişdir. Burada *ağ birçəklü qarınun südin dartdı / ağbirçəkli qarıların südün söymüş* mənasında verilir, *ana südü* frazeoloji vahidinə uyğunlaşdırılmış *ağ birçəklü qarınun südi* frazeoloji vahidi şəklində verilir [6, s.5]. Bunu dastanın təhkiyəsinə məxsus üslubi şəkildə verilmiş bir frazeoloji vahid kimi nəzərdə tutmaq olar.

*Çörək* sözü dastanda *ətməg* şəklində bir neçə yerdə işlənir. *Ətmək* sözü qərb ləhcəsində fonetik dəyişmə ilə *əppək* və ya *əppəx'* şəklində işlənir [8, s.219]. *Yanmış arpa ətməgi, acı soğan öyni degil* [5,s.89] cümləsində də işlənir. Dastanla bağlı verilmiş lüğətdəki izaha görə, *öyni* sözü yemək norması mənasında verilir, həmin sözün *öynəcik* forması isə aşağı normada yemək, kasıb yemək kimi mənaları həmin lüğətdə verir. *Yanmış arpa ətməgi, acı soğan öyni* ifadəsini o dövrün nitq tərzi və dil xüsusiyyətlərini nəzərə alaraq dastanın əhatə etdiyi dövrə məxsus frazeoloji vahid kimi hesab etməyi nəzərdə tutmaq olar.

Ümumiyyətlə, frazeologizmlər feili frazeoloji birləşmələr və qeyri-feili frazeoloji birləşmələrə ayrılır. Dədə Qorqud dastanlarında əksər frazeologizmlər tərəflərinin ifadə vasitələrinə görə feili frazeologizmlərdir. Məsələn: *aşını vermək, penir kibi ditmək, nəsibindən artuğın yiyə bilmək və s.*

İsmi frazeologizmlərə orada daha az rastlanılır. *Ana südü* [5, s.32], *ocağın közü* [5, s.20] nümunələri ismi söz birləşməsi formatlı frazeologizmlərdir.

Dədə Qorqud dastanında işlənən frazeologizmlər üzrə feili predikativ somatik frazeologizmlər və ismi predikativ somatik frazeologizmlərə ayrılaraq araşdırılmışdır [2, s.179-180]. Məsələn: bığı qararmaq [2, s.181], dilini aramaq [2, s.182], əlində zəbun olmaq [2, s.182], göz yaşı tutmaq [2, s.183] və s.

*Anlar bir yedigində sən iki yegil* nümunəsi cümlə formatlı frazeoloji vahiddir. Digər aşpazlıq peşəsi ilə bağlı frazeoloji vahidlər isə söz birləşməsi formatlı frazeologizmlərdir. İkikomponentli, üçkomponentli və dördkomponentli feili söz birləşməsi formatlı frazeologizmlər vardır.

İkikomponentli feili söz birləşməsi formatlı frazeologizmlər; *ətməgin almaq, süfrə çəkmək, ocağın közü, şəkər yemək, aşını vermək.*

Üçkomponentli feili söz birləşməsi formatlı frazeologizmlər; *dili acı olmaq, un kibi ügidmək, xurd-xaş eyləmək, nemətini çoq yemək, penir kibi ditmək.*

Dördkomponentli feili söz birləşməsi formatlı frazeologizmlər; *nəsibindən artuğın yiyə bilmək.*

Ümumiyyətlə, bu dastanda peşə-sənət frazeologiyasından aşpazlıq ilə bağlı

frazeoloji vahidlərə çox az rastlanılır.

Dədə Qorqud dastanında frazeoloji vahidlərin komponentlərini təşkil edən leksik vahidlərin böyük əksəriyyəti mənşəcə milli sözlərimizdir, oğuz türkcəsini əhatə edən sözlərdir. O dövr üçün alınma sözlər xarakterik deyil. Çox az sayda frazeoloji vahidlər vardır ki, onların tərkibində ərəb, fars və digər xarici dillərdən alınma leksik vahidlər işlənsin. *Nəsibindən artuğın yiyə bilmək, xurd-xaş eyləmək (xurd* farsca xırda, kiçik deməkdir*), nemətini çoq yemək, şəkər yemək* kimi frazeoloji vahidlərin komponentlərinin ifadə olunduğu sözlər mənşəcə ərəb və fars dilinə məxsus sözlər ilə işlənmişdir. *Şəkər və xurd* sözləri fars dilinə aiddir, *nəsib və nemət* sözləri isə ərəb dilinə məxsus sözlərdir.

Frazeoloji vahidlərin yaranmasında komponentlərdən birinin təkrarı ilə əmələ gəlməsinə görə frazeologizmlər reduplikasion frazeologizmlərə ayrılır. Reduplikasion frazeologizm iki yerə bölünür:

1) eyni vahidin təkrarı ilə yaranan frazeologizmlər,
2) iki müxtəlif vahidin iştirakı ilə yaranan frazeologizmlər.

Dədə Qorqud dastanında işlənən aşpazlıq ilə bağlı frazeoloji vahidlərdən eyni vahidin təkrarı ilə yaranan frazeologizmlərə rastlanmır. Ancaq iki müxtəlif vahidin iştirakı ilə yaranan frazeologizmlərə nümunə olaraq *xurd-xaş eyləmək* frazeoloji vahidi vardır.

Dədə Qorqud dastanında işlənən aşpazlıq ilə bağlı frazeoloji vahidlər arasında alqış, qarğış, etik-davranış qaydalarını əhatə edən heç bir performativ frazeologizmlərə rastlanmır.

Nəticə olaraq qeyd etmək lazımdır ki, "Kitabi Dədə Qorqud" dastanında müəyyən sayda frazeoloji vahidlər mövcuddur. Dastandakı aşpazlıq frazeologiyası nümunələri həm müasir dildə işlənən frazeologizmlərdən ibarətdir, həm də dastanın əks etdirdiyi dövrün dili üçün xarakterik arxaik sözlərin də yer aldığı frazeologizmlərdən ibarətdir. Dastandakı aşpazlıq frazeologizmlərinin dil xüsusiyyətlərinə əsasən, ümumtürk dilinin tarixi inkişafını nümunələr özündə əks etdirir. Aşpazlıq frazeologizmlərinin bir hissəsi heç bir linqvistik dəyişikliyə məruz qalmadan, digər hissəsi isə leksik-fonetik dəyişikliyə uğrayaraq müasir Azərbaycan dilində işlənilir.

## ƏDƏBİYYAT


1. *Abdullayev K.* Gizli Dədə Qorqud. Bakı: Yazıçı, 1991, 152 s.
2. *Bağırov N.* Dədə Qorqud dastanlarında somatik frazeologizmlər // Dil Araştırmaları, Güz 2016/19, s.179-185
3. *Bayramov H.* Müasir Azərbaycan dilinin frazeologiyasının əsasları, Bakı: Maarif, 1978, 174 s.
4. *Cavadova R.T.* Kitabi-Dədə Qorqud dastanının tədqiq və nəşr tarixindən // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 2013, №2, s.38-41
5. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı: Öndər, 2004, 376 s.

6. *Məmmədova A.* Kitabi Dədə Qorqud motivli çağdaş bədii əsərlərdə omonim və çoxmənalı sözlərin üslubi xüsusiyyətləri // “Dədə Qorqud” elmi-ədəbi toplu. Bakı: Nurlan, 2014, №4, s.5
7. *Məmmədova A.S.* Kitabi-Dədə Qorqud motivli bədii əsərlərdə mübaliğələrin üslubi özəllikləri” // Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, Bakı, 2011, №4, s.18-25
8. *Tanrıverdi Ə.* “Kitabi-Dədə Qorqud”un söz dünyası. Bakı: “Nurlan”, 2006, 219 s.

Redaksiyaya daxil olub 20.03.2023

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2023, C.71, №2, s. 41-47
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2023, V.71, №2, pp. 41-47

***UOT: 82-1/-9; 82-1/29***

***G.K.Yunusova***
*AMEA Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*yunusova_edu@mail.ru*

# "FÜYUZAT"ÇILARIN ƏDƏBİ DİL SİYASƏTİ VƏ MİLLİ ƏDƏBİ DİLİ "OSMANLILAŞDIRMAQ" TƏŞƏBBÜSLƏRİNİN ETNOTÜRKÇÜ MAHİYYƏTİ

***Açar sözlər:*** *XX əsr, "füyuzat"çılar, dil siyasəti, Azərbaycan ədəbiyyatı, ədəbi-mədəni mühit, türkçülük*

Məqalədə "Füyuzat" (1906-1907) jurnalının ədəbi dil siyasətindən, Azərbaycan ədəbi dilini "osmanlılaşdırmaq" təşəbbüslərindən və onun səbəblərindən söhbət açılır. Göstərilir ki, XX əsrin əvvəllərində Əli bəy Hüseynzadənin redaktorluğu ilə nəşr olunan "Füyuzat" jurnalı xalqımızın ictimai-siyasi, ədəbi-mədəni həyatında mühüm rol oynamışdı. Jurnalın əməkdaşlarının maraq dairələrində olan əsas problemlərdən biri də ədəbi dil siyasəti idi. Onlar yeni Azərbaycan ədəbi dilini osmanlı türkcəsinin bazasında formalaşdırmaq, onu "osmanlılaşdırmaq" mövqeyindən çıxış edirdilər. Bunun səbəbi onların yeritdiyi türkçülük, turançılıq ideologiyası ilə bağlı idi. Belə ki, "füyuzat"çılar bütün türk xalqlarını birləşdirmək, ümumtürk birliyinə nail olamaq siyasəti yürüdürdülər. Belə bir faktoru həyata keçirməkdən ötrü vacib şərtlərdən biri dil birliyi idi. Onlar bütün türk xalqlarının başa düşə biləcəyi ümumtürk dili yaratmağa çalışırdılar. Həmin dilin bazasına isə osmanlı türkcəsini qoyurdular. "Füyuzat"çıların Azərbaycan ədəbi dilini "osmanlılaşdırmaq" cəhdi belə bir ideologiya ilə bağlı idi.

Məqalədə deyilən bu məsələlər elmi şəkildə təhlil edilir.

***Г.К.Юнусова***

# ЛИТЕРАТУРНО-ЯЗЫКОВАЯ ПОЛИТИКА «ФЬЮУЗАТИСТОВ» И ЭТНОТЮРКСКАЯ СУЩНОСТЬ ИНИЦИАТИВ ПО «ОСМАНИЗАЦИИ» НАЦИОНАЛЬНОГО ЛИТЕРАТУРНОГО ЯЗЫКА

***Ключевые слова:*** *XX век, фьюузатисты, языковая политика, Азербайджанская литература, литературно-культурная среда, тюркизм*

В статье рассматривается литературно-языковая политика журнала «Фьюузат» (1906-1907), инициативы по «османизации» литературного языка Азербайджана и ее причины. Показано, что в начале XX века издававшийся под редакцией Али бека Гусейнзаде журнал «Фиюзат» играл важную роль в общественно-политической, литературной и культурной жизни нашего народа. Литературно-языковая политика была одной из главных проблем в интересах сотрудников журнала. Они заняли позицию формирования нового азербайджанского литературного языка на основе османско-турецкого и

«османизации» его. Причина этого была связана с внедренной ими идеологией тюркизма и туранизма. Таким образом, «фуюзаты» проводили политику объединения всех тюркских народов и достижения общетюркского единства. Одним из важных условий реализации такого фактора было языковое единство. Они пытались создать универсальный тюркский язык, понятный всем тюркским народам. Они поставили османский турецкий язык на основе этого языка. С такой идеологией была связана попытка «фьюузатистов» «османизировать» литературный язык Азербайджана.

Эти вопросы, затронутые в статье, подвергаются научному анализу.

***G.K.Yunusova***

## THE LITERARY LANGUAGE POLICY OF THE "FYUUZATISTS" AND THE ETHNO-TURKIC ESSENCE OF THE INITIATIVES TO "OTTOMANIZE" THE NATIONAL LITERARY LANGUAGE

***Keywords:*** *20th century, fyuuzatısts, language policy, Azerbaijani literature, literary and cultural environment, Turkism*

The article discusses the literary language policy of the magazine "Fyuuzat" (1906-1907), initiatives to "Ottomanize" the literary language of Azerbaijan and its reasons. It is shown that at the beginning of the 20th century, the "Fyuuzat" magazine published under the editorship of Ali Bey Huseynzade played an important role in the social, political, literary and cultural life of our people. Literary language policy was one of the main problems in the interests of the magazine's employees. They took the position of forming the new Azerbaijani literary language on the basis of Ottoman Turkish and "Ottomanizing" it. The reason for this was related to the ideology of Turkism and Turanism that they introduced. Thus, the "fuyuzats" pursued the policy of uniting all Turkic peoples and achieving pan-Turkic unity. One of the important conditions for realizing such a factor was language unity. They tried to create a universal Turkish language that all Turkic peoples could understand. They put Ottoman Turkish on the basis of that language. The attempt of "Fyuuzatists" to "Ottomanize" the literary language of Azerbaijan was related to such an ideology.

These issues mentioned in the article are scientifically analyzed.

Ana dili, onun ictimai-mədəni həyatda mövqeyi, çağdaş milli ədəbi dilin yaradılması, bir sözlə, "dil müşkülatı" ilə bağlı XIX əsrin son rübündə başlayan müzakirələr XX əsrin ilk illərindən daha da intensivləşdi, məhsuldar şəkil aldı. Həm də müzakirələrə, mübahisələrə yeni notlar, yeni çalarlar əlavə olundu. Türk qövmlərini birləşdirə biləcək dil birliyi ("ittihadi-lisan") ideyası cücərib boy atdı və ictimai-ədəbi düşüncəni ciddi surətdə məşğul etməyə başladı. "İttihadi-lisan" ideyası əslində türk etnik toplumlarını vahid bayraq altında birləşdirməyi nəzərdə tutan, bu yolda mübarizəyə sövq edən türkçülük, turançılıq ideologiyasının tərkib hissəsi, əsas tezislərindən biri idi. İstər Rusiya imperiyası ərazisində, istərsə də kənar coğrafiyalarda yaşayan çoxsaylı türk

xalqlarını birləşdirmək ideyası hələ XIX yüzilliyin son onilliklərində cücərməyə başladı. Cəmaləddin Əfqaninin dini birliklə yanaşı, milli birliyə də nail olmaq fikri intişar tapdı. "Fikirdə birlik, dildə birlik, əməldə birlik" şüarı İsmayıl bəy Qaspıralının "Tərcüman" qəzetinin əsas ideoloji tezisinə və türk xalqlarını birliyə səsləyişin vacib sədasına çevrildi. XIX-XX əsrlərin hüdudlarında Əli bəy Hüseynzadə, Yusif Akçura, Ziya Göyalp və s. kimi mütəfəkkirlər turançılığın ideoloji modelini hazırlayıb ictimai-mədəni rəyə təqdim etdilər. Bu ideologiya Azərbaycan ədəbi-mədəni və sosial gerçəkliyində də öz təzahürünü tapdı. XX yüzilliyin ilk illərindən özünü büruzə verən bu ideya Əli bəy Hüseynzadənin Bakıya gəlişi, xüsusilə də "Füyuzat" jurnalını nəşr etməsi ilə daha da gurlaşdı. Çox keçmədən bütöv bir ideoloji konsepsiya halına gəldi. Deyildiyi kimi, həmin konsepsiyanın əsas müddəalarından biri də dil birliyinə nail olmaq, müxtəlif türk toplumlarının anlaya biləcəyi müştərək bir türk dili yaratmaq ideyası idi. Bəs bu dili necə, hansı baza, hansı dil faktorları və faktları əsasında yaratmaq? Bu problem ciddi müzakirə və mübahisələrə yol açdı. Problem Azərbaycan ədəbi-mədəni mühitindən də yan keçmədi və qızğın müzakirə obyektinə çevrildi. Həm də deyilən problem yeni Azərbaycan ədəbi dilinin hansı baza əsasında, hansı şəkildə yaradılması məsələsi ilə bilavasitə bağlı oldu. Ona görə də yeni tarixi şəraitdə Azərbaycan ədəbi dilini hansı dil bazası əsasında, nəyə söykənərək yaratmaq məsələsində ciddi fikir ayrılıqları və ixtilafları özünü büruzə verdi. Bu ayrılıq, əsasən, azərbaycançılarla turançılar arasında özünü göstərirdi. Biz problemin detallarını burada yığcam şəkildə nəzərdən keçirəcəyik. Çünki həmin məsələ osmanlı türkcəsinə və ədəbiyyatına münasibətlə bilavasitə bağlıdır.

XX əsrin əvvəllərində Azərbaycan ədəbi dilini "osmanlılaşdırmaq" meyilləri gücləndi. Bu ideyanın təmsilçiləri Əli bəy Hüseynzadə başda olmaqla türkçülər və turançılar idilər. "Həyat", "Füyuzat", "Yeni füyuzat", "Şəlalə" kimi mətbuat orqanları onların əsas təbliğat və təşviqat tribunası idi. İdeyanın əsas konturları və yükü "Füyuzat" jurnalının səhifələrində intişar tapdığından onlar həm də "füyuzat"çılar adı ilə tanınır. Turançıların, başqa sözlə, "füyuzat"çıların nicat və tərəqqi proqramında "ittihadi-lisan" problemi öndə gəlirdi. Onların fikrincə, türk birliyinə, onun xilas və tərəqqisinə nail olmaq üçün hər şeydən öncə dil birliyinə nail olmaq lazımdır. Türk ittihadı dil ittihadına bağlıdır. Bu məramın təbliğinə Əli bəy redaktoru olduğu "Həyat" qəzetinin ilk nömrəsindən başlamışdı. Qəzetin proqram səciyyəli "Qəzetimizin məsləki" adlı ilk baş məqaləsində türkçülüyün ideoloqu yazırdı: "Bir vaxtlar Şərqdə milləti-islam beynində ərəb və fars dilləri ülum və maarifə alət bulunmuş olduğundan, ərəb və fars qövmləri xeyli tərəqqiyyati-iqtisadiyyəyə və ictimaiyyəyə malik oldular. Bu gün isə ülum və ədəbiyyat türk dilində olmaq üzrə tərəqqiyə başladığından ümum Şərqdə maarifin ən gözəl vasiteyi-intişarı türk lisanı olmuşdur" [5].

Əli bəyin və məsləkdaşlarının Azərbaycan ədəbi-mədəni mühitinə gətirmək

və tətbiq etmək istədikləri dil hansı dil idi? Bunun praktik nümunəsi "Füyuzat" jurnalının və "füyuzat"çıların dili idi. Həmin praktiki nümunədən başqa jurnalın səhifələrində təbliğat məqsədilə ortaq türk dilinin məziyyətləri barədə yazılar da dərc olunurdu. Bu, osmanlıda işlədilən ümumxalq danışıq dili yox, bir qrup osmanlı ədib və şairləri tərəfindən işlədilən ağır tərkibli, ərəbizm-farsizmlərlə yüklənmiş qəliz bir türkcə idi. Hansı ki, Türkiyə türklərinin sadə adamları tərəfindən o qədər də anlaşılmayan həmin türkcə "osmanlı türkcəsi" adlandırılır və türançılar tərəfindən ümumtürk ədəbi dil nümunəsi kimi nişan verilirdi.

"Füyuzat" jurnalının ilk nömrəsində Əhməd Raiqin "ittihadi-lisan" probleminə həsr olunmuş "Müsahibeyi-ədəbiyyə" adlı məqaləsi dərc olunmuşdur. Məqalə həm də jurnalın dil siyasətini ifadə edir. Müəllif son zamanlar Rusiyada türk-tatar qövmü arasında baş verən intibahı alqışlayır və inkişafın daha səmərəli təmini üçün dil birliyinə ehtiyac olduğunu söyləyir. Bildirir ki, Çindən Ağ dənizə qədər yayılmış türklərin dilləri fərqli şivələrə ayrılmışdır. İndi isə zamanın tələbi "bütün türklərin şükufeyi-ruhi olacaq bir ədəbiyyati-qərra"ya və "tövhidi-lisan"a ehtiyac doğurmuşdur. Həmin dil isə həm də "lisani-ümumiyi-ədəbi", yəni ümumi ədəbi dil olmalıdır. Belə bir dili isə qələm əhli hasilə gətirir. Necə ki osmanlıların qələm sahibləri həmin dili yaratmışlar: "Ələlümum əhli-qələm tərəfindən bulunmuş bir lisan vardır ki, iştə türklərin "lisani-ədəbəsi" odur! Nəşr və təmiminə çalşacağımız da bu "lisani-ədib"dir" [2, s.9-10]. Müəllif onu da xatırladır ki, bəzi türk ədibləri və şairləri əsər yazarkən dilə ifrat dərəcədə ərəb-fars sözləri qatmışlar. Ədəbi dil nə alınmalarla ifrat yüklənmiş, nə də ifrat məhəlli olmamalıdır. Ə.Raiqin qənaətinə görə, İstanbulda yaranan ədəbi dil ümumtürk qövmü üçün ortaq ədəbi dil olmalıdır: "Surəti-imla, tərzi-bəyan, üslubi-ifadə və sairə üçün İstanbul ədəbiyyatı təqlid olunmalı, lüzumsuz yerə və sırf türkcə müqabilləri varkən ərəbi və farsidən kəlmə istemal etmək meyil və inhim akindən ictinab etməli! Ehyası əlzəm olan və ədəbiyyata yarar ümumi türkcə kəlmələri çoxca istemal edib mənus qılmalı" [2, s.10].

"Füyuzat"çılar dil siyasətini istər praktiki, istərsə də nəzəri baxımdan ardıcıl olaraq diqqət mərkəzində saxlayırdılar. Jurnaldakı materialların dili onun praktiki nümunəsini təşkil edirdi. Bundan əlavə məcmuənin səhifələrində onlar yaradılması uğrunda mübarizə apardıqları ümumtürk dilinin mahiyyəti, konturları, xarakteri, linqvistik səciyyəsi, bazası barədə nəzəri mülahizə və təkliflər irəli sürür, ayrıca məqalələrlə çıxış edirdilər. Həmin məqalələrdən Ə.Raiqin yuxarıda haqqında danışdığımız yazısından başqa Əli bəy Hüseynzadənin "Türk dilinin vəzifeyi-mədəniyyəsi" (1907, №9), Müəllim Bəkirin "Türklər üçün şiveyi-ümumiyyənin lüzumu" (1907, №9), Həsən Səbri Ayvazovun "Lisan qovğası" (1907, №16), Əhməd Kamalın "Müxtəsər bir cavab" (1907, №21) və s. məqalələrini göstərə bilərik.

Ə.Hüseynzadə jurnalda "Turani" imzası ilə çap olunmuş "Türk dilinin

vəzifeyi-mədəniyyəsi" məqaləsində uzun əsrlər boyunca ərəb dilinin mütəhərrik şəkildə işlənib din və məzhəb, farscanın poeziya və ədəb dilinə çevrildiyinə, türk dilinin isə ədəbi-mədəni həyatda sıxışdırılıb imkanlarının məhdudlaşdırıldığına diqqəti cəlb edir. Bildirir ki, nə qədər sıxışdırılsa da, türk dilinin son dövrlərdə Asiya coğrafiyasında mövqeyi güclənməyə üz tutmuş, o, "dövri-cədid üçün tərəqqi və mədəniyyət dili"nə çevrilməyə başlamışdır. Müəllifin fikrincə, indi islam xalqlarının intibahının, elmi-mədəni tərəqqisinin yeni dövrü başlayır. İslam aləmində bu dövrün əsas ünsiyyət açarını, "təriqi-mədəniyyət"in intişar vasitəsini türk dili təşkil edəcək. Çünki onun təsir dairəsi Mancuriyadan başlayıb Afrikanın şimalına qədər böyük bir coğrafiyanı əhatə edir. Əli bəy israrla və inamla nəzərə çatdırır ki: "Bunları (müsəlmanları-G.Y.) təriqi-mədəniyyətə çıxaracaq vasitə nə ərəb, nə fars, nə rus və nə də firəng dilidir. Bu vasitə ancaq və ancaq türk dilidir. Bizə avropalıların lisani-ümumi deyə icad etdikləri nə Vulapuk və nə də Esperanto lazımdır...Zatən türk dilinin qəvaidi-əsliyyəsi Avropa üləmasından Maks Müllerin dəxi isbat etdigi vəchlə fövqəladə müəyyən və məntiqə müvafiq surətdə mükəmməl olmaqla bu dil bütün Asiya üçün bir lisani-ümumi yerinə keçə bilər" [2, s.140]. Türkçülüyün ideoloqu ümumtürk dili yaratmağın çıxış yolu barədə öz qənaətini də söyləyir və onu konkret şəkildə belə ifadə edir: "Biz öz müxtəlif şivə və ləhcələrimizi islah və tövhid ilə özümüzə məxsus mədəni və ədəbi bir ümumi türk dili vücudə gətirə biləriz" [2, s.140].

Müəllim Bəkirin "Türklər üçün şiveyi-ümumiyyənin lüzumu" məqaləsindəki fikirlər, demək olar ki, Ə.Hüseynzadənin mülahizələri ilə səsləşir. O, məqalədə Rusi-yada yaşayan "türk (tatar) qardaşlarımız üçün bir lisani-ədəbinin intixab edilməsi" lüzumundan söhbət açır. Bildirir ki, türk qövmlərini "xabi-qəflətdən" xilas edib maarif və tərəqqi günəşinin nuru ilə isitmək, işıqlı fikirlərlə irəliyə aparmaq üçün birliyə ehtiyac vardır. Həmin birliyi təmin etməkdən ötrü "ittihadi-lisan"a nail olmaq, müxtəlif şivələrdə danışan türk etnoslarını birləşdirəcək vahid ədəbi dil yaratmaq lazımdır. Bunun çarəsi isə osmanlı maarifpərvərlərinin və "ərbabi-qələminin" işlətdiyi "qəvaidi-osmaniyyə"ni kiçik dəyişikliklərlə ümumi ədəbi dil kimi qəbul etməkdən keçir: "...bunun yeganə çarəsi əl-halətə həzihi məarifpərvərani-osmaniyyənin tərtibkərdələri olub bir çox tədqiqati-əmiqələri və islahat nətcəsi olaraq vücudə gələn "qəvaidi-osmaniyyə" mütəkəllim bulunduğumuz lisani-türkün əsasına müvafiq və mütabiq göründüyündən eynən və yaxud cüzi bir təhrif ilə qəbul edilsə, az vaxt zərfində ittihadi-lisan meydana gəlməsinə səbəb olur və bu vasitə ilə vaxt qayib etmədən rahi-tərəqqiyə ayaq basmış olur idik" [2, s.142-143]. Müəllif həmin qaydaları kütləviləşdirmək, onun ictimaiyyət tərəfindən mənimsədilməsini sürətləndirmək məqsədilə osmanlı türkcəsində milli arenada kitablar, mətbuat orqanları nəşr etməyi, əsərlər yazmağı, onu tez bir zamanda tədris və təlim prosesinə daxil etməyi məsləhət görür.

Həsən Səbri Ayvazovun "Lisan qovğası" məqaləsi "füyuzat"çıların dilini və dil siyasətini bəyənməyib ona müxalif çıxan, "sən bizi türkləşdirmək, osmanlılaşdırmaq istəyorsan, biz tatarız, dilimiz də tatarca olmalıdır", - deyənlərə qarşı yazılmışdır. Mühərrir qeyd edir ki, indi bir çoxları türkcəni sadələşdirmək, "camaatın dərəceyi-idrakiyyəsinə" uyğunlaşdırmaq üçün bir sıra ərəb-fars sözlərini dildən çıxarmağı təklif edir. Halbuki buna lüzum yoxdur. Hansı dildən istifadə məsələsinə gəlincə, H.S.Ayvazov da "lisanımızda osmanlı türklərini təqlid etməyi" təklif edir. "Tərcüman", "Vətən xadimi", "Füyuzat" kimi mətbuat orqanlarının işlətdiyi dili türk xalqları üçün ən məqbul ortaq dil hesab edir. Azərbaycanda "Füyuzat"ın dilini ən nümunəvi, mükəm-məl və fəsih ədəbi dil sayır. Onun çox keçmədən kütləvi miqyasda işlək ədəbi dil statusu qazanacağına inanır: "Füyuzat" isə bütün cəraidi-milliyyə və məcmuələrimiz miyanında ən fəsih, ən bəliğ, ən mükəmməl lisan qullanan bir məcmueyi-nadirədir... Ümid ediyoram ki, er-gec bütün Rusiya müsəlmanlarının nəhayət varub dayanacaqları lisan "Füyuzat" lisanıdır" [2, s.253].

Əhməd Kamalın "Müxtəsər bir cavab" məqaləsi İbrahim Tahir Müsayevin "Tazə həyat" qəzetində çıxan və Ə.Kamalın dil və ədəbiyyat barədə baxışlarını tənqid edən bir məqaləsinə cavab kimi yazılmışdı. Doğrudur, şair İ.T.Musayev özü şeirlərini ərəb-fars-türk qarışığından ibarət bir dildə yazırdı. Lakin nəzəri baxımdan sadə bir dildə yazmağı məsləhət görür, hibrid bir leksikona malik əsərlər qələmə almağı "osmanlı qaşığı ilə türk şorbası içirməyə" bənzədirdi. O, dil siyasətinə münasibətdə nəzəri şəkildə öz mövqeyini belə ifadə edirdi: "Əfəndim, biz Qafqaz şairləri isək, məqsədimiz açıq bir lisanilə milli nəzmlər deyib də əbnayi-vətənimizi təqazayi-zamanca tərəqqi və təali yoluna sövq etməkdir" [9].

Ə.Kamal İ.T.Musayevə cavabında ilk növbədə onun şeirlərinin dilinə irad tutur, onda İran, yəni fars ruhunun və leksikasının ziyadə olduğunu söyləyirdi. Onu da nəzərə çatdırırdı ki, dünyada elə bir ədəbi dil yoxdur ki, tamamilə çoban və əkinçi dilindən ibarət olsun. Bununla da o, dildə ifrat sadəliyi məqbul saymırdı. Nəhayət, türk xalqlarının ünsiyyət və dil ittihadı baxımından "həpisinin qibləgahi-təkamülü, yəni son varacağı yol" kimi "osmanlı lisanını" nişan verirdi. "Ərbabi-qələmin" hamısına bu dildə yazmağı təklif edirdi [2, s.329].

"Füyuzat" bağlandıqdan sonra "Yeni füyuzat" və "Şəlalə" jurnallarının əməkdaşları istər praktiki, istərsə də nəzəri istiqamətdə onun dil siyasətini davam etdirirdilər. Onlar da Azərbaycan ədəbi dilini osmanlı türkcəsinə uyğunlaşdırmağı, osmanlı ədib və şairlərinin son onilliklərdə istifadə etdikləri ədəbi dilə uyğun bir dildə yazmağı təklif edirdilər. Hər iki məcmuədə çıxan əsərlərin dil və üslub xüsusiyyətləri "füyuzat"çıların dil-üslub xüsusiyyətlərini xatırladırdı. Lakin bu tendensiya tərəqqipərvər Azərbaycan ziyalılarının hamısı tərəfindən yekdilliklə qəbul edilmirdi. Azərbaycan ədəbi-mədəni mühitində

"füyuzat"çıların və onların davamçılarının dil siyasətinə qarşı kəskin etirazlar da özünü göstərirdi. Bu mövqeyin əsas müdafiəçiləri azərbaycançılar idilər. Onların önündə isə Cəlil Məmmədquluzadə başda olmaqla "molla nəsrəddin"çilər gedirdilər. "Molla nəsrəddin"çilərdən əlavə bir sıra millət xadimləri, qələm sahibləri də Azərbaycan ədəbi dilini "osmanlılaşdırmaq" meyillərinə qarşı çıxır, ona kəskin müqavimət göstərirdilər. Onlar formalaşması lazım gələn ədəbi dilin bazasında sadə xalq dilini, hamı tərəfindən başa düşülən Azərbaycan türkcəsini görürdülər. Həm nəzəri, həm də praktiki olaraq bu mövqeyi müdafiə edir, əsərlərini də sadə xalq dilində qələmə alırdılar.

## ƏDƏBİYYAT


1. *Bayramlı O.* "Həyat" qəzetində ədəbiyyat məsələləri (1905-1906): / Fil. elm. nam. ... dis. Bakı, 1981, 184 s.
2. "Füyuzat" jur. [1906-1907]. Tam mətni / Latın əlifbası ilə təkrar nəşrə hazırlayan: O.Bayramlı. Bakı: Çaşıoğlu, 2007, 672 s.
3. *Hadi M.* Əsərləri: 2 cilddə, II c., Bakı: Avrasiya press, 2006, 380 s.
4. *Həsənova K.* "Füyuzat" jurnalında təlim-tərbiyə məsələləri. Bakı: Elm və təhsil, 2018, 216 s.
5. *Hüseynzadə Ə.* Qəzetimizin məsləyi / Həyat" qəz., Bakı, 1905, №1
6. *Hüseynzadə Ə.* Qırmızı qaranlıqlar içərisində yaşıl işıqlar. Bakı: Azərnəşr, 1996, 292 s.
7. *Hüseynzadə Ə.* Türklər kimdir və kimlərdən ibarətdir. Bakı: Mütərcim, 1997, 292 s.
8. *Hüseynzadə Ə.* Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2007, 480 s.
9. *Musayev İ.* Əhməd Kamala cavab / "Təzə həyat" qəz., Bakı, 1907, 22 iyun
10. Yeni füyuzat. (1910-1911). Tam mətni. İkinci nəşri. (Ərəb əlifbasından latın əlifbasına çevirən: Həşimli Hüseyn). Bakı: Elm və təhsil, 2010, 448 s.


Redaksiyaya daxil olub 01.05.2023

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2023, C.71, №2, s. 48-56
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2023, V.71, №2, pp. 48-56

# İctimai elmlər

*UOT 31*

***Q.M.Əsədova***
*Milli Azərbaycan Tarixi Muzeyi*
*esedova.q@mail.ru*

## AZƏRBAYCAN MƏİŞƏTİNDƏ QADIN ƏMƏYİNİN TƏTBİQİNƏ DAİR (XIX-XX ƏSRLƏRDƏ)

***Açar sözlər:*** *təsərrüfatda qadın əməyi, qadın əməyinin istismarı, patriarxal cəmiyyətdə qadın, qadın hüquqları, urbanizasiya, ictimaiyyət və qadın, texniki tərəqqi*

Məqalədə tarixən qadın əməyinin təsərrüfatın müxtəlif sahələrində tətbiqindən, onun əməyinin patriarxal cəmiyyətdə dəyərləndirilməsindən, müxtəlif etnoslarda (talışların, kürdlərin, malakanların nümunəsində) qadına münasibətdə onun təsərrüfatdakı fəaliyyətinin əhəmiyyətindən bəhs olunur.

XIX əsrin II yarısından etibarən cəmiyyətdə qadının kapitalist müəssisələrində işlərə cəlb edilməsi onu sadəcə təsərrüfatda işçi olmaq rolundan çıxararaq ictimai həyatda da fəal bir tərəfə çevirmişdir. Göstərilir ki, XX əsrdən etibarən Azərbaycanda qadın həm kənd təsərrüfatında, həm də sənayedə fəaliyyət göstərməklə iqtisadi, ictimai həyatda mühüm rol oynamışdır.

***Г.М.Асадова***

## О ПРИМЕНЕНИИ ЖЕНСКОГО ТРУДА В АЗЕРБАЙДЖАНСКОМ ХОЗЯЙСТВЕ (В XIX-XX вв.)

***Ключевые слова:*** *женский труд в экономике, эксплуатация женского труда, женщины в патриархальном обществе, права женщин, урбанизация, общество и женщина, технический прогресс*

В статье рассказывается об историческом применение женского труда в различных сферах хозяйства, оценке ее труда в патриархальном обществе, значении ее деятельности в хозяйстве по отношению к женщинам в разных этнических группах (на примере талышей, курдов и малакан).

Со второй половины XIX века вовлечение женщин в капиталистические предприятия общества отстранило их от роли простой работницы в экономике и превратило в активного участника общественной жизни. Показано, что с XX века женщины в Азербайджане играют важную роль в экономической и общественной жизни, работая как в сельском хозяйстве, так и в промышленности.

**G.M.Asadova**

## ABOUT THE APLICATION OF WOMEN LABOUR IN TRADITIONAL HAUSEHOLD OF AZERBAIJAN (IN THE XIX AND - XX CENTURY)

***Keywords:*** *women labour in economy, the exploitation of women labour, women in the patriarch society, women rights, urbanization, the society and women, technical development*

This article covers women's labour in different spheres of economy, appreciation of their work in the patriarch society, and the significance of their activities in the economy in accordance with the attitude of different minorities (on the example of Talysh, Kurds and Malakans) towards women.

Since the II half of the XIX century the involvement of women in jobs in the capitalist establishments has not only signified their roles as economy employees in the society, but also made them as active participants in the public life. It is shown that since the XIX century women have played a vital role in the economic and public life of Azerbaijan through their activities both in agriculture and industry.

Tarixən cəmiyyətin təsərrüfat həyatı qadın və kişi əməyinin ortaq vəhdəti əsasında inkişaf etmişdir. Fiziki qüvvə tutumlu sahələr kişilərin, əmək tutumlu istiqamətlər isə qadınların məşğuliyyət bazasını təşkil etmişdir. XIX əsrin ikinci yarısında Azərbaycanda kapitalist münasibətlərinin formalaşmağa başlaması əsrlərlə mövcud olan əmək münasibətlərinin ümumi fəlsəfəsinə, o cümlədən əmək bazarına fərqli yanaşmanın meydana çıxmasına səbəb oldu. Elmin, texnikanın əldə etdiyi nailiyyətlər imkan yaratdı ki, fiziki gücə əsaslanan məşğuliyyət sahələri tədricən aradan qalxsın. Əvəzində texnika tutumlu, daha rahat və nisbətən yüngül əmək sahələri formalaşdı. Nəticədə, tarixən cinslər arasındakı fiziki fərqlər səbəbindən formalaşan təsərrüfat ənənələrinə fərqli münasibət meydana çıxdı. Müxtəlif istehsal, istehlak, o cümlədən xidmət sahələrində əsrlərlə mövcud olan cins ayrımı "qadın işi" və "kişi işi" kimi anlayışlar tədricən aradan qalxmağa başladı. Müxtəlif sivilizasiyalarda bu prosesə münasibət fərqli olsa da, zaman keçdikcə məşğuliyyət sahələrində əmək resursları cins kateqoriyası əsasında deyil, bilik, bacarıq və vərdiş prinsipləri rəhbər tutulmaqla seçilib dəyərləndirilməyə başladı. Beləliklə, buxar mühərrikləri nəinki əmək münasibətlərini, o cümlədən cəmiyyətin strukturunu, iyerarxiyasını, münasibətlərinin məcmusunu yenidən formalaşdırdı. Engelsin fikirlərinə əsaslansaq, "*enerjinin çevrilməsi qanunu təbiətşünaslıq üçün nə qədər əhəmiyyətlidirsə, həmin qanun tarix elmi üçün, sinifli cəmiyyətin inkişafını başa düşmək üçün də eyni dərəcədə əhəmiyyətlidir*" [14].

Elmi ədəbiyyatdan da məlum olduğu kimi, azərbaycanlıların məişətində əksər hallarda qadın kişi ilə bərabər çiyin-çiyinə çalışıb. Əkinçilikdə,

sənətkarlığın müxtəlif sahələrində, xüsusilə də ipəkçilikdə, xalçaçılıqda qadın əməyi yüksək tutuma malik olub.

XIX əsrdən etibarən təsərrüfatda qadın əməyinin həcmi daha da artır. Bu, bir tərəfdən əmtəə münasibətlərinin formalaşması və dövriyyənin artması ilə bağlı idi. Digər əhəmiyyətli səbəb isə sənayenin inkişafı nəticəsində baş verən urbanizasiya prosesi idi. Kənddən qazanc dalınca şəhərə gedən kişilərin sayı əvvəlki dövrlərlə müqayisədə xeyli artmışdı. Statistik məlumatlara əsaslansaq "*1896-cı ildə şəhər əhalisi ümumi Azərbaycan əhalisinin 16,9 faizini, 1913-cü ildə isə artıq 23,8 faizini təşkil edirdi*" [2, s.101]. *1897-ci ildən 1915-ci ilədək Bakının əhalisi 112,2 min nəfərdən 262,4 min nəfərə, Gəncə şəhərinin əhalisi isə 33,6 min nəfərdən 59,7 min nəfərə qədər artmışdı. Nuxanın əhalisi 28,4 mindən 52,2 minə, Şuşanınkı 25,6 mindən 43,8 minə, Qubanınkı 17,4 mindən 26,9 minə, Şamaxınınkı 23 mindən 27,3 minə, Lənkəranınkı 10,6 mindən 17,8 minə çatmışdı. 1915-ci ildə Naxçıvanın əhalisi 9 minə yaxın, Ordubadınkı isə 6,5 min nəfər idi* [1, s. 94]. Şəhərlərdə əhalinin sayının sürətlə artmasında Çar Rusiyasının həyata keçirdiyi köçürmə siyasətinin də əhəmiyyətli payı var idi. Lakin şəhər əhalisinin sayının artması fonunda kənd əhalisinin çəkisinin azalması faktı kənddən şəhərə olan axını təsdiq edir. "*1897-1913-cü illərdə Azərbaycanın kənd əhalisi artaraq 1502 mindən 1783 min nəfərə çatmışdı. Buna baxmayaraq, həmin dövrdə Azərbaycan əhalisinin ümumi sayı fonunda kənd əhalisinin nisbi çəkisi 83,1 faizdən 76,2 faizə enmişdi*" [1, s. 102].

Kənd təsərrüfatında məhsulların qiymətlərinin əksər hallarda sərfəli olmaması, irriqasiya problemləri, quraqlıqlar, həmçinin satış bazarlarına çıxış məhdudiyyətləri, nəqliyyat problemləri, satışdan gələn gəlirlərin aşağı olması bu prosesə təkan vermişdi. Çar Rusiyasının həyata keçirdiyi müstəmləkə iqtisadiyyatı kontekstində ucuz xammal əldə etmək marağı, yerli istehsalçıların xarici bazarlara çıxış imkanlarının dəstəklənməməsi kişilərin kənd təsərrüfatına marağını azaldan aspektlərdən biri idi. Kişilər sənayedə və müxtəlif xidmət sektorlarında işləməklə daha böyük gəlir əldə edirdilər. Qeyd etmək lazımdır ki, bu proses təkcə Azərbaycan üçün deyil, eyni zamanda əksər qərb dövlətləri və kapitalist inkişaf mərhələsinə qədəm qoymuş xalqlar üçün xarakterik idi.

XIX əsrdən etibarən qadınların fermer təsərrüfatlarında və ya şəxsi təsərrüfatlarda iştirakının artması inkişaf kimi görünə bilər. Lakin qadınların əməyi kənd təsərrüfatında kişilərin şəhərə miqrasiyasından sonra onların da əməyini öz üzərinə götürməklə daha da ağırlaşır. Həmçinin 1914-1918-ci illərdə baş vermiş I Dünya müharibəsi dövründə Avropada kişilərin əksəriyyətinin müharibəyə cəlb olunması qadınları kişi əməyini də yerinə yetirməyə məcbur etdi.

XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində regiondan, yaşadığı

ərazinin xammal ehtiyatlarından asılı olaraq qadınlar müxtəlif sahələrdə əmək fəaliyyəti ilə məşğul olurdular. Lənkəranda çəltikçilik, Car-Balakəndə tütünçülük, quru meyvəçilik, Şamaxı, Qarabağ, Naxçıvanda əsasən ipəkçilik təsərrüfatlarında məşğul olunan qadınlar əmtəəlik mal istehsal etməklə yanaşı, həm də ev təsərrüfatının əsas icraçıları idilər. Kapitalist münasibətlərinin tələblərilə tədricən ayaqlaşmalarına baxmayaraq, cəmiyyətdə natural istehsal qaydaları davam edirdi. Qadınlar həmçinin ailənin ehtiyaclarını ödəmək üçün həyətyanı sahələrində əkin əkir, heyvan saxlayır, paltar tikir, xalça toxuyur və s. işlərlə məşğul olurdu. Bir qayda olaraq, gəlinlik yaşına çatmış qızların ev təsərrüfatını idarə edə bilməsi onun əsas məziyyəti hesab olunurdu. Dəqiqlik, sayıqlıq, zirəklik, zövqlülük, xalça toxumaq, paltar tikmək, yır-yığış, biş-düş, yırtıq-yamaq işlərini bilmək qızın tərbiyəsi, abır-isməti qədər vacib amillərdən idi.

XX əsrdə kapitalist münasibətlərinin cəmiyyətdə bərqərar olmasına baxmayaraq, ənənəvi məişətə xas olan patriarxallıq sıradan çıxmamışdı. Ailələrdə əsas qərarları kişilər qəbul edir və icrasını tələb edirdilər. Adətən qadınların istək və arzuları nəzərə alınmırdı. Kişilərin qərarlarının icrasına nəzarəti əsasən ailənin ağbirçəkləri – ana və yaxud qayınana yerinə yetirirdi. Ağbirçəklərin ailə dəyərlərinin qorunmasının həm də təsərrüfat işlərinin icrası zamanı vaxtilə özlərinin görüb keçirmiş olduqları həyat tərzini gələcək nəslə ötürməkdə rolu kifayət qədər böyük idi. Kimin hansı işi yerinə yetirəcəyinə, bu zaman nələrə diqqət etməli olduğuna, icraatına nəzarət edirdilər. Q.Qeybullayev bildirir ki, *"əsasən əkinçilik və heyvandarlıqla məşğul olan ailə üzvləri arasında əmək bölgüsü olurdu. Qadınlar arasında işin bölüşdürülməsilə yaşlı qadın gələcən və ya xuvar (bacı) məşğul olurdu"* [17]. *"SMOMPK-ın XIV buraxılışında "Vartaşen və onun sakinləri haqqında qısa məlumat" adlı məqaləsindən belə nəticəyə gəlmək olur ki, böyük ailənin başında "qojin padşah", yəni ailənin böyüyü, padşahı dayanırdı. Onun əmrləri ailənin fərdləri üçün qanun sayılır və müzakirəsiz yerinə yetirilirdi. Ailənin təsərrüfatını, ailəyə məxsus bütün maddi və mənəvi məsələlərin həllini ata yerinə yetirərdi. Ata öldükdə bütün funksiyalar böyük oğula, oğul olmadıqda anaya keçirdi. Udi ailəsində atadan sonra ana və böyük qadın əsas sayılırdı. Böyük qadınlara udilərdə "kala kurux" deyilir. Ailənin daxili həyatı ilə bağlı bütün məsələlərin həlli onun üzərinə düşürdü"[16].*

Azərbaycan ərazisində yaşayan müxtəlif etnoslarda qadına münasibət əksər hallarda oxşar səciyyə daşısa da, D.Kistenevə görə, *"talış ailəsinin üzvləri şəxsiyyətcə digər etniklərlə müqayisədə daha müstəqil və azaddırlar. Bu da əhalinin, xüsusən də qadınların təsərrüfatda fəal iştirak etməsi ilə əlaqədardır. Talışlarda çəltiyin tumcara basdırılmasını yalnız qadınlar həyata keçirərdi. Daimi surətdə bu işlə məşğul olan qadın çadra geyinib, yaşmaq taxa bilmirdi. Məhz bu talış ailəsində qadınların daha müstəqilliyinə səbəb olmuşdur"* [16].

Qeyd etmək lazımdır ki, *"XIX əsrin 90-cı illərində Lənkəran qəzasında 13.000 desyatindən çox çəltik əkilmişdi; 1905-ci ildə isə 64.335 desyatin çəltik əkilmişdi*" [5; s.80]. Bu rəqəmlər qadın əməyinin nə qədər geniş miqyasda tətbiq olunduğunu təsəvvür etməyə imkan verir. Qadının üzərinə düşən əməyin həcminin çoxluğu öz növbəsində bəzən çoxarvadlılığa zəmin yaradırdı. Tolstov qeyd edir ki, "*müsəlman olmasına baxmayaraq talışlarda poliqamiyaya çox az rast gəlinir. Lakin düzənlik ərazilərdə isə qadın işçi qüvvəsinin çəltik əkinində böyük rolu səbəbi ilə iki qadınla evliliklərə rast gəlmək olar*" [15]. E.Quliyev yazır ki, "*Talış ailələrində də ailəyə "yola- dədə" adlandırılan ağsaqqallar rəhbərlik edirdi. Ailə iyerarxiyasında ikinci yerdə "yola-moə" adlandırılan ailədəki ən yaşlı qadın dayanırdı. Bütün qərarları "yola-dədə" verirdi. Lakin bu zaman ailənin digər üzvləri xüsusilə də "yola-moə" ilə məsləhətləşirdi*" [8, s.146]. Çursin qeyd edir: "*Ailə həyatının quruluşuna və qadınların ailədəki mövqeyinə gəlincə, talışlar bu baxımdan fərqlənirlər. Talışlarda ailə həyatı daha sərbəst və müstəqildir, patriarxal formada deyil*" [15].

Azərbaycan ərazisində yaşayan müxtəlif etnosların təsərrüfat həyatına nəzər saldıqda aydın olur ki, torpağa və əməyə münasibətdə oxşar adət-ənənələrə malikdirlər. XIX əsrin II yarısında kənd təsərrüfatının bölgələr üzrə ixtisaslaşması tədricən əmək vərdişlərinin yenidən formalaşması prosesi də qadının üzərinə düşən yükü azaltmadı. Əksər türk ailələrində olduğu kimi, ləzgi, avar, kürdlərdə də qadın təsərrüfatda əsas əmək qüvvəsi olmaqla, onun qorunmasına və təşkilinə də rəhbərlik etmək qabiliyyətinə malikdir.

Kürd ailələrində də patriarxal münasibətlər kifayət qədər sərt idi. XVI əsrdə onların yaşadıqları ərazilərə səyahət etmiş Övliya Çələbi yazır ki, "*Van, Bitlis, Diyarbəkirdə kürd qadınlar evdən kənara çıxa bilməzlər. Mən də bazarda və ya küçədə onlarla rastlaşmamışam. Kürdlər özləri qadınlarının son dərəcədə namuslu, dindar və gözəl olduqlarından bəhs edirlər. Küçədə, bazarda hətta kiçik də olsa qız görsələr ya öldürərlər ya da atasını cəzalandırarlar*" [13]. B.Kərimov yazır ki, "*kürd qadını həm ailədə, həm də döyüşdə ərinə arxadır. Döyüşə gedən kürd kişisinin bütün işlərini onun arvadı yerinə yetirir. Yəni ev işləri, mal-qaraya baxmaq və təsərrüfata rəhbərlik məhz qadınların üzərinə düşür*" [16]. Ümumiyyətlə, Azərbaycanın bütün bölgələrində eyni halla qarşılaşmaq olar. Həmin ənənələr bu günədək davam etdirilməkdədir.

Duxabor, baptist, malakan, svoevera və s. təriqətindən olan rusların Azərbaycanda məskunlaşdırılması yeni mədəniyyətin və təsərrüfat adətlərinin yerli məişətə daxil olmasına şərait yaratdı. Onların gəlişi Azərbaycanın etnik mənzərəsinə yeni xüsusiyyətlər gətirdi. İndi də Gədəbəyin Rus Borisi, Slavyanka, Neftçalanın Malağan, Şamaxının Çuxuryurd, Nağaraxana, Qızmeydan, İsmayıllının İvanovka, kəndlərində vaxtilə Rusiyadan köçürülmüş malakanların nəslinin davamçıları yaşayır. Ruslar üçün ayrıca kəndlər təşkil

olunsa da, bəzi ərazilərdə, məsələn, Lənkəranın Sarı adasında onlar yerli xalqla qarışıq yaşayırdılar. Gədəbəyin Rus Borisi kəndinin sakini, əslən rus olan malakan qadın Dançenko Proskovya İvanovna bildirir ki, "*ümumiyyətlə, onların icmasında qadınlar təsərrüfatda geniş rol oynayıblar. Əcdadlarını xatırlayarkən informator bildirir ki, demək olar ki, hər bir qadın tərəvəzçiliklə məşğul olub. Dirrik əkmək, məhsulu toplamaqla bərabər, uşaqların qayğısına qalmaq, əl işləri hazırlamaq, hörmək və tikməklə məşğul olublar. Lakin sonralar təsərrüfat işlərinə aludə olub bu vərdişlər (əl işləri hazırlamaq, hörmək və tikməyi nəzərdə tutur- Ə.Q.) öz yerini hazır geyimləri və məhsulları satın almağa verdi. O bildirir ki, qadınlar arasında bu işlər unudulmasa da əvvəlki qədər də çox məşğul olmurlar. Kişilər isə əsasən maldarlıqla məşğul olub, yığılan məhsulu- buğdanı və tərəvəzi bazara çıxararaq satışını həyata keçiriblər. Sovet dövründə artıq əkin və toplama işləri texnikalarla həyata keçirildiyindən iş nisbətən yüngülləşmişdi. Avqust ayında bolluq və məhsuldarlıq bayramını qeyd edərdik. Bu zaman hamı yığışıb öz nemətləri ilə bölüşərdi. Baptist qadınları bizdən daha qapalı həyat sürürdülər. Onlar demək olar ki, yalnız evdə işləyir, kişilərin icazəsi olmadan heç bir addım atmırdılar. Ailədə əsas qərarları kişilər verir və işlərin çoxunu da özləri yerinə yetirirdilər*"[18].

Məlumatlardan belə nəticə çıxara bilərik ki:

1. Təriqətlərindən asılı olaraq bəzi rus icmalarında qadınlar kişilərlə bərabər hüquqlara malik olmaqla təsərrüfatda mühüm rol oynayıblar.

2. Bəzi rus kəndlərində isə Qafqazın bir çox etnoslarında olduğu kimi patriarxal dəyərlər mövcud olmuşdur. Həmçinin qadının azadlığı onun təsərrüfat yükünün çoxluğu ilə düz mütənasibdir. Yəni qadın nə qədər çox əmək sərf edirsə, bir o qədər də azaddır.

Tədricən XIX əsrin ikinci yarısından etibarən kapitalist müəssisələrinin açılması ilə qadınlar işçi qüvvə kimi muzdlu əməyə cəlb olunmağa başladılar. Ailənin yükünü çiyinlərində daşıyan, kifayət qədər əmək sərf edən qadın patriarxal qaydaların məhdudiyyəti nəticəsində fermerə çevrilə bilmirdi. Qulişambarov yazır ki, "*ipəkçiliyin inkişaf etdiyi regionlarda Nuxa, Zaqatala, Naxçıvanda ipək fabriklərində, ipəyirmə müəssisələrində qadınların sayı demək olar ki, kişilərlə bərabər idi. Qarabağda bu işlə yalnız qadınlar məşğul olurdu. Baramanın çeşidlənməsi, dolaqlara sarınmasını qadınlar və uşaqlar icra edirdi. Onların əmək haqları kişilərinkindən 25- 30% daha aşağı idi. Ucuz əmək qüvvəsi olduğuna görə müəssisələr qadın və uşaq əməyinə çox üstünlük verirdi*" [11, s. 473]. Qadınların fiziki olaraq gücü çatmayan işləri kişilər yerinə yetirirdi.

Tədricən ictimai həyatda yaradılışca qadının kişidən əskik olmadığı qəbul edilirdi. Cəmiyyətdə qadın hüquqsuzluğundan, qadının qapalı

həyatından, başına gətirilən işgəncələrdən və xurafatdan bəhs edən dövrün maarifçiləri qadını və onun əməyini tərənnüm edən əsərlər yaradırdılar. Məsələn, C.Məmmədquluzadə "Arvad məsələsi" adlı məqaləsində müxtəlif xalqlarda qadın hüququna nəzər salaraq göstərir ki, nə Şərqdə, nə də Avropada bu problem öz həllini tapmamışdır. Tələbi isə bu idi ki: "*Müsavat, müsavati-mütləq!" yəni kişilər ilə qadınların hüququnun hər bir barədə bərabərliyi*" [7, s.89]. Həsən bəy Zərdabi hələ XX əsrin əvvəllərində qadın əməyini yüksək dəyərləndirir, onun səmərəli istifadəsini təbliğ edir, kəskin istismara yox deyərək qadınların əmək vasitəsilə ictimai-faydalı işlərə cəlb edilməsini cəmiyyətin inkişafı üçün zəruri amil hesab edirdi. Zərdabi qeyd edirdi ki, "*Azərbaycanda və eləcə də Zaqafqaziyanın əhalisi müsəlmanlardan ibarət başqa əyalətlərində qadınlar sənətlərdən kənarda qalmışlar. O bunun səbəbini bir tərəfdən müsəlman qadınlarının kişilərdən gizlənmək adətində görürdüsə, digər tərəfdən buna acıyaraq Qafqaz Kustar Komitəsindən tələb edirdi ki, yerlərdə xalça emalatxanalarının açılmasına nail olsun. Zərdabi komitəyə məsləhət görürdü ki, Bakı Qadınlar məktəbi ilə əlaqəyə girib, xalçaçılıq sənəti üzrə müəllim kadrlarının hazırlanması işini təşkil etsin*" [4, s.51-52].

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə qadına cəmiyyətdə verilən qiymət artıq özünün şərqdəki ən yüksək həddinə çatdı. Azərbaycan Xalq Cümhuriyyəti qadınlarla kişilərə bərabər hüquqlar verməklə onlara seçmək və seçilmək haqqı tanıdı. 1918-ci ildə 28 mayda elan olunmuş "İstiqlal bəyannaməsi"nin dördüncü bəndində deyilirdi: "*Azərbaycan Xalq Cümhuriyyəti məzhəb, sinif, millət, silk və cins fərqi qoymadan vətəndaşlarına hüquqi-siyasiyyə və vətəniyyə təmin eləyir*" [3, s.344]. Qeyd etmək lazımdır ki, Azərbaycan SSR-nin təşkilindən sonra da qadın siyasəti davam etdirildi. Belə ki, sovet Şərqində ilk qadın klubu 1920-ci ilin mayında Bakıda yaradılan Ə.Bayramov adına klub idi. Onun işində respublikanın ictimai xadımləri fəal iştirak edirdilər [2, s.243]. 1923-cü il "Kommunistika" qəzetinin 5 saylı buraxılışında qeyd olunurdu ki: "*1922-ci il klubun tikiş emalatxanasında 35, yun-sap emalatxanasında 50, toxuculuq emalatxanasında 20 müsəlman qadın, izləmə sexində 20 şagird qadın, ayaqqabı təmirində 25, kisə arteli emalatxanasında 70 nəfər qadın işçi çalışırdı*" [2, s.243]. Etnoqrafiya fondunda saxlanılan Əli Bayramov adına qadınlar klubu nəzdində təşkil olunan kursa aid albomdakı bütün eskiz və lekallar yeni dəbin tələblərinə əsasən formalaşdırılmışdı. Bu albomda 35 tikmə və geyim biçimləri nümunələri, 7 rəng muline sapı, 18 tikmə çeşnisi və 6 vərəqdə geyim nümunələri şəkli vardır [6]. *1922-ci ildə artıq 11 qəza və 6 rayon qadın klubu, qadınlar üçün 17 istehsal arteli təşkil edilmişdi*" [2, s.243].

Müasir dövrdə XX əsrin sonunda Azərbaycanda müstəqilliyin əldə olunmasına, kolxozların ləğv edilməsinə, fermer təsərrüfatlarının yaradılmasına, XXI əsrin əvvəllərində texnika və texnologiyaların kifayət qədər

inkişaf etməsinə baxmayaraq, kənddə qadının əməyinin kustar və ibtidai şəkildə istismarı indi də müşahidə olunur. Müasir dövrdə də cəmiyyətdə ənənələrə bağlılıq həm ailədaxili münasibətlərdə, həm də təsərrüfat fəaliyyətində patriarxallığın tam aradan qalxmadığını təsdiq edir. 2004-cü ildə Dünya Bankının Kəndlərə İnvestisiya Layihəsinin Sosial qiymətləndirilməsi nəticəsində müəyyyənləşdirilmişdir ki, "*bir çox kənd yerlərində qərarları orta yaşlı və qoca kişilər qəbul edirlər və onlar mühüm məsələlər həll olunan görüşlərdə iştirak edirlər. Bəzi qadınlar, əsasən də müəllim və həkim kimi ali təhsilə malik olanlar bu proseslərdə daha böyük rol oynamaq istəsələr də, onların qərar qəbul etmədə iştirakı çox məhduddur. Qiymətləndirmə zamanı aşkar edilmişdi ki, əksər hallarda qadınlardan məsləhət alınmır və onlar görüşlərdə və qərar qəbul etmədə iştirak etmirlər. Bu təcrübələrə baxmayaraq, kəndlərdə yaşayanların yüksək faizi, 67% qadınlar və 63% kişilər hesab edirlər ki, qərar qəbul etmə prosesində qadınların fikri tam şəkildə təmsil olunmur* [12].

Beləliklə, tarixən qadın təsərrüfatın planlaşdırılmasında və reallaşdırılmasında əhəmiyyətli mövqeyə malik olsa da, patriarxal adət-ənənələrə və şəriətə əsasən hüquqi olaraq ona sahiblənmək və idarə etmək imkanlarına malik olmamışdır. Tarixin müxtəlif dövrlərində az sayda sahibkar qadınlar əsasən bu sahədə istisna təşkil edir. Müxtəlif etnoslarda qadına münasibətdə onun təsərrüfatdakı fəaliyyəti əhəmiyyət daşımışdır.

XX əsrdən etibarən Azərbaycanda qadın təsərrüfatın müxtəlif sahələrində fəaliyyət göstərməklə iqtisadi, ictimai həyatda mühüm rol oynamışdır. Xüsusilə cəmiyyətdə qadının kapitalist müəssisələrində işlərə cəlb edilməsi onu sadəcə təsərrüfatda işçi olmaq rolundan çıxararaq ictimai həyatda fəal bir tərəfə çevirmişdir. Azərbaycan Xalq Cümhuriyyəti, həm də SSRİ dövründə bu prosesin dövlət səviyyəsində dəstəklənməsi qısa müddət ərzində qadın əməyinin kişilərlə bərabər qiymətləndirilməsi istiqamətində ciddi addımlar atıldı.

XX əsrdə avtomatlaşdırma, XXI əsrdə süni intellektin istifadəsi tarixən formalaşan münasibətlərin məcmusunu inkar edir, yeni perspektivlər və gələcək spektrləri formalaşdırır. Artıq təsərrüfatın əsas subyekti insan – qadın və kişi fenomenləri öz yerini insan və texnika – robot, ağıllı maşınlara dövr edir.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi: 7 cilddə, V c., Bakı: Elm, 2008, 696 s. + 40 s. illüstrasiya
2. Azərbaycan tarixi: 7 cilddə, VI c., Bakı: Elm, 2008, 568 s.+ 48 s. illüstrasiya
3. Azərbaycan tarixi: 7 cilddə, IV c., Bakı: Elm, 2007, 504 s. + 48 s. illüstrasiya
4. *Cavadova E.* Həsən bəy Zərdabinin etnoqrafik görüşləri / E.Cavadova. Bakı: Elm və təhsil, 2012, 165 s.

5. *Kərimov B.* XX əsrin əvvəllərində Lənkəran qəzasında ticarətin inkişafına dair // AMEA-nın Xəbərlərİ (İctimai elmlər seriyası), 2015, №1, s.78-86
6. MATM Etnoqrafiya Fondu, inv. №8437.
7. *Məmmədquluzadə C.* Seçilmiş əsərləri: 4 cilddə, IV c. / C.Məmmədquluzadə. Bakı: Öndər, 2004, 472 s.
8. *Гулиев Э.* Характер межэтнических взаимодействий в семейно-бытовой сфере в Лянкяран-Астаринском регионе // Etnoqrafiyadan etnologiyaya doğru: Azərbaycanda müasir etnoloji araşdırmalar məqalələr toplusu, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu. Bakı, 2013, s.146-171
9. *Джавадов Г.* Народная земледельческая техника Азербайджана (историко-этнографическое исследование). Баку: Элм, 1989, 304 с.
10. *Пашаев А.* Город Ордубад в XIX - начале XX вв. (историко-этнографическое исследование). Баку: Элм, 1998, 200 с.
11. *Сумбатзаде А.С.* Промышленность Азербайджана в XIX в. А.С. Сумбатзаде. / Баку: Изд-во АН Азерб.ССР, 1964, 501 с.
12. Azərbaycan - ölkə üzrə gender qiymətləndirilməsi / Url: https://www.adb.org/sites/default/files/institutional-document/32448/cga-azerbaijan-az.pdf
13. Akbaş M. Evliya Çelebi'nin Gözüyle Kürtler ve Kürdistan Url: https://dergipark.org.tr/tr/download/article-file/364779
14. Cəmiyyətin sosial strukturu və insanlarin etnik birlikləri Url: https://kayzen.az/blog/f%C9%99ls%C9%99f%C9%99/4809/c%C9%99miyy%C9%99tin-sosial-strukturu-v%C9%99-insanlarin-etnik-birlikl%C9%99ri.html
15. Həmid T. Azərbaycan talışları Url: https://azlogos.eu/az%C9%99rbaycan-talislari/
16. Kərimov B. Azərbaycanda ailə ənənələri: milli və etnik əlamətlərə tarixi-etnoqrafik müstəvidə baxış. Etnoqrafik ailə-nigah terminləri. – I Hissə Url: https://fakultemiz.wordpress.com/2014/01/18/az%c9%99rbaycanda-ail%c9%99-%c9%99n%c9%99n%c9%99l%c9%99ri-milli-v%c9%99-etnik-%c9%99lam%c9%99tl%c9%99r%c9%99-tarixi-etnoqrafik-must%c9%99vid%c9%99-baxis-etnoqrafik-ail%c9%99-nigah-terminl%c9%99ri/
17. Kərimov B. Azərbaycanda ailə ənənələri: milli və etnik əlamətlərə tarixi-etnoqrafik müstəvidə baxış. Etnoqrafik ailə-nigah terminləri. – II hissə Url: https://fakultemiz.wordpress.com/2014/01/18/az%c9%99rbaycanda-ail%c9%99-%c9%99n%c9%99n%c9%99l%c9%99ri-milli-v%c9%99-etnik-%c9%99lam%c9%99tl%c9%99r%c9%99-tarixi-etnoqrafik-must%c9%99vid%c9%99-baxis-etnoqrafik-ail%c9%99-nigah-terminl%c9%99ri-2/
18. İnformator - Dançenko Proskovya İvanovna - informator. Gədəbəyin Rus Borisi kəndinin sakini, 1956


Redaksiyaya daxil olub 26.05.2023

*UOT 94(479.24)*

***H.N.Həsənov***
*A.A.Bakıxanov adına Tarix İnstitutu*
*hacihasanov@mail.ru*

# HACI ZEYNALABDİN TAĞIYEV VƏ ŞOLLAR-BAKI SU KƏMƏRİNİN TİKİNTİSİ

***Açar sözlər:*** *Şollar, Bakı, Tağıyev, uprava, Duma, su kəməri, Şahdağ*

Məqalədə mötəbər qaynaqlar və ədəbiyyatdan toplanılmış maraqlı materiallar əsasında XIX-XX əsrin əvvəllərində Böyük Bakı neft sənayesi rayonunun su təchizatı tarixinin bir sıra mühüm məsələləri nəzərdən keçirilir. Müəllif tərəfindən qeyd edilir ki, uzun əsrlər boyu Bakı şəhərinin su təchizatı son dərəcə bərbad vəziyyətdə olmuş və strateji cəhətdən bu mühüm yaşayış məntəqəsinin əhalisi içməli su qıtlığını güclü şəkildə hiss etmişdir. Şəhərdə mövcud olan bir neçə kəhriz və çoxsaylı quyular suya tələbatı qətiyyən ödəmirdi. Xüsusən də XIX əsrin son illərindən başlayaraq neft sənayesi rayonunun sürətlə genişlənməsi, Bakı şəhər əhalisinin XIX əsrin sonunda 110 min nəfəri keçməsi, Birinci Dünya müharibəsi ərəfəsində isə az qala 250 min nəfərə çatması su təchizatını son dərəcə ciddi bir problemə çevirmişdir. Nə lokal kəmərlər, nə suşirinləşdiricilər, nə də başqa su təminatı qaynaqları bu şəhərin tələbatını qətiyyən ödəmirdi. Belə bir şəraitdə Bakıya böyük suverimli kəmərin çəkilməsi vacib idi. Məşhur mesenat və sənayeçi H.Z.Tağıyevin təkidi ilə bu kəmər Kürdən və ya başqa qaynaqdan yox, məhz zəngin və sağlam su qaynaqları olan Şollardan çəkilərək 1917-ci il fevralında bakılıların ixtiyarına verildi.

***Г.Н.Гасанов***

# ГАДЖИ ЗЕЙНАЛАБДИН ТАГИЕВ И СТРОИТЕЛЬСТВО ШОЛЛАРО-БАКИНСКОГО ВОДОПРОВОДА

***Ключевые слова:*** *Шоллар, Баку, Тагиев, управа, Дума, водопровод, Шахдаг*

В статье на основе достоверных источников и интересных материалов, собранных из литературы, рассмотрен ряд важных вопросов истории водоснабжения Большого Бакинского нефтепромышленного района в начале XIX-XX веков. Автор отмечает, что на протяжении многих веков водоснабжение города Баку находилось в крайне плохом состоянии, и население этого стратегически важного населенного пункта остро ощущало нехватку питьевой воды. Существовавшие в городе немногочисленные кягризы и многочисленные колодцы совершенно не удовлетворяли потребность в воде. В частности, быстрое расширение нефтепромышленного района за последние годы XIX века, численность населения Баку, превышающая в конце XIX века 110 000 человек, а накануне первой мировой войны достигшая почти 250 000 человек, превратили

водоснабжение в чрезвычайно серьезную проблему. Ни локальные водопроводы, ни опреснители, ни другие источники водоснабжения совершенно не могли удовлетворить нужды этого города. В таких условиях было важно построить большой супермагистральный трубопровод в Баку. По настоянию известного мецената и промышленника Г.З.Тагиева этот трубопровод был проведен не от Куры или какого-либо другого источника, а от Шоллара, имеющего богатые и цельные водные источники, и в феврале 1917 года был передан в пользование бакинцам.

***H.N.Hasanov***

## HAJI ZEYNALABDIN TAGIEV AND CONSTRUCTION SHOLARO-BAKU WATER PIPELINE

***Keywords:*** *Shollar, Baku, Tagiyev, council, council, water pipeline, Shahdag*

In article, based on reliable sources and interesting materials collected from the literature, a number of important issues in the history of water supply in the Greater Baku Oil Industrial Region at the beginning of the 19th-20th centuries are considered. The author notes that for many centuries the water supply of the city of Baku was in extremely poor condition, and the population of this strategically important settlement was acutely aware of the lack of drinking water. The few kagriz and numerous wells that existed in the city did not satisfy the need for water at all. In particular, the rapid expansion of the oil-producing region starting from the last years of the 19th century, the population of Baku, which exceeded 110,000 people at the end of the 19th century, and on the eve of World War I reached almost 250,000 people, turned water supply into an extremely serious problem. Neither local water pipelines, nor distillers, nor other sources of water supply could satisfy the needs of this city at all. Under such conditions, it was important to build a large super-trunk pipeline in Baku. At the insistence of the well-known philanthropist and industrialist G.Z. Tagiyev, this pipeline was laid not from the Kura or any other source, but from Shollar, which has rich and healthy water sources, and in February 1917 was transferred to the use of Baku residents.

Xəzərin sahilində Abşeron yarımadasının cənub-qərb hissəsində yerləşən qədim Bakı uzun əsrlər boyu nəinki Azərbaycanın, eyni zamanda Cənubi Qafqazın sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında böyük rol oynamış Azərbaycan şəhərlərindən biridir. O, Dərbənd, Hacıtərxan (Həştərxan) və Ənzəli şəhərləri ilə birlikdə Xəzər hövzəsinin ən əhəmiyyətli limanlarındandır. Bakı orta əsrlərdə Şirvanşahlar dövlətinin (816-1538) mərkəzlərindən, Azərbaycan Səfəvilər dövlətinin (1501-1736) qalasından və nəhayət çoxsaylı işğalçıların can atdığı, həmçinin 1806-cı ilin fevralında şəhərin qala divarlarının önündə – Naxırbulaq adlı yerdə öldürülmüş infanteriya generalı P.D.Sisyanovun qətlə yetirildiyi liman-qala olmuşdur.

Bakı şəhəri 1806-cı ilin oktyabrından işğal olunmuş, əvvəlcə eyniadlı əyalətin (1806-1840), sonra Xəzər əyalətinin (1841-1846) tərkibində eyniadlı qəzanın (1841-1917) və Şamaxı quberniyasının (1846-1859) mərkəzinə çevrilmişdir. 1859-cu ildə baş verən dəhşətli Şamaxı zəlzələsindən sonra quberniya mərkəzi Şamaxı şəhərindən Bakıya köçürülmüşdür. Bu şəhər Şimali Azərbaycanda işğalçı Romanovlar rejiminin süqutuna qədər eyniadlı quberniyanın mərkəzi olmuşdur. 1859-cu ilə qədər əhalinin sayı 9 min nəfərdən az olan, sadə əyalət şəhəri olan Bakı 1872-ci ildə neft sənayesində iltizam sisteminin ləğvindən [bax: 1; 3; 5] sonra sürətlə inkişaf etməyə başlamışdır. Çox qısa müddət ərzində XIX əsrin son otuzilliyində əhalisinin sayı 110 min nəfər olan Bakı nəinki Rusiya imperiyasında nəhəng sənaye mərkəzinə, eləcədə bütün dünyada "Neft Akademiyasına" çevrilmişdir [bax: 1; 3; 5].

Lakin bu nəhəng sənaye şəhərinin yenidən qurulması, xüsusən də su təminatı acınacaqlı vəziyyətdə qalırdı. Tez-tez vəba və digər yoluxucu xəstəliklərin yayılması ilə müşayiət olunan antisanitariyanın hökm sürməsi nəticəsində yüzlərlə insan həyatına son qoyulurdu.

Xan hakimiyyəti dövründən qalmış kəhriz və quyular zəruri su tələbatını belə ödəmək qabiliyyətində deyildi [4, v.56-56 arx.]. Hələ 1859-cu ildə Şamaxının hərbi qubernatoru knyaz Tarxan-Mouravovun canişin Baryatinskiyə "Bakı şəhərində su təchizatının inkişafı məsələsinin icmalı" adlı məruzəsində qeyd edirdi ki, Bakı şəhər idarəsinin su təchizatı üzrə komissiyası şəhərin suya güclü tələbatının olmasını etiraf edir [4, v.56 arx.]. Qubernator yazırdı ki, "yeganə xan su anbarında su yer səthindən 30 pillə aşağıdadır; su satanların bəzən çirkli qablarla buradan götürdükləri su pillələrə dağılır, aşağıya axır və bu su hövzəsini çirkləndirir" [4, v.56 arx.]. Qubernator suyu şəhərdən bir neçə verst aralı olan bulaqdan "başqa kanalla şəhərə gətirməyi qala və forştadtda yerin örtülü hovuzlar inşa olunmasını təklif edirdi. Bu hovuzlardan suyu kranlarla götürmək mümkün olardı; canişin tərəfindən 1859-cu il noyabrın 30-da bu iş üçün ilə 6000 rublluq kreditə icazə verilirdi ki, həmin kredit də şəhər gəlirlərinin qalıqları hesabına geri qaytarılmalı idi [4, v.56 arx.].

1860-cı ildə knyaz Sisyanovun heykəli yaxınlığında hovuz tikildi, eyni zamanda Bakı sakinləri Hacı Şeyxəli və Hacı Ağa Dadaşovun 200 rublluq ianəsi hesabına xan kəhrizinə axan suyun gücləndirilməsi üçün bir neçə quyu qazıldı.

1864-cü ildə Sisyanov hovuzunun yenidən qurulması həyata keçirildi, 1859-cu ildə ayrılmış 6 min rubldan qalan vəsaitin hesabına su kəmərinin gücləndirilməsi həyata keçirildi. 1865-ci ildə su "komendant bağına (indiki Mixaylov bağı) çəkilmişdi ki, buna da 500 rubl ayrılmışdı.

Bu vaxt şəhərdə Xan, Sisyanov və komendant su anbarları mövcud idi.

1867-ci ildə qubernator Kolubyakinə hovuzların tikintisi və yeni yerlərə

su çəkilməsi üçün ehtiyat kapitalın (55880 rubl) 5000 rublundan istifadə etməyə icazə verilir. Quberniya arxitektorunun köməkçisi Qasım bəy Hacıbababəyov tərəfindən xan su anbarından daş körpüyə qədər su kəməri çəkilişi üzrə işlər yerinə yetirilmişdi. Burada ümumi məbləği 2450 rubl 34 qəpik olan işlər görülmüş, bu vəsaitlə gəmiləri və qayıqları su ilə təmin etmək üçün fəvvarəli su anbarı tikilmiş, bu anbarı körpü ilə birləşdirən və fəvvarəni su anbarı ilə əlaqələndirən kanal çəkilmişdi.

Bundan sonra Mariinski (Molokan) bağına su kəməri çəkildi və burada hovuz tikilildi.

Qubernator Kolubyakin haqlı olaraq hesab edirdi ki, əhalinin durmadan artdığı şəraitdə şəhər quyularından çıxarılan su, şəhərin su ehtiyaclarını ödəmək üçün kifayət etməyəcəkdir. Ona görə də o, 1869-cu ildə mühəndis-hidravlik Şabanova Abşeron yarımadasında içməli su axtarılması ilə bağlı göstəriş verdi.

Buzovna qaynağının gündəlik su verimi 27000 vedrə təşkil edirdi, buradan Bakıya su kəmərinin çəkilməsi isə 160.000 rubla başa gələ bilərdi. Gündə 64000 vedrə həcmində su verə biləcək mənbə “batman bostanları” adlı yerdə, Bakıdan 22 verst aralıda aşkar edildi. Hər iki layihə baha olduğu üçün həyata keçirilmədi. Hidravlik Şabanov belə hesab edirdi ki, su şəhərin özündə artezian quyuları və ya sadə quyular vasitəsi ilə çıxarılmalıdır. Bir neçə qazma quyusundan duzlu, içməyə yarasız su çıxdı.

1871-ci ildə şəhərin II hissəsində bulvardakı ağacları sulamaq üçün şəhərin şimal hissəsindəki quyulardan su kəməri çəkildi. Borunun ağzının əksəriyyəti suyun səviyyəsindən yuxarıda yerləşirdi və bunun da nəticəsində borunun maililiyinə baxmayaraq, su onun ancaq 2/3 hissəsinə çatırdı, özü də bu quyudakı suyun azlığı da özünü göstərirdi.

1878-ci ildə Bakıda şəhər əsasnaməsi tətbiq olundu. Şəhərin su təchizatı məsələsi ictimai İdarənin tabeçiliyinə keçir. Bu vaxta kimi suya tələbat güclü şəkildə xeyli artmışdı [4, v.57 arx.].

Quyuların çox hissəsi duzlu və cod su verirdi. Sisiyanov fəvvarəsi sözsüz ki, ziyanlı idi.

1879-cu ildə H.Z.Tağıyevin təklifi ilə Duma “su axtarılması və ən yaxşı su kəməri layihəsinin mükafatlandırılması” üçün 1000 rubl ayırdı... “Su kəmərinin bahalığına görə bu təklif rədd olundu” [4, v.58 arx.].

1884-ci ildə Duma “ilk növbədə” fəaliyyətsizlik və çəkilmiş xərclərin hesabatını təqdim etmədiyinə görə su kəməri Komissiyasının işini pislədi. Həmin ildəcə O.K.Lents Abşeron yarımadasının şimal-şərqində yerləşən Pirşağı, Kürdəxanı, Zabrat, Maştağa və Nardaran kəndlərindən su gətirməyi və şəhəri 40 il müddətinə “gündə 150000 vedrə və hər vedrəsi 1/4 qəpik olmaqla su ilə təchiz etməyi öz üzərinə götürdü. 1885-ci ilin sentyabrında “Maştağa bəndi” adlı yerdə sutkada 26000 vedrə su verən sınaq quyusunun qazılması başa

çatdırıldı" [4, v.58 arx.].

Lakin ayrılan vəsaitin azlığı, eləcə də "Maştağa" suyunun codluğu Lentsi bu işdən əl çəkməyə məcbur edir. 1888-ci ildə Tiflis sakini V.İ.Meqvinov və P.A.Aslanov Bakıya 40-50 il ərzində Bakını su ilə təmin edəcək su kəmərinin Kür və Araz çaylarından çəkilməsi barəsində konsessiyanı təklif edirlər.

1889-1891-ci illərdə xüsusi komissiyanın uzun-uzadı iclasları gedir ki, bu iclaslarda həmin layihələr və digər layihələr nəzərdən keçirilir. Bu layihələrin içərisində M.A.Unanovun 1890-cı ildə təklif etdiyi və Göygöldən Bakıya su çəkilməsini nəzərdə tutan layihə də var idi (4, vv.59-59 arx.).

1890-cı ildə Bakı şəhər duması H.Z.Tağıyevin məsləhəti ilə Sisiyanov kanalının təmiri üçün 3 min rubl ayırır. Bu kanala quyular da birləşdirilmişdi. H.Z.Tağıyev az-çox yararlı suya malik olan bu quyuları şəxsən özü seçmişdir [4, v.59 arx.].

1892-ci ildə Bakı şəhəri və bakılılar dəhşətli vəba epidemiyasını yaşadı və artıq 1893-cü ildə Bakı şəhər idarəsinin sifarişi ilə Alşuxov, Dümon və Royt tərəfindən hazırlanmış Kür-Bakı su kəmərinin layihəsi Moskvadakı "Neptun" texniki kontoruna, 1894-cü ildə isə imperiya Daxili İşlər Nazirliyinin tikinti-texniki komitəsinə texniki ekspertizaya göndərilir [4, vv. 60-65 arx.].

1894 və 1899-cu illərdə Bakı şəhər idarəsi böyük məsrəflərlə (müvafiq olaraq 200000 və 440000 rubl) suyu içməyə yararlı olmayan və baha başa gələn iki şirinləşdirici tikdirir [4, vv.59 arx.-61 arx.].

Hələ 1897-ci ildə H.Z.Tağıyev Bakıya Kür suyunun paroxodlarla daşınmasını təklif etmişdi. Mühəndis Q.Royt 1899-cu ildə Sumqayıtçay çayında su anbarının tikilməsini təklif edir.

Nəhayət, 1899-cu il iyulun 3-də (15-də) özünün dediyinə görə, Avropanın 35 şəhərində su təchizatı sisteminin qurulmasına rəhbərlik etmiş tanınmış ingilis mühəndis-hidravliki 2 nəfər digər mühəndislə birlikdə Bakı şəhərinə dəvət edilirlər. V.Lindley özünün 1899-cu il 4 avqust tarixli cavabında şərtlərini bildirir və 1899-cu il oktyabrın birinci yarısında Bakıya gəlir.

Təcrübəli mütəxəssis Bakıya suyun Qusar-Həzrə-Şahdağ-Şahbuzdağ ərazisindən gətirilməsini təklif edir. Həmin ilin dekabrında Bakı şəhər duması V.Lindleyə Kür və Samur istiqamətlərində axtarış işlərinin aparılmasını tapşırır. Lakin bununla yanaşı, Bakı şəhər duması su komissiyasının su mənbələrinin axtarışı işlərinə tələb etdiyi 150 min rubl ayrılması təklifinə rədd cavabı verir [4, v.62 arx.]. Bakı şəhər duması ilə Lindley arasında müqavilə imzalanmamış qaldı [4, v.63 arx].

Ancaq su komissiyasının təkidli təkliflərindən sonra V.Lindley 1901-ci il mayın 10-da yenidən Bakıya gəlir və yenidən şəhər duması və şəhər idarəsinə bulaq suyu variantı üzərində dayanmağı təkidlə təklif edir. Su komissiyası isə bu axtarış işləri üçün şəhər dumasından 3 min rubl istəyir [4, v.63 arx.].

1901-ci il iyunun 16-da şəhər duması bu müraciəti rədd edir və əksinə Kür və Samurdan su kəmərlərinin, habelə Bakı şəhərində kanalizasiya xətlərinin çəkilməsi layihələrinin işlənilməsi üçün əlavə maliyyə vəsaiti ayırır. Artıq bir həftədən sonra 1901-ci il iyunun 23-də Bakı şəhər idarəsi ilə mühəndis V.Lindley arasında Kür və Samur su kəmərlərinin çəkilməsi üzrə axtarış işlərinin aparılması barədə müqavilə imzalanır. Müqaviləyə görə, V.Lindley 1902-ci ilin aprelində axtarış-tədqiqat işlərini başa çatdırmalı və layihələri həmin ilin oktyabrında təhvil verməli idi [4, v.63 arx.].

Bu əhəmiyyətli tarixi anda, yəni bakılıların hansı suyu içmək məsələsi həll olunarkən böyük vətənpərvər Hacı Zeynalabdin Tağıyevin müdrikliyi və iradəsi bütün gücü ilə özünü təzahür etdirir.

Biz bundan sonrakı hadisələri H.Z.Tağıyevin özünün sözlərinin ixtiyarına vermək istərdik. Xoşbəxtlikdən bu sözlər onu Bakı şəhər Dumasına ünvanlanmış və Azərbaycan Respublikası Dövlət Tarixi Arxivinin fondlarında günümüzə qədər gəlib çıxmış qəzəbli müraciətlərində qorunub saxlanılmışdır:

"Təcili
Bakı şəhər idarəsinə

Nəsli fəxri vətəndaş 1-ci gildiya Bakı taciri H.Z.Tağıyevdən
22 iyun 1901-ci il № 425 Bakı şəhəri

Bakı şəhər Dumasının özünün 19 iyun iclasında mühəndis V.Lindleyin gələcək Bakı su kəməri üçün yeraltı suyun axtarılması məqsədilə sınaq quyularının qazılması təklifini müzakirə etdiyi və tələb olunan məbləği ayırmaqdan imtina etdiyini (belə ki, qlasnıların çoxu V.Lindleyin göstərdiyi yerdə şəhər üçün kifayət qədər yeraltı suyun tapılmasına inanmır). Təsadüfən eşidərək mən köhnə yerli sakin kimi doğma şəhərin mənafelərini ürəyimə yaxın tutaraq və Tiflisin rədd etdiyi Kür və ya Samurun çirklənmiş, bulanıq sularından yeraltı bulaq suyunun həmişə üstün olduğuna əmin olaraq, Bakı şəhər idarəsindən xahiş edirəm ki, mühəndis V.Lindley tərəfindən yeraltı suların axtarılması üzrə təklif etdiyi işləri mənim hesabıma həyata keçirsin. Bu işə aşağıdakı şərtlərlə mən 25 min rubl vəsait ayırıram: 1.Əgər Lindleyin sınaq axtarışları uğurla nəticələnərsə, yəni sübut etsələr ki, Lindleyin su çıxarmağı təklif etdiyi yerlərdə şəhərin tələbatı üçün kifayət qədər su var, onda şəhər mənim hesabıma çəkilmiş xərcləri mənə qaytarmalıdır və 2.Əgər şəhər idarəsi indi mənim bu təklifimi Dumaya məruzə edə bilmirsə, onda idarədən xahiş edirəm ki, mənim təklif etdiyim pulları qəbul etsin və su təchizatı komissiyası vasitəsilə işlərə başlasın ki, bu məsələ sonra Dumada müzakirə olunsun, əgər Duma bunu qəbul etməsə [4, v.77 arx.], bu xərcləri yenə də şəxsən öz üzərimə götürürəm. Özü də Şəhər idarəsindən xahiş edirəm ki, mənim bu ərizəmə imkan qədər tez cavab versin, belə ki, bu günlərdə mən müəyyən müddətə Bakıdan getməyi nəzərdə tuturam [4, v.78 arx.].

Yeraltı suların kifayət olmasına şübhə edən Duma qlasnılarının nəzərdən

çatdırmaq üçün onu da əlavə etməyi artıq saymıram ki, mən tamamilə əminəm ki, Lindley çoxlu yeraltı su tapacaq və bu su nə qədər ki, külli miqdarda su verən Şahdağ dağı öz buzlaqları ilə mövcuddur, şəhəri əbədi olaraq su ilə təmin edə biləcəkdir.

H.Z.Tağıyev" [4, v.78 arx.].

Artıq 1901 il iyunun 9-da şəhər katibinin məlumatına görə, "Duma Tağıyevə dumanın tərtibi adından təşəkkür etməklə onun 25 min rubl təklifini qəbul etməyi yekdilliklə qərara alaraq, **şəhər yeraltı sudan istifadə edəcəyi təqdirdə həmin pulları geri qaytarmağı öhdəsinə götürdü** (fərqləndirmə bizimdir - H.H.) [4,v.77 arx.]. Qərarın son hissəsi Böyük mesenatın həm qəzəbinə, həm də istehzasına səbəb oldu. O, həmin ilin dekabrında Bakı şəhər idarəsinə yenidən bu haqda müraciət edir:

Alınıb I. XII.1901-ci il.
"H.Z.Tağıyev. 05 dekabr 1901 il. №230

Şəhər İdarəsinə
Lütfkar Mixail Ağayeviç Belyavskiyə

Mənim Bakı şəhər idarəsinə bu ilin iyunun 22-də təqdim etdiyim ərizəmdən sizə bəllidir ki, mən hansı mülahizələr və şərtlər əsasında V.Lindleyin sınaq axtarışlarının mənim hesabıma həyata keçirilməsini təklif etmişəm... Bu məsələ ilə bağlı 25 min rubl ayrılması ilə mən heç də bu məbləğin Bakı şəhərinin xeyrinə ianə etmək məqsədini güdməmişəm, çünki yaxşı bilərək ki, bu şəhər ilkin tələbatın (bunlara şübhəsiz ki, su təchizatı da aiddir) ödənilməsi üçün kifayət qədər vəsaitə malikdir, mən belə fikrə düşə bilməzdim [4, v.79 arx.]. Lakin mən buranın köklü sakini kimi yaxşı sağlam möhtac olan doğma şəhərinin ehtiyacını ürəyimə qəbul edərək şəhər ictimai idarəsini V.Lindleyin təklifini qəbul etməyə sövq etmək məqsədi ilə yuxarıda qeyd olunan təklifimi etmək məcburiyyətində qaldım.

Hal-hazırda mən yuxarıda izah olunan təklifi verərək aşağıdakı mülahizələrimi bildirməyi lazımi hesab edirəm: Mən tam əmin idim ki, V.Lindley bu işin mütəxəssisi kimi qeyd olunan yerdə şəhər əhalisinin daimi olaraq qidalanması üçün yeraltı sağlam suyun axtarılmasında vicdanla və şəxsən iştirak edir. Çünki V.Lindleyin izahatından asılı olmayaraq şəxsən mənə məlumdur ki, həmin yer yeraltı su ilə zəngindir, ona görə də mən qeyd olunan məbləği bu iş üçün ayırdım ki, bununla ilk növbədə şəhər ictimai idarəsini V.Lindleyin təkliflərini qəbul etməyin zəruri olması qənaətinə gəlməyə inandırım, ikinci növbədə isə həmin yerdə şəhər əhalisinin qidalanması üçün kifayət edəcək qədər içməli suyun olmasına şübhə edən duma üzvlərinin əksəriyyətini bu fikrindən daşındırım [4, v.80 arx.]. Görünür ki, duma üzvlərinin əksəriyyəti axtarışların aparılması nəzərdə tutulan yer barədə heç bir

təsəvvürə malik deyildir, buna görə də buradan kifayət qədər su tapılsa da onun şəhər əhalisini daimi içməli su ilə təmin edə biləcəyinə şübhə edirlər. Burada izah etmək lazımdır ki, həmin ərazi məlum Şahdağ dağının yamacı və ya ətəyidir, həmin yer daim Şahdağ buzlaqlarının axan suyu ilə qidalanır. Deməli, nə qədər ki, Şahdağ özünün daimi qar papağını çıxarmayıb o vaxta qədər onun buzlaqları mövcud olacaqdır və bu yerdə yeraltı su tükənməyəcəkdir. Nəhayət, əgər 25-30 min rubl sərf olunmuş bu su axtarışlarının bir nəticə verməyəcəyini və yaxud suyun az tapılacağını fikirləşsək, onda ən azından yaxşı sağlam suyun axtarışı üçün tədbir gördüyü, ona görə də barədə şəhər idarəsinin vicdanının təmiz olacaqdır [4, v.79 arx.].

İndi, Sizin yazdığınız 16 noyabr tarixli 251 saylı məktubunuzdan belə çıxır ki, mənim ərizəm təəssüflər olsun ki, xüsusi rəğbət doğurmamışdır. Şəhər duması mənim təkliflərimi müzakirə edərək gələcəkdə anlaşılmazlıqlardan uzaq olmaq üçün onun qəbulunu bu şərtlə mümkün hesab etmişdi ki, mənim təklif etdiyim 25 min rubl mənə ictimai idarə Bakı şəhərinin qidalanması üçün bulaq (yeraltı) suyundan istifadə edərsə, qaytarılmalıdır. Deməli, bu yolla şəhər əhalisini tam təmin edə bilən bu qədər su tapılarsa, lakin ictimai idarə hansı səbəblərdən bu sudan istifadə etmək istəməsə, mənim təklif etdiyim 25 min rubl mənə qaytarılmamalıdır. Bu şərtlərlə mən razılaşa bilmərəm, çünki bu, artıq yuxarıda qeyd etdiyim kimi, heç bir ianəyə ehtiyac duymayan varlı şəhərə utanc verən ianəyə bərabər olardı. Əks halda bizim şəhər əhalisinin maraqları naminə yaxşı suyun axtarılmasına bir neçə on min sərf etmək imkanımız var [4, v.81 arx.].

Hər ehtimala qarşı mən bu ilin 22 iyun tarixli ərizəmdə V.Lindleyin yeraltı suyun sınaq axtarışına dair etdiyim təkliflər və orada göstərilən şərtlərdən imtina etmirəm [4, v.81 arx.]. Bu göstərilənlər barədə sizə məlumat verməklə bərabər, yuxarıda qeyd olunan 251 saylı məktubunuza cavab olaraq mənim sizə olan dərin hislərimi qəbul etmənizi acizanə şəkildə xahiş edirəm.

H.Z.Tağıyev”

1902-ci il 19 avqustda məruzə edilmişdir [4, v.81 arx.].

Təəccüblüdür ki, şəhər orqanlarının astagəlliyi o dərəcədə güclü idi ki, məşhur ictimai xadim, xeyriyyəçi və sənayeçinin belə vacib müraciəti yalnız təxminən 9 aydan sonra – 1902-ci il avqustun 19-da dumaya məruzə edilmişdi [4, v. 81 arx.]. Şollarda qazılmış quyuların su verməsi Lindleyin haqlı olduğunu sübut etdi. Yeraltı suyun həcmi Bakının içməli suya olan ehtiyacından on dəfə artıq idi. Uzun sürən və çoxsaylı cəhdlərdən sonra 1910-cu ildə imperiyanın nazirlər şurası Bakı şəhərinə Şollar-Bakı su kəmərinin çəkilişi üçün ümumi həcmi 27 milyon rubl və 23,5 milyon rubl olmaqla iki istiqraz buraxmağa icazə verir. “Sonralar bu pul kifayət etmədiyindən 1915-ci ildə daha 12 milyon rubl borc almalı olmuşdular” [bax: 6].

1916-cı ilin sonuna doğru dünyada ən uzun (təxminən 190 km) su

kəməri olan Şollar-Bakı su kəmərinin tikintisi başa çatdı. "Tikintinin getdiyi bütün müddət ərzində (təxminən 6 il - H.H.) Bakı idarəsi 35 iri müqavilə bağlamış və 170-dən çox sifariş etmişdir... 1917-ci il yanvarın 21-də Bakı şəhərində, Krasnovodsk küçəsində (indiki Səməd Vurğun) ilk su göründü, sonrakı gün isə Şollar-Bakı su kəmərinin baş inşaatçısı V.Lindley Bakı şəhər rəisi L.Bıç və çoxsaylı rəsmi şəxslər, qonaqlar və mətbuatın iştirakı ilə Şollar suyunun şəhərin Şamaxı yolunun arxasında yerləşən baş təzyiq rezervuarına buraxılışını həyata keçirdi [7]. Bəzi məlumatlara görə, bu şərəfli missiya məhz H.Z.Tağıyevə olunmuşdur. Lakin o, bu şərəfi böyük lütfkarlıqla Lindleyə güzəştə getmişdir.

V.Lindley yerinə yetirilmiş işlərin möhtəşəmliyini xatırlayaraq, etiraf edirdi ki, "təkcə Qərbi Avropada 35 şəhərdə mən su kəməri, kanalizasiya şəbəkələri tikmişəm. Lakin mənim qismətimə indiyədək bu su kəməri kimi texniki cəhətdən möhtəşəm və belə çətin iş düşməmişdir [7]. Bu dahi və çox istedadlı su mühəndisi çoxdan həyatda yoxdur (V.V.Lindley 1917-ci ilin sonunda vəfat etmişdir; onun vəfatı Bakı ictimaiyyəti və mətbuatı tərəfindən çox böyük hörmət və minnətdarlıqla qeyd olunmuşdur – H.H.), Tağıyev də Lindleydən sonra o qədər də çox yaşamadı. Lakin Böyük Azərbaycanlının – Hacının dediyi kimi, əzəmətli Şahdağın ətəklərindən gələn tər-təmiz bulaq suyu indiyədək bakılılara və hətta bircə günlüyə bu Küləklər Şəhərinə gələn hər kəsə xidmət edir. Hacı haqqında xatirələr o qədər güclü və möhtəşəmdir ki, el yaddaşı və dili hətta Şollar-Bakı su kəmərinin bütün çəkilişini onun adına çıxır.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi: 7 cilddə, IV c., Bakı: Elm, 2007, 503 s.
2. *Xanəliyev V.* Bakı şəhərinin su təchizatı tarixi (XIX əsrin ikinci yarısı –XX əsrin 70-ci illəri). Tarix elm. nam. … dis. avtoreferatı. Bakı, 1994, 24 s.
3. История Азербайджана: в 3-х тт., Т. 2. Баку, 1960, 953 с.
4. Государственный исторический архив Азербайджанской Республики, ф. 389, оп. 7, д. 13.
5. *Тагиев Ф.А.* История города Баку в первой половине XIX века (1806-1859 гг.). Баку: Элм, 1999, 196 с.
6. http://www.regionplus007/ru/arxivles/view/5513
7. http://www.baku.ru/enc-show.php&id=56246&cmm-id-276


Redaksiyaya daxil olub 07.04.2023

***УДК 32***

***Р.М.Гусейнли***
*Азербайджанский государственный педагогический университет*
*h.ramina.m@gmail.com*

# ГЕЙДАР АЛИЕВ – ВЕЛИКИЙ ЛИДЕР И ГОСУДАРСТВЕННЫЙ ДЕЯТЕЛЬ XX ВЕКА

***Ключевые слова:*** *общенациональный лидер, великий лидер, азербайджанский народ, государственный деятель*

В статье подробно описывается жизненный путь и деятельность, а также успешно проводимая политика Общенационального лидера Гейдара Алиева по обеспечению блестящего будущего азербайджанского народа. Гейдар Алиев обладал железной волей, был великой личностью, принимавшейся всеми и ярко выделявшейся среди мировых лидеров, определяющих современную политику нашей планеты. Он являлся общенациональным лидером, дарованным азербайджанскому народу Всевышним для спасения Родины из сложнейшего и кровавого водоворота переходного периода, когда страна находилась перед лицом угрозы распада и уничтожения.

Благодаря широкому кругозору, мудрости, дальновидности, решительности и личным способностям великий политик смог добиться признания во всем мире. Величайшая заслуга Гейдара Алиева перед азербайджанским народом и нашей историей прежде всего заключается в том, что он в условиях острейших геополитических противоречий спас Азербайджанскую государственность, само существование Азербайджана от угрозы исчезновения с политической карты Южного Кавказа. А сохранение государственности означает сохранение свободы и независимости народа. Поэтому Гейдар Алиев по праву считается спасителем азербайджанского народа и Отечества.

***R.M.Hüseynli***

# HEYDƏR ƏLİYEV – ULU ÖNDƏR VƏ XX ƏSRİN DÖVLƏT XADİMİ

***Açar sözlər:*** *Ümummilli Lider, Ulu Öndər, Azərbaycan xalqı, dövlət xadimi*

Məqalədə Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyəti, Azərbaycan xalqının parlaq gələcəyinin təmin edilməsi istiqamətində apardığı uğurlu siyasət ətraflı təsvir olunub. Heydər Əliyev dəmir iradəyə malik, əzəmətli, dünyanın tanınmış siyasi liderləri sırasında fərqlənən görkəmli dövlət başçısı, Ulu Tanrının Vətəni ən ağır bəlalardan xilas etmək üçün Azərbaycan xalqına bəxş etdiyi fenomenal şəxsiyyət idi.

O, geniş dünyagörüşü, müdrikliyi, uzaqgörənliyi, siyasi bacarığı sayəsində bütün dünyada tanınmağa nail ola bilmişdi. Ulu Öndərin Azərbaycan xalqı və tariximiz qarşısında ən böyük xidməti, ilk növbədə, bu dahi şəxsiyyətin kəskin

geosiyasi ziddiyyətlər şəraitində Azərbaycan dövlətini Cənubi Qafqazın siyasi xəritəsindən yox olmaq təhlükəsindən xilas etməsidir. Dövlətçiliyin qorunub saxlanması həm də xalqın azadlığının və müstəgilliyinin qorunub saxlanması deməkdir. Buna görə də Heydər Əliyev haqlı olaraq Azərbaycan xalqının və Vətənin xilaskarı sayılır.

***R.M.Huseynli***

**HEYDAR ALIYEV – GREAT LEADER AND STATESMAN OF THE 20TH CENTURY**

***Keywords**: a national leader, the President of the Republic of Azerbaijan, a great leader, the Azerbaijani people.*

The article describes in detail the life path and activities, as well as the successfully pursued policy of the National Leader Heydar Aliyev to ensure a brilliant future for the Azerbaijani people. Heydar Aliyev had an iron will, was a great personality, accepted by everyone and clearly distinguished among the world leaders who determine the modern policy of our planet. He was a national leader, given to the Azerbaijani people by the Almighty to save the Motherland from the most difficult and bloody whirlpool of the transition period, when the country was in the face of the threat of disintegration and destruction.

Thanks to his broad outlook, wisdom, foresight, determination and personal abilities, the great politician was able to achieve recognition throughout the world. The greatest merit of Heydar Aliyev to the Azerbaijani people and our history lies, first of all, in the fact that he, in the conditions of the most acute geopolitical contradictions, saved the Azerbaijani statehood, the very existence of Azerbaijan from the threat of disappearance from the political map of the South Caucasus. And the preservation of statehood means the preservation of the freedom and independence of the people. Therefore, Heydar Aliyev is rightfully considered the savior of the Azerbaijani people and Fatherland.

В мире много известных и талантливых людей, но не каждого из них можно назвать великим. По моему мнению, великий человек – это человек, который всю жизнь посвятил Родине и внес огромный вклад в развитие своей страны. Об одном из таких великих людей я хочу написать. Этот человек – Гейдар Алирза оглу Алиев.

Гейдар Алиев родился в простой трудолюбивой семье в Нахчыване 10 мая 1923 г. Он обладал особым талантом и являлся редкой личностью. В 1939 году Г.Алиев окончил Нахчыванский педагогический техникум и поступил на архитектурный факультет Азербайджанского индустриального института в Баку (ныне Азербайджанский университет нефти и промышленности). Но начавшаяся Вторая мировая война не

позволила ему завершить свое образование. С 1941 г. Гейдар Алиев стал работать в НКВД Нахчыванской АССР, а в 1943 году был назначен заведующим отделом в Совете Народных Комиссаров Нахчывана. С 1944 г. Гейдар Алиев служил в органах государственной безопасности. В 1949-1950 годы Гейдар Алиев учился в Ленинграде в Школе переподготовки руководящего оперативного состава МГБ СССР. В 1956 году он был назначен на должность заместителя начальника отдела КГБ Азербайджана. Под его руководством был успешно проведён ряд оперативных мероприятий – в частности, операция «Дуэль».

В 1957 году Гейдар Алиев окончил заочное отделение исторического факультета Азербайджанского государственного университета. В 1960 году он стал начальником контрразведывательного отдела КГБ при Совете Министров Азербайджанской ССР, а в 1964 году – заместителем председателя КГБ республики. В последующие годы Гейдар Алиев последовательно занимал должности председателя КГБ при совете министров Аз.ССР (1967-1969 гг.), первого секретаря ЦК КП Азербайджана (1969-1982 гг.), с 1982 по 1987 гг. – члена Политбюро ЦК КПСС и первого заместителя председателя Совета Министров СССР. В октябре 1987 года Гейдар Алиев в знак протеста против двуличной политики руководства СССР ушел в отставку со всех занимаемых постов.

После кровавой трагедии, которую учинили советские войска в ночь с 19 на 20 января 1990 года в Баку, Гейдар Алиев выступил с заявлением в постоянном представительстве Азербайджана в Москве. Он потребовал наказать организаторов и исполнителей преступления, совершенного против азербайджанского народа. Это резкое и открытое заявление явилось началом новой политической эры не только в Азербайджане, но и на всём пространстве бывшего Советского Союза. В июле 1990 года Гейдар Алиев вернулся в Азербайджан и в том же году был избран депутатом Верховного Совета Азербайджанской ССР, а в 1991 году – председателем Верховного Меджлиса Нахчыванской Автономной Республики.

18 октября 1991 года в Азербайджане был принят Конституционный Акт о независимости. США 25 декабря 1991 года были одними из первых, кто признал независимость Азербайджана. Госсекретарь США Джеймс Бейкер 12 февраля 1992 года нанес визит в Баку для установления официальных отношений между двумя государствами. В ноябре 1992 года в Вашингтоне было открыто посольство Азербайджана. Но в том же 1992 году под давлением армянского лобби по отношению к Азербайджану была принята «907-ая поправка» к «Акту защиты свободы», гласившая, что помощь США не может быть предоставлена Азербайджану до тех пор, пока Президент

США не определит и не доложит Конгрессу о том, что правительство Азербайджана предпринимает шаги по прекращению «всех блокад и прочего использования силы против Армении и Нагорного Карабаха». Эта ничем не обоснованная поправка стала еще одним проявлением несправедливого и двуличного отношения стран Запада к армяно-азербайджанскому конфликту.

В мае-июне 1993 года в Азербайджане возникла угроза гражданской войны и потери независимости. В этот тяжелейший период азербайджанский народ выступил с требованием пригласить к власти Гейдара Алиева. Тогдашние руководители Азербайджана в сложившейся ситуации были вынуждены согласиться с требованием граждан.

Итак, 15 июня 1993 года Г.Алиев был избран председателем Верховного Совета Азербайджана. Эта дата вошла в историю страны как «День национального спасения». С 24 июня 1993 года Гейдар Алиев приступил к осуществлению полномочий Президента Азербайджанской Республики. А позже – 3 октября 1993 года путем всенародного голосования он был избран на пост Президента страны.

По личной инициативе Гейдара Алиева, а также благодаря его решимости, несокрушимой воле и дальновидности, 12 мая 1994 года было подписано соглашение о перемирии с Арменией, были приостановлены военные действия, которые продолжались в течение пяти лет, а также возникли условия для мирного разрешения данного конфликта.

Гейдар Алиев внёс большой вклад и в экономическое развитие страны. В условиях политической и информационной блокады Азербайджанской Республики 20 сентября 1994 года с 11 иностранными нефтяными компаниями был подписан «Контракт века», имевший важное жизненное значение для экономики Азербайджана. Этот контракт сыграл исключительную роль в восстановлении стабильности внутри страны, а также в достижении успехов во внешней политике.

12 ноября 1995 года путём всенародного голосования была принята первая Конституция Азербайджанской Республики. В этот же день в Азербайджане были проведены первые демократические парламентские выборы. В 1998 году Гейдар Алиев был переизбран на второй срок, а в 2003 году в связи с резким ухудшением здоровья он снял свою кандидатуру в пользу политического преемника Ильхама Алиева.

12 декабря 2003 года азербайджанский народ потерял своего великого лидера. Несмотря на старания опытных врачей, Гейдар Алиев скончался в Кливлендской клинике США, а 15 декабря был похоронен в Аллее почётного захоронения в Баку.

**Заслуги Гейдара Алиева**

На протяжении своей деятельности Гейдар Алиев был неоднократно награжден орденами и медалями. Так, в 1962 году он был награждён орденом Красной звёзды, пять раз – орденом Ленина (1971, 1973,1976, 1979 и 1983 гг.), многочисленными медалями бывшего СССР, дважды удостоен звания Героя Социалистического Труда (1979 и 1983гг.), а также высших наград различных стран и почётных званий авторитетных вузов. Так, в январе 1999 года Совет Директоров Кембриджского международного биографического центра присвоил Гейдару Алиеву звание «Выдающийся деятель 20-го века» и наградил серебряной медалью, вписав его имя в почётную книгу Королевства за проведение миролюбивой политики и внесение большого вклада в развитие демократии.

27 марта 1997 года в Киеве главе азербайджанского государства была вручена высшая награда Украины – орден Ярослава Мудрого. 13 апреля 1999 года Гейдар Алиев был удостоен высшей награды Турции – премии Ататюрка во имя мира. 20 января 2001 года Президент Азербайджанской Республики был удостоен звания почётного профессора Московского государственного университета, 3 апреля 2003 года – избран профессором и полномочным членом Академии безопасности, обороны и проблем правовых норм Российской Федерации, а также был удостоен премии Ю.В.Андропова.

10 мая 2003 года – в день рождения великого лидера был подписан указ о присвоении Гейдару Алиеву высшей награды России – ордена Святого Апостола Андрея Первозванного.

Своими неоценимыми заслугами перед азербайджанским народом великий лидер ещё при жизни превратился в легенду. Во всех городах и районах Азербайджана центральные проспекты, улицы, парки и многочисленные объекты названы в честь Общенационального лидера.

Он был очень искренним и отзывчивым человеком. Во время своих визитов в районы Азербайджана всегда интересовался заботами населения, терпеливо выслушивал каждого и решал их проблемы. Каждый визит Общенационального лидера в какой-либо район Азербайджана становился настоящим праздником для его жителей. Гейдар Алиев был удивительным человеком с феноменальной памятью, патриотом, всю свою жизнь он посвятил азербайджанскому народу и развитию родного Азербайджана. Ко всем людям Гейдар Алиев относился с уважением и заботой, от него исходила невероятная положительная энергия и теплота.

Гейдар Алиев открыл коридор Восток-Запад против сил, которые зажали Азербайджанскую Республику в тиски с севера и юга, и отрезали

его традиционные связи с зарубежными странами. Он искусно использовал идею возрождения Великого Шелкового пути для того, чтобы вывести Азербайджан из экономической блокады.

**Присоединение к программе «Партнерство во имя мира»**

Великий лидер придавал большое значение сотрудничеству с ведущими международными организациями, в том числе с НАТО для того, чтобы независимая Азербайджанская Республика стала полноправным членом международного сообщества. В связи с присоединением Азербайджана к программе НАТО «Партнёрство во имя мира», с 3 по 5 мая 1994 года Гейдар Алиев находился с официальным визитом в Бельгии. Он выступил на заседании совета НАТО в Брюсселе, а также провёл встречи с премьер-министром страны Жаком Люком Дином, первым заместителем генерального секретаря НАТО Серджио Баланцино и другими руководителями Альянса. Гейдар Алиев выступал на заседании совета НАТО и озвучивал основные принципы внутренней и внешней политики Азербайджана. На всех своих встречах в Брюсселе он критиковал бездействие тогдашней Минской группы ОБСЕ на действия Армении в вопросе Нагорного Карабаха. Патриотизм и любовь к своему народу и Родине прослеживались в каждом слове и действии великого лидера. Он был личностью, величие которого было признано в мировом масштабе. Благодаря усилиям и богатому политическому опыту Гейдара Алиева Азербайджан, вступивший на мировую арену, узнали с положительной стороны. Благодаря дальновидности, мудрости, решительности, железной воле великого лидера Азербайджан смог возвыситься до достойного уровня. К месту было бы напомнить, что он занимал очень высокие посты в таком огромном государстве, как Советский Союз, будучи членом Политбюро ЦК КПСС и первым заместителем председателя Совета Министров СССР.

Вспоминая Гейдара Алиева, азербайджанский народ всегда испытывает любовь и чувство гордости, ощущая величие его личности. В основе высокой оценки великого лидера стоят не только дела, совершенные им для своей Родины и народа, а также гибкая реакция на вызовы современного мира, общие человеческие идеалы, вклад в дружбу, мир и прогресс на планете.

**Высказывания президентов других стран и политологов о Гейдаре Алиеве**

Великий лидер имел широкое мировоззрение, обладал уникальными ораторскими способностями, которыми восхищались многие президенты других стран. Так, Президент Турции Раджеп Тайип

Эрдоган говорил, что Гейдара Алиева любили не только в Азербайджане, но и во всём тюркском мире. Ему принадлежит высказывание «Одна нация - два государства», прекрасно выражающее турецко-азербайджанскую дружбу.

С большим уважением относился к Гейдару Алиеву и Президент Российской Федерации Владимир Путин. Он называл Общенационального лидера «гигантом политики». По словам Путина, Гейдар Алиев был большим другом России. Азербайджан является страной, в которой до сегодняшнего дня продолжают функционировать русскоязычные школы, а в вузах студенты получают образование в том числе и на русском языке.

Бывший президент США Билл Клинтон высоко оценивал заслуги Гейдара Алиева в укреплении Азербайджана как независимого государства, следующего путём демократии и рыночной экономики. По словам Клинтона, Азербайджан достиг больших успехов в преодолении трудностей на пути к независимости.

Бывший Президент Франции Жак Ширак высоко ценил отвагу, мудрость, решительность Гейдара Алиева и был уверен, что только благодаря политической воле и опыту ему удалось вывести Азербайджан на путь прогресса.

Бывший премьер-министр Великобритании Тони Блэр считал большой честью проведение встречи и переговоров с таким выдающимся государственным деятелем, как Гейдар Алиев.

Бывший Президент Казахстана Нурсултан Назарбаев очень уважительно говорил о Гейдаре Алиеве, называя его близким другом.

Бывший президент Грузии Эдуард Шеварднадзе говорил, что истинное счастье азербайджанского народа заключается в том, что в самый тяжелый и кризисный период для народа и государства именно такой выдающийся политик взял ответственность на себя.

Известный политолог Збигнев Бжезинский говорил, что Гейдар Алиев личность с политической точки зрения сильная, логичная, интеллектуально развитая. Он безусловный лидер.

Бывший премьер-министр Турции Бюлент Эджевит сравнивал Гейдара Алиева с Ататюрком и говорил, что он один из гениев, которые появляются на свет раз в 1000 лет.

Бывший президент Румынии Эмиль Константинеску считал Гейдара Алиева лидером мирового масштаба.

Бывший генеральный секретарь ООН Бутрос Гали был очень рад, обретя в лице Гейдара Алиева близкого друга и единомышленника. Он высоко ценил политическую деятельность и дальновидность Гейдара Алиева.

Все эти высказывания о Гейдаре Алиеве наглядно подтверждают и свидетельствуют о том, что он был всемирно известным политиком, одним из уникальных государственных деятелей 20-го века.

**Заключение**

Каждый народ имеет право жить в независимом и свободном государстве. Азербайджанский народ прошел долгий путь для достижения своей цели. Благодаря богатому политическому опыту, дальновидности и усилиям Гейдара Алиева, а также успешно проводимой политике его преемника – Президента Ильхама Алиева, сегодня в Азербайджане царят стабильность, толерантность, культура, просвещение.

Азербайджанский народ счастлив, что у него был такой великий лидер, как Гейдар Алиев, который пользовался уважением и любовью не только своих соотечественников, но и признанием во всём мире. Азербайджанский народ гордится и вечно будет хранить светлую память о своем великом сыне.

Гейдар Алиев является редкой исторической личностью, которая занимает особое место в многовековой истории Азербайджана. Благодаря своим беспрецедентным заслугам перед страной и государством, он ещё при жизни стал легендой и завоевал бесконечную любовь народа.

## ЛИТЕРАТУРА


1. *Аббасбейли А.* Гейдар Алиев и мировая политика / А.Аббасбейли, Э. Аббасбейли. / Баку: Азернешр, 1997, 328 с.
2. *Əliyev H.Ə.* Müstəqilliyimiz əbədidir: 46 cilddə, XXXVI c., Bakı: Azərnəşr, 2011, 512 s.
3. *Əliyev H.Ə.* Müstəqilliyimiz əbədidir: 46 cilddə, XXV c. Bakı: Azərnəşr, 2000, 520 s.
4. *Əliyev İ.* İnkişaf məqsədimizdir: 87 cilddə, VI c. Bakı: Azərnəşr, 2014, 376 s.
5. *Qasımlı M.* Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə, I h. Bakı: Mütərcim, 2015, 648 s.
6. *Qasımlı M.* Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə, II h., Bakı: Mütərcim, 2015, 664 s.
7. *Mahmudov Y.M.* Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti Bakı: Azərnəşr, 2002, 326 s.
8. *Mahmudov Y.M.* Heydər Əliyev ideyalarının zəfər yürüşü. Bakı, 2011, 608 s.


Redaksiyaya daxil olub 10.04.2023

*UOT 1:94*

***Z.H.Kərimov***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*zakir.kerimov.1955@mail.ru*

# XEYİR VƏ XEYİRXAHLIQ MƏSƏLƏLƏRİNİN ULU QAYNAQLARI VƏ DİNİ-MİFOLOJİ KÖKLƏRİ

***Açar sözlər:*** *Zərdüşt, xeyir, xeyirxahlıq, xeyriyyəçilik, şər, yoxsul*

Xeyir, xeyirxahlıq və şər əbədi kateqoriyalardır, onların yaşı insan cəmiyyətinin yaşı qədərdir. Nə qədər ki, insan cəmiyyəti mövcud olacaq, onlar da öz aktuallığını saxlayacaqdır.

Sabitliyin pozulduğu çağdaş dünyamızda şər qüvvələrin fəallığı artmışdır. Rusiya və ABŞ, Fransa kimi bir sıra Qərb, həmçinin bəzi Şərq dövlətləri Şər qüvvələri təmsil edərək Qarabağda, Suriyada, Liviyada, Ukraynada münaqişələr, müharibələr törədir. Nəticədə insanlar öldürülür, qaçqına çevrilir, aclığa, yoxsulluğa düçar edilir. Xeyirxah qüvvələr (R.T.Ərdoğan, A.Qutteres və b.) onların qarşısını almağa, sülhü, barışı, firavanlığı təmin etməyə çalışırlar. Göstərilən məqalədə xeyir, xeyirxahlıq, şər kimi məsələlərin ulu qaynaqları və dini-mifoloji kökləri araşdırılır. Xeyir, xeyirxahlıq, şər arasında mübarizənin ilk izlərinə şumer mifologiyasında rast gəlindiyi qeyd olunur. Bu məsələlər öz ifadəsini sonralar müqəddəs dini kitablarda – “Avesta”da, “Tövrat”da, “İncil”də, “Quran”da, “Dədə Qorqud” dastanında, böyük şair N.Gəncəvi və digər ədiblərimizin yaradıcılığında tapmışdır. Məqalədə bu məsələlər araşdırılmışdır.

***З.Г.Каримов***

## ВЕЛИКИЕ ИСТОКИ И РЕЛИГИОЗНО-МИФОЛОГИЧЕСКИЕ КОРНИ ВОПРОСОВ ДОБРА И ДОБРОТЫ

***Ключевые слова***: *Заратустра, добро, благодеяние, милосердие, зло, бедняк*

Добро, доброта и зло – категории вечные, их век так же стар, как человеческое общество. Пока будет существовать человеческое общество, они сохранят свою актуальность.

В нашем современном мире нестабильности возросла активность злых сил. Ряд западных стран, таких как Россия, США, Франция, а некоторые восточные государства стали представителями злых сил в Карабахе, Сирии, Ливии, в Украине. Это вызывает конфликты и войны, в результате чего люди гибнут, становятся беженцами, голодают. Благожелательные силы (Р.Т.Эрдоган, А.Гуттереш и др.) пытаются их предотвратить, обеспечить мир и процветание. Отмечается, что первые следы борьбы добра, благожелательности и зла обнаруживаются в шумерской мифологии. Эти вопросы были позднее выражены в священных религиозных книгах – «Авесте», «Торе», «Библии», «Коране», в

эпосе «Деде Горгуд», встречающихся в творчестве великого поэта Н.Гянджеви и др. В статье исследуются эти вопросы.

***Z.H.Karimov***

## GREAT SOURCES AND RELIGIOUS-MYTHOLOGICAL ROOTS OF THE ISSUES OF GOOD AND KINDNESS

***Keywords***: *Zarathustra, good, benevolence, charity, evil, poor*

Good, kindness and evil are eternal categories, their age is as old as human society. As long as human society will exist, they will keep their relevance.

In our modern world, the activity of evil forces has increased. A number of Western countries such as Russia, USA, and Franceand some Eastern states became representatives of evil forces in Karabakh, Syria, Libya,It causes conflicts and wars in Ukraine. As a result, people are killed, become refugees, starvebenevolent forces (R.T.Erdogan, A.Gutteresh, etc.) are trying to prevent them, to ensure peace and prosperity. It is noted that the first traces of the struggle between good, benevolence and evil are found in Sumerian mythology. These issues were later expressed in the holy religious books – "Avesta", "Torah", "Bible", "Quran", "Dada Gorgud" , found in the work of the great poet N.Ganjavi and other poets. These issues are investigated in the article.

Sovet tarixşünaslığında bir çox problemlərlə yanaşı, mesenatlıq (xeyriyyəçilik) üzrə də tədqiqat aparılması yasaq edilmişdi. Çünki sovet ideologiyasına görə, bu, burjuaziyaya xas olan bir məsələ idi. Kapitalist sisteminə aid hər hansı müsbət işdən bəhs etmək sovet dövlətinin siyasətinə uyğun deyildi. Bu sovet insanında burjua cəmiyyətinə münasibəti dəyişər, onun müsbət cəhətlərinə maraq oyadardı. XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində sovet siyasi sisteminin süqutu və Azərbaycanın müstəqillik qazanması tarixşünaslığımızda bir sıra pozitiv dəyişikliklərlə yanaşı, müəyyən elmi boşluqların da doldurulmasına imkan yaratdı. Tədqiqatçıların diqqəti bir sıra elmi problemlərin, o cümlədən xeyriyyəçilik mövzusunun araşdırılmasına yönəldi. Azərbaycanın əsasən qeyri-rəsmi mətbuatında əhalinin müxtəlif təbəqələrindən olan şəxslərin xeyriyyəçilik fəaliyyəti ilə bağlı məqalələr işıq üzü gördü. Müxtəlif səpkili əsərlər, o cümlədən dissertasiyalar yazıldı. Bu əsərlər öz xalqı yolunda təmənnasız xidmət edən şəxslərin əməllərini zəngin faktlar əsasında işıqlandıraraq tarixşünaslığımıza qiymətli töhfə olsa da, xeyriyyəçiliyin mahiyyətinə, onu doğuran tarixi zərurətə, sosial-mənəvi bağlara dərindən nüfuz etməmişdir. Belə bir sual ortaya çıxır: xeyirxahlıq insana Allah tərəfindən bəxş edilmişdir, ya cəmiyyət özü bu keyfiyyəti formalaşdırmışdır? Məqalədə məhz həmin məsələlərə toxunulmuşdur.

Avestaşünas B.Şəfizadə Xeyir və Şər hislərin və ya qüvvələrin kosmik mənşəli olması fikrini irəli sürür. O, "Avesta"nın qatlarında da bəzən planetlərin və bürclərin ətrafa göndərdiyi işığın kəmiyyət və keyfiyyətinin Xeyir və Şər, yaxud müsbət və mənfi tərkibli olduğunu yazır. B.Şəfizadə 7 planetin mənfi və müsbət tərkiblərini riyazi işarələrlə göstərərək yazır ki, Ay, Günəş, Merkuri həm Xeyir, həm də Şər şüalar yaradır. O, bu planetlərin hər birinin yaratdığı Xeyr və Şər şüalar arasında nisbəti belə müəyyən edir (Xeyir: 0,5+/-Şər: 0,5=1.Burada 1 rəqəmi Xeyirlə Şər şüa və ya qüvvələrinin tamlığının ifadəsidir. Başqa sözlə, Xeyr və Şər şüaların nisbəti 50%-in 50%-ədir və Yupiter ancaq xeyir, Mars, Saturn ancaq şər yaradır. Belə olanda Xeyir yaradanlar (cəmi 3,5) və Şər yaradanlar (cəmi 3,5) 7 planetə bərabər olur. Digər 3 planet – Uran, Neptun, Plutonun təsiri o qədər nəzərə alınmır [2, s.60]. Deməli, müəllifin fikrincə, insanlarda xeyir və şər hislərin yaranmasında planetlərin rolu danılmazdır.

Tədqiqatçıların fikrincə, tarixdə mövcud olmuş bütün dinlər xeyir və şərin mübarizəsi zəminində təşəkkül tapmışdır. Bu qədim Şumer əfsanələrindən başlanmış, Zərdüşt peyğəmbərdə inkişaf etdirilib geniş vüsət almış, konsepsiya şəklinə düşmüşdür.

Bütün dinlərdən, bütün təriqətlərdən öncə Tanrıçılıq dininin əsas kitabı olan "Avesta"da (bu dinin kitabının dəqiq adı bizə bəlli deyil, o sonralar "Avesta" adlandırılmışdır) xeyir və şər problemi əsaslı şəkildə qoyulmuş, fəlsəfi-bədii səviyyədə öz şərhin tapmışdır. Bu məsələ "Avesta"ya qədim Şumer qaynaqlarından biri olan "Bilqamıs" dastanından keçmişdir. "Bilqamıs" dastanı dünya ədəbiyyatının ilk şah əsəridir, miladdan öncə III minillikdə Şumer dilində şifahi şəkildə yaranmış, sonra Uruk şəhər qalasının divarına həkk olunmuş, m.ö.II minillikdə Akkad dilində gil lövhələrə köçürülmüşdür. Dastan Şumer şəhər-dövləti Urukun kahini, hərbi başçısı Bilqamışın adından yazılmışdır. O, tarixi şəxsiyyətdir [4, s.57-58]. Bilqamıs (hər şeyi bilən adam mənasında) adı Gilqamış (rusca Qilqamıs) kimi də işlədilir [4, s.59].

Dastanda maraqlı məqamlardan biri yerlə səma arasında əlaqənin əksidir. Dastanın qəhrəmanlarından Enkidü gildən yoğrulur, "göylərdən yerə atılır". Bilqamıs Enkidünü dostluğa qəbul edərkən anasına deyir ki:

Göydən düşən daş kimi çox ağırdır əlləri!
Xeyir-dua ver ona, qoy mənə qardaş olsun![4, s.81-100]

Şumerlərin mənşəyi haqqında müxtəlif fikirlər mövcud olsa da, tədqiqatçıların bir qrupu onları dünyanın ilk sivilizasiyalı xalqı hesab edir, müasir türk xalqlarının əcdadı adlandırırlar.

Bəşəriyyətin ilkin inkişafı əksliklərin mübarizəsi, xeyir qüvvələrlə şər qüvvələrin çarpışması ilə başlanır. Bu məsələ "Avesta"da öz əksini tapsa da,

onun kökü deyildiyi kimi, Şumer, Babil miflərinə gedib çıxır. Bu əfsanələrdən biri "Kainatın və insanların yaranması barədə "Şumer rəvayətidir. Orada deyilir ki, başlanğıcda kainatın bütün varlığı böyük okeanın dolu suyundan ibarət olmuş, onun nə əvvəli, nə də sonu varmış. Onu heç kim yaratmamış, əbədi mövcud olmuşdur. Rəvayətdə ilk insanlardan bəhs olunur. Göstərilir ki, Göy tanrısı An (zərdüştlükdə onun tərəf müqabili Ahurəməzda), torpaq tanrısı ilahə Ki ilə bir yerdə yaşayırmışlar. Onların nikahından Enlil tanrı doğuldu, sonra onlardan yeni-yeni övladlar – tanrı və ilahələr törədi. Yəhudi və xristianlıqda da ilk insanlar Adəm və Həvva hesab olunur.

Əvvəlcə bir yerdə yaşayan An və Ki bir-birindən ayrıldı. Çünki onların oğlu Enlil göylə yeri bir-birindən ayırdı [6, s.115]. Tanrı An göydə, ilahə Ki yerdə qaldı. Yerdəki işləri tanrı Enlil idarə edirdi. Onun məsləhətçisi qardaşı, müdrik tanrı Enki idi. Bu zaman yerdə "ilk qızıl" əsr və ya "qızıl əsr" adlanan bir dövr bərqərar olmuşdu. Bütün adamlar bir dildə danışır, sakit yaşayırdılar. İnsanlar zülm və qayğının nə olduğunu bilmirdilər. Sülh və həmrəylik hökm sürürdü. Qorxu, paxıllıq, həsəd, zor yox idi. Ədalətli qanunlar mövcud idi. Yemək, geyim bol idi. Əhali əkinçiliklə, heyvandarlıqla, toxuculuqla məşğul olurdular. Təbiətdə vəhşi, yırtıcı heyvanlar yox imiş, ev heyvanları otlaqda naxırçısız otlayırmış.

Lakin tanrı-insan Enlil bu "qızıl əsrə" – özünün yaratdığı bu xeyirli işlərə, firavan, xoşbəxt həyata dözmədi. İnsanların artması, güclənməsi onu qorxutdu. Onun daxilində insanlara paxıllıq, həsəd hissi yarandı. Pis bir əməl düşünməyə başladı. Nəticədə Xeyir və Şəri yaratdı. Deməli, insanda formalaşan bu ikili xüsusiyyətə uyğun olaraq mifik təfəkkür üzə çıxmış, insan məxluqunun öz başına bəla olduğu fikri yaranmışdır. Enlil müdriklik tanrısı qardaşı Enkiyə insan nəslini məhv etmək istədiyini bildirir. O, isə bununla razılaşmır, insanlar bizə məbədlərimizi qurbanlıq hədiyyələrlə doldurmaq üçün lazımdır, - deyir. Buna görə onlar yaşamalıdır. Lakin onların sayını azaltmalı, cəsarətli niyyətlərinə mane olmalı, onları yoxsulluğa çəkməli, qorxutmalı ki, özlərini tanrılara tay tutmasınlar. Beləliklə, Enlil Enkinin məsləhəti ilə xeyir işlərə və amala qarşı pis işlər yaradır. Xoşbəxtliyin qarşısını bədbəxtlik kəsir, işıqlı, xeyirxah qəlbləri xəbis qəlblər hədələyir. Dincliyi, əmin-amanlığı vuruşlar, müharibələr pozur, rahat, firavan həyat narahatlıq və yoxsulluğa çevrilir... Beləliklə, xeyirlə şərin əzəli mübarizəsi başlanır və əbədiləşir. Həyatın əbədi qanuna çevrilir (4, s.16). İstər dini, istər fəlsəfi, istərsə də ədəbi-bədii nöqteyi-nəzərdən xeyirlə şər iki bir-birinə zidd, bir-birilə daim döyüşən qüvvələrin təması kimi şərh olunur.

Qədim mənbələrə, mifik təsəvvürlərə görə, xeyirlə şər qardaşdır. Xeyrə, xeyirxahlığa qarşı şərin, nifrinin özü də əslində tanrıçılıqdan gəlib. Bu qədim təsəvvürlər, bu fikir "Avesta" kitabında da öz ifadəsini tapıb. Xeyirxahlıq, qayğıkeşlik Hörmüzün və onun ən yaxın köməkçisi Zərdüştün simasında, şər

qüvvələr, bədxahlıq və nifrin Əhrimənin simasında ümumiləşdirilmiş, elmi-dini-fəlsəfi cəhətdən xeyirlə şərin əbədi konsepsiyasına çevrilib [4, s.191].

Zərdüşt göstərir ki, dünyanın yaranışında – “ilk başlanğıcda düşüncə aləmində iki əkiz gövhər – yaxşı və pis düşüncə, əməl və davranış meydana çıxdı. Bu iki gövhərdən bədxah adamlar yox, xeyirxah adamlar doğrunu (xeyri) seçdilər [1, s.43]. Yeri gəlmişkən, zərdüştlükdə (Məzda) Ahurəməzda Göy tanrısı adlandırılır. Zərdüşt insanlara müraciətlə deyir ki, Məzda göndərdiyi dini başa düşməniz bir (tərəfdə) rifahdı [1, s.44].

“Avesta”nın birinci fəslində “xeyirxah” və “yaman”(şər) ölkələr xatırlanır. Xeyirxahlıq olan ölkələr Hörmüzün, yaman, şər ölkələr Əhrimənin adına yazılır [1, s.189].

Zərdüşt Ahurəməzdaya xitabən deyir ki, səndən ən yaxşı (neməti), – əbədi uğurlu düşüncə və davranış istəyirəm, bu yaxşılığa görə Sizə sitayişə çalışmalıyıq. Diləyi – xeyirli ölkəyə (behiştə) getmək arzusunu tezliklə yerinə yetirən Sizsiniz (Yəsna, 28-ci hat Əhnəvəydqat) [1, s.40].

Elə “Avesta”nın “Yəsna” hissəsində zəhmətkeşlərə – çobanlara və kəndlilərə qayğıkeşlikdən bəhs olunur.

“Avesta”ya görə, behiştə o adamın ruhu gedə bilər ki, o xeyirxah düşüncəyə, xeyirxah əmələ və xeyirxah nitqə (danışığa) sahib olsun.

Xeyirlə Şərin mübarizəsi əzəli məsələdir, insanlıqla yaşıddır. Xeyir həyatdır, dirilikdir, insanlığın istək və amalları yolunda canı fəda etməkdir, bu yolda hər şeydən keçməkdir, insan fədaisi olmaq, insan zəkasına işıq, ziya verməkdir. Əsl ziyalılıq da buradan yaranıb, istilah şəkilınə düşüb, “ziyalı” məfhumu, anlayışı meydana gəlmişdir. Hörmüz amalının icraçısı olan Zərdüşt xeyrin, haqqın, ədalətin rəmzidir, işığıdır, peyğəmbəridir.

Zərdüştün Ahuraməzdaya müraciətində düşüncəsi ilə xeyirxahlıq aşılayanlara rəğbət ifadə olunmuşdur [1, s.46]. Onun fikrincə, insanlarda xeyir və şər hislərinin yaranmasında planetlərin rolu danılmazdır.

Zərdüşt Ahurəməzdaya müraciətlə deyir ki, dünyanın başlanğıcında bizim üçün din yaratdın, ruha bədən qəlbini verdin, ona ağıl bağışladın, davranış öyrətdin, hər kəsə sərbəst olaraq öz dinini seçməyə imkan verdin. Peyğəmbər burada xeyirxah adamdan və düşüncəsi ilə xeyirxahlığı dərk edən adamlardan bəhs edir (1, s.45-46).

Zərdüşt Ahurəməzdanın yaxın tərəfdarlarına bəyan edir ki, sizin yoxsul bəndələrinizə pənah vermək üçün sizə qoşuluram [2, s.50]. Ahurməzdadan kömək istəyərək deyir ki, mən uğur qazana bilmirəm, çünki yoxsulam, tərəfdarlarım azdır. Bir dost kimi dostuna (Zərdüştə) yardım göstər.

Xeyr anlayışına özündə geniş mahiyyət daşıyan yaxşılıq, Şər məfhumuna isə eyni dərəcədə əhatəli olan pislik daxildir.

Xeyir, xeyirxahlıq məsələlərinə xristianlığın müqəddəs kitabı “İncil”də də toxunulmuşdur.

İsa peyğəmbər "İncil"də insanlara təlqin edirdi ki, "nə bəxtiyardır mərhəmətli olanlar! Çünki onlara mərhəmət ediləcək! O, öz şagirdlərinə deyir ki, Siz yer üzünün duzu və nurusunuz, Sizin nurunuz insanların qarşısında elə parlasın ki, onlar xeyirxah işlərinizi görüb göylərdə olan Atanızı (Allahı - Z.K) ləzzətləndirsinlər [5, s.10].

Ancaq sözünüzdə "bəli"niz bəli, "xeyr"iniz xeyr olsun. Yəni yalandan and içməyin, yalançı olmayın. Bu şər əməllərdir [5, s.11].

"İncil"in başqa bir yerində deyilir ki, Siz göylərdə olan Atanızın (Rəbbin) övladları olasınız. Çünki O, günəşi həm pislərin, həm də yaxşıların üzərinə salır, yağışını da həm salehlərin, həm də saleh olmayanların üzərinə yağdırır.

Səmavi atanız kamil olduğu kimi, siz də kamil olun [5, s.11].

İslamın müqəddəs kitabı "Quran"da insanları xeyirxahlığa, xeyir, yaxşı əməllərə çağırış ideyası əsas yer tutur.

Orada göstərilir ki, Rəbbin yəhudilərə müraciətlə deyir ki, biz yaxşı əməl edənlərin mükafatını artıracağıq [6, s.2, ayə 58]. İman gətirənlərdən (müsəlmanlardan), musəvi (yəhudi), isəvi (xristian) və sabiilərdən Allaha, axirət gününə (sədaqətlə) inanıb yaxşı iş görənlərin mükafatları Rəbbinin yanındadır. (Qiyamət günü ) onların nə bir qorxusu olar, nə də onlar qəm-qüssə görərlər [6, s.2, ayə 62].

İslamda namazın azan hissəsində insanlara belə müdrik çağırış var: həyya əla xəyrül əməl (əməllərin ən xeyirlisinə tələsin).

Məhəmməd peyğəmbər özü bir xeyirxah əməllər timsalı idi. Çox mərhəmətli idi. Fəqirlərə, əlsiz ayaqsızlara baş çəkər, hallarını soruşar, mərhumların matəmlərində iştirak edər, dullara, yoxsullara, ehtiyacı olanlara yardım edərdi [7, s.75-76].

Yəhudilərin "Zəbur" kitabında göstərilir ki, xeyirxah arvad yaqutlardan daha qiymətlidir. O, məzlumlar üçün əliaçıqdır, fəqirlərə əl tutur [12, s.197-198].

Xalqımızın dünya şöhrətli "Dədə Qorqud" eposunun boylarının mərkəzində xeyirlə şərin, yaxşılıqla pisliyin mübarizəsi mərkəzi yer tutur. Boyların bir çoxunun sonunda Dədə Qorqud gəlib dastan qəhrəmanlarına xeyir-dua verir. Boylarda qədimdə olduğu kimi, tanriya andiçmə faktları öz ifadəsini tapmışdır [11].

Yaxşılıq yüksək mənəvi insani keyfiyyətdir. Bu xüsusiyyət özünü başqalarının rifahı naminə edilən xeyirxah əməllərdə büruzə verir. Adətən insanlar ailə üzvlərinə, dostlarına yaxşılıq edir. Lakin həqiqətən yaxşı olmaq təkcə bununla məhdudlaşmır. İnsanların yaxşılıq və pisliklə bağlı öz standartları olduğundan bəzən pisə "yaxşı", yaxşıya da "pis" deyirlər.

Nəriman Nərimanov yazırdı: "Yaxşılıq" insanın sifətlərindən biridir, ancaq bu sifətə töbrbətövr mənalar verib anlayıblar. Məsələn: bir nəfər şəxs -

zəngin çox çörəklidir, yəni evinə qonaq gələndə cani-dillə qulluq etməyə hazırdır... bu şəxsə yaxşı deyirlər və yainki külfəti çox olan şəxs gecə və gündüz çalışıb dövlət qazanır ki, külfəti nəinki ac qalmasın və hətta öləndən sonra övlad üçün xeyli dövlət qoysun – buna deyirlər "yaxşı adam" idi, ona görə ki, rəftarından sonra külfəti ac qoymadı. Ya da dövlətli şəxs dövlətliyə yaxşılıq edir – onlar da bir-birinə "yaxşı" deyirlər. Yaxud da bir şəxs bir kəsə nə yamanlıq və nə yaxşılıq edib ibadətlə məşğuldur – buna görə də adətdir "yaxşı" deyirlər və yainki abid yüz il ömrünü ibadətdə xurma ilə keçirir, öləndən sonra ona "yaxşı" deyib rəhmət oxuyurlar..."

Görək yuxarıda sadalanan şəxslərin "yaxşılıqları" onlar üçün xudavəndi-aləmin zati-pakini tapmağa, yəni ona yaxın olmağa yol açırmı? Xeyir! Bu yaxşılıqlar məxsus nəfs üçündür. Bir zat üçündür, nəinki allah üçün. Həmin adamların adları ancaq ölən günü dillərdə çəkilir, ancaq ölən günü deyirlər: "Allah rəhmət eləsin, yaxşı kişi idi, qonaq sevəndi, övladlarına böyük məbləğ qoydu, abid idi, saleh idi..." Nəriman Nərimanov haqlı olaraq göstərir ki, bunların adları sonradan nəinki qeyrilərinin, hətta öz övladlarının dillərində çəkilmir, çünki həmin şəxslər ancaq öz nəfsləri xoş olmaqdan ötrü öz həyatlarında yaxşılıq etmişdilər.

N.Nərimanov qeyd edirdi ki, əgər bu biçarələr həyatlarında öz yaxşılıqlarını camaata, millətə, dinə sərf etsəydilər, öləndən sonra onların adları camaatın, millətin və dindarların qəlblərində kök salıb baqi qalardı. Gündə yüz dövlətli basdırıb öz-özümüzə söylənirik ki, ey biçarə, bu qədər çalışdın, vuruşdun, axırda özünlə nə apardın? İki arşın bez, iki arşın qara torpaq!.. Bununla belə, min ildən bəri ölənlərin adları bu vaxtadək dillərdə dolaşır və dolaşacaqdır. Bunların unudulmaması səbəbinə aydınlıq gətirən N.Nərimanov sual edir ki, onların unudulmamasının səbəbi nədir? Cavabı da özü verir ki, bunlar öz xalqları yolunda canlarını fəda ediblər: fəqirlərə kömək edib onları aclıqdan xilas etdilər, çünki hər millətin zəlalətdə olmağına başlıca səbəb kasıblığıdır. Bu xeyirxah insanlar susuz yerdə su çıxardıblar, yetim uşaqlara xidmət ediblər, onlara lazım olan tərbiyəni veriblər, elmlərə yiyələnməyə kömək ediblər, millətin dərdlərinə dərman axtarmaq üçün çalışıblar. Bu şəxslər millətin bəzəyi olub dinə rövnəq veriblər. Millətin bu şəxslərə etdiyi dua və sənalarını allah eşidir. Vay o şəxsin halına ki, həyatı öz nəfsi üçün keçibdir. N.Nərimanov deyirdi ki, o şəxslərə afərin ki, insanların yaxşılığı, asayişi, dincliyi, əmin-amanlığı üçün çalışıbdırlar.

Onlar mənsub olduqları millətin gülü hesab olunurdular. Onların ətri sonradan dünyaya gələn cavanları ətirləndirir, yəni onların qeyrəti gələcəkdə millətin balalarını qeyrətləndirir. Onları tərbiyələndirir ki, gənclərdə bu dünyada cəmiyyətin xeyrindən ötrü can qoysunlar, özlərini heyvana oxşatmayıb allahtəalanın verdiyi neməti puç etməsinlər.

Mədəni millətlər bu şəxslərə vəfatından sonra abidələr qoyurlar, onların əməllərini yazıb uşaqlara oxudurlar. Bu şəxslərin adları hörmətlə dillərdə çəkilir, nəsilbənəsil millət balaları arasında təbliğ edilir. Sonra gələnlərdə onlar barəsində oxuyub və eşidib özlərini onlara oxşadır, millətin bəzəyi olurlar. "Bu minval qeyrət, həmiyyət və himmət artır". Başqa millətlərdə olduğu kimi, millət yolunda can qoyanlar bizdə də olmuşdur [8, s.14].

Xeyir-Şər məsələsi Azərbaycan poeziyasında da bütün zamanlarda müzakirə mövzusu olmuşdur. Hətta Böyük Nizami "Yeddi gözəl" poemasına "Xeyir və Şər" adlı mənzum hekayə də daxil etmişdir. Hekayənin başlanğıcında deyilir:

Çin qızı söylədi: İki növcavan,
Başqa bir şəhərə oldular rəvan.
Yeməyə azuqə götürüb hərə,
Qoyub heybəsinə çıxdı səfərə.
Gəncin biri Xeyir, birisi Şərdi,
Onlar adlarıtək işlər görərdi [10, s.513].

Bu hekayənin atəşpərəstlik təliminin təsiri ilə yarandığı şübhəsizdir.

Şər öz pis əməllərinin binasını göydəki planetlərin yerə və eyni zamanda bir insan kimi onun taleyinə təsirində görür. Xeyir və Şər kimi kateqoriyalar, eyni zamanda xeyirxahlıq və bədxahlıq kimi sifətlər "Avesta"nın və Nizaminin fəlsəfi görüşüncə, insanın təbiətindədir... Bu təbiətdə planet və ulduzların təsiri ilə formalaşır. Bu isə Zərdüşt astrologiya məktəbinin konsepsiyasıdır.

Bu hekayədə və ümumilikdə Nizami yaradıcılığında Zərdüştün Xeyirxah fikir, Xeyirxah söz, Xeyirxah əməl haqqındakı üç hikmətli tezisinin təsiri hiss olunur. Sanki Nizaminin əsərlərində Zərdüştün dünya, planet və qalaktikalar haqqındakı müxtəlif tendensiyalı sosial-fəlsəfi konsepsiyaları sadə dildə bədii şəkildə şərh olunmuşdur.

Həm də böyük humanist şairin zəngin yaradıcılığı insanları tərbiyələndirir, onlara Xeyirxahlıq hissi aşılayır. Aşağıdakı parçaya diqqət edək:

Bir kürd vardı mallı, pullu, keyfi çağ,
Onun qapısında çoxlu mal-qara,
Kimsə çatmamışdı bu qədər vara,
Səkkiz qohumunu o saxlayardı,
Onlar yoxsul, bunun dövləti vardı [10, s.514].

"Azərbaycan dilinin izahlı lüğətində" xeyirxahlıq sözünün kökü olan xeyir sözü iki baxımdan: 1) fayda, mənfəət; 2) yaxşılıq, yaxşı iş mənalandırılır. Deməli, xeyirxah (ərəbcə xeyir və farsca xah sözlərindən yaranmış) başqalarına kömək edən, yaxşılığa çalışan, qayğıkeş anlamında yozulur. Xeyriyyə (ərəbcə)

sözü xeyir iş, ehtiyacı olanlara kömək, yardım məqsədi güdən kimi izah edilir [3, s.434-435].

Yəhudi xalq atalar sözündə deyildiyi kimi, insanlar gözəlliyi görür, müdrikliyi eşidir, xeyirxahlığı hiss edirlər. Deməli, belə nəticəyə gəlmək olar ki, Xeyirlə Şərin, xeyirxahlıqla, yaxşılıqla pisliyin mübarizəsi əbədidir. İnsanın adını əbədi yaşadan onun xeyirxah əməlləridir.

**ƏDƏBİYYAT**


1. Avesta. Bakı: Azərnəşr, 1995, 76 s.
2. Azərbaycan ədəbiyyatı tarixi. Ən qədim dövrlər: Ali məktəblər üçün dərs vəsaiti. Bakı: Adiloğlu, 2003, 302 s.
3. Azərbaycan dilinin izahlı lüğəti: 4 cilddə, II c., Bakı: Şərq-Qərb, 2008, 792 s.
4. *Əlibəyzadə E.* Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi (İslamaqədərki dövr). Bakı: Gənclik, 1998, 522 s.
5. İncil. Müqəddəs kitab. Bakı: Zərdabi MMC, 2021, 384 s.
6. Quran-Kərim. Bakı: Şərq-Qərb, 2012, 956 s.
7. *Qüdrətov O., Qüdrətov H.* Məhəmməd peyğəmbərin həyatı və kəlamları. Bakı,1990, 174s.
8. Hacı Zeynalabdin Tağıyev. Bakı: Azərbaycan,1993, 144 s.
9. *Yusifov Y.* Qədim Şərq tarixi. Bakı: Bakı Universiteti, 1993, 496 s.
10. “Yeddi gözəl” / Nizami Gəncəvi. Xəmsə. Bakı, 2021, 912 s.
11. Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, 1988, 265 s.
12. Zəbur və Süleyman məsələləri. Bakı: Zərdabi MMC, 2021, 200 s.


Redaksiyaya daxil olub 05.05.2023

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2023, C.71, №2, s. 83-88
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2023, V.71, №2, pp. 83-88

*UOT 39*

***F.M.Qəniyeva***
*Milli Azərbaycan Tarixi Muzeyi*
*fatime.qeniyeva@gmail.com*

# HEYDƏR ƏLİYEVİN MİLLİ İDENTİKLİK SİYASƏTİ

***Açar sözlər:*** *identiklik, dil, siyasət, lider, dövlət*

Məqalədə Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi dil siyasəti və bu sahədəki misilsiz xidmətlərindən bəhs olunur. Azərbaycan dilinin inkişaf tarixi mərhələlərə bölünərək araşdırılır. İstər sovet, istərsə də müstəqillik dövründə Azərbaycan dilinin dövlət dili statusu almasında Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Həmçinin ümummilli liderin Azərbaycançılıq ideologiyası və onun əsasında duran milli dil fenomeni milli şüur, milli özünüdərk, milli dövlət kimi amillərlə bərabər, xalqın formalaşmasını təşkil edir. Azərbaycan dili dövlətçilik rəmzi ilə yanaşı, həm də milli dövlət quruculuğunun mühüm komponentidir.

***Ф.М.Ганиева***

## ПОЛИТИКА НАЦИОНАЛЬНОЙ ИДЕНТИЧНОСТИ ГЕЙДАРА АЛИЕВА

***Ключевые слова:*** *идентичность, язык, политика, лидер, государство*

В статье рассказывается о языковой политике, проводимой великим лидером Гейдаром Алиевым, и его беспрецедентных заслугах в этой сфере. История развития азербайджанского языка исследуется путем разделения его на этапы. Гейдар Алиев имел исключительные заслуги в получении статуса государственного языка азербайджанского как в советский период, так и в период независимости. Идеология азербайджанства общенационального лидера и лежащий в ее основе феномен национального языка, наряду с такими факторами, как национальное сознание, национальное самосознание и национальное государство, составляет формирование народа. Помимо символа государственности, азербайджанский язык также является важной составляющей национального государственного строительства.

***F.M.Ganiyeva***

## NATIONAL IDENTICAL POLICY OF HEYDAR ALIYEV

***Keywords:*** *identity, language, politics, leader, state*

The article talks about the language policy implemented by the Great Leader Heydar Aliyev and his unparalleled services in this field. The history of the development of the Azerbaijani language is divided into stages. Heydar Aliyev had exceptional services in getting the status of the state language of the Azerbaijani language, both during the Soviet and independence periods. The ideology of the

national leader Azerbaijanism and the phenomenon of the national language underlying it, along with factors such as national fame, national consciousness, national identity and the national state, organize the formation of the people. Apart from the symbol of statehood, the Azerbaijani language is also an important component of national state building.

**Giriş**

Müasir dövrdə identiklik müxtəlif səviyyələrdə tədqiq edilir. Əsasən fərdi, cəmiyyət və dövlət səviyyələrində bu terminə yanaşma sosial və psixoloji kontekstdə təhlil olunur. Bu səviyyələri ayrı-ayrılıqda xarakterizə edən əlamətlər mövcuddur. Bu səviyyələr identikliyin təkamül mexanizmini təyin edir. İdentikliyə sosioloji baxımdan yanaşmanın mərkəzində aşağıdakı xüsusiyyətlər dayanır.

- qrupla şəxsiyyətin nisbəti,
- qrup haqqında təsəvvür,
- çoxsaylı qruplarda fərdlərin özünümüəyyən etməsinin sosial mexanizmləri.

Psixoloji səviyyədə isə fərdin özü haqqında təsəvvür onun müəyyən sosial qrupda iştirakının dərk edilməsinin törəməsi kimi formalaşır.

Hər bir dövlətin və xalqın uğurlarında siyasi liderlərin böyük rolu vardır. Məhz belə liderlərdən biri, XX əsrin dövlət qurucusu Ulu öndər Heydər Əliyevdir. Ulu Öndərin siyasi fəaliyyətində və dövlət quruculuğu təlimində Azərbaycançılıq, ana dili, milli ideologiya əsas amillərdən olmuşdur.

Dövlətçilik ənənələrinin yaranması nə deməkdir və hansı göstəricilərlə şərtlənir? Bu, ilk növbədə əhalinin xalqa, xalqın millətə, sakinlərin vətəndaşlara çevrilməsi istiqamətində gedən prosesdir. Dövlətçilik insanlarda vətənpərvərlik duyğusunu, vətən anlamının milli mənə daxil edilməsini nəzərdə tutur. Əgər hər hansı bir ölkədə hər kəs ancaq öz mənafeyini, ailəsinin mənafeyini düşünürsə və bütövlükdə xalqının taleyinə, ümummilli siyasi, iqtisadi mənafeyinə biganədirsə, - deməli, burada dövlətçilik ənənələri yoxdur. "Hər bir vətəndaş gərək ölkəsinin böyük siyasəti haqqında düşünsün, kiçik mənfəətləri, maraqları haqqında düşünməsin" [4, s.20].

Heydər Əliyev fenomeninin ən mühüm göstəricilərindən biri də Azərbaycançılıq məfkurəsidir. Görkəmli siyasi xadim Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı olub, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin siyasi, ideoloji, iqtisadi əsaslarını yaradıb, xalqı müstəqil, güclü dövlətə sahib olmaq arzusuna qovuşdurub və çağdaş

tariximizdə əbədiyaşarlıq qazanaraq sağlığında canlı əfsanəyə çevrilmiş dahi şəxsiyyətdir.

Azərbaycançılıq müstəqil Azərbaycan dövlətinin və xalqının milli ideologiyasıdır. Azərbaycançılıq xalqın milli-mənəvi varlığının ilkin əlamətlərini, onun kimliyini əks etdirən, milli təfəkkürünü birləşdirən dəyərlər sistemidir: "Bu dəyərləri cəmləşdirən dil, ərazi, vətəndaşlıq, adət-ənənə və ideoloji birlik Azərbaycançılıq ideologiyasının əhatə dairəsini sərhədsiz edir. Azərbaycançılığın əsasında Azərbaycanı özünə Vətən kimi qəbul edən bütün xalqların milli, etnik, dini və sosial hüquqlarının bərabərliyi ideyası dayanır. Milli dövlətə mənsubluq əsrlər boyu hər bir xalqın nəyə qadir olduğunu, şərəfli mübarizə yolunu, dünya dövlətləri sırasında layiqli yer tutmaq əzmini nümayiş etdirmişdir. Bu mənada xalqların qarşıya qoyduğu konkret hədəflərə doğru irəliləməsi prosesində milli dövlətin mövcudluğu vacib şərtlərdən biridir.

Müasir, müstəqil Azərbaycan Respublikasının qurucusu Heydər Əliyevin müəllifi olduğu Azərbaycançılıq ideologiyası bütün dünya azərbaycanlılarını əhatə edərək, onların milli istinad mənbəyinə çevrilib. *Müstəqil Azərbaycan dövlətinin əsas ideyası Azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz Azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq,* - deyən Heydər Əliyev dühası Azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuşdur.

Azərbaycançılıq ideologiyası millətə, xalqa, dövlətə qəlbən sevgini, onların naminə yorulmadan çalışmağı təşviq edir. Təsadüfi deyil ki, 1997-ci ildə Ulu Öndər Heydər Əliyev ABŞ-yə rəsmi səfəri zamanı Azərbaycan diasporu qarşısında çıxış edərkən bu ideologiyanın əsas prinsiplərini belə müəyyən etmişdir: "Siz düşünməyin ki, Azərbaycan bizim üçün nə edib, düşünün ki, biz Azərbaycan üçün nə etmişik. O zaman Azərbaycan da irəli gedər, Azərbaycan diasporu da inkişaf edər... Harada doğulmağın fərqi yoxdur, əsas odur ki, sən azərbaycanlısan, Azərbaycan dilinin, mədəniyyətinin daşıyıcısısan".

Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı əvəzsiz xidmətlərindən biri də məhz ana dilinə həssas münasibət olmuşdur. Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəlişindən dərhal sonra Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyinin keçirilməsinə qərar vermiş, 1969-cu il noyabr ayının 1-də bu təntənəli tədbirdə Azərbaycan dilində çıxış etmişdir. Bununla da Heydər Əliyev dühası cəmiyyətə milliləşmə zəruriliyini milli dilə, dəyərlərə bağlı olmağı, tarixi irsi yaşatmağı çatdırmışdır.

70-ci illərin ortalarında Azərbaycan dilinin tədqiqi və öyrənilməsi istiqamətində dövlət səviyyəsində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. 1974-cü ildə Azərbaycan dilinin tədqiqinə görə bir qrup dilçi alimin dövlət

mükafatlarına layiq görülməsi, o cümlədən 3 cildlik "Müasir Azərbaycan dili" dərsliyinin nəşri də siyasi xadimin ana dilinə böyük ehtiramla yanaşdığını göstərir. Həmin illərdə Azərbaycan Elmlər Akademiyasının Dilçilik İnstitutunun yaradılması da ana dilinin ictimai-siyasi nüfuzunun möhkəmləndirilməsi, onun tarixinə, dialektologiyasına dair bir çox tədqiqatların meydana çıxmasını şərtləndirmişdir.

Heydər Əliyevin ideyaları, fikirləri, proqnozları əsasında məqsədyönlü təşkilatçılığı, rəhbərliyi və tələbkarlığı nəticəsində qısa zaman ərzində keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycanda sosial-iqtisadi, mədəni və ictimai-siyasi sahələrdə dinamik inkişaf, görünməmiş artım templəri əldə olundu, elmi-texniki dəyişikliklərin səviyyəsi tarixi əhəmiyyət kəsb etdi. Heydər Əliyev müstəqillik illərində ötən əsrin 70-ci illərində gördüyü işləri xatırlayaraq deyirdi: "1970-1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Baş verən dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatlarının xarakterinə, xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçirilməsinə görə doqquzuncu, onuncu və on birinci beşilliklər Azərbaycanın yeni tarixində ən mühüm yerləri tutur" [1, s.145].

Bu gün müstəqil Azərbaycan Respublikasında dünya azərbaycanlılarının milli birlik və həmrəylik problemi dövlət siyasəti səviyyəsinə qaldırılmış, Azərbaycan diasporunun formalaşdırılması dünya azərbaycanlılarının bir-biri ilə və Vətənlə əlaqələrinin yaradılması, möhkəmləndirilməsi məsələləri bilavasitə gündəliyə gətirilmişdir. Dünya azərbaycanlılarının əsl milli özünüdərk və ümummilli ideya – Azərbaycançılıq, müstəqil dövlətçilik, milli-mənəvi dəyərlər ətrafında birləşməsi prosesi başlanmışdır " [3, s.141].

Dünya azərbaycanlılarının 2001-ci ilin 9-10 noyabr tarixlərində keçirilmiş I Qurultayında Ümummilli Lider Heydər Əliyev demişdir: "Bizim hamımızı birləşdirən, həmrəy edən Azərbaycançılıq ideyasıdır, Azərbaycançılıqdır. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir".

9 iyun 2002-ci il tarixində Sankt-Peterburq şəhərində Ümummilli Liderin Azərbaycan diasporunda təşkil edilən azərbaycanlı soydaşlar ilə görüşlərdən bizə məlum olan maraqlı söhbətlər, tövsiyələr bir daha sübut edir ki, sağlam əhval-ruhiyyə ilə yaşayan soydaşlarımız bir-biri ilə ümumiyyətlə, yaxşı əlaqədədirlər və təbii ki, bu əlaqələr buradakı hər bir azərbaycanlının normal yaşaması, işləməsi, öz ailəsini təmin etməsi üçün imkanlar yaradır. Bu xüsusda Ulu Öndər yazır: "İndi ölkəmizdən kənarda yaşayan azərbaycanlılar az

deyildir. Bilirsiniz ki, biz dünya azərbaycanlılarının I qurultayını keçirdik və çox böyük məlumatlar aldıq. Qurultay çox böyük iş gördü. İlk dəfə olaraq dünya azərbaycanlılarının nümayəndələri dünyanın hər yerindən olmasa da, bir çox ölkələrdən Azərbaycana, doğma torpağa toplaşdılar, bir-biri ilə görüşdülər, tanış oldular, əlaqələr qurdular və vətənin bu gününü gördülər. Hesab edirəm ki, mənəvi cəhətdən daha da zənginləşərək, öz yaşadıqları yerlərə döndülər. Bu, bizim ilk addımımızdır" [2, s.58].

Ulu Öndər Heydər Əliyev uzaqgörənliklə demişdir ki, "Dünyanın inkişafının indiki mərhələsinin başlıca meyli qloballaşmadır. Bu mürəkkəb, heç də birmənalı olmayan prosesin perspektivləri bizim hamımızı düşündürür. Bu zəruri axın dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin sabitliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsinə kömək etməlidir". Beləliklə, Ümummilli Liderin Azərbaycan dövlətçiliyinin təməlinə yerləşdirdiyi Azərbaycançılıq ideologiyasının birləşdirici və ehtivaedici xarakterinin aktuallığı bu gün daha artıq önəm və əhəmiyyət qazanır" [5, s.237].

Azərbaycan dövlətinin tarixi şəxsiyyəti, müstəqil respublikanın böyük qurucusu Ulu öndər Heydər Ə1iyevin "Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır", "Fikir müxtəlifliyi təbii hadisədir", "Böyük siyasəti kiçik hislərə, xırda mənfəətlərə bağlamaq olmaz" [6] kimi hər kəsin dillər əzbəri olan fikirləri, o cümlədən "Demokratiya insanların şüurunda dəyişiklik deməkdir. Bu dəyişiklik heç bir inqilabla olmur. Təkamül yolu ilə tədricən gedir" [6], - düşüncəsi, əslində siyasi mövqeyi ölkədə vətəndaş cəmiyyətinə onun milli lider münasibətini dolğun əks etdirir [6].

**Nəticə**

İdentiklik etnosun həyat və fəaliyyəti ilə bağlı mühüm amilləri əks etdirməklə yanaşı, maddi və mənəvi mədəniyyət kriteriyalarının təyinedicisidir. İdentikliyin əsasını milli özünüdərk təşkil etdiyi halda, Azərbaycanın milli ideologiyasının əsas məsələlərindən olan millət, Vətən anlayışından, milli-mənəvi dəyərlərdən, milli şüur, milli dövlət, milli siyasət və milli hədəflər kimi anlayışlardan bəhs edərək belə bir nəticəyə gəlmək olar ki, millət – dilə, tarixə malik ən böyük fərdlər məcmusudur. Milli şüur – milli ideyalara əsaslanan ictimai şüur formasıdır. Vahid ərazi, dil və iqtisadi əlaqələr xalqın meydana gəlməsində, formalaşmasında və mövcudluğunun qorunmasında əsas şərtlərdəndir.

Azərbaycançılıq məfkurəsi elə bir ideyadır ki, azadlığı özündə ehtiva edən müqəddəs amaldır. Onu müəyyənləşdirən əsas amil maarifçilik ideyalarının xalqa təlqin edilməsidir. Ulu Öndər Azərbaycançılıq məfkurəsi ilə yanaşı, milli oyanışın banisidir. Heydər Əliyevin formalaşdırdığı və inkişaf etdirdiyi Azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyada yerini

müəyyən etdi. Dahi şəxsiyyətin müdrik kəlamlarından biri olan, "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" – bu misralar Azərbaycançılıq ideyasının əsasını təşkil edir.

Bütün bunlar onu göstərir ki, Azərbaycan dilinin siyasi arenada önə çıxması və möhkəmlənməsinin əsasında Ulu Öndərin ana dilini mükəmməl bilməsi və ana dilinə qarşı dərin sevgisi dayanırdı. Ulu Öndərin Azərbaycan dili siyasəti və Azərbaycançılıq ideologiyasının möhkəm prinsiplər üzərində qurulması dövlətə qayğının ən bariz nümunəsidir: cəmiyyəti vahid bir məqsəd ətrafında sıx birləşdirən Azərbancançılıq ideologiyası dövlətçiliyin əsasını təşkil edir.

Dahi lider milli kimliyi üstün tutmuş və bu mövqedən çıxış edərək Azərbaycan Respublikasının prezidenti seçildiyi dövrdən etibarən dövlətin xarici siyasətində çoxistiqamətli və hərtərəfli amillərlə əhatələnmiş, xalqın beynəlxalq mövqeyinin möhkəmlənməsini təmin etmişdir.

**ƏDƏBİYYAT**

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: 46 kitabda, XXXI k., Bakı: Azərnəşr, 2010, 512 s.
2. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: 46 kitabda, XXXIX k., Bakı: Azərnəşr, 2012, 479 s.
3. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı: Azərbaycan Universiteti, 2002, 232 s.
4. Heydər Əliyev. Müstəqillik yolu. Bakı: Azərbaycan Universiteti, 1997, 136 s.
5. *Novruzov S*. Heydər Əliyev və Azərbaycan dövlətçiliyi. Bakı: Elm və təhsil, 2019, 272 s.
6. Heydər Əliyev. Azərbaycan xalqına müraciət / http7/_-files.preslib.az/prqjects/toplu/v2/D_l 3.pdf.

Redaksiyaya daxil olub 05.05.2023

*UOT 94(479.24)*

***Ə.C.Qurbanlı***
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*qurbanli.68@mail.ru*

# NÜVƏDİ KƏNDİNİN ERMƏNİSTAN SSR-yə VERİLMƏSİ VƏ DEPORTASİYASI TARİXİ MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** *deportasiya, Azərbaycan, sovet, Nüvədi, Meğri*

Məqalədə 1929-cu ildə Azərbaycanın tərkibindən Nüvədi kəndinin Zaqafqaziya Federasiyası tərəfindən Ermənistana verilməsi, onların sıxışdırılması və 1991-ci ildə Ermənistan SSR-dən deportasiyası probleminə həsr olunub. İlk dəfə olaraq azərbaycanlıların bu kənddən deportasiyası məqalədə tarixi faktlar əsasında göstərilmişdir. Bölgədə baş vermiş siyasi hadisələr və kəndin Ermənistana verilməsindən sonra erməni etnik millətçilərinin bu kəndi köçürmək planları, əhalinin dirənişi geniş araşdırılmışdır. Ermənistan SSR-də soydaşlarımızın məruz qaldığı etnik təmizləmə, erməni partiya-sovet və millətçi təşkilatlarının bu istiqamətdəki fəaliyyəti Azərbaycan və erməni mənbələrinə istinadən geniş təhlil edilmiş, nəzərdən keçirilmişdir.

***А.Дж.Гурбанли***

## ИСТОРИЧЕСКИЕ ВОПРОСЫ ДЕПОРТАЦИИ И ПЕРЕДАЧИ СЕЛА НУВЕДИ АРМЯНСКОЙ ССР

***Ключевые слова:*** *депортация, Азербайджан, Нювади, Мегри*

Статья посвящена вопросу о передаче села Нуведи Армении в период Закавказской Федерации в 1929 году и депортации азербайджанского населения из Армении в 1991 году. Впервые на основе исторических фактов показана депортация азербайджанцев из этого села. Широко исследованы политические события в регионе, планы армянских этнонационалистов очистить село Нуведи от азербайджанцев, а также сопротивление азербайджанского населения. Вместе с этим со ссылкой на азербайджанские и армянские источники всесторонне проанализированы и рассмотрены этнические чистки, которым подверглись наши соотечественники в Армянской ССР, деятельность армянских партийно-советских и националистических организаций в этом направлении.

***A.J.Gurbanli***

## HISTORICAL ISSUES OF DEPORTATION AND TRANSMISSION OF THE VILLAGE OF NUVEDI TO THE ARMENIAN SSR

***Keywords:*** *deportation, Azerbaijan, Nuvedi, Megri*

The article is dedicated to the issue of the transfer of Nuvedi village from

Azerbaijan to the Armenian SSR by the Transcaucasian Federation in 1929, their suppression and deportation from the Armenian SSR in 1991. For the first time, the deportation of Azerbaijanis from this village is shown in the article based on historical facts. The political events in the region and the plans of Armenian ethnic nationalists to relocate the village after the transfer of the village to Armenia, as well as the resistance of the population, have been widely investigated. The ethnic cleansing suffered by our compatriots in the Armenian SSR, the activities of the Armenian Party-Soviet and nationalist organizations in this direction have been extensively analyzed and reviewed with reference to Azerbaijani and Armenian sources.

Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyevin qətiyyətli siyasəti və əsgərlərimizin şücaəti sayəsində 30 il ərzində Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımız işğaldan azad edildi. Bütün bunlar bizdə vaxtı ilə Ermənistana verilmiş torpaqlara yenidən qayıtmaq ümüdlərimizi daha da artırmışdır.

Məhz İlham Əliyevin Qərbi Azərbaycanla bağlı siyasəti və bu istəyin reallaşması istiqamətində atdığı real addımlar bizdə eyni zamanda bir əminlik yaratmışdır.Yurdlarından didərgin salınmış Qərbi Azərbaycan kökənli əhali İlham Əliyevin prioritet siyasi xəttə inanır, itirilmiş vətən torpaqlarına qayıdışı səbirsizliklə gözləyirlər.

Bizim də bu kontekstdə görəcəyimiz əsas iş ədalətsiz bir şəkildə Ermənistana verilmiş bir kəndin tarixini araşdırmaq, onu təhlil etmək və tarixi həqiqətləri yeni nəslə çatdırmaqdır.

Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra Zəngəzuru ələ keçirən və Yuxarı Qarabağın muxtariyyətinə nail olan ermənilər Azərbaycan torpaqlarının Ermənistan SSR-ə birləşdirilməsi planından əl çəkməmiş və bütün vasitələrdən istifadə edərək aborigen türkləri (azərbaycanlı) tarixi yurdlarından çıxarmaq,öz ərazilərini Azərbaycan torpaqları hesabına genişləndirməklə, “Türksüz Ermənistan”a nail olmaq istəyirdi.

Azərbaycan torpaqlarının Ermənistana verilməsində RK (b)P Zaqafqaziya Diyar Komitəsi və Zaqafqaziya SFSR MİK-nin xüsusi rolu olmuş və Azərbaycan torpaqları hissə-hissə kəsilərək Ermənistan SSR-yə verilmişdi. Ermənilər Azərbaycanın Naxçıvan və Yuxarı Qarabağ vilayətlərini Ermənistana birləşdirə bilmədikdə yeni planlar cızır, xüsusən də Mərkəzin onlar üçün yaratdığı şərait və Azərbaycan rəhbərlərinin “səxavəti” ərazi məsələsinin gələcək həlli istiqamətində onların fəaliyyət imkanlarını stimullaşdırırdı.

Zaqafqaziya MİK RH-nin qərarı ilə 1927-ci ildə və xüsusən də 1929-cu il fevralın 18-də Azərbaycan SSR-nin Naxçıvan MR-dan ərazisi 657 km$^2$ olan 10 kənd, Ordubad rayonundan isə Qərçivan və Kilid kəndinə məxsus torpaqlar (Meğriyə verilib) kəndləri ilə Ermənistan SSR-nin tərkibinə keçirilmişdi [2, v.2].

Əvvəllər Zəngəzur qəzasının kəndləri olmuş Lök (Vartanidzor), Maralzəmisi, Lehvaz, Tey və digər kəndlər Zəngəzurun Qərb hissəsi 1920-ci ildə Ermənistana veriləndə bu kəndlər də Ermənistanın inzibati tabeliyinə keçmişdi. Azərbaycanın Cəbrayıl qəzasına aid Aldərə və Astazurun, 1926-cı ildən əvvəl Qərçivanın, Ernəzir, Tuğut və Nüvədinin 1929-cu ildə Ermənistana verilməsi ilə Azərbaycanla Naxçıvan arasında 46 km-lik dəhlizin yaradılması və bu torpaqların bir-birindən təcridi ilə nəticələnir.

Azərbaycan SSR-nin Cəbrayıl qəzasından daha 3 kənd – Nüvədi, Ernəzir, Tuğut kəndləri Zaqafqaziya MİK-si tərəfindən 1929-cu il 18 fevral qərarı ilə (iclasın sədri M.Sxakayan və üzvlər - D.Bünyadzadə, M.C. Bağırov, A.Dolidze, V.Strua, İ.Tağıyev, A.Şaverdov, S.Yaqubov) Ermənistan SSR-yə verilmiş və bu kəndlərin bazasında 1930-cu ildə Meğri qəzası yaradılmışdı [2, v.2; 8, s.10].

Adları çəkilən bu kəndlər Ermənistan SSR-ə verildikdən sonra 1939-cı ildə Ermənistan hökuməti tərəfindən Tuğut və Ernəzir kəndləri "perspektivsiz" kəndlər adı altında ləğv edilmiş, Tuğut erməni kəndi Şvanidzorla, Ernəzir isə Nüvədi kəndinə birləşdirilmişdi [8, s.10].

Bu kəndlər verilənə qədər Naxçıvanla Azərbaycanı dəmiryolu boyu on kilometr ayırırdısa, bu üç kəndin verilməsindən sonra anklav daha da genişlənmiş, qırx altı kilometrlik məsafə yaranmışdı.

Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyev bu məsələlərdən danışarkən bildirirdi ki, "o dövrdə və sonralar təkcə Naxçıvanın torpaqları yox, Azərbaycanın başqa hissələrindən də torpaqlar, təəssüflər olsun ki, əldən gedibdir. İndi bizi Naxçıvandan ayıran, sərhəddən dəmir yolu ilə getsək, təxminən 46 kilometr məsafə, - Ermənistanı İrana bağlayan məsafə əldən gedibdir. O vaxt, hətta Zəngəzur Ermənistana verilən zaman da onun ərazisi o qədər deyildi. Dünən biz xəritə ilə baxırdıq, - onun Araza çıxan ərazisi 10 kilometr olubdur. Amma sonradan o tərəfdən Naxçıvana daxil olan kəndlər əlindən alınıbdır. Ermənilər bu tərəfdən, yəni Zəngilandan – o vaxt Zəngilan deyildi, Cəbrayıl qəzası hesab olunurdu – bir hissəni alaraq, Ermənistana qataraq 10 kilometrlik məsafəni indi 46 kilometr ediblər. Bilirsiniz, bunlar hamısı gedən proseslərdir, amma bizim zərərimizə olan proseslərdir. Bunlar bizim torpaqlarımızın bax, beləcə, tədricən əldən getməsi prosesidir. Ermənilərin məqsədi Naxçıvanı Azərbaycandan ayrı salmaq, onun anklavını genişləndirmək, gələcəkdə Ermənistanın tərkibinə birləşdirmək idi" [7].

Nüvədinin kəndinin1929-cu ildə Ermənistana verilməsi barədə uzun müddət bu kəndlərin, xüsusən də belə bir yanlış fikir formalaşdırılıb ki, guya Nüvədi kəndinin Ermənistana birləşdirilməsində kənd ağsaqqallarının xüsusi iştirakı olmuş, kənd əhalisi könüllü olaraq öz xahişləri ilə Ermənistanın tabeliyinə keçmişdir. Sənədlər göstərir ki, bunlar əsilsizdir və bunun heç bir əsası yoxdur. Əvvəla, o dövrdə xalqın, əhalinin hansı istəyi nəzərə alınırdı ki?

İkincisi, tək Nüvədi kəndi deyil, üç kənd bu illərdə eyni vaxtda, eyni tarixdə bir iclasın çıxardığı qərarla Ermənistana verilmişdi.

Üçüncüsü, Nüvədi kəndinin əhalisi həmişə bu tarixi haqsızlıqla heç vaxt barışmamış, daim bunun üçün mübarizə aparmış, özlərini daim Azərbaycanın bir bölgəsi hesab etmiş, ermənilərlə daim qarşıdurma şəraitində olmuş, milli kimliyini, özünəməxsusluğunu qoruyub saxlamışdır və nə vaxtsa yenidən Azərbaycana birləşdiriləcəklərinə ümidlərini itirməmişdilər.

Ermənistan rəhbərləri isə bu kənddən "xilas" olmaq üçün daim yollar axtarırdılar. Belə bir fürsət ikinci dünya müharibəsindən sonra erməni millətçiləri üçün göydəndüşmə idi. SSRİ Nazirlər Sovetinin sədri İ.V.Stalin "Kolxozçuların və başqa azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1949-cu il 4083 saylı qərarı ermənilərin "türksüz Ermənistan" siyasətinin reallaşmasına gətirib çıxartdı. Bu amansız köçürülmə siyasətinin həyata keçirilməsi nəticəsində 100 mindən yuxarı soydaşlarımız erməni məkrinin qurbanına çevrildi [4].

Bu böyük və haqsız köçürülmə siyasəti illərində Meğri (Mığrı) rayonun Nüvədi kəndinin sakinləri də erməni rəhbərlərinin radarında idilər. Ermənistan SSR-dən azərbaycanlıların Kür-Araz ovalığına köçürülməsinə dair planda Nüvədi kəndinin köçürülməsi nəzərdə tutulmasa da, erməni rəhbərlər rayonun bu iri kəndi və böyük kolxoz təsərrüfatını ikin köçürməyə çalışırdı.

Ermənistan SSR Meğri (Mığrı) rayonu Partiya Komitəsi, Rayon İcraiyyə Komitəsi, Rayon Daxili İşlər şöbəsi bu məqsədlə dəfələrlə kəndə gəlmiş, kənd əhalisinin köçürülməsi işinə kənd ağsaqqallarını da cəlb etməklə kəndi köçürməyə razılığını almaq istəmişdilər. Ermənistan SSR Meğri rayonunun Nüvədi kəndinin əhalisinin Mingəçevirə köçürülməsi nəzərdə tutulsa da,onlar yaşayış yerlərindən köçmək istəmirdilər.

Lakin Nüvədi kəndinin "Qırmızı Sərhəd" kolxozunun üzvləri, kənd sakinləri kolxoz idarə heyətinin sədri Cəbrayıl Məmmədovun, kolxoz ilk partiya katibi Məmməd Rüstəmovun və kənd sovetinin sədri Əbili Babatovun birliyi və həmrəyliyi kəndin ermənilər tərəfindən köçürmə palanının həyata keçirilməsinə imkan vermədi.

Köçürülmə ilə bağlı Dövlət Tarix Arxivində işləyərkən əldə etdiyim Nüvədi sakinlərinin İ.V.Stalinə ünvanladıqları bu sənəd bir çox məsələyə aydınlıq gətirir. SSRİ Nazirlər Sovetinin sədri İ.V.Stalinin nüvədililərin bu ərizəsinə nə cavab verməsi ilə bağlı arxivdə heç bir sənədə rast gəlməsək də, bu sənəd Nüvədi kənd sakinlərinin hər zaman bu tarixi "səhvin" düzəldilməsi istiqamətində totolitar rejim şəraitində göstərdiyi təşəbbüsü, çabası Nüvədinin kənd əhalisinin Azərbaycanın tərkibinə keçmək istəyinin nə qədər güclü olduğunu göstərməklə bərabər, həm də bu kəndin Ermənistana verilməsi kimi tarixi cinayətə imza atmış "rəhbərlərə" bir üsyan, etiraz idi.

Nüvədi kəndinin Azərbaycanın Zəngilan rayonunun ərazisinə aid edilməsi xahişi barədə Ermənistan SSR Meğri (Mığrı) rayonu Nüvədi kəndinin "Qırmızı Sərhəd" kolxozunun kolxozçuları qrupu adından 23 aprel 1948-ci il tarixdə SSRİ Nazirlər Sovetinin sədri İ.V.Stalinə ünvanladıqları məktubunda isə deyilirdi: "Yoldaş İ.V.Stalin! Bu ilin aprelində bizə bildirdilər ki, biz Azərbaycana köçməliyik, çünki Ermənistan azərbaycanlıları Azərbaycanda yaşamalıdırlar. Bizim Nüvədi kəndi bu iki respublikanın sərhədində yerləşir. 1920-ci ilə qədər (1929-cu il 18 fevralına qədər - Ə.Q.) bu kənd Azərbaycan SSR-nin Zəngilan rayonuna aid olub, lakin sonra Ermənistan SSR-nin Meğri rayonu ərazisinə aid edilib. Daha sonra çəkilən dəmiryolu xətti bu iki rayonu birləşdirdi.

Bundan çıxış edərək, Sizdən çox xahiş edirik ki, bizi köçürmədən sadəcə Nüvədi kəndimizi 1920-ci ilə qədər olduğu kimi Azərbaycan SSR-nin Zəngilan rayonuna aid edəsiniz. Biz ümid edirik ki, sevimli rəhbərimiz bizim xahişimizi rədd etməyəcək" [1, v.48].

Kənd sakinlərinin ölkə rəhbərinə göndərdikləri məktubuna nə cavab verildiyinə arxiv sənədlərində rast gəlməsək də, məktubun doğurduğu reaksiya özünü çox gözlətmədi.

Kənd əhalisinin bu haqlı tələbləri və dövlət orqanları qarşısında məsələnin belə kəskin qoyuluşu Ermənistan SSR-nin daşnak xislətli rəhbərlərinin bu məkrli və ədalətsiz planının həyata keçirilməsinin nəinki qarşısını aldı, eyni zamanda bu onların türk (azərbaycanlı) kəndini köçürmək kimi anti-insani siyasətinin iflasa uğraması ilə nəticələndi. Nüvədi kənd sakinləri bu illərdə köçürülmədən xilas oldu...

1927-1929-cu illərdə haqqında danışdığımız bu kəndlər və bir sıra torpaqlar Ermənistan SSR-yə verilsə də, iki respublika arasındakı bu ərazilər "mübahisəli" hesab edilir, Azərbaycan SSR hökuməti tərəfindən tanınmamışdı.

XX əsrin 60-cı illərinin axırlarında Ermənistan rəhbərliyi 1927-1929-cu illərdə Ermənistana verilmiş torpaqların tanınması və təsdiq edilməsi üçün təşəbbüs göstərdi. Bu torpaqların təsdiqi məsələsi Mərkəzi Komitədə dəfələrlə müzakirə edilmiş, Sov.İKP MK-si və SSRİ Nazirlər Soveti 1968-ci ilin 5 noyabrında D.Polyanskinin, Azərbaycan KP MK-nın I katibi V.Axundovun, Ermənistan tərəfindən MK-nın I katibi A.Koçinyanın və SSRİ Kənd Təsərrüfatı Naziri V.Maskeviçin iştirakı ilə keçirilmiş iclasda "Azərbaycan SSR və Ermənistan SSR-nin ayrı-ayrı mübahisəli kolxozlar arasındakı yoxlamaların və qəbul edilmiş qərarların nəticələri haqqında" məsələyə baxılmışdı.

Bir məsələni də qeyd edim ki, bu torpaqların təsdiq edilməsinə görə bu illərdə Azərbaycan KP MK-nın birinci katibi V.Axundovu günahlandırmaq, onun guya İrəvanda doktorluq dissertasiyası müdafiə etməsi müqabilində bu torpaqların Ermənistan SSR-yə verilməsi fikirləri absurd və əsassızdır, tarixi

həqiqətdən uzaqdır. Belə ki, arxiv sənədləri bu mülahizələrin heç bir elmi əsasa söykəmmədiyini sübut edir.

Sov. İKP MK öz kollegiya iclaslarında bir neçə dəfə Zaqafqaziya MİK-si tərəfindən 1927-1929-cu illərdə Ermənistan SSR-ə verilmiş mübahisəli torpaqların məsələsinin birdəfəlik həll edilməsini müzakirə etmiş, eyni zamanda bununla bağlı Azərbaycan rəhbərliyinə hətta təzyiqlər edilmişdi". Sov. İKP MK-nın 23 iyun 1968-ci il tapşırığına uyğun olaraq SSRİ Nazirlər Soveti 10 iyun, 20 iyun 1968-ci ildə Azərbaycan SSR və Ermənistan SSR arasında torpaq mübahisəsi məsələsinə baxaraq, bir sıra tədbirləri nəzərdən keçirmişdi. SSRİ Nazirlər Sovetinin qəbul etdiyi qərarda Zaqafqaziya MİK-sı tərəfindən 1927-1929-cu ildə Ermənistan SSR və Azərbaycan SSR arasındakı təsdiq edilmiş sərhədlərin dəyişilməzliyi tanınır, eyni zamanda Zaqafqaziya MİK-nın 1927-1929-cu illərdə iki respublika arasında çəkilmiş sərhədlərinə Ermənistan SSR və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətlərində bir daha baxılması və təsdiq olunması tapşırılırdı [3, v.245-246].

Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin bu qərarına uyğun olaraq 1968-ci ilin 26 noyabrında Azərbaycan KP MK "Azərbaycan SSR və Ermənistan SSR arasında sərhədlər haqqında" məsələyə baxaraq qərar qəbul etmişdi. Həmin qərarda göstərilirdi ki, Azərbaycan KP MK Azərbaycan SSR və Ermənistan SSR arasında, iki respublikanın kolxozları arasında mübahisəli sərhədlər məsələsinə baxmış, Zaqafqaziya MİK tərəfindən 1927-1929-cu illərdə qəbul edilmiş qərarların təsdiq olunması üçün müvafiq sənədlərin Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinə təqdim edilməsi barədə tapşırıq vermişdi [3, v.241].

Azərbaycan KP MK bürosunun 1968-ci il 26 noyabr tarixli qərarına əsasən Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1969-cu il 7 may tarixli fərmanı ilə Zaqafqaziya MİK tərəfindən 1927-1929-cu illərdə Azərbaycandan alınaraq Ermənistana verilmiş torpaqları ratifikasiya etmişdi [8, s.21].

Beləliklə, Sov.KP MK-nın Azərbaycana göstərişi ilə Ermənistan hökumətinin bu istəyi reallaşır və bu illərdə "mübahisəli" torpaqlar məsələsi həll edilir. Bir sıra ərazilər və kəndlər kimi 1929-il fevralın18-da Zaqafqaziya MİK tərifindən de-fakto Ermənistan SSR-nin Meğri rayonuna verilmiş Nüvədi kəndi 19000.ha torpaq sahəsi ilə birlikdə hüquqi cəhətdən Ermənistanın tabeliyinə keçir.

Azərbaycan Respublikasının prezidenti H.Ə.Əliyev daha sonralar 1998-ci il 14 yanvar tarixli məruzəsində bu məsələ ilə bağlı bildirirdi: "...1968-ci ildə 1 protokol imzalanmışdır. Ermənilər Naxçıvanın Sədərək rayonu ərazisindən bir qisim torpaqları, Ordubad tərəfdən Meğri ilə sərhəd olan torpaqları, Gədəbəyin Tağlar kəndinə, Qazax, Qubadlı, Laçın torpaqlarına iddia edirdilər...

Mən 1969-cu ilin iyul ayında I katib seçiləndən sonra bu məsələləri mənim qarşıma qoydular. Moskvadan da çox böyük təzyiqlər edirdilər ki,

qərarın icrasına sərəncam verin. Dedim bilirsiniz, qərar mayda qəbul olunub, əgər iyul ayına qədər icra edilməyibsə, imkan verin mən onu araşdırım. Şübhəsiz ki, mən araşdırandan sonra gördüm ki, buna razılıq verə bilmərəm. Mən razılıq vermədim. Nə qədər ki, mən Azərbaycanda işlədim, o qərar həyata keçmədi. 1985-ci ildə Ermənistan tərəfi həmin qərarın həyata keçməsinə nail olmuşdur...” [7].

Sov.İKP MK katibliyinin göstərişi və qərarı ilə 1969-cu ilin noyabrın 17-də yenidən Azərbaycan KP MK-in I katibi H.Əliyev, Ermənistan KP MK-in I katibi A.Koçinyan və SSRİ Kənd Təsərrüfatı Naziri V.Maskeviç arasında bu “mübahisə ilə bağlı sənəd imzalanmışdı [6, v.132].

Azərbaycan KP MK, Ermənistan KP MK və SSRİ Kənd Təsərrüfatı Nazirliyi MK katibliyi qərarına uyğun Zaqafqaziya MİK tərəfindən 1927-1929-cu illərdə Ermənistan SSR və Azərbaycan SSR arasında müəyyən etdiyi sərhədlərin gələcəkdə iki respublika arasında insidentə gətirib çıxaracağını nəzərə alaraq, Ermənistan KP MK-nın I katibi A.E.Koçinyanla görüşən Heydər Əliyevin qətiyyəti erməni tərəfinin bundan sonra heç bir ərazi məsələsini irəli sürməmək haqqında razılığa gəlməsinə səbəb olmuşdu.

Azərbaycan torpaqlarının Ermənistan SSR-yə verilməsi qərarın icrasının Heydər Əliyev tərəfindən dayandırılması bir müddət erməni dairələrində ümidsizlik yaratsa da, imkan düşdükcə onlar bu istiqamətdə təşəbbüs göstərir, Azərbaycana ərazi iddiasını gerçəkləşdirmək üçün məkrli üsullardan istifadə edirdilər [4,v.3].

Yenidənqurma illərində ölkənin bütün regionlarında mərkəzdənqaçma meyillərinin gücləndiyi bir vaxtda ermənilər imperiyanın dağılmaqda, çökməkdə olduğunu hiss edir, dağılmaqda olan imperiyanın xarabalıqları altından böyük bir ərazi ilə çıxmaq istəyirdilər.

Bir məsələni də deyim ki, H.Əliyev hakimiyyətdə olduğu illərdə Azərbaycanın bir qarış torpağı belə Ermənistana verilməmişdi. H.Əliyev bütün ermənilərin ərazi iddialarının reallaşması qarşısında ən böyük maneə idi. Heydər Əliyev öz xahişi ilə Siyasi Büro üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefasından sonra bunu bir fürsət bilən ermənilər xeyli fəallaşdılar və bu məqsədlə Azərbaycanın tarixi tərkib hissəsi olan Dağlıq Qarabağa ərazi iddiaları etməyə, onu Ermənistana birləşdirmək üçün mübarizəyə başladılar.

Ermənilər bununla paralel olaraq 1988-ci il fevral ayının 20-də DQMV XDS-nin sessiyası tərəfindən Azərbaycanın tərkibindən ayrılıb, Ermənistana birləşməsi qərarından sonra Ermənistan SSR-dən Azərbaycan türklərinin qovulub çıxarılmasını həyata keçirməyə başladılar və 1988-ci ilin əvvəlindən dekabrın 5-nə qədər 250 000 mindən çox azərbaycanlı türk Ermənistan ərazisindən deportasiya edilmişdi.

Ermənistan SSR-dən bütün azərbaycanlılar öz ata-baba torpaqlarından qovulsa da, respublikada yeganə türk kəndi olan 1500 nəfər əhalisi olan Nüvədi kəndi yaşayış yerini tərk etməmiş, erməni faşistlərinə qarşı mərdliklə mübarizə aparır, müdafiə olunurdu. Bu kənd 1929-cu ilin 19 fevralında Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Azərbaycanın tərkibindən alınaraq Ermənistana birləşdirilmişdi. 1988-ci ilin noyabrın 26-da erməni silahlı birləşmələri kənd əhalisini çıxarmaq məqsədilə kəndə hücum etsələr də, kəndin özün müdafiə dəstələri onları geri oturtmuş, ermənilərin kəndə girməsinə imkan verməmişlər [8, s.21].

Bütün bunlardan sonra rayon rəhbərləri tərəfindən kəndə təzyiq başlanmış, elektrik xətti kəsilmiş, əhaliyə ərzaq göndərilməsi dayandırılmışdı. 1989-cu il oktyabrın 10-da kolxoz sədri və beş kolxozçu rayon mərkəzində ermənilər tərəfindən girov götürülmüşdü. Bakı şəhəri hərbi komendantı general Smıslovun işə qarışması nəticəsində girovlar azad edilmişdir. Kolxozun sədri M.Amanovdan Ermənistan Ali Sovetinin deputatlığından imtina etməyi tələb edilmiş, yük maşınlarına isə partladıcı maddələr qoyaraq, bu bəhanə altında maşınlar qənimət olaraq ələ keçirilmişdi [8, s.22].

1989-cu ilin oktyabrın 11-də Nüvədi kənd əhalisinin ümumi yığıncağı kəndin keçmişdə olduğu kimi, Azərbaycan Respublikası tabeliyinə keçməsi haqqında qərar qəbul etmiş və bu qərarı qanuniləşdirmək üçün Azərbaycan SSR Ali Sovetinə, Zəngilan rayon XDS-yə müraciətlər qəbul olunsa da, müraciətlər cavabsız qalmış, kəndin müdafiəsi üçün Azərbaycan hökuməti tərəfindən zəruri tədbirlər görülməmişdir [8, s.22].

1990-cı il mart ayının 20-də erməni silahlı birləşmələri kəndə hücum etmiş, kəndin özünümüdafiə və sovet hərbçiləri ilə 6 saatlıq döyüş əməliyyatı aparmışlar. 1990-cı ilin aprelin 24-də isə yenidən ermənilərin kəndi uğrunda ağır döyüşləri başlanmış, döyüşdə əsgər Yevgeni Yurçenko ermənilər tərəfindən öldürülmüşdü. Ermənilər bu hücumda 13 nəfər itirərək öz mövqelərinə çəkilmişlər [8, s.23].

Respublika rəhbərliyi, ermənilər Ermənistanda yeganə kəndin qalması ilə barışmaq istəmir, kənd əhalisi isə asanlıqla öz yurdlarından çıxmaq istəmirdilər. Kənd orta məktəbinin direktor müavini Həzi Musayev Meğri rayon prokuroru Zöhrab Harutyunyana açıq məktubunda yazırdı: "Bizim kəndi tərk etməməyimizin başlıca səbəbi Vətənə, torpağa möhkəm bağlılığımızdır. Sizə və sizin rəhbərliyə məlumdur ki, Nüvədi həqiqətən Azərbaycan torpağıdır. Sadəcə olaraq 1969-cu ilin 7 may tarixli qərarı ilə başa bəla rəhbərlərimiz bu torpağı sizə "pay" vermişlər. Nüvədidə bizim yaşamağımız üçün sizin narahatlıq keçirməyiniz əbəsdir. Nüvədinin əzəli də, indisi də nüvədililərə məxsusdur..." [8, s.26].

Şahidlərin ifadəsinə görə, kənd əhalisini ermənilərdən "qoruyan" rus ordusu əsgərlərinin özləri də kəndi güllələyirmişlər. Polkovnik Şiropoyas və

podpolkovnik Merkulov demək olar ki, hər gün kəndə gəlir, əhalinin kənddən çıxması üçün canfəşanlıq göstərirdilər. Ermənilər rus ordusu ilə əlbir olub, tez-tez sərbəst surətdə rus hərbçilərinin yerləşdiyi hərbi kazarmaya gəlib-gedir, kəndin müdafiə nöqtələrini öyrənir, rus əsgərləri ilə birlikdə əhalinin kənddən çıxarılması planını hazırlayırmışlar [8, s.12].

Nüvədi kənd əhalisinin isə Azərbaycan xalqına ünvanlanmış müraciətində isə deyilirdi: "...Bizi hər vasitə ilə öz dədə-baba torpağımızdan çıxarmağa çalışırlar. Lakin biz heç bir provokasiyaya getmirik. Təmkinimizi pozmuruq və ümid edirik ki, xalqımız səsimizi eşidəcək" [8,s.18-19].

Təəssüflər olsun ki, nəinki Azərbaycan rəhbərliyi bu kəndin strateji əhəmiyyətini başa düşüb ona kömək göstərdi, əksinə kəndin çıxarılmasında Azərbaycan rəhbərliyi də az rol oynamadı. Azərbaycan KP MK-nın II katibi V.Polyaniçko 1991-ci il avqustun 7-də Nüvədiyə gəlmiş, kəndin nümayəndələri ilə görüşmüş, onların (kənd sakinlərinin) təhlükəsizliyinin Azərbaycan hökuməti tərəfindən bundan sonrada təmin ediləcəyini bildirsə də, həmin gecə kəndin boşaldılması əməliyyatı həyata keçirilmişdi.

1991-ci ilin avqustun 8-də Nüvədi kəndi rus hərbçilərinin köməyi ilə zor gücünə boşaldıldı. Bu işdə sovet hərbçiləri erməni silahlı birləşmələri ilə birlikdə hərəkət edirdilər.

"Azərinform"un Azərbaycan DTK-ya istinadən yaymış olduğu məlumatda kəndin boşaldılması xəbər verilir və bildirilirdi ki, avqustun 7-dən 8-nə keçən gecə hərbi qulluqçular kəndi tərk etməyə məcbur olaraq, erməni quldur dəstələrinin qarşısında onu müdafiəsiz qoymuşlar. Ermənistanın xüsusi polku komandanlığının nümayəndələri kənd sakinlərindən dərhal tələb etmişlər ki, Ermənistan ərazisini təcili olaraq tərk etsinlər, çünki onların təhlükəsizliyinə təminat vermirlər. Məlumatda Nüvədinin boşaldılması əməliyyatına Ermənistan Daxili İşlər Nazirinin müavini Q.Qriqoryanın rəhbərlik etdiyi bildirilirdi [11].

Kənd əhalisinin məcburi köçürülməsi zamanı ermənilər 65 yaşlı Hətəmxanov Hətəmxanı güllə ilə qətlə yetirilmişdir.

1991-ci ilin avqust ayının 8-nə qədər ermənilərlə mübarizə aparan, bunun üçün üç il direniş göstərən Nüvədi əhalisinin deportasiya edilməsindən sonra isə Naxçıvanı Azərbaycanla birləşdirən yeganə dəmiryol xətti daha da daralmış, Dağlıq Qarabağ münaqişəsi ətrafında baş verən hadisələrlə bağlı isə bu günə qədər Naxçıvan əhalisi blokada şəraitində yaşamağa məcbur edilmişdir.

Belə ki, Naxçıvanı Azərbaycandan ayrı salan 46 km-lik dəhlizin 26 km-i bu kəndin ərazisinə daxil idi və strateji baxımdan olduqca əhəmiyyətli və təhlükəsiz idi. Kəndin işğalından sonra isə, buradan keçən Bakı-Şərur sərnişin qatarı erməni terrorçuları tərəfindən daimi atəş altında saxlanılmış, bu bölgənin sakinlərinin həyatı təhlükə altına alınmışdı.

Beləliklə, yekun olaraq bu nəticəyə gəlmək olar:

1) XX əsrin 1988-1991-ci illərdə Nüvədi kəndi də daxil azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası ilə ermənilərin etnik təmizləmə siyasəti XX əsrin 90-cı ilinin əvvəlində başa çatdı.

2) Bu siyasətin həyata keçirilməsində Meğri rayon partiya sovet orqanları, şovinist-millətçi dairələr xüsusi fəallıq göstərdilər.

3) 1920-1929-cu illərdə Zaqafqaziya SSR tərəfindən ədalətsiz qərarla Azərbaycan SSR-dən alınıb Ermənistana verilmiş Meğridən azərbaycanlı əhalinin deportasiyası ilə əlaqədar Naxçıvanın anklavı daha da genişlənmişdir.

4) Ermənistanda sonuncu Nüvədi kəndinin türk əhalisinin deportasiyası ilə Ermənistan monoetnik respublikaya çevrildi və xalqımıza qarşı təcavüz və cinayətlərin yeni dalğası başladı.

5) Azərbaycan türklərinin deportasiyası ilə Ermənistan monoetnik respublikaya çevrildi.

**ƏDƏBİYYAT**

1. Azərbaycan Respublikası DA: f 411, siy. 26,iş 34
2. Azərbaycan Respublikası DA: f.379, siy. 3, iş 2035
3. Azərbaycan Respublikası PİİSSA: f 1. siy. 55, iş 69
4. Azərbaycan Respublikası PİİSSA: f 1. siy. 33, iş 24
5. Azərbaycan Respublikası PİİSSA: f.1, siy. 56, iş 49.
6. Azərbaycan Respublikası PİİSSA: f.1,siy. 56, iş 72
7. Azərbaycan Respublikası Konstitusiya Komissiyasının iclasında Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin yekun nitqindən (1998-ci il) / "Xalq" qəz., Bakı, 1998, №14
8. *Kərimli A.* Zəngəzurun qeyrət qalası - Nüvədi. Bakı: Azərbaycan, 1996, 76 s.
9. *Qurbanlı Ə.* Nüvədinin əzəli də, indisi də nüvədililərə məxsusdur. “Yeni Azərbaycan” qəz., Bakı, 2023, 29 mart, №052 (6396)
10. *Musayev H.Ə.* Nüvədi örnək dərsidir. Bakı: Xatirə kitabı, 2000, 21 s.
11. Nüvədi hadisələrinə dair. “Həyat” qəz., Bakı, 1991, 10 avqust, №153

Redaksiyaya daxil olub 20.03.2023

***UOT 94(479.24)***

***N.R.Məmmədov***
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*mamedov-n@yahoo.com*

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN DAĞLIQ QARABAĞ BÖLGƏSİNİN SOSİAL-MƏDƏNİ YÜKSƏLİŞİ (1970-1985-ci illər)

***Açar sözlər**: Azərbaycan, Heydər Əliyev, Dağlıq Qarabağ, sosial-mədəni, inkişaf, bölgə*

1970-1985-ci illər Dağlıq Qarabağ iqtisadiyyatının xüsusi tarixi mərhələsini, onun bütün sahələrinin onaqədərki inkişafının ən yüksək zirvəsini təşkil edir. Əsas sosial-iqtisadi göstəricilərə görə Dağlıq Qarabağ bölgəsi az vaxt içərisində, inkişafın başlıca keyfiyyət ölçülərinə görə respublikada nəinki ön sıralara, hətta bir çox sahələrdə birinci yerə çıxdı. Bu illərin misli görünməmiş inkişafı nəticəsində heç zaman Dağlıq Qarabağ iqtisadiyyatı o mərhələdə olduğu qədər öz təbii sərvətinin ehtiyatlarından və digər başqa istehsal imkanlarından belə dolğun istifadə etmək şəraitinə malik olmamışdı. Dağlıq Qarabağ xalq təsərrüfatının istehsal yönümünün çoxcəhətliliyi baxımından özünün keçdiyi tarixi mərhələlərinin heç birində bu qədər yüksək səviyyəyə qalxmamışdı. Bütün bunlarla yanaşı, 1970-1985-ci illərdə Dağlıq Qarabağ mədəniyyətinin inkişafında da mühüm dövr oldu. Heydər Əliyevin məqsədyönlü siyasəti sayəsində bölgədə təhsil, elm, mətbuat, ədəbiyyat və incəsənətin tərəqqisi üçün münasib imkanlar yarandı.

***Н.Р.Мамедов***

# ГЕЙДАР АЛИЕВ И СОЦИАЛЬНО-КУЛЬТУРНЫЙ ПОДЪЕМ НАГОРНО-КАРАБАХСКОГО РЕГИОНА АЗЕРБАЙДЖАНА (1970-1985 гг.)

***Ключевые слова:** Азербайджан, Гейдар Алиев, Нагорный Карабах, социально-культурное развитие, регион*

1970-1985 годы представляют собой особый исторический этап экономики Нагорного Карабаха, наивысший пик развития всех его отраслей до того времени. По основным социально-экономическим показателям, по главным критериям развития Нагорно-Карабагский регион в течение короткого времени вышел не только на передовые позиции, но даже в некоторых отраслях экономики занял первое место в республике. В результате беспрецедентного развития этих лет экономика Нагорного Карабаха никогда не имела условий для полного использования своих природных ресурсов и других производственных возможностей, как это было на том этапе. По многогранности производственной направленности народное хозяйство Нагорного Карабаха не поднималось на столь высокий уровень ни на одном из своих исторических этапов. Помимо всего

этого, 1970-1985 годы были важным периодом в развитии культуры Нагорного Карабаха. Благодаря целенаправленной политике Гейдара Алиева в регионе были созданы подходящие возможности для развития образования, науки, прессы, литературы и искусства.

***N.R.Mammadov***

**HEYDAR ALIYEV AND SOCIAL-CULTURAL RISE OF THE UPPER KARABAKH AZERBAIJAN (1970-1985 years)**

***Keywords:*** *Azerbaijan, Heydar Aliyev, Nagorno-Karabakh, social-cultural, development, region*

The years 1970-1985 represent a special historical stage of the economy of Nagorno-Karabakh, the highest peak in the development of all its branches up to that time. According to the main socio-economic indicators, according to the main development criteria, the Nagorno-Karabakh region within a short time not only took the leading positions, but even in some sectors of the economy took the first place in the republic. As a result of the unprecedented development of these years, the economy of Nagorno-Karabakh never had the conditions for the full use of its natural resources and other productive capacities, as it was at that stage. In terms of the versatility of the production orientation, the national economy of Nagorno-Karabakh has not risen to such a high level at any of its historical stages. In addition to all this, the years 1970-1985 were an important period in the development of the culture of Nagorno-Karabakh. Thanks to the purposeful policy of Heydar Aliyev, suitable opportunities were created in the region for the development of education, science, the press, literature and art.

## Giriş

XX yüzilliyin 70-ci illərində Azərbaycanda idarəçiliyin güclənməsi, dövlət və plan intizamının möhkəmləndirilməsi, kadrlara qarşı tələbkarlığın, məsuliyyətin artırılması və Respublika rəhbərinin mərkəzdəki nüfuzundan istifadə edərək sosial-iqtisadi və mədəni inkişaf üçün müvafiq qərarlar qəbul etməsi, vəsait ayrılmasına nail olması Azərbaycan SSR-də iqtisadi yüksəlişə səbəb oldu, əhalinin rifah və məişətinin daha da yaxşılaşmasına şərait yaratdı. Əvvəlki illərdə olduğu kimi, 1970-1980-ci illərdə də Dağlıq Qarabağ bölgəsinin inkişafı Ümummilli liderimiz Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. Heydər Əliyev uzun illər erməni vandallarının dağıdıcı hücumlarına məruz qalan, sosial-iqtisadi inkişaf məsələlərində “unudulan” Şuşa şəhərinin tərəqqisinə xüsusi qayğı göstərdi. Belə ki, 1980-1981-ci illərdə M.P.Vaqifin qəbri üzərində böyük məqbərə tikildi. Şuşa şəhərində Ü.Hacıbəyovun, Bülbülün ev muzeyləri açılmış və Xan qızı Natəvanın heykəli ucaldılmışdır [6, v.6, 8]. Şəhərdə böyük mehmanxana, çoxmərtəbəli yaşayış binaları, inzibati binalar tikilmiş Şuşa ümumittifaq səviyyəli kurort şəhərinə çevrilmişdi. 1973-cü ildə

Xankəndində APİ-nin filialı əsasında Pedaqoji İnstitut açılmış və 1979-cu ildə şəhərə dəmir yolu çəkilmişdi [19, v.83].

**Sosial inkişaf**

Azərbaycanın uzaqgörən dövlət başçısı Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan KP-nın qurultaylarında, MK-nın plenumlarında, vaxtaşırı çağırılan müşavirələrdə Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin iqtisadi, sosial və mədəni inkişafı üçün konkret vəzifələr irəli sürülmüş, əhalinin rifah və məişətinin daha da yaxşılaşdırılması üçün təşkilati tədbirlər müəyyən edilmişdir. Nəticədə, 1969-1982-ci illər ərzində Dağlıq Qarabağda ümumi istehsal 2 dəfədən çox, əhalinin real gəliri 81 faiz artmış, əmək haqqı 90 manatdan 154 manata çatmışdır [16, v.9, 11]. Tədqiq edilən illərdə bölgədə əhalinin orta illik əmək haqqı ilə yanaşı onların gəlirləri, təqaüdləri, güzəştli və maddi kömək ictimai fondların artması hesabına çoxalmışdı. Maraqlı cəhət ondan ibarətdir ki, Dağlıq Qarabağda şəxsi həyətyanı təsərrüfatlardan əldə edilən gəlir istər ümumittifaq, istərsə də ümumrespublika səviyyəsində yüksəkdə dayanmışdır. Aparılan araşdırmalardan məlum olur ki, 1980-ci ildə SSRİ məkanında şəxsi təsərrüfatlardan əldə edilən gəlir ümumi gəlirin 31,9 faizini, Respublikamızda 45 faizini, Azərbaycanın Naxçıvan MSSR-da 44 faizini, Dağlıq Qarabağda isə 46,4 faizini təşkil etmişdir [14, v. 7, 10]. Bununla yanaşı, Heydər Əliyevin Dağlıq Qarabağda əhalinin sosial inkişafına göstərdiyi dərin qayğı nəticəsində bütün göstəricilər üzrə bölgənin inkişafı ümumrespublika səviyyəsini həmişə üstələmişdir. Məsələn, 1960-cı illə müqayisədə 1975-ci ildə adambaşına düşən məhsul istehsalının həcmi ümumrespublika üzrə 140,5 faiz, Dağlıq Qarabağda isə 250 faiz artmışdır. Həmin illərdə sənaye məhsulları istehsalının həcmi 229 faiz, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində 281 faiz, kapital qoyuluşunun həcmi bütövlükdə Azərbaycanda 219 faiz, Dağlıq Qarabağda 417 faiz, mal dövriyyəsinin həcmi respublikamızda 240 faiz, onun Dağlıq Qarabağ hissəsində 279 faiz, məişət xidmətinin həcmi ümumrespublika üzrə 540 faiz, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində 550 faiz artmışdır [2, v.7, 9].

1970-1985-ci illərdə Azərbaycan hökuməti Dağlıq Qarabağda ictimai istehlak fondları vasitəsilə əhaliyə verilən ödənc və güzəştlərin məbləğini 3 dəfə artırmışdır. Müvafiq illərdə həyata keçirilən tədbirlərin nəticəsi olaraq bölgədə əhaliyə verilən pensiyaların həcmi 4,4 dəfə, müavinətlərin həcmi isə 3,3 dəfə çoxalmışdır [8, v.29]. Tədqiqatlar nəticəsində məlum olur ki, əhalinin hər 10 min nəfərinə düşən təqaüdçülərin sayı Dağlıq Qarabağ ümumrespublika səviyyəsindən 14 faiz, Naxçıvan MSSR-dan 12 faiz üstün olmuşdur [28]. Lakin araşdırmalardan aydın olur ki, bölgədə daxili təqaüdlər ayrılarkən Vilayət Sosial Təminat Şöbəsi və Tibbi Əmək Ekspertizası azərbaycanlılara qarşı qərəzli mövqe tutmuşlar.

1970-1985-ci illərdə Dağlıq Qarabağda əhalinin maddi rifah halının yaxşılaşmasını vilayət sakinlərinin əmanət kassalarında saxlanılan pul əmanətlərinin məbləğindən, əmanətçilərin və əmanət kassalarının sayının artırılmasından da görmək olar. Belə ki, 1970-1985-ci illərdə Dağlıq Qarabağda əmanət kassalarının sayı 88-dən 111-ə, əmanətçilərin sayı 48 min nəfərdən 135 min nəfərə, əmanətlərin məbləği 31497 min manatdan 217620 min manata, hər əmanətçiyə düşən əmanətin məbləği isə 617 manatdan 1612 manata çatmışdır [17, v.11]. Əmanət kassalarının sayı, əmanətlərin məbləğinə gəldikdə isə, ümumi Dağlıq Qarabağda Şuşa rayonundan ən aşağı göstərici müşahidə edilmişdir. Məsələn, təkcə 1985-ci ildə Xankəndi şəhərində əhalinin saxladığı əmanətin məbləği 14 mln. manat olduğu halda, bütövlükdə Şuşa rayonunda bu göstərici 2,5 mln. manat idi [2, v.7, 9].

Azərbaycan hökuməti Dağlıq Qarabağ əhalisinin ərzaq və qeyri-ərzaq mallarına olan tələbatını ödəmək, ticarət və ictimai-iaşə xidmətinin inkişaf etdirmək üçün xüsusi vəsait ayırmış və 1971-1981-ci illər ərzində burada 54 ticarət müəssisəsi, 54 yeməkxana və restoran, 8 qəlyanaltı və bufet, 1 univermaq, 1 sənaye malları mağazası, 77 ictimai-iaşə müəssisəsi, 59 xırda satış müəssisəsi, 98 çadır ticarət köşkü tikib Vilayət əhalisinin istifadəsinə vermişdir [5, v.10]. 1971-1985-ci illərdə Dağlıq Qarabağda kooperativ ticarətdə pərakəndə mal dövriyyəsinin həcmi 53,7 mln. manatdan 118,8 mln. manata, ticarət və əmtəə dövriyyəsinin məbləği isə 27315 mindən 45774 min manata çatdı [3, v.76]. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, ticarət sahəsində olan göstəricilərə görə Dağlıq Qarabağ ümumrespublika səviyyəsində birinci yerdə dayanmışdır. Məsələn, 1981-ci ildə 10 min nəfər hesabı ilə pərakəndə ticarət müəssisələrinin miqdarı ümumrespublika üzrə 28, Naxçıvan MSSR-da 24, Dağlıq Qarabağda 42 idi. 10 min nəfərə düşən mağazaların ticarət sahəsi ümumrespublika üzrə (kvadrat km-lə) 1127, Naxçıvan MSSR-da 1319, Dağlıq Qarabağda 1743 olmuşdur. Adambaşına düşən pərakəndə ticarət dövriyyəsinin həcmi ümumrespublika üzrə 617 manat, Naxçıvanda 420 manat, Dağlıq Qarabağda 642 manat məbləğində idi [7, v.13].

1970-1985-ci illərdə dövlət başçısının və Azərbaycan hökumətinin dərin qayğısı nəticəsində Dağlıq Qarabağda əhaliyə ictimai-iaşə və mədəni-məişət xidməti dinamik inkişaf etmişdi. Həmin illərdə Vilayətdə təkcə xidmət emalatxanaları və oteliyelərin sayı 325-dən 628-ə, ictimai-iaşə xidməti 2495 min manatdan 21465 min manata, məişət xidməti müəssisələrində işləyənlərin sayı isə 1153-dən 17071-ə çatdı [11, s.28]. Araşdırmalar nəticəsində məlum olur ki, 1985-ci ildə hər bir sakinə düşən məişət xidmətinin həcmi ümumrespublika üzrə 30 manat, Naxçıvan MSSR-də 21 manat, Dağlıq Qarabağda isə 41 manat təşkil etmişdir. Eyni zamanda, hər 10 min nəfərə düşən məişət xidməti emalatxanalarının sayı ümumrespublika üzrə 17 emalatxana, Naxçıvan MSSR-də 21 emalatxana, Ağdamda 18 emalatxana, Dağlıq Qarabağda isə 32 emalat-

xana düşürdü [3, v.73]. Göründüyü kimi, bölgə emalatxanaların sayına görə ümumrespublika səviyyəsini təxminən 2 dəfə üstələmişdi və bu göstərici, dövlət başçımızın bölgənin həmişə diqqət mərkəzində saxlamasını əyani sübut edir. Dağlıq Qarabağda ticarət müəssisələrində çalışanların 60 faizini qadınlar, 95 faizini isə ermənilər təşkil etmişlər [13, v.5].

Azərbaycan hökuməti Dağlıq Qarabağ əhalisinin ərzaq və qeyri-ərzaq məhsullarına olan tələbatını ödəmək üçün bütün imkanlardan istifadə edirdi. 1970-1985-ci illərdə Azərbaycanda strateji məhsullar sırasına daxil olan ət, yağ, şəkər və digər məhsullar heç vaxt Dağlıq Qarabağda ticarət köşklərindən azalmırdı. Dövlətimiz Dağlıq Qarabağ əhalisinin həyat səviyyəsini yüksəltmək və onların artan tələbatını ödəmək məqsədilə bazarı lazımi məhsullarla doldururdu. Hətta 1985-ci ildə Dağlıq Qarabağda mal dövriyyəsinin həcmi 1969-cu illə müqayisədə 5,1 dəfə artmışdı. Halbuki bu rəqəm ümumrespublika üzrə 4,6 dəfəyə bərabər idi. Göstərilən illərdə adambaşına düşən mal-dövriyyəsinin inkişaf sürəti ümumrespublika üzrə 2,7 dəfə, Dağlıq Qarabağda 3,7 dəfə artmışdı [4, v.4].

1970-1985-ci illərdə Dağlıq Qarabağda mənzil tikintisi sürətlə yüksəlmişdir. Azərbaycan dövləti 1970-1985-ci illərdə bölgədə mənzil tikintisi, kommunal təsərrüfatın inkişafı, abadlıq işləri üçün 483 mln. manat vəsait ayırdı ki, bu vəsait hesabına bölgədə 1027,9 min kvadrat metrlik yeni abad mənzillər tikilib yerli əhalinin istifadəsinə verildi [5, v.6]. Bundan əlavə 1970-1985-ci illərdə Vilayətdə ümumi sahəsi 552 min kvadrat metr olan 1000-dən artıq fərdi mənzil də tikildi. Nəticədə, 1976-1980-ci illər ərzində 126 min nəfər Vilayət sakini yeni – abad mənzillərə köçmüş və onların sosial vəziyyəti xeyli yaxşılaşmışdır. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1970-1985-ci illərdə Dağlıq Qarabağda mənzil tikintisi sahəsində əldə edilən nailiyyətlər istər keçmiş SSRİ məkanında və istərsə də respublikamızın bütün regionlarından yüksəkdə dayanmışdır. Belə ki, 1985-ci ildə hər sakinə düşən mənzil sahəsi keçmiş SSRİ məkanında 14,6 kvadrat metr, Ermənistan SSR-də 13,7 kvadrat metr, ümumilikdə Azərbaycan SSR-də 10,9 kvadrat metr, Bakı şəhərində 11,7 kvadrat metr, Naxçıvan MSSR-da 9,5 kvadrat metr olduğu halda, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində bu göstərici 14,9 kvadrat metrə çatmışdır [5, v.6].

Heydər Əliyevin göstərişləri əsasında 1970-ci illərin ortalarında başlayan Yevlaxdan-Xankəndi qaz çəkilişi 1978-ci ildə başa çatdırdı. 1985-ci ildə isə Vilayətin bütün kəndlərinə qaz çəkildi. Hansı ki, Azərbaycanın digər bölgələrindəki ucqar dağ kəndləri hələ də qaz üzünə həsrət idi. Ümumrespublika üzrə qazla təminat 1986-cı ildə 96,2 faiz idisə, bu göstərici Dağlıq Qarabağda 100 faizə çatmışdı. Bundan əlavə Dağlıq Qarabağın içməli su ilə təchizatı məsələsi 1970-ci illərdə tamamilə həyata keçirilmişdi. İstər su kəmərləri ilə təchizat, istərsə də kanalizasiya xətlərinin çəkilişi həcminə görə Dağlıq Qarabağ ümumrespublika səviyyəsini 2 dəfə üstələmişdir. Təkcə 1985-

ci ildə su kəmərlərinin abadlaşdırılması faizi ümumrespublika üzrə 30,5 faiz, Naxçıvan MSSR-də 7,4 faiz, Bakı şəhərində 39,8 faiz idisə, Dağlıq Qarabağda 45,5 faizə çatmışdı [15, v.5].

XX əsrin 70-ci illərində Vilayətdə təkcə yaşıllaşdırma işlərinə, parkların salınması, işıq və istilik xətlərinin çəkilməsi üçün Azərbaycan hökuməti tərəfindən 4 mln. 544 min manat vəsait şərt edilmişdir. Bütün bunlara baxmayaraq, bölgənin azərbaycanlılar yaşayan kəndlərində mənzil, tikinti, abadlıq işləri çox aşağı səviyyədə idi. 1970-1985-ci illərdə Azərbaycan hökuməti Dağlıq Qarabağda avtomobil yolları şəbəkəsinin inkişafı üçün 6080 min manat vəsait ayırdı. Ayrılan vəsait hesabına Dağlıq Qarabağda 4593 km uzunluğunda yol səkildi. Lakin təəssüflə qeyd etməliyik ki, bəhs etdiyimiz dövrdə Vilayət XDS-i Vilayət yol tikinti təmir və istismar müəssisələri yerli əhəmiyyətli yolların təmiri və tikintisi siyahısını tərtib edərkən azərbaycanlılar yaşayan kəndləri “yaddan çıxarmışlar”. 1979-cu il yanvarın 12-də Azərbaycan dövlətinin başçısı Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 26 km. Ağdam-Xankəndi dəmiryolu çəkilib istifadəyə verildi [1, v.78]. Bu dövrdə bölgədə avtomobil nəqliyyatının inkişaf etdiyini onda görmək olar ki, hər 10 min nəfərə düşən avtomobillərin sayına görə ümumən Azərbaycanda 17,5, Naxçıvan MSSR-da 17, Dağlıq Qarabağ bölgəsində isə 26,5 avtomobil düşmüşdü. Həmçinin aparılan araşdırmalardan məlum olur ki, 1970-1985-ci illərdə avtomobil nəqliyyatı ilə yüklərin daşınması həcmi ümumrespublika üzrə 3,6 dəfə artdığı halda Dağlıq Qarabağda 4,8 dəfə artmışdı [3, v.75].

Heydər Əliyevin göstərişləri əsasında 1970-ci illərdə Azərbaycan hökuməti Dağlıq Qarabağda rabitənin inkişafı üçün mühüm tədbirlər həyata keçirdi. 1970-1975-ci illərdə Bakıdan Dağlıq Qarabağa 41 mütəxəssis göndərildi. Dövlətimiz bu məqsədə bölgəyə 796 min manat vəsait ayırdı və 7518 ədəd telefon aparatı verdi [13, v.9]. 1970-1982-ci illərdə Dağlıq Qarabağda 14 yeni, müasir tipli poçt, teleqraf müəssisəsi tikilib istifadəyə verildi və onların sayı 98-dən 112-yə çatdı. 1970-ci illərdə Dağlıq Qarabağda 7047 telefon xətti çəkildi və telefon aparatlarının sayı 15804-ə çatdı [6, v.8]. 1980-ci illərin əvvəllərində Dağlıq Qarabağda əhalinin hər 100 nəfərinə 12,4 telefon düşürdü, hansı ki, bu göstərici ümumrespublika səviyyəsində 7,9-a bərabər idi. Həmçinin Dağlıq Qarabağda əhalinin telefonla təminatı 42,4 faizə çatmışdı. Naxçıvan MSSR-da bu göstərici 30,1 faizə, ümumrespublika səviyyəsində isə 31,1 faizə bərabər idi. Şəhərlərarası telefon danışıqlarının sayı isə ümumrespublika üzrə 4,15 faiz, Naxçıvan MSSR-da 4,9 faiz, Dağlıq Qarabağda isə 7,69 faiz təşkil etmişdir [14, v.10].

Bütün bunlarla yanaşı, 1970-1981-ci illərdə Bakı-Şuşa və Şuşa-Naxçıvan radiorele xətti çəkilmiş, Xankəndində televiziya studiyası istifadəyə verilmişdi [17, v.11].

Bəhs olunan illərdə Dağlıq Qarabağ əhalisinin sağlamlığının qorunması Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. 1970-1985-ci illərdə Azərbaycan hökuməti Vilayətdə səhiyyəni inkişaf etdirmək məqsədilə 89825 min manat vəsait ayırdı, 1133 ali və orta ixtisas təhsilli mütəxəssis göndərdi [18, v.61]. 1970-1985-ci illərdə Dağlıq Qarabağda qadın və uşaq məsləhətxana və poliklinikaların sayı 11-dən 36-ya, əhaliyə ambulator yardım göstərən poliklinikaların sayı 43-dən 52-yə, çarpayıların sayı 1575-dən 1890-a, həkimlərin sayı 240-dan 516-ya çatdı [18, v.62].

Heydər Əliyevin göstərişlərinə əsasən Azərbaycan hökuməti Vilayətin səhiyyə ocaqlarının rentgen kabinetləri, müasir tipli cihazlar, ləvazimatlar, tibbi avadanlıqlar, dərmanlarla təmin etmişdi. Bütün bunların nəticəsi idi ki, Dağlıq Qarabağ səhiyyə sahəsindəki göstəricilərinə görə ümumrespublika səviyyəsində birinci yerdə dayanmışdır. Məsələn, 1985-ci ildə hər 10 min nəfərə düşən çarpayıların sayı ümumrespublika üzrə 97,8 ədəd, Naxçıvan MSSR-da 94,6 ədəd, Azərbaycan Dağlıq Qarabağ bölgəsində 104,6 ədəd olmuşdur. 10 min nəfər hesabı ilə orta tibb işçiləri ilə təminat ümumrespublika üzrə 93,8, Naxçıvan MSSR-da 80,1, Dağlıq Qarabağda 126,3 nəfər düşürdü. 10 min nəfərə düşən ali təhsilli tibb işçiləri Naxçıvan MSSR-da 26,2 nəfər, Dağlıq Qarabağda 28,9 nəfər düşmüşdü [15, v.6]. Bütün bunlara baxmayaraq, Vilayət XDS-nin məqsədyönlü fəaliyyəti nəticəsində bölgənin azərbaycanlılar yaşayan kəndlərində səhiyyə işi çox yarıtmaz vəziyyətdə idi.

XX yüzilliyin 70-ci illərində Dağlıq Qarabağda bədən tərbiyəsi və idman sürətlə inkişaf etdi. Belə ki, bəhs etdiyimiz illərdə dövlətimizin ayırdığı 297900 manat vəsait hesabına Vilayətdə 12 stadion, 51 idman meydançası, 313 voleybol-basketbol, tennis meydançaları, 2 üzgüçülük hovuzu tikilib istifadəyə verildi [6, v.8]. Dövlətimizin Vilayətdə həyata keçirdiyi bütün bu tədbirlər isə əhalinin sağlamlığının qorunmasına, uzunömürlülüyə və əhalinin sayının artmasına səbəb oldu.

**Mədəni dirçəliş**

1970-1985-ci illərdə Dağlıq Qarabağın ictimai-iqtisadi həyatında olduğu kimi, mədəni və mənəvi həyatında da mühüm irəliləyişlər olmuşdur. Bu dövrdə Dağlıq Qarabağda uşaq müəssisələrinin, məktəblərin maddi-texniki və təhsil bazası möhkəmlənmiş, tədrisin keyfiyyət səviyyəsi yüksəlmişdir. Əlbəttə, bölgədə bütün bu nailiyyətlərin qazanılması Azərbaycan hökumətinin və onun başçısı Heydər Əliyevin şəxsi təşəbbüsü və dərin qayğısı nəticəsində əldə edilmişdir. 1970-1985-ci illərdə Azərbaycan hökuməti tərəfindən Dağlıq Qarabağda təhsil, elm və maarifin inkişafına 260 milyon 431 min manat vəsait ayrılmışdır [19, v.84]. Bəhs etdiyimiz 15 il ərzində bölgədə 25 daimi məktəbəqədər uşaq müəssisəsi tikilib istifadəyə verildi və həmin müəssisələrin sayı 60-dan 85-ə çatdı [16, v.11]. 1970-1985-ci illərdə Naxçıvan MSSR-da isə 8 məktəbəqədər uşaq müəssisəsi tikilmiş və həmin müəssisələrin sayı 65-dən 73-ə

çatmışdır [7, v.12]. Aparılan araşdırmalardan məlum olur ki, uşaq müəssisələrinin sayına görə Dağlıq Qarabağ Ümumrespublika səviyyəsində birinci yerdə dayanmışdır. Belə ki, 1985-ci ildə ümumrespublika səviyyəsində bu göstərici 20 faiz, Naxçıvan MSSR-da 12 faiz, Dağlıq Qarabağda isə 35 faiz olmuşdur [34, s.46].

Heydər Əliyevin göstərişləri əsasında Azərbaycan dövləti 1970-1985-ci illərdə Dağlıq Qarabağda 50 yeni məktəb binası tikib yerli əhalinin istifadəsinə verdi. 1985-ci ildə bölgədə 34,4 min şagirdi, 3,9 min nəfər müəllimi birləşdirən 205 məktəb fəaliyyət göstərirdi [16, v.12]. Dövlətimizin Vilayətə göstərdiyi dərin qayğını həm də onda görmək olar ki, əhalinin sayı ilə müqayisədə məktəblərin və müəllimlərin sayına görə Dağlıq Qarabağ ümumrespublika səviyyəsini üstələmişdir. Belə ki, Dağlıq Qarabağda hər məktəbə 177 şagird, hər müəllimə 8,5 uşaq düşdüyü halda, Naxçıvan MSSR-da hər məktəbə 296 şagird, hər müəllimə 10 uşaq düşürdü [30, s.280]. Bəhs etdiyimiz dövrdə Dağlıq Qarabağın 42 məktəbində şagirdlərə pulsuz isti yemək verilməsi təcrübəsi Azərbaycan SSR Maarif Nazirliyi Kollegiyası tərəfindən bəyənilmiş və yayılmağa başlamışdır.

1985-ci ildə Dağlıq Qarabağda 6 texnikum və 5 texniki-peşə məktəbi fəaliyyət göstərirdi [16, v.11]. Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 23 noyabr 1973-cü ildə Xankəndi şəhərində Pedaqoji İnstitut açıldı [35, s.16]. Həmin Ali təhsil müəssisəsi tədris müəssisələrinin ali təhsilli kadrlara olan tələbatının ödənilməsində böyük işlər gördü. Lakin təəssüflə qeyd etməliyik ki, Dağlıq Qarabağın erməni rəhbərliyi və XDS-i səlahiyyətlərindən istifadə edərək bölgədə azərbaycanlılar yaşayan kəndlərə ögey münasibət göstərmiş, həmin kəndlərdə yeni məktəblər tikilmir, köhnələr təmir olunmur və mövcud məktəblər lazımi avadanlıqlar və ixtisaslı kadrlarla təmin edilmirdi. Hətta Vilayətin təhsil idarəsinə rəhbərlik edən erməni millətçiləri Azərbaycan dilində təhsilin gələcəyinin olmayacağı konsepsiyası ilə çıxış edərək Azərbaycan dilli məktəbləri bağlayırdılar.

1970-1985-ci illərdə Dağlıq Qarabağda yaşayan əhalinin biliyinin, mədəni səviyyəsinin yüksəldilməsində mədəni-maarif müəssisələri də mühüm rol oynamışdı. Azərbaycan hökumətinin ayırdığı xüsusi vəsait hesabına 1970-1985-ci illərdə Dağlıq Qarabağda 52 yeni kütləvi kitabxana tikilib istifadəyə verildi. Bəhs edilən illərdə Vilayətdə kitabxanaların sayı 179-dan 231-ə, kitab fondu isə 1 milyon 154 mindən 1 milyon 600 minə çatdı. Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, yaşayış məntəqələrinin kitabxana ilə təminatı, adambaşına düşən kitabların və kitabxanaların sayına görə Dağlıq Qarabağda olan göstəricilər həm ümumittifaq, həm də ümumrespublika səviyyəsində birinci yerdə dayanmışdır. Məsələn, 1985-ci ildə Dağlıq Qarabağda hər adama 10,2 kitab düşdüyü halda, ümumrespublika üzrə bu göstərici 5,8-ə, Naxçıvan MSSR-da isə 7,1 bərabər idi. Eyni zamanda Dağlıq Qarabağın yaşayış mən-

təqələrinin kütləvi kitabxanalarla təmin edilməsi 105,6 faiz, ümumrespublika səviyyəsində 94,4 faiz, Naxçıvan MSSR-da 98,4 faiz olmuşdur. Bundan əlavə əhalinin hər 10 min nəfərinə düşən kütləvi kitabxanaların sayı keçmiş SSRİ məkanında 4,8, Ermənistanda 4,1, Azərbaycanda 6 olduğu halda, Azərbaycan Dağlıq Qarabağ bölgəsində 13-ə çatmışdır [12, v.31]. Bütün bunlarla yanaşı, bölgənin azərbaycanlılar yaşayan kəndlərindəki mövcud kitabxanalar Azərbaycan dilli ədəbiyyatla tam təmin edilmirdi. Aparılan azərbaycanlılardan məlum olur ki, Vilayətin azərbaycanlılar yaşayan kəndlərindəki kitabxanalardakı kitabların 80 faizi erməni dilində, 10 faizi rus dilində, 10 faizi Azərbaycan dilində idi [11, v.26].

Bəhs etdiyimiz illərdə Dağlıq Qarabağda klub tikintisində də böyük irəliləyiş əldə edildi. Azərbaycan hökumətinin ayırdığı xüsusi vəsait hesabına 1970-1985-ci illərdə Dağlıq Qarabağda 69 klub tikilib istifadəyə verildi və klubların sayı 198-dən 267-yə çatdı [2, v.9]. Aparılan araşdırmalardan məlum olur ki, Dağlıq Qarabağ klubların sayına görə ittifaq məkanında birinci yerdə dayanmışdır. Belə ki, əhalinin hər 10 min nəfərinə düşən klubların sayı SSRİ məkanında 4,8, Azərbaycanda 5, Ermənistanda 3,8, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində isə 15-ə bərabər idi [22, s.120]. Eyni zamanda kino qurğularının sayında və kino seanslarına baxışın keçirilməsində də Dağlıq Qarabağ birinciliyi əldə saxlamışdır. Belə ki, 10 min nəfər hesabı ilə əhaliyə düşən kino qurğularının sayı keçmiş SSRİ məkanında 5,4-ə, Azərbaycanda 3-ə, Ermənistanda 2,9-a, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində 11,2-yə çatmışdır [21, s.260]. Bununla yanaşı Vilayət əhalisinin kino seanslarına baxması statistikası da ümumrespublika üzrə birinci yerdə dayanmasını göstərmişdir. Bütün bunlar isə Azərbaycan hökumətinin bölgəyə göstərdiyi dərin qayğının nəticəsində əldə edilmişdir.

1970-1985-ci illərdə Dağlıq Qarabağda əhali arasında mədəni-maarif işinin aparılmasında muzeylərin də rolu böyük olmuşdur. Dövlətimizin ayırdığı xüsusi vəsait hesabına 1970-1985-ci illər ərzində bölgədə 6 yeni muzey açıldı. Vilayətdəki muzeylərin sayı 3-dən 9-a çatdı. Bu dövrdə Dağlıq Qarabağda 2 şəkil qalereyası və Bakı muzeylərinin 2 filialı açılmışdı. Muzeyə gələnlərin sayı ilbəil artırdı. Belə ki, 1970-ci ildə Dağlıq Qarabağda muzeyə gələnlərin sayı 35 min nəfər idisə, 1980-ci ildə 103 min nəfərə, 1985-ci ildə isə 130 min nəfərə çatmışdı [4, v.6].

Bəhs etdiyimiz dövrdə Dağlıq Qarabağda tarixi abidələrin tikintisi və bərpası uğurla aparılırdı. Belə tikintilərdən biri də Ağdərə rayonunda erməni əhalisinin xahişi ilə 1978-ci ildə inşa etdirmişdir. Həmin abidə ermənilərin Ağdərəyə köçürülməsinin 150 illiyi münasibətilə tikilmişdir. Abidənin üzərinə böyük ölçüdə "1828-1978" və "150" rəqəmləri həkk olunmuşdur. Ancaq bu abidə bəzi "qaranlıq məsələlərə" aydınlıq gətirdiyi üçün ermənilər 1985-ci ildə həmin abidəni dağıtmağa, xüsusilə rəqəmləri yox etməyə başlamışdılar.

1970-1985-ci illərdə Dağlıq Qarabağda kütləvi informasiya şəbəkəsi sürətlə inkişaf etmişdi. 1985-ci ildə Vilayətdə 30 milyon nüsxə ilə 8 adda qəzet buraxılırdı. Bunlardan 6-sı erməni dilində, 1-i Azərbaycan, 1-i rus dilində idi [15, v.7].

**Nəticə**

1970-1985-ci illərdə Azərbaycan hökumətinin, dövlətimizin başçısı Heydər Əliyevin dərin qayğısı nəticəsində Azərbaycan SSR-nin Dağlıq Qarabağ əhalisinin sosial-iqtisadi həyatında, məişətində, rifahında mühüm dəyişikliklər baş vermiş, gəlirlər, alıcılıq qabiliyyəti, ticarət, ictimai-iaşə, tibb, rabitə, məişət xidmətinin səviyyəsi yüksəlmiş, yaşayış məntəqələrinin su, qaz, kanalizasiya sistemləri ilə təchizatı yaxşılaşmışdı. Müqayisələr nəticəsində isə məlum olur ki, əvvəlki dövrlərdə olduğu kimi 1970-1985-ci illərdə də, sosial-iqtisadi və mədəni inkişaf göstəricilərinə görə Dağlıq Qarabağ ümumrespublika səviyyəsində birinci yerdə dayanmışdır. Bütün bunlar isə Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddialarına dünya miqyasında don geyindirmək və Dağlıq Qarabağda yaşayan əhalinin sosial-iqtisadi vəziyyətlərinin "geriliyi" konsepsiyasının tamamilə ağ yalan olduğunu göstərir.

Eyni zamanda 1970-1985-ci illərdə Azərbaycanın Dağlıq Qarabağ bölgəsində mədəniyyətin inkişafında mühüm dövr oldu. Azərbaycan dövlətinin başçısı Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Dağlıq Qarabağda təhsil, elm, mətbuat, ədəbiyyat və incəsənətin tərəqqisi üçün münasib imkanlar açıldı. Vilayətin mənəvi sərvəti, kadr potensialı daha da artdı. Dövlətimizin dərin qayğısı nəticəsində Dağlıq Qarabağda mədəniyyət dinamik inkişaf etdi.

## ƏDƏBİYYAT


1. AHİKA, f.1114, s.15, i.1969, v.78.
2. ARDA, f.1114, s.15, i.1, v.7, 9.
3. ARDA, f.13, s.14, i.129, v.73, 75, 76.
4. ARDA, f.271, s.16, i.1, v.4, 6.
5. ARDA, f.30, s.9, i.179, v.6, 81.
6. ARDA, f.314, s.44, i.68, v.6, 8.
7. ARDA, f.411, s.30, i.7, v.8, 12.
8. ARƏSTNA, kollegiyanın 1989-cu il materialları, v.29.
9. ARGİTNA 1990-cı il materialları və hesabatlar, v. 91.
10. ARKTNA, kollegiyanın 1985-ci il materialları, v.70.
11. ARMEA TİEA, f.1, s.17, i.8576, v.26.
12. ARMNA, illik hesabatlar, 1991-ci il, v.31.
13. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai-Siyasi Sənədlər Arxivində (ARPİİİSSA), f.1, s.412, i.43, v.5, 9.
14. ARPİİİSSA, f.1, s.200, i.74, v. 7, 10.
15. ARPİİİSSA, f.1, s.412, i.43, v.5, 6.

16. ARPİİİSSA, f.1, s.412, i.46 v.9, 11.
17. ARRNA, kollegiyanın 1990-cı il materialları, III qov., v.11.
18. ARSNA, 1990-cı il hesabatları, v.61.
19. ARTNA, kollegiyanın 1985-ci il materialları, v.83.
20. *Aslanova G.M.* Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın inkişafında dövlət siyasəti: Tarix üzrə fəl. dok. …dis. avtoref. Bakı: AMEA, 2018, 26 s.
21. Dağlıq Qarabağ: Zəka qalib gələcək (sənəd və materiallar). Bakı, 1997, 288 s.
22. DQMV-i statistik rəqəmlərdə. Bakı, 1985, 126 s.
23. DQMV-nin sessiyalarından çıxışlar (1979-1989). Bakı, 1999, 178 s.
24. *Əliyev H.* Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. "Respublika" qəz., Bakı, 2000, 20 dekabr
25. *Hacıyev N.* Dağlıq Qarabağın tarixindən sənədlər. Bakı, 2005, s. 82
26. Heydər Əliyev və muzeylərimiz. Bakı, 1999, s.38
27. *Hüseynova L.* Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri. Bakı: Təhsil, 2011, 216 s.
28. *Qasımov Ə.Q.* Heydər Əliyevin tərəqqi strategiyası və Naxçıvan Muxtar Respublikası (XX əsrin 70-80-ci illər). Bakı: Təhsil, 2009, 302 s.
29. *Məmmədov N.R.* Azərbaycan Respublikasının Qarabağ bölgəsi 1970-1985-ci illərdə. Bakı: Avropa, 2017, 328 s.
30. *Məmmədov N.R.* Azərbaycan SSR DQMV-nin tarixi (1923-1991): Elmi-metodik vəsait. Bakı: Təhsil, 2008, 420 s.
31. Müstəqil Azərbaycan 10 il: statistik məcmuə. Bakı, 2001, 138 s.
32. *Səmədzadə Z.* Dağlıq Qarabağ, naməlum həqiqətlər. Bakı, 1995, s.22-28
33. Достижения НКАО в девятой пятилетке. Баку, 1976, с.131-136
34. Народное хозяйство Азербайджанской ССР (стат. ежегод.). Баку, 1990, 386 с.
35. Народное хозяйство Азербайджанской ССР к 70 летию Великого октября. Баку, 1987, 282 с.
36. Статистический ежегодник: в 2-х ч., I ч. Баку, 1987, 265 с.

Redaksiyaya daxil olub 13.04.2023

*UOT 316.3*

***M.A.Musayeva***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*musayeva08@inbox.ru*

# HEYDƏR ƏLİYEV İRSİNİN ELMİ METODLARLA ÖYRƏNİLMƏSİ

***Acar sözlər:*** *Azərbaycançılıq, təhsil islahatları, əməliyyatlar tədqiqi, idarəetmələrin dayanıqlığı, ictimai sistemin strukturu*

Araşdırma Heydər Əliyev irsinin az öyrənilən bir cəhətinə, onun elmi əsaslarının təhlilinə və elmi metodlarla öyrənilməsinə həsr olunmuşdur. Heydər Əliyevin irsi hər şeydən əvvəl elmi irsdir və bu irs elmi metodlarla öyrənilməlidir. Məqalədə ölkəmizin inkişafı üçün Heydər Əliyevin tətbiq etdiyi strateji idarəetmələrin və islahatlarının xarakterinə dair müddəalar əməliyyatlar tədqiqi kursu mövqeyindən araşdırılır və onların elmi faktlarla həmahəng olduğu izah olunur. Azərbaycan Prezidenti cənab İlham Əliyevin Ulu öndər Heydər Əliyev siyasətini yeni dövrdə uğurla davam etdirilməsi nəticəsində təhsilinin inkişafı üçün tətbiq edilən idarəetmələrin xüsusiyyətləri, sosial sistemin strukturuna uyğunluğu, dayanıqlığı və bu istiqamətdə qazanılan uğurlar qısaca sadalanır.

***М.А.Мусаева***

# НАУЧНЫЕ МЕТОДЫ ИЗУЧЕНИЯ НАСЛЕДИЯ ГЕЙДАРА АЛИЕВА

***Ключевые слова****: азербайджанство, реформы образования, исследование операций, стабильность управления, структура социальной системы*

Работа посвящена малоизученному аспекту наследия Гейдара Алиева, анализу научных его основ и научных методов изучения этого наследия. Наследие Гейдара Алиева – это прежде всего научное наследие, и это наследие должно изучаться научными методами. В статье положения о характере стратегического управления и реформ, примененных Гейдаром Алиевым для развития нашей страны, рассматриваются с позиции курса исследования операций и поясняется, что они согласуются с научными фактами. В результате успешного продолжения Президентом Азербайджана г-ном Ильхамом Алиевым политики Великого лидера Гейдара Алиева в новую эпоху характеристики администраций, применяемых для развития образования, совместимости со структурой социальной системы, устойчивости и успехи, достигнутые в этом направлении кратко перечислены.

***M.A.Musaeva***

**SCIENTIFIC METHODS STADING HEYDAR ALIEV'S HERITAGE**

***Keywords**: Azerbaijaniism, educational reforms, operations research, management stability, structure of the social system*

The work is devoted to the little-studied aspect of the heritage of Heydar Aliyev, the analysis of its scientific foundations and scientific methods for studying this heritage. The legacy of Heydar Aliyev is, first of all, a scientific heritage, and this heritage should be studied by scientific methods. In the article, the provisions on the nature of strategic management and reforms applied by Heydar Aliyev for the development of our country are considered from the position of the course of operations research and it is explained that they are consistent with scientific facts. As a result of the successful continuation by the President of Azerbaijan, Mr. Ilham Aliyev, of the policies of the Great Leader Heydar Aliyev in the new era, the characteristics of the administrations applied for the development of education, compatibility with the structure of the social system, sustainability and successes achieved in this direction are briefly listed.

## 1. Giriş

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları 2023-cü ili Heydər Əliyev ili elan etmişdir. Həqiqətən də ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləri vardır, zaman keçdikcə onun haqqında daha çox yazılacaq. O, yeni dövrdə müstəqil Azərbaycan Dövlətinin banisidir, yaratdığı irs milli dövlətçiliyimizin əsasını təşkil edir [1; 2].

Araşdırma Heydər Əliyev irsinin onun elmi əsaslarının təhlilinə, elmi metodlarla öyrənilməsinə və dövlətçiliyimizin əsasında durmasına həsr olunmuşdur. Heydər Əliyevin irsi hər şeydən əvvəl elmi irsdir və bu irs elmi metodlarla öyrənilməlidir. Heydər Əliyev irsinin əsasında onun formalaşdırdığı Azərbaycançılıq məfkurəsi, Azərbaycanın, xüsusilə təhsilin və innovasiyaların inkişafı üçün tətbiq etdiyi unikal idarəetmə metodları durur. Ulu Öndərin və onun irsinin Respublika Prezidenti tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycançılıq məfkurəsinin və ümumilikdə Azərbaycanın, xüsusilə təhsilin inkişafı üçün tətbiq edilən idarəetmənin xüsusiyyətləri, ictimai sistemin strukturuna uyğunluğu və dayanıqlığı "Əməliyyatlar tədqiqi" fənni mövqeyindən araşdırılır, bu istiqamətdə qazanılan uğurlar sadalanır. Azərbaycançılıq məfkurəsinə əsaslanaraq, ölkəmizin inkişafına yönəlmiş islahatların xarakterinə dair Heydər Əliyev müddəaları şərh olunur. Bu məfkurə özünün möhtəşəm gücü, inandırıcı qüdrəti ilə dövlətçiliyimizin bərpasına, qorunmasına, xalqımızın birliyinə, ərazimizin bütövlüyünə kömək etmişdir.

Ulu Öndər Heydər Əliyev dühasının məhsulu olan Azərbaycançılıq ideologiyası onun ölməz irsinin əsasını təşkil edir, digər sahələrin:

iqtisadiyyatın, sənayenin, o cümlədən neft sənayesinin, aqrar sferasının, təhsilin, innovasiyanın və digər sahələrin inkişaf etməsinə səbəb olmuşdur. Heydər Əliyev ölkəmizi xaosdan, vətəndaş müharibəsindən, qardaş qırğınından qurtarmış, beynəlxalq neft sazişləri ilə neft ehtiyatlarını ölkənin inkişafının əsasında qoyaraq düzgün siyasəti ilə Respublikamıza Beynəlxalq təzyiqlərin qarşısını almış, mənfur qonşularımızın hərbi hücumuna dair atəşkəsə nail olmuşdur. Onun ölməz irsini inkişaf etdirən, siyasətini yeni dövrün tələblərinə uyğun uğurla, düzgün aparan Respublika Prezidenti İlham Əliyev Cənablarının fəaliyyətinin bütün cəhətlərində böyük zəfərlər qazanılmış, onunla Azərbaycanın inkişafında yeni mərhələ başlanmışdır. Xalqımızın ən böyük zəfəri Baş komandan Cənab İlham Əliyevin ətrafında sıx birləşərək müzəffər və rəşadətli ordumuz tərəfindən Qarabağın düşmən tapdağından azad edilməsi ilə qazandığı qələbə olmuşdur. Bu haqlı zəfərlə Azərbaycanın ərazi bütövlüyü bərpa edilmiş, dünya xalqımızı qalib xalq kimi tanımışdır.

## 2. Heydər Əliyevin Azərbaycançılıq məfkurəsi

Bu məfkurə Heydər Əliyev ideologiyasının təməl prinsiplərinə aiddir və bütövlükdə elmi məfkurədir. Heydər Əliyev Azərbaycançılıq məfkurəsini təkmil bir şəkildə ifadə etmişdir. Heydər Əliyevə görə Azərbaycançılıq məfkurəsi aşağıdakılardan ibarətdir:

- Öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq,
- Ümumbəşəri dəyərlərlə zənginləşmək, onlardan bəhrələnmək, onları milli-mənəvi dəyərlərlə sintez və inteqrasiya etmək,
- Hər bir azərbaycanlının daima inkişaf etməsi.

Heydər Əliyev Azərbaycançılıq məfkurəsi ətrafında Azərbaycanda dövlətçiliyin əsaslarını yaratmışdır. O, belə hesab edirdi ki, müstəqil Azərbaycan Dövləti olmadan Azərbaycançılıq məfkurəsinin həyata keçməsi, bitkin şəkil alması və inkişaf etməsi real görünmür. Deməli, Azərbaycan dövlətinin varlığı və inkişafı Azərbaycançılıq məfkurəsinin doğru və düzgün həyata keçməsindən asılıdır və əksinə. Heydər Əliyevin Azərbaycançılıq məfkurəsi özünün möhtəşəm gücü, inandırıcı qüdrəti ilə dövlətçiliyimizin bərpasına, qorunmasına, xalqımızın birliyinə, ərazi bütövlüyümüzü pozmağa çalışanlara qarşı qısa müddətdə – 44-gündə zəfər qazanmağa səbəb olmuşdur. Bu məfkurə xalqımızı dövlətini qoruyan qalib xalq etmişdir.

## 3. İslahatların xarakterinə dair Heydər Əliyev müddəaları

Heydər Əliyev irsi, onun uğurlu davamının Azərbaycanda təhsilin inkişafında olan müstəsna rolunu qeyd etmək lazımdır. Yeni minilliyin əvvəlində Azərbaycan əvvəlki Sovet Respublikaları içində birinci olaraq Boloniya prosesinə imza atmaqla dünya təhsil sisteminə qovuşdu. Heydər

Əliyevin Azərbaycanın inkişafına yönəlmiş islahatların, idarəetmələrin xarakterini təhsil islahatları misalında nəzərdən keçirək.

Heydər Əliyevə görə, Azərbaycanda təhsil islahatları aşağıdakı prinsiplərə söykənməlidir:

1. Təhsil islahatları inqilabi yolla deyil, təkamül yolu ilə aparılmalıdır.
2. Təhsil islahatları Azərbaycançılıq məfkurəsinə əsaslanmalıdır.
3. Təhsil islahatlarında Azərbaycanlıların milli mentaliteti əsas götürülməlidir.
4. Təhsil islahatlarında bəşəri nailiyyətlər nəzərə alınmalı, daima inkişaf etməli, Azərbaycanın təhsili Beynəlxalq təhsil sisteminə inteqrasiya edərək onun üzvü hissəsi olmalıdır, ona inteqrasiya etməlidir.

Asanca görmək olar ki, Heydər Əliyevin Azərbaycançılıq məfkurəsi və islahatlar ideologiyaları bir-birinə üzvü şəkildə bağlıdır, onlar arasında sıx əlaqə mövcuddur. Bu prinsipləri və “Təhsil millətin gələcəyidir”, “Mən dünyada müəllimdən uca ad tanımıram” tezislərini rəhbər tutan Heydər Əliyev keçən əsrin 70-ci illərindən başlayaraq müstəqil Azərbaycan Respublikasında da çox qətiyyətli islahatları həyata keçirmişdir. Bu islahatları uğurla davam etdirərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yeni dövr üçün bu müddəaları inkişaf etdirmişdir. Ölkə başçısı bildirir: “Biz Respublikanın neft potensialını onun intellektual potensialına çevirməliyik”, “Dünyada yaranan yeni texnologiyalar Azərbaycana yol tapmalıdır”[1; 2]. Prezidentin göstərişi ilə Azərbaycan Dövləti Heydər Əliyev Fondu ilə birlikdə Respublikamızın hər tərəfində yeni məktəblər tikilmiş, yararlıları təmir olunmuş, zəruri təhsil islahatları həyata keçirilmişdir. Təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi xeyli genişlənmişdir. Azərbaycan təhsilinin siması dəyişmiş, dünya təhsil sistemi ilə inteqrasiya etməkdə təhsildə Heydər Əliyev prinsipləri bərqərar olmuşdur.

Təhsilin bütün pillələrində islahatlar aparılmış, dünya təhsil sistemində olduğu kimi bakalavr, magistr və doktor təhsil səviyyələri daxil edilmiş, bu pillələrə uyğun yeni tələblər həyata keçirilmiş, yeni ixtisaslar daxil edilmiş, köhnələri ləğv edilmişdir. Bütün ixtisaslara dair tədris olunacaq fənlər müəyyənləşmiş, onların proqram və sillabusları hazırlanmışdır. Bu iş daima davam etdirilir, yenilənir və zəruri təhsil islahatları həyata keçirilir. Hər heydən əvvəl, bütün işlərin, islahatların Heydər Əliyev ideologiyasına, onun Azərbaycançılıq məfkurəsinə və tətbiq etdiyi idarəetmələrə uyğun aparıldığı aydın görünür.

### 4. Heydər Əliyev irsinə elmi metodlarla yanaşma

Heydər Əliyevin təhsil sferasının inkişafı üçün tətbiq etdiyi idarəetmələr, Azərbaycanda təhsil islahatlarının həyata keçirilməsi üçün onun

dahi düşüncəsi olmaqla elmi əsaslara, insan faktoruna, eləcə də qabaqcıl texnologiyaya əsaslanır. 2015-ci ildə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı "Fəaliyyət Planı" təsdiq edilmişdir [6]. Bu sənədə əsasən, keyfiyyət göstəricilərinə görə beş strateji istiqamət göstərilmişdir.

Birinci strateji istiqamət təhsilin məzmununun kompetensiyasına əsaslanan şəxsiyyətyönümlü mütəxəssis hazırlığını nəzərdə tutulur.

İkinci strateji istiqamət təhsil sahəsində bacarıqlı və peşəkar kadr potensialının yaradılamasını nəzərdə tutur. Bu istiqamət innovativ təlim metodlarının tətbiq edilməsini və təhsilin məzmununun zənginləşdirilməsini ehtiva edir.

Üçüncü strateji istiqamət təhsildə nəticələrə yönəlmiş məsuliyyətli və səmərəli idarəetmələrin tətbiq edilməsini nəzərdə tutur. Bu istiqamət təhsil sistemində tənzimləmə, şəffaf idarəetmə modelinin yaradılması, idarəetmənin təmin edilməsi üçün yeni informasiya və hesabat sistemlərinin yaradılması kimi məqsədləri özündə ehtiva edir.

Dördüncü strateji istiqamət müasir milli və dünyəvi tələblərə cavab verən fasiləsiz təhsili təmin edən infrastrukturunun yaradılmasını nəzərdə tutur. Bu istiqamətdə təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarına əsaslanan tədris metodikasına uyğun infrastrukturun yaradılması, peşəkar ixtisaslaşma və təhsil məsələlərinin, konsaltinq xidmətlərin regional mərkəzlərinin, müasir peşə hazırlığı mərkəzlərinin və komplekslərinin tikintisi, tədris şəhərciklərinin yaradılmasını nəzərdə tutur.

Beşinci strateji istiqamət Azərbaycan Respublikasında təhsil sisteminin maliyyələşdirilməsi üçün iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartları modelinin yaradılmasıdır. Bu istiqamət təhsilin müxtəlif mənbələrdən maliyyələşməsini nəzərdə tutur.

Nəhayət, pandemiya dövründə məcburən tətbiq edilən və sınaqdan keçirilən distant – onlayn təhsil modelinin milli təhsil sistemində apardığı dəyişilikləri qeyd etmək lazımdır. Bu sistem də Heydər Əliyev müddəalarına uyğun öyrənilib inkişaf etdirilməlidir.

Deyilənlərə uyqun olaraq, ali təhsil müəssisələrində keçirilən "Əməliyyatlar tədqiqi və oyunlar nəzəriyyəsi" kursunu göstərmək olar ki, bu kurs, qısaca desək, qərar qəbuletmə nəzəriyyəsi sahəsindədir. Onun əsas ideyasını riyazi modellərdən istifadə etməklə müxtəlif məsələlərin strateji təfəkkürlə yanaşı, optimal həll yollarının tapılmasını öyrənmək təşkil edir. Göstərilən kursda "Əməliyyatlar tədqiqi və oyunlar nəzəriyyəsini" yaradanlar N.Viner, D.Forster, R.Eşbi, C.Neş ilə yanaşı, dahi Azərbaycan alimi L.Zadə, dahi rus alimi A.Tixonov və digərləri öyrənilir. Həmin kursda Azərbaycan alimi L.Zadənin keçən əsrin 60-70-ci illərində isbat etdiyi belə bir teorem öyrənilir: "Sistemə tətbiq edilən idarəetmələrin optimallığı üçün onların sistemin

strukturuna uyğunluğu zəruridir". Elə həmin illərdə dahi rus alimi A.Tixonov isbat etmişdir ki, sistemin strukturuna uyğun olmayan, ona tətbiq edilən idarəetmələr dayanıqsızdır, yəni verilənlərin istənilən qədər kiçik dəyişməsi göstərilən idarəetmələri istənilən qədər dəyişə bilər [4; 5].

Bu iki fakt bir-birini tamamlayır və sistemə tətbiq edilən optimal idarəetmələr üçün oxşar mühakimələrlə isbat edilir. Göstərilən iki faktı birləşdirsək, deyə bilərik ki, sistemə tətbiq edilən idarəetmələrin optimallığı və dayanıqlığı üçün onların sistem strukturuna uyğunluğu zəruridir. Bu faktın isbat edildiyi illərdə Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başlamış, onun Azərbaycanın inkişafı üçün tətbiq etdiyi idarəetmələr, apardığı islahatlar, o cümlədən apardığı təhsil islahatları həm sistem strukturuna uyğun idi, onlar real işləyən idarəetmələr olub, nəticələr verirdilər. Bu idarəetmələrin nəticəsi olaraq Respublika iqtisadiyyatı, təhsil və digər sahələr kökündən dəyişmiş, yenilənmiş, keçmiş SSRİ-də Azərbaycanı əsaslı tanıdaraq hamı üçün örnək olan novatorluq olmuşlar. Yeni minillikdə Heydər Əliyev irsi və siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları tərəfindən uğurla davam və inkişaf etdirilmiş, onlar yeni məzmun qazanmışdır.

Heydər Əliyev irsi milli və ümumbəşəri təcrübəyə, böyük peşəkarlığa əsaslanır. Azərbaycan Prezidenti və Heydər Əliyev Fondu Respublikada təhsil islahatlarını daim diqqətdə saxlayırlar. Yuxarıda qeyd olunanlarla yanaşı, sürətlə modernləşən Azərbaycan Respublikasında insan kapitalının inkişafı problemlərinin həlli, habelə ümumpeşə hazırlığının keyfiyyət göstəricilərinin dünya standartlarına uyğunlaşdırılması istiqamətində yeni addımlar atılır. Təhsilin keyfiyyətinin yüksəldilməsi üçün təhsilin idarəetmə sisteminin mükəmməl qurulması, bu sahədə kadr potensialının inkişaf etdirilməsi, müəllim peşəsinin nüfuzunun yüksəldilməsi zəruridir. Azərbaycanda təhsil elmlə birləşmişdir. Ölkə başçısı millətin təhsilinə böyük qayğı göstərir. Azərbaycanda keyfiyyətli təhsil üçün hər cür imkan yaradılır, cəmiyyətdə müəllimin hörmətinin artmasına daim diqqət yetirilir.

Azərbaycan gənclərinin böyük bir hissəsi dünyanın ən qabaqcıl universitetlərində dövlət hesabına təhsil alır, Azərbaycan diasporunu xaricdə zənginləşdirirlər. Təhsilini xaricdə başa vurub vətənə qayıdan gənclər Azərbaycanın inkişafına kömək edir. Vaxtında Heydər Əliyev Azərbaycan gənclərini Respublikada verdikləri imtahanlarla SSRİ-nin ən qabaqcıl universitetlərinə təhsil almağa göndərmiş, həmin gənclər indi ölkə həyatının öncül sahələrinə rəhbərlik edilər. Yeni dövrün əsas tezisləri Heydər Əliyevin təhsil islahatlarının aparılması prinsiplərinə söykənir.

## 5. Yekun qeydlər

Heydər Əliyev haqlı olaraq yazırdı: "İndi Azərbaycan müstəqil dövlətdir, öz milli ideologiyasını yaradaraq, inkişaf etdirərək təhsil sahəsini də milli

məqsədlər, mənafelər əsasında qurmalıdır". Bir sözlə, Azərbaycanda təhsilin inkişafı Heydər Əliyevin və onun siyasətini uğurla həyata keçirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adı ilə bağlıdır. Heydər Əliyevin təhsil islahatları yolu bu gün İlham Əliyev tərəfindən yeni mərhələdə uğurla davam etdirilir.

Ulu öndər Heydər Əliyevin və onun irsinin Azərbaycan Prezidenti İlham Əliyevin uğurla davam etdirdiyi bu siyasətin nəticəsi olaraq təhsilin inkişafı üçün tətbiq edilən idarəetmələrin xüsusiyyətləri, sistemin strukturuna uyğunluğu və dayanıqlığı "Əməliyyatlar tədqiq və oyunlar nəzəriyyəsi" kursu mövqeyindən araşdırılmış, bu istiqamətdə qazanılan uğurlar təhlil edilmişdir. Təhsil islahatlarının xarakterinə dair Heydər Əliyevin müddəaları şərh olunur, nəticədə Azərbaycan təhsilinin inkişafı üçün istifadə olunan idarəetmələr dünya şöhrətli alim Lütfi Zadə və Andrey Tixonovun isbat etdiyi teoremlərə əsaslanır və teoremlər uyğun olmaqla real sosial sferaya tətbiq edilmişdir. İlham Əliyev yazır: "Məhz intellektual potensial, məhz elmin səviyyəsi ölkənin tərəqqisini təmin edir, ölkəni inkişaf etmiş ölkələr sirasına çıxarır" [2].

## ƏDƏBİYYAT


1. Heydər Əliyev irsi və Azərbaycanın müasir inkişafında İlham Əliyev mərhələsi / Beynəlxalq elmi-praktik konfransın materialları, Bakı: Azərbaycan, 2007, 280 s.
2. İlham Əliyev. İnkişaf – məqsədimizdır, Bakı: Azərnəşr, 2009, 209 s.
3. *Вентцель Е.С.* Исследование операций. М.: Дрофа, 2004, 306 с.
4. *Тихонов А.Н., Арсенин В.Я.* Методы решения некорректных задач. Москва: Наука, 1979, 285 с.
5. *Zadeh L.* Fuzzy sets as basis for theory of possibility. Fuzzy sets and systems, 1978, v.1, 1-28
6. https://e-qanun.az/framework/29145


Redaksiyaya daxil olub 08.05.2023

*UOT 32*

***H.M.Musayev***
*Bakı Dövlət Universiteti*
*elchin.gulaliyev1@gmail.com*

# SƏRHƏD TƏHLÜKƏSİZLİYİ SİYASƏTİ MİLLİ TƏHLÜKƏSİZLİK SİYASƏTİNİN TƏRKİB HİSSƏSİ KİMİ

***Açar sözlər:*** sərhəd, sərhəd təhlükəsizliyi, milli təhlükəsizlik, sərhəd siyasəti, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı

Məqalədə Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin tərkib hissəsi kimi sərhəd təhlükəsizliyi siyasətinin uğurlu təşəkkülünün, formalaşması və inkişafının ən vacib şərtlərinin təhlili aparılmış, ölkəmizin sərhəd təhlükəsizliyinin məqsədi və onu təmin etmə yollarının şərhi verilmişdir. Dövlət Sərhəd Xidmətinin aidiyyəti qurumları tərəfindən öz səlahiyyətləri çərçivəsində regional dövlətlərin *(təşkilatların)* aidiyyəti qurumları ilə qarşılıqlı faydalılıq əsasında yaradılmış əlaqələrin sərhəd təhlükəsizliyimizin təmin edilməsində rolunun araşdırılması aparılmışdır.

Azərbaycan Respublikasının sərhəd təhlükəsizliyi məsələləri araşdırılarkən sistemli yanaşma, analiz və sintez kimi elmi nəzəri metodlardan istifadə edilmişdir.

***Х.М.Мусаев***

## ПОЛИТИКА БЕЗОПАСНОСТИ ГРАНИЦ КАК ЧАСТЬ ПОЛИТИКИ НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ

***Ключевые слова:*** граница, пограничная безопасность, национальная безопасность, пограничная политика, территориальная целостность, нерушимость границ

В статье анализируются важнейшие условия успешного становления, становления и развития политики пограничной безопасности как составной части политики национальной безопасности Азербайджанской Республики, а также разъясняется цель пограничной безопасности нашей страны и пути ее обеспечения. Соответствующие учреждения Государственной пограничной службы исследовали роль отношений, установленных на основе взаимной выгоды, с соответствующими учреждениями региональных государств (организаций) в обеспечении безопасности наших границ.

При исследовании вопросов безопасности границ Азербайджанской Республики использовались такие научно-теоретические методы, как системный подход, анализ и синтез.

***H.M.Musayev***

# BORDER SECURITY POLICY AS PART NATIONAL SECURITY POLICIES

***Keywords:*** *border, border security, national security, border policy, territorial integrity, inviolability of borders*

The article analyzes the most important conditions for the successful formation, formation and development of the border security policy as an integral part of the national security policy of the Republic of Azerbaijan, and also explains the goal of the border security of our country and the ways to ensure it. The relevant groups of the State Border Service have studied the role of relations established on the basis of mutual benefit with the relevant institutions of regional states (organizations) in ensuring the security of our borders.

When studying the issues of security of the borders of the Azerbaijan Republic, such scientific and theoretical methods as a systematic approach, analysis and synthesis were used.

Elmi-texniki tərəqqinin inkişafı nəticəsində atom və hidrogen bombaları, nüvə silahları, uzaqmənzilli raketlər, pilotsuz uçuş aparatları və s. kimi yüksək dəqiqlikli silahların yarandığı müasir dövrdə hər bir ölkə öz təhlükəsiliyini təmin etmək üçün hüquqi baza formalaşdırır, o cümlədən ayrı-ayrı ölkələrlə və yaxud təşkilatlarla qarşılıqlı əməkdaşlığa dair müqavilələr imzalayırlar. Beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş baza prinsipləri rəhbər tutularaq qarşılıqlı hörmət əsasında ölkələr arasında imzalanmış belə müqavilələrlə dövlətlərin milli maraqlarının müdafiəsi, həmçinin bu ölkələrin milli maraqlarına qarşı yönəlmiş təhdidlərin dəf edilməsi, o cümlədən dövlət sərhədlərinin təhlükəsizliyinin təmin edilməsi məsələləri hüquqi müstəvidə tənzimlənir.

Müstəqilliyimizin ilk illərində ölkəmizdə yaranmış mürəkkəb və çətin vəziyyət, Ermənistanın ərazilərimizə təcavüzü, ölkə daxilində ictimai-siyasi sabitliyin olmaması, hakimiyyət uğrunda müxtəlif qanunsuz silahlı dəstələrin mübarizəsi və s. kimi halların mövcudluğu bu sahədə işlərin görülməsinin müəyyən mənada ləngiməsinə səbəb olmuşdur. 1993-cü ildə Ümummilli lider H.Əliyevin hakimiyyətə gəlişindən sonra Ermənistanla müvəqqəti atəşkəs elan edilməsi, ölkədə ictimai-sabitliyin bərpa olunması və s. sözügedən istiqamətdə müəyyən addımların atılmasına zəmin yaratdı.

Respublikamızın milli təhlükəsizliyinin nəzəri əsasları müstəqil dövlətimizin banisi Heydər Əliyevin 1993-2003-cü illərdəki ayrı-ayrı çıxışlarında öz əksini tapmışdır. Lakin bütövlükdə ölkənin Milli Təhlükəsizlik Konsepsiyasının ərsəyə gəlməsi və təhlükəsizlik siyasətinin tam formalaşdırılması üçün Azərbaycan hökumətinə xeyli vaxt lazım olmuşdur [5, s.871]. Belə ki, 2004-cü ildə özündə Ümummilli lider Heydər Əliyevin milli təhlükəsizlik təliminin əsas prinsiplərini, məqsəd və vəzifələrini əks etdirən “Milli təhlükəsizlik haqqında” Azərbaycan

Respublikasının Qanununun qəbul edilməsindən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə Milli Təhlükəsizlik Konsepsiyasının hazırlanması üzrə işçi qrupu yaradılmış, layihə üzərində işə başlanılmış və qısa müddətdə yekunlaşdırılaraq ölkə Prezidentinin 2007-ci il 23 may tarixli Sərəncamı ilə təsdiq olunmuşdur. Beləliklə, ölkəmizdə milli təhlükəsizliyin təmin olunması sistemi formalaşdırılmış, ölkəmizin milli maraqlarının, milli təhlükəsizliyinin təmin olunmasının əsas prinsiplərinin və vəzifələrinin, həmçinin təhlükəsizliyimizə olan təhdidlərin hüquqi cəhətdən çərçivəyə salınması üçün konseptual baza yaradılmışdır.

Hal-hazırda milli təhlükəsizlik sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyası, Milli təhlükəsizlik haqqında qanun, Milli Təhlükəsizlik Konsepsiyası, AR Hərbi Doktrinası və Azərbaycan Respublikasının digər normativ-hüquqi aktlarından, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir. Azərbaycan Respublikası xalqın və ölkənin milli maraqlarını təmin etməyə qadir müstəqil, demokratik, hüquqi, dünyəvi, unitar dövlət olaraq, öz inkişafı naminə bu baza əsasında milli təhlükəsizlik, o cümlədən sərhəd siyasətini müəyyən edir və həyata keçirir.

Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin əsasını dövlətin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşu və milli maraqlarının, vətəndaşların hüquq və mənafelərinin təmin edilməsi, onların xarici (daxili) təhlükələrdən və təhdidlərdən qorunması təşkil edir. Milli təhlükəsizliyin əsas obyektlərinə dövlət – onun müstəqilliyi, suverenliyi, konstitusiya quruluşu, milli əraziləri – onun bütövlüyü və təhlükəsizliyi, vətəndaşlar – onların hüquq və azadlıqları, cəmiyyət – onun maddi və mənəvi dəyərləri daxildir.

Milli təhlükəsizliyin əsas subyektlərinə isə insanların, cəmiyyətin və dövlətin təhlükəsizlik maraqlarının və tələbatlarının təmin edilməsi məqsə-dilə yaradılmış dövlət hakimiyyəti orqanları, hərbi və təhlükəsizlik institutları aid edilir [3, s.83].

Dövlət sərhədinin təhlükəsizliyi Milli Təhlükəsizliyin başlıca problemlərindən biridir [7, s.515]. Dövlətin ərazi bütövlüyü, suverenliyinin qorunması onun sərhədlərin təhlükəsizliyindən başlayır. Azərbaycan Respublikası Konstitusiyasının 11-ci maddəsinin 3-cü bəndində deyilir: *"Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kiməsə vermir; yalnız Azərbaycan Respublikasının Milli Məclisinin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər"* [10].

Sərhəd təhlükəsizliyinin təminatında dövlətlərin rolu müstəsna əhəmiyyətə malikdir. Təsadüfi deyildir ki, hər bir ölkədə sərhəd təhlükəsizliyinin konstitusiya təminatçısı dövlət hesab olunur. Sərhəd təhlükəsizliyinin təmin edilməsinin səviyyəsi məhz bu sahəyə cavabdeh olan dövlət orqanlarının bu prosesi necə təşkil

etməsindən və onun icrasına nəzarətindən asılıdır.

Sərhəd təhlükəsizliyi siyasətinin əsas məqsədi beynəlxalq, regional və ictimai sabitliyin təmin edilməsinə təsir göstərmək, insanların və bütövlükdə ölkə əhalisinin rifahının yüksəldilməsi, ölkədə sabitliyin möhkəmləndirilməsi, onun davamlı və mütərəqqi inkişafı üçün əlverişli şəraitin (mühitin) yaradılması və qarşılıqlı faydalılıq əsasında dövlətlərarası əməkdaşlığın təşkil edilməsidir [8].

Dövlətin sərhəd təhlükəsizliyi milli təhlükəsizliyin ən mühüm və spesifik növü olub, Azərbaycan Respublikasının sərhəd məkanında şəxsiyyətin, cəmiyyətin və dövlətin həyati əhəmiyyətli mənafelərinin müdafiəsinin vəziyyəti kimi müəyyən olunur. Sərhəd təhlükəsizliyinin təmin olunmasına tələbat obyektiv surətdə şərtlənir və zəruridir. O ilk növbədə, dövlətlərin yaranması və onlar arasında ərazilərin fərqləndirilməsi proseslərinin, sərhədlərin təsbitinin və qorunmasının, həm də öz ərazisi hüdudlarında dövlət suverenliyinin, birtərəfli yaxud qarşılıqlı ərazi iddialarının mövcudluğunun sərhədlərə yenidən baxılması cəhdlərinin, sərhəd mübahisələrinin kəskinləşməsinin və silahlı zorakılığın kəskinləşməsinə gətirib çıxara biləcək açıq münaqişə mərhələsinə keçirilməsinin qanunauyğun nəticəsi kimi çıxış edir [6, s.225].

Müasir dövrdə Azərbaycan Respublikası ilə quru sərhədləri olan elə bir dövlət yoxdur ki, ona qarşı açıq və ya gizli şəkildə ərazi iddiası olmasın. Belə ki, Şimal qonşumuz Rusiya ilə dövlət sərhədlərimizin delimitasiya və demarkasiya prosesinin başa çatmasına baxmayaraq, bizi keçmiş SSSRİ-nin tərkib hissəsi kimi görməsi və daim bu regiona öz təsirini göstərməsi, şimal-qərbdə Gürcüstan Respublikası ilə və qərbdə Ermənistan Respublikası ilə sərhədlərimizin hələ də müəyyənləşdirilməməsi, Gürcüstan Respublikasının Zaqatala, həmçinin Ağstafa rayonu ərazisində Keşikçidağ dövlət tarix-mədəniyyət qoruğu istiqamətində, Ermənistan Respublikasının isə Şərqi Zəngəzur iqtisadi rayonu istiqamətində ərazi iddialarının olması, cənubdan İİR-nin bəzi dövlət xadimləri tərəfindən (Məs., Həsən Ruhani) açıq şəkildə "Cənubi Qafqaz və Azərbaycan Respublikasının ərazilərinin qədim İran torpağı olduğu fikirlərinin səsləndirilməsi, bir çox hallarda müstəqilliyimizi özlərinə təhdid hesab etməklə dövlətimizin Bakı və ya Şimali Azərbaycan adlandırılması və s. ölkəmizə, onun ərazi bütövlüyünə qarşı yönəlmiş təhdidlərdir. Sərhəd məsələləri üzrə belə bir siyasi vəziyyətin mövcudluğu ölkə rəhbərliyindən qonşu dövlətlərlə siyasətini korreksiya etməyi, öz sərhədlərinin mühafizəsini daim gücləndirməyi tələb edir.

Ölkəmizin yerləşdiyi regionda qonşu ölkələr arasında siyasi sahədə münaqişəli vəziyyətlərin inkişafı və hərbi-siyasi şəraitin kəskinləşməsi Azərbaycan Respublikasının mənafelərinə hərbi təhlükənin artması üçün ciddi zəmin yaradır. Belə bir vəziyyət ölkəmizin milli təhlükəsizliyinin təmin edilməsi baxımından səlahiyyətli orqanlar tərəfindən zəruri tədbirlərin görülməsini şərtləndirir. Ölkəmizin təhlükəsizliyinin birbaşa onun sərhədlərindən başlandığını nəzərə alsaq, bu tədbirlərdən biri, bəlkə də ən vacibi dövlət sərhədlərimizin etibarlı mühafizəsi

və müdafiəsi hesab edilir. Bununla bağlı Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının qanunun 19.2.4-cü maddəsində "Azərbaycan Respublikasının dövlət sərhədlərinin etibarlı mühafizəsinin təmin edilməsinin ölkəmizin hərbi sahədə milli təhlükəsizliyinin qorunmasının ən vacib tərkib hissələrindən biridir", – fikri ifadə olunmuşdur [12].

Müasir dövrdə hər bir dövlətin sərhəd təhlükəsizliyi regional və qlobal təhlükəsizlik mühitindən asılı olduğundan sərhəd təhlükəsizliyini dövlətlərarası münasibətlər sistemindən kənarda təsəvvür etmək mümkün deyildir. Bu baxımdan sərhədlərin mühafizəsi beynəlxalq münasibətlər sistemində qəbul edilmiş hüquqi normalar əsasında həyata keçirilməlidir. Burada sərhəd təhlükəsizliyinin təmin edilməsi sahəsində birgə koordinasiyalı fəaliyyətin təşkili üzrə dövlətlərarası münasibətlər sərhədə hörmət etmək siyasəti əsasında müəyyən edilir.

Hər bir ölkənin sərhədlərinin təhlükəsizliyinin təmin etmə qabiliyyəti bu ölkənin həyata keçirdiyi sərhəd siyasətindən birbaşa asılı olur. Burada "sərhəd siyasəti" deyildikdə, - sərhəd təhlükəsizliyi mühitinin yaradılmasına yönəldilmiş, sabitliyin, təhlükəsizliyin və sərhədlərin toxunulmazlığının təmin edilməsi, vahid iqtisadi və gömrük məkanının formalaşması, beynəlxalq və daxili terrorizmlə birgə mübarizənin təşkili, separatizm və millətçiliyin hər cür təzahürünün, həmçinin narkotik ticarətinin qarşısının alınması, sərhəd hadisələrinin və ərazi mübahisələrinin sülh yolu ilə həll edilməsi məqsədilə həmsərhəd (birgə təhlükəsizliyin təmin edilməsi sahəsi üzrə əməkdaşlıq edən) dövlətlərinin dövlət hakimiyyəti təsisatları tərəfindən həyata keçirilən razılaşdırılmış, birgə koordinasiyalı fəaliyyəti nəzərdə tutulur [14].

Hər bir ölkənin sərhəd təhlükəsizliyi siyasətinin effektivliyi və müvəffəqiyyəti ölkənin təhlükəsizlik mühitindən və beynəlxalq imicindən asılıdır. Dövlətin suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərinin toxunulmazlığına, milli maraqlarının təminatına, vətəndaşlarının sosial-siyasi hüquqlarının və rifah halının təmin olunmasına və milli-mənəvi dəyərlərinin qorunmasına təsir edən əsas amillər məhz təhlükəsizlik mühiti və beynəlxalq imicdir [4].

"Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında" deyilir: *"Azərbaycan Xəzər-Qafqaz məkanında regional əməkdaşlıq üçün olduqca mühüm, bir çox hallarda isə həlledici dövlət olmaqla, xüsusən enerji və nəqliyyat layihələrinin həyata keçirilməsində əvəzsiz rol oynamaqdadır", "Azərbaycan Respublikasının yerləşdiyi və hazırda qeyri-sabit olan region dostluq və əməkdaşlıq ruhlu regional və beynəlxalq tərəfdaşlarla birlikdə inkişaf üçün səmərəli istifadə oluna biləcək geniş potensiala və imkanlara malikdir. Ölkənin yerləşdiyi coğrafi şərait vacib üstünlüklər verməklə yanaşı, eyni zamanda onu bir sıra təhlükəsizlik problemləri ilə də üzləşdirir"* [2]. Belə ki, həmsərhəd dövlət olan Ermənistanın təcavüzkarlıq siyasətinin davam etməsi, ölkənin geosiyasi mövqeyi və tranzit əhəmiyyəti, müxtəlif sivilizasiyaların qovşağında yerləşməsi, həmsərhəd dövlətlərdə mövcud olan geosiyasi və hərbi vəziyyət, regional siyasi-iqtisadi

vəziyyət və münaqişələrlə bağlı miqrasiya axınlarının genişlənməsi kimi amillər təbii ehtiyatlarla zəngin olan Azərbaycanın dövlət sərhədlərinin təhlükəsizliyinə birbaşa təsir göstərir [1].

Respublikamızın həssas coğrafi vəziyyəti onu beynəlxalq terrorçuluq, qeyri-qanuni miqrasiya, transmilli mütəşəkkil cinayətkarlıq, insan alveri, narkotik vasitələrin qaçaqmalçılığı və kütləvi qırğın silahlarının yayılması kimi bir sıra transsərhəd təhdidlər ilə daim üzləşdirir. Belə təhdidlərin mövcudluğu ölkəmizin sərhəd təhlükəsizliyinə xüsusi diqqət yetirilməsini zəruri edir. Ölkəmizdə sərhəd təhlükəsizliyi siyasətinin effektiv həyata keçirilməsi üçün mərkəzi dövlət orqanı kimi Dövlət Sərhəd Xidməti yaradılmışdır. Müasir dövrdə ölkəmizdə aparılan ümumi demokratik dövlət quruculuğu və xüsusən təhlükəsizlik sektorunun islahatı prosesi çərçivəsində sərhəd təhlükəsizliyinə konseptual olaraq yenidən baxılır və Dövlət Sərhəd Xidmətinin hərbi qurumdan hüquq mühafizə orqanına keçidi məqsədi ilə əsaslı struktur islahatları aparılır. NATO və digər xarici tərəfdaşlarla əməkdaşlıq şəraitində aparılan islahatlar nəticəsində effektiv sərhəd nəzarəti sistemi yaradılmaqla Silahlı Qüvvələrin və digər təhlükəsizlik strukturlarının sərhəd təhlükəsizliyi sahəsindəki mümkün dəstəkləyici rolu və fəaliyyətlərinin koordinasiyası mexanizmləri daha da təkmilləşdirilir [11].

Son zamanlar sərhəd təhlükəsizliyi məsələsi neft və qaz yataqlarının, nəqliyyat dəhlizlərinin təhlükəsizliyinin təmin olunmasında getdikcə daha çox əhəmiyyət kəsb etməkdədir. Bu hal Respublikamızın sərhəd təhlükəsizliyi sahəsində NATO, Avropa İttifaqı, Beynəlxalq Miqrasiya Təşkilatı, Atom Enerjisi üzrə Beynəlxalq Agentlik, Sərhəd Məsələləri üzrə Beynəlxalq Konfrans və digər beynəlxalq təşkilatlar çərçivəsində, habelə ikitərəfli və çoxtərəfli qaydada dövlətlərarası səviyyədə əməkdaşlığını genişləndirməsinə səbəb olmuşdur. Bu istiqamətdə aparılan islahatları daha da inkişaf etdirmək üçün havadan və dənizdə nəzarət, axtarış-xilasetmə, çeviklik imkanları müasirləşdirilir, təlim sistemi təkmilləşdirilir, quru sərhədlər və nəzarət məntəqələri müasir texniki avadanlıqlarla təmin olunur və peşəkar heyətə keçid sürətləndirilir [11].

Son illərin təhlili göstərir ki, sərhəd təhlükəsizliyinin təmin edilməsinin müxtəlif istiqamətləri üzrə Azərbaycan sərhəd mühafizə orqanları ilə xarici ölkələrin sərhəd mühafizə orqanları, eləcə də müxtəlif beynəlxalq təşkilatlar arasında ikitərəfli və çoxtərəfli əlaqələri mövcuddur. İstiqamətlər üzrə bu əlaqələri aşağıdakı kimi təsnifatlaşdıra bilərik [13]:

– Xarici ölkələrin müvafiq qurumları ilə inteqrə edilmiş sərhəd idarəçiliyi, sərhəd nəzarəti, qeyri-leqal miqrasiya ilə mübarizə, dəniz sərhədlərinin mühafizəsi, pilotların və mobil qruplarının əməkdaşlarının hazırlığının təkmilləşdirilməsi, təlim-tədris sisteminin təşkili və digər sahələr üzrə əməkdaşlıq edilir. Eyni zamanda DSX Yaxın Şərq və Asiya ölkələrinin (BƏƏ, Çin, Qətər, İordaniya, Pakistan və s.) sərhəd mühafizə qurumları ilə təcrübə mübadiləsi və əməkdaşlıq aparır.

– Azərbaycan Respublikası regional sərhəd əməkdaşlığının inkişafına xüsusi diqqət yetirir, bu baxımdan dövlət sərhədinin mühafizəsinin effektivliyinin artırılması məqsədi ilə Türkiyə, Gürcüstan, Rusiya, Qazaxıstan, Türkmənistan və İran, eləcə də GUAM üzv dövlətlərinin sərhəd xidmətləri ilə məsləhətləşmələr aparılır, həmçinin müvafiq məlumat mübadiləsi həyata keçirir.

– Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT), BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (BMT QAK), NATO, Avropa İttifaqı, Avropa Sərhəd və Sahil Mühafizəsi Agentliyi (Frontex), Sərhəd məsələləri üzrə beynəlxalq konfrans, GUAM, Atom Enerjisi üzrə Beynəlxalq Agentlik və s. kimi beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlıq əlaqələrini inkişaf etdirir.

– Aİ-nin Avropa Qonşuluq Siyasəti və Şərq Tərəfdaşlığı çərçivəsində İnetqrə edilmiş Sərhəd İdarəçiliyinin yaradılması sahəsində geniş əməkdaşlıq aparılır. Belə ki, 2006-2008-ci illərdə Avropa Komissiyası və Beynəlxalq Miqrasiya Təşkilatının dəstəyi ilə “Azərbaycanın cənub sərhədlərində inteqrə edilmiş sərhəd idarəçiliyi modelinin yaradılması” üzrə həyata keçirilmiş pilot layihə çərçivəsində telekommunikasiya və rabitə vasitələri, radiasiya monitorinqi, müşahidə-nəzarət qurğuları, kompüterlər, gecə-görmə cihazları, pasport nəzarəti texnikası, nəqliyyat vasitələri və digər avadanlıqlar əldə olunmuşdur. Bununla yanaşı, 2010-2012-ci illəri əhatə edən Avropa İttifaqının dəstəyi ilə “Cənubi Qafqaz ölkələrində İnteqrə edilmiş Sərhəd İdarəçiliyi sistemlərinin yaradılmasına dəstək” üzrə layihə həyata keçirilib. Layihənin əsas məqsədi Aİ prinsipləri əsasında sərhəd idarə edilməsi sahəsində Azərbaycan və Gürcüstan arasında əməkdaşlığın gücləndirilməsi və aidiyyəti milli təsisatların imkanlarının artırılması olub.

– DSX-nin beynəlxalq əlaqələrində Sərhəd Məsələləri üzrə Beynəlxalq Konfrans (Şiofok Konfransı) çərçivəsində əməkdaşlıq xüsusi yer tutur. Belə ki, 2001-ci ildən Konfransa qoşulmuş DSX qısa müddət ərzində təşkilatın fəal üzvünə çevrilmişdir. Təşkilat tərəfindən təşkil olunmuş “Sərhəd Xidmətləri Rəhbərlərinin” işçi qruplarının 2003, 2006, 2007 və 2008-ci illərdəki iclasları, eləcə də 2012-ci ilədək “Silah, sursat və radioaktiv maddələrin qeyri-qanuni dövriyyəsinin qarşısının alınması üzrə” və “Sahil Mühafizəsi” işçi qruplarının bütün iclasları Bakıda keçirilmişdir.

– Azərbaycan Respublikasının Fərdi Tərəfdaşlıq Proqramı çərçivəsində Bakı şəhərində və eləcə də NATO üzv-tərəfdaş dövlətlərin ərazilərində keçirilən təlim kurslarında, treninqlərdə DSX nümayəndələrinin iştirakı ilə başlanan DSX-NATO münasibətləri 2001-ci ildən etibarən Sərhəd Qoşunlarının NATO standartlarına uyğunlaşdırılması məqsədi ilə sistemli şəkildə inkişaf etdirilmişdir. Belə ki, DSX-nin təklifi ilə perspektiv əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsi məqsədilə NATO-nun bir qrup aparıcı mütəxəssisi Azərbaycan Respublikasına dəvət olunmuş və onlara əməkdaşlıq proqramı üzrə işçi sənədlərin hazırlanması təklif edilmişdir. Ekspertlərin məruzəsində sərhəd təhlükəsizliyi üzrə Azərbaycana

yardım göstərilməsinin vacibliyi qeyd olunmuş, ilk dəfə olaraq NATO rəhbərliyinin diqqəti sərhəd təhlükəsizliyi məsələlərinə yönəldilmişdir. Belə ki, 2003-cü ilin mart ayının 4-də DSX tərəfindən NATO Baş Qərargahında tarixdə ilk dəfə sərhəd təhlükəsizliyi mövzusunda 19+1 formatında, 02.02.2006-cı il tarixində isə 26+1 formatında təqdimatlar keçirilmişdir. Tədbirlərin yekununda mövcud vəziyyətin öyrənilməsi və bu sahədə mümkün yardım imkanlarının araşdırılması məqsədilə sərhəd təhlükəsizliyi sahəsində NATO qiymətləndirmə missiyasının AR-ə göndərilməsi ilə bağlı qərar qəbul edilmişdir.

Ölkəmizin apardığı düşünülmüş sərhəd siyasəti regionda irimiqyaslı müharibələrin başvermə ehtimalını xeyli azaltmaqla ölkəmizin ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının təmin edilməsinə yönəlmişdir. Bu baxımdan sərhəd məkanında silahlı münaqişələrin qarşısının alınması və təxribatların zərərsizləşdirilməsi sərhəd siyasətinin mühüm vəzifələrindən biri olaraq qalır. Bunun üçün isə sərhəd siyasəti vasitəsi ilə diplomatik yollarla məqsədyönlü tədbirlər kompleksi həyata keçirmək lazımdır.

Sərhəd təhlükəsizliyi dövlət sərhədlərinin sarsılmazlığı prinsipinin və beynəlxalq hüququn sülhə, mehriban qonşuluq münasibətlərinin qorunub saxlanılmasına və inkişafına təkan verən digər normaların reallaşması, dövlətin ərazi bütövlüyünün və suverenliyinin müdafiəsi, dövlət sərhəd xəttinin hüquqazidd dəyişdirilməsinə yol verilməməsi, hüquqi və fiziki şəxslərin dövlət sərhədi rejiminə və dövlət sərhədindən buraxılış məntəqələrinin rejiminə riayət edilməsi, dövlət sərhədində və sərhədyanı ərazidə şəxsiyyətin, cəmiyyətin və dövlətin həyati əhəmiyyətli mənafelərinin xarici və daxili təhdidlərdən müdafiəsi sayəsində beynəlxalq və daxili sabitliyin təmin edilməsi, vətəndaşların və bütövlüklə ölkənin nüfuzunun yüksəldilməsi, davamlı inkişafı və hərtərəfli tərəqqisi, habelə qarşılıqlı faydalılıq əsasında dövlətlərarası əməkdaşlıq üçün əlverişli şəraitin yaradılması nəticəsində əldə olunur [6, s.229].

Sərhəd təhlükəsizliyinin təmin olunmasının ən vacib şərtlərindən biri onun hüquqi təminatı, sistemlilik prinsipinin reallaşdırılması vəzifəsinin həllidir. Bu sahədə prioritet vəzifələr aşağıdakılardan ibarətdir [6, s.229]:

- sərhəd təhlükəsizliyinin hüquqi təminat konsepsiyasının və sərhəd siyasəti tədbirlərinin işlənilib hazırlanması;
- sərhəd sahəsində səlahiyyətlərini həyata keçirən dövlət hakimiyyəti orqanlarının və digər subyektlərin fəaliyyətinin konkret normativ-hüquqi təminatı, Azərbaycan Respublikasının sərhəd təhlükəsizliyinin təmin edilməsi üzrə hərəkətlərə görə onların səylərinin əlaqələndirilməsi və məsuliyyəti mexanizminin işlənib hazırlanması;
- sərhəd məkanında xidməti, təsərrüfat və digər fəaliyyət növlərini gerçəkləşdirən şəxslərin sosial və hüquqi əhəmiyyətinin gücləndirilməsi;
- qarşılıqlı faydalı, dövlətlərarası və regionlararası iqtisadi, sosial, mədəni və digər sahələrdə əməkdaşlığın tənzimlənməsinə yönəlmiş qanunların və digər

normativ-hüquqi aktların qəbul edilməsi, birgə investisiya və digər proqramların işlənilib hazırlanması və realizəsi üzrə beynəlxalq ikitərəfli və çoxtərəfli sazişlərin bağlanması yolu ilə sərhədyanı regionların inkişafının təşviqi.

Hal-hazırda ölkəmizin sərhəd təhlükəsizliyinə ən böyük təhdid qərbdən həmsərhəd olduğumuz Ermənistandan gəlir. Bu, bəlkə sülh müqaviləsinin imzalanmaması, Ermənistan tərəfindən ölkəmizin ərazi bütövlüyünün tanınmaması, həmçinin sərhədlərimizin hələ də müəyyənləşdirilməməsi (delimitasiya, demarkasiya prosesinə başlanılmaması) əsas təhdidlər hesab edilir. Əminik ki, II Qarabağ savaşında Azərbaycanın əldə etdiyi tarixi qələbədən sonra Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin müdrik siyasəti ilə yaxın gələcəkdə Ermənistanla sərhədlərimizin delimitasiya prosesinə başlanılacaq, suverenliyin, ərazi bütövlüyünün və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının qarşılıqlı şəkildə tanınması və hörmət edilməsi prinsipləri əsasında münasibətlərimiz normallaşacaqdır.

Beləliklə, nəticə olaraq deyə bilərik ki, sərhəd təhlükəsizliyi dövlətin milli təhlükəsizliyinin tərkib hissəsi olmaqla dövlət sərhəddində və sərhəd məkanında (sərhəd zonası, sərhədboyu zona, sərhəd zolağı və s.) şəxsiyyətin, cəmiyyətin və dövlətin siyasi, iqtisadi, hərbi, informasiya, humanitar və digər sahələrdə olan mənafelərinin müdafiəsinin təmin edildiyi vəziyyətdir. Başqa sözlə desək, sərhəd təhlükəsizliyinin təmin edilməsi dövlətin milli təhlükəsizlik sisteminin bir hissəsi olmaqla, dövlət sərhədinin mühafizəsi, dövlət sərhəddində şəxsiyyətin, cəmiyyətin və dövlətin həyati əhəmiyyət kəsb edən mühüm mənafelərinin xarici və daxili təhlükələrdən qorunması, dövlət sərhəddində real və potensial təhdidlərin dəf edilməsi və sərhəd münaqişələrinin tənzimlənməsi ilə əlaqədar dövlətin hüquq-mühafizə orqanlarının və vətəndaş cəmiyyətlərinin konstruktiv qarşılıqlı fəaliyyətinə əsaslanan normativ xarakterli fəaliyyətdir [9, s.149]. Bu fəaliyyətin icrası üçün dövlət öz sərhəd siyasətini formalaşdırır və özünün səlahiyyətli orqanları vasitəsilə bu siyasəti həyata keçirir, həmçinin sərhəd təhlükəsizliyini təmin etmək məqsədilə struktur qurumlar yaradır. Belə struktur qurumların hazırlıq səviyyəsi və peşəkarlığı isə dövlət sərhədlərimizin təhlükəsizliyinin etibarlı şəkildə təmin olunmasına birbaşa təsir göstərir.

Müasir dövrdə sərhəd mühafizə orqanlarının struktur qurumlarının yüksək döyüş hazırlığı və DSX şəxsi heyətinin yüksək peşəkarlıq səviyyəsi bizə, sözün həqiqi mənasında, "Azərbaycan sərhədçisi ölkə sərhədlərinin etibarlı təhlükəsizliyini təmin etməyə tam qadirdir", - ifadəsini işlətməyimizə əsas verir. Hazırda ölkə sərhədlərimizi peşəkarlıqla qoruyan sərhədçilərimiz həm də ölkəmizin qərbində Ermənistanla sərhədlərin müdafiəsini uğurla həyata keçirirlər. Bu isə sərhədlərimizin mühafizəsinin etibarlı əllərdə olduğu deməkdir.

# ƏDƏBİYYAT


1. *Əsgərov Q.A.* Azərbaycanın milli təhlükəsizliyinin təmin olunmasında sərhəd mühafizəsinin rolu (1993-2013-cü illər): Tarix üz. ... fəls. dok. dis. Bakı, 2022, 156 s.
2. *Əsgərov Z.* Heydər Əliyevin xarici siyasət strategiyası və Azərbaycanın milli təhlükəsizliyi. "Azərbaycan" qəz., Bakı, 2011, 7 may, № 98, s.7
3. *Həsənov Ə.M.* Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı: "Zərdabi LTD", 2016, 700 s.
4. *Həsənov Ə.M.* Heydər Əliyev və Azərbaycanın milli təhlükəsizlik siyasəti "Azərbaycan" qəz., Bakı, 2010, 4 may, s.2-3
5. *Həsənov Ə.M.* Azərbaycanın geosiyasəti: Dərslik. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası. Bakı: "Zərdabi LTD" MMC, 2015, 1056 s.
6. *Xəlilov C.* Milli təhlükəsizlik strategiyası. Bakı, 2016, 456 s.
7. *Priyev A.* Siyasi strategiya və milli təhlükəsizlik: Monoqrafiya. Bakı: BDU, 2005, 544 s.
8. *Бородич А.И.* Безопасность республики Беларусь в пограничной сфере. Основы теории национальной безопасности: учебник. Минск: ИНБ РБ, 2008, 155 с.
9. Словарь терминов, используемых в международных договорах Российской Федерации. М.: Издание Государственной Думы, 2017, 240 с.
10. Azərbaycan Respublikasının Konstitusiyası. 27 noyabr 1995-ci il / https://www.e-qanun.az/framework/897
11. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası. Bakı şəhəri. 23.05.2007-ci il / https://www.e-qanun.az/framework/13373
12. Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının qanunu. Bakı şəhəri, 29 iyun 2004-cü il. № 712-IIQ / https://e-qanun.az/framework/5455
13. Məmmədova N. Azərbaycan Respublikasının sərhədyanı dövlətlərlə və beynəlxalq təşkilatlarla sərhəd təhlükəsizliyi sahəsində əməkdaşlığı. "Bizim Yol" 26.09.2018 / [Elektron resurs] https://www.bizimyol.info/az/news/104837.html (baxıldı. 01.01.2022)
14. Глоссарий терминов и понятий, используемых государствами - участниками СНГ в пограничной сфере (к постановлению МПА СНГ от 13 апреля 2018 года N 47-13 принят на сорок седьмом пленарном заседании Межпарламентской Ассамблеи государств - участников СНГ) / https://continent-online.com/Document/?doc_id=35182492#pos=8;-52


Redaksiyaya daxil olub 02.05.2023

# Pedaqoji-psixoloji elmlər

*UOT 373.1*

***G.N.Əmirova***
*ADA Universiteti*
*gnamirova@gmail.com*

## XXI ƏSRİN TƏHSİL SƏRİŞTƏLƏRİ: GÖZLƏNİLƏN NƏTİCƏLƏR

***Açar sözlər***: *təhsilin nəticələri, XXI əsr səriştələri, peşəkar keyfiyyətlər, yumşaq səriştələr, təhsil sistemi*

İctimai münasibətlər sistemində dəyişikliklər təhsil sahəsində mühüm islahatlar tələb edərək, yeni tarixi mərhələ olan post-sənaye dövrü ilə ayaqlaşmaq zərurətini irəli sürür. Sənaye cəmiyyətindən post-sənaye və informasiya mərhələsinə keçid sübut edir ki, biliklərin yaranması və yayılması əsas rola malikdir. Biliklərin əhəmiyyətinin artması, informasiyanın tədricən əsas kapitala çevrilməsi insanların həyatında təhsilin rolunu da prinsipial olaraq köklü surətdə dəyişdirir. Təhsil cəmiyyətin durumunu və inkişaf istiqamətlərini nəinki əks etdirir, hətta ona güclü təsir imkanlarını ələ alır.

Hazırda təhsil paradiqmasında özünü göstərən növbəti yenilənmə insan cəmiyyətinin post-sənaye dövrünə keçidi ilə əlaqəlidir və bu proseslər XXI əsr mütəxəssisinin səriştələrini müəyyən edir. Həmin səriştələrin məktəbəqədər dövrdən başlayaraq ümumi və peşəkar təhsil dövründə püxtələşməsi, davamlılığının təmin edilərək formalaşdırılması XXI əsr insanı üçün vacibdir.

***Г.Н.Амирова***

## ОБРАЗОВАТЕЛЬНЫЕ КОМПЕТЕНЦИИ XXI ВЕКА И ОЖИДАЕМЫЕ РЕЗУЛЬТАТЫ

***Ключевые слова***: *результаты образования, компетенции XXI века, профессиональные качества, мягкие компетенции, система образования*

Изменения в системе общественных отношений требуют значительных реформ в сфере образования, выдвигая необходимость адаптации к новому историческому этапу – постиндустриальному периоду. Переход от индустриального общества к постиндустриальному и информационному этапу доказывает, что ключевую роль играет создание и распространение знаний. Возрастание значения знаний, постепенное превращение информации в основной капитал коренным образом меняет роль образования в жизни людей. Образование не только отражает состояние общества и направления его развития, но и фиксирует возможности сильного воздействия на него.

Очередное обновление в образовательной парадигме связано с переходом человеческого общества в постиндустриальную эпоху, и эти процессы

определяют компетенции специалиста XXI века. Для человека XXI века важно формировать эти умения начиная с дошкольного возраста в период общего и профессионального образования, обеспечивая их преемственность.

***G.N.Amirova***

**EDUCATIONAL COMPETENCIES OF THE XXI CENTURY AND EXPECTED RESULTS**

***Keywords:*** *educational outcomes, competencies of the XXI century, professional qualities, soft competencies, education system*

Changes in the system of social relations require significant reforms in the field of education, putting forward the need to adapt to a new historical stage - the post-industrial period. The transition from an industrial society to a post-industrial and informational stage proves that the creation and dissemination of knowledge plays a key role. The growing importance of knowledge, the gradual transformation of information into fixed capital, is fundamentally changing the role of education in people's lives. Education not only reflects the state of society and the direction of its development, but also captures the possibility of a strong impact on it.

The next update in the educational paradigm is associated with the transition of human society to the post-industrial era, and these processes determine the competence of a specialist of the 21st century. For a person of the 21st century, it is important to form these skills starting from preschool age during the period of general and professional education, ensuring their continuity.

## *Giriş*

Müasir peşəkar ali təhsilin əsas strateji məqsədi peşə fəaliyyətində özünü təsdiq edə biləcək, aktuallığını itirməyəcək, mühüm peşəkar və şəxsi keyfiyyətləri özündə uyğun şəkildə birləşdirəcək səriştəli mütəxəssislər hazırlamaqdır. Bu gün məhdud peşə hazırlığı istiqamətində təhsil perspektivli sayıla bilməz, belə ki, dünya mütəmadi olaraq dəyişir və yaxın 20-30 il ərzində cəmiyyətin peşəkar tərkibinin necə olacağı barədə öncədən qərar vermək mümkün deyil. Təhsil müəssisələrində gələcəyin mütəxəssisinin peşəkar səriştələrinin durmadan inkişaf etdirilməsi üçün sağlam bünövrə qoyularsa, iş həyatında onun arzuedilən mütəxəssis olacağı imkanlarından danışmaq olar. Bu isə təhsilin forma və növlərində geniş diversifikasiyanın, çoxüsulluluq, çoxvariantlığın tətbiqi, həmçinin tələbələrə optimal diapazon seçiminin təklif edilməsi, peşəkar inkişaf prosesinə yumşaq rəng verilməsi deməkdir. Təbii ki, bunlar Boloniya müqaviləsində nəzərdə tutulur və Azərbaycan (o cümlədən bir sıra sovet) məktəblərinin də ümumavropa təhsil məkanına daxil olması ilə tənzimlənir. Bununla əlaqədar keçmiş sovet məkanında universitet təhsili reallıqlarında bir sıra prinsipial məsələlərin həlli şərt olaraq ortaya çıxır. Belə ki, tələbə tədrisin passiv obyektindən prosesin fəal, məqsədyönlü, müstəqil

subyektinə çevrilməli, seçdiyi peşədə nəyə nail olacağını, məhz nəyi və hansı səviyyədə, hansı şəkildə öyrənəcəyini, mənimsəyəcəyini bilməli, bütün bunları öz qabiliyyət və imkanlarını şüurlu surətdə dərk edərək həyata keçirməlidir. Qeyd olunanları nəzərə alaraq, deyə bilərik ki, ali və eləcə də orta məktəblərdə tədris prosesi öyrəncinin aktiv həyat mövqelərinin formalaşmasına istiqamətlənməli, şəxsiyyətin inkişafı və peşəkar uğurun əldə edilməsi üçün fərdi strategiya layihəsinin hazırlanması diqqətə alınmalıdır.

Elmi tədqiqatlarda insanın peşəkar inkişafı probleminə iki əsas yanaşmanı qeyd etmək olar: xüsusiyyətlər və amillər faktoru (F.Parsons və onun ardıcılları) peşənin şəxsiyyətə təsirini inkar edərək, insanın qabiliyyətlərinə səriştələrinə uyğun gələn bir peşənin seçimini nəzərdə tutur; inkişaf nəzəriyyəsi isə şəxsiyyətin inkişafına peşə fəaliyyətinin təsirini etiraf edərək bir neçə istiqamətdə (psixoanalitik, qərarlar nəzəriyyəsi, tipoloji baxımdan inkişaf nəzəriyyəsi) tədqiq edir. Eyni zamanda qeyd edək ki, bu gün elmi ədəbiyyatda "peşəkar inkişaf", "peşəkarlığın artması" anlayışları ilə bir sıraya qoyulan "karyera" terminindən də istifadə olunur (V.Çiker, M.Artur, B.Lorens, D.Holl) ki, bu da insanın iş həyatında vəzifəsinin yüksəlməsi ardıcıllığını (D.Syuper), insanın əmək təcrübəsi ardıcıllığını (V.Çiker, B.Lorens, D.Holl, M.Artur) ifadə edir.

Elmi ədəbiyyatda son illər peşəkar və şəxsiyyət inkişafı arasında sıx əlaqə özünü göstərir və bu da mütəxəssislərin "peşəkar-şəxsi inkişafı" anlayışının ortaya çıxmasına səbəb olmuşdur. Bir çox tədqiqatçılar iddia edirlər ki, şəxsiyyətin peşəkar inkişafı, peşəkar seçim fərdi-psixoloji səriştələrdən asılı olaraq həyata keçirilə bilər (Y.Klimov, İ.Şamsutdinova, A.Markova). Mahiyyəti və mərhələləri izlənilməklə şəxsiyyətin peşəkar inkişafı problemləri V.Bodrov, A.Verbitskiy, N.Levianova, K.Əbdülxanov kimi tədqiqatçıların əsərlərində öyrənilmiş, L.Mitinanın tədqiqat işlərində isə peşəkar inkişafın tam nəzəriyyəsi təqdim olunmuşdur [10].

**Əsas mətn**

Post-sənaye dövründə gərəkli mütəxəssis statusunu qazanmaq üçün peşəkar vərdişlərlə yanaşı, yeni dövrün tələbi ilə səsləşən universal səriştələrə də malik olmaq vacibdir. XXI əsrin səriştələri məzmunu və formalaşdırılması məsələlərinin tədqiqi hazırda bütün dünya üzrə bir çox tədqiqatçıları maraqlandıran mövzudur. Gələcək mütəxəssislərə universal səriştələrin aşılanması problemi dünya səviyyəsində 2010-cu ildə "XXI əsrin vərdiş və səriştələrinin tədrisi və dəyərləndirilməsi" istiqamətində Beynəlxalq elmi layihənin – Assessment and Teaching of 21$^{st}$ Century Skills (ATC21S) reallaşdırılması çərçivəsində ortaya qoyulmuşdu [3, s.275-276]. Yeni təhsil sistemi layihəsinin hazırlanması təşəbbüskarları informasiya texnologiyaları sahəsi üzrə üç nəhəng şirkətin (Microsoft, Cisco, İntel) vitse-prezidentləri idi.

Onların qənaətinə əsasən, məktəblər və universitetlər virtual iş yerlərinə və yeni istehsal sisteminə mükəmməl uyğunlaşacaq məzunlar hazırlaya bilmirlər. Professor Patrik Qriffin müxtəlif tarixi mərhələlərdə insanın iş yerinin ferma-fabrik-ofis-virtual olaraq dəyişməsinə diqqət çəkərək, təhsil sisteminin də eynilə bu cür dəyişməsi zərurətindən bəhs edir, əks halda insanların həyata hazırlığının qeyri-mümkünlüyü qənaətinə gəlir [6].

XXI əsrin səriştələrinin formalaşdırılması sahəsi üzrə beynəlxalq ekspert, ATC21S layihəsinin rəhbəri Patrik Qriffin göstərir ki, bu gün vurğu "tənqidi düşünmək, birgə fəaliyyət və kommunikasiya, işə yaradıcı yanaşmanın" xeyrinə olmalıdır. Tənqidi düşüncə vərdişləri, mürəkkəb məsələlərin həlli və birgə fəaliyyəti beynəlxalq ekspertlər bir kompleksə daxil edərək "mürəkkəb məsələlərin həllində kollektiv vərdiş" adlandırırlar [3]. 2010-cu ildə start götürən bu layihə 6 ölkəni (Avstraliya, Sinqapur, Portuqaliya, Finlandiya, Böyük Britaniya və ABŞ) birləşdirdi. Sonradan yeni üzv-ölkələr layihəyə daxil oldular və hazırda 20-dən çox ölkə sözügedən nəhəng layihəyə qoşulub.

Patrik Qriffin nəzəriyyəsi mahiyyət etibarı ilə izah etməyə çalışır ki, internetdə öyrəndiklərimiz hazırda mövcud olan bir çox peşələri əvəz edə bilər. Savad anlayışına daxil olan yazmaq, oxumaq və hesablamaq vacibdir, lakin müasir dünyanın tələbləri üçün yetərli deyil. Buna görə də tədris proqramlarının tərtibində daha geniş səriştə və bacarıqlara yer vermək – problem və məsələlərin həllində qeyri-standart üsullar tapmaq, kollektivdə işləmək bacarığı və bu kimi digər keyfiyyətlərə malik olmaq zəruridir. XXI əsrin səriştələrinə dair Patrik Qriffin nəzəriyyəsi artıq Melburn (Avstraliya) Stellenbos (Cənubi Afrika), Jyvəskulyə (Finlandiya) kimi universitetlərin proqramlarında özünə yer tapmışdır.

Yüksək sürətə malik rəqəmsal dövr insanların həyatına və iqtisadiyyata hərtərəfli təsir göstərərək mühüm dəyişikliklərə səbəb olur. İnsanlar və hətta ölkələr arasında maddi, intellektual və texnoloji uçurum getdikcə dərinləşir. Bununla əlaqədar insanın aktivliyi, şəraitə münasibətdə transformasiya qüvvəsi, dəyişikliklərə adaptasiya olmaq, təhsil almaq və yenidən öyrənmək bacarığı xüsusi önəm kəsb etməyə başlayır [8, s.1]. İnsan olduğu mühitin mürəkkəbləşməsinə cavab verməli, informasiyanı müstəqil əldə edərək ona tənqidi yanaşmaq, heyət tərkibində işləmək, nailiyyətə, nəticəyə qədər çalışmaq, güclü iradəyə, lider keyfiyyətlərinə, məsuliyyətə sahib olmaq məcburiyyətini dərk etməlidir. Bir sözlə, iş təklif edənləri daha çox "soft skills" (yumşaq vərdişlər) maraqlandırır ki, bu da fəaliyyət növündən asılı olmayaraq uğura zəmanətdir.

XXI əsr insanı səriştələrinin araşdırılması başlanğıcını ötən əsrin 90-cı illərində almışdır. Bu, xüsusilə sənaye quruculuğunun yüksək sürətlə inkişaf etdiyi ölkə tədqiqatçılarının (Çin, Finlandiya, ABŞ, Kanada, Sinqapur, Koreya

və s.) diqqətini cəlb etdi. Sonralar təhsilin məzmununun dəyişdirilməsi ideyası digər inkişaf etmiş ölkələr və kosortiumlar tərəfindən davam etdirilərək təhsilin üsul və formaları əmək bazarının tələblərinə uyğunlaşdırılmağa başlanıldı. Hazırda bu mövzuya diqqət edən tədqiqatçılar XXI əsr insanı səriştələrinin formalaşması üçün təhsil prosesinin hansı üsul və formaları əsas tutduğunu araşdırırlar. Eyni zamanda tədqiqatçıları gələcək cəmiyyətin hansı xüsusiyyətlərinin təhsilin məzmununda özünü tapacağı da maraqlandırır.

XXI əsrin səriştələrinin təsnifatını hazırlayan qabaqcıl ölkə və nüfuzlu beynəlxalq konsortiumların təcrübəsinə diqqət yetirsək, aydın olar ki, belə bir təsnifatın tərtib olunması asan deyil. Hər bir ölkənin öz səriştələrini təklif etməsi və bu keyfiyyətlərin çox zaman fərqli olması dünya üzrə qəti müəyyən olunmuş səriştələrin təsnifatının hazırlanmasını çətinləşdirir. Beynəlxalq təşkilat UNESCO tərəfindən təhsilin keyfiyyəti ilə bağlı hazırlanan sənəddə Böyük Britaniya (Şimali İrlandiya və Şotlandiya), Norveç, Avstraliya, İndoneziya, Sinqapur, Namibiya və CAR kimi ölkələrin təhsil siyasətində üstün keyfiyyətlər olaraq, əsas səriştələrin siyahısı verilir. Sözügedən siyahıdan daha çox rast gəlinən bir neçə səriştəni qeyd edə bilərik [9]:

1. İdraki səriştələr (tənqidi təfəkkür, problemlərin həlli), informasiya-kommunikasiya texnologiyalarından istifadə bacarığı;
2. Kommunikativ səriştələr (sosial-qarşılıqlı fəaliyyət, heyət tərkibində çalışmaq, əməkdaşlıq)
3. İnsanın şəxsi keyfiyyətləri (xüsusiyyətləri)

XXI əsrin səriştələrini araşdıran Rusiya tədqiqatçıları mövzu üzrə məlum elmi əsərlərin təhlili nəticəsində 200-ə qədər səriştənin daxil olduğu siyahı hazırlayıblar ki, burada sinonim ifadələrlə universal səriştələr, XXI əsrin səriştələri, soft skills əks olunub [12, s.28]. İqtisadi əməkdaşlıq və inkişaf təşkilatının (İƏİT) “Təhsil 2030” layihəsi ilə birgə, müəlliflər Ç.Fadel, M.Byalik və B.Trillinq təhlillər nəticəsində səriştələrin 32 modelini hazırlayaraq iddia edirlər ki, XXI əsrin təhsilində dünya üzrə həmrəylik var. Təhsil proqramlarının layihələndirilməsi üzrə Harvard Mərkəzinin (Center for Curriculum Redesign) XXI əsrin təhsili mövzusunda dördpilləli mərhələ təklifi də maraq doğurur [11, s.240]. Mərkəzin təsnifatı belədir:

1. Biliklər (Biz nələri bilirik və anlayırıq)
2. Səriştələr (biliklərdən necə istifadə edirik)
3. Xasiyyət (Özümüzü necə aparırıq və dünyayla necə çuğlaşırıq)
4. Meta-tədris (necə mühakimə yürüdürük və necə adaptasiya oluruq)

Melburn (Avstraliya) universitetinin professoru Patrik Qriffin XXI əsrin insanına aid 10 səriştə müəyyən edərək onları dörd kateqoriyada birləşdirir [7]:

1. Yaradıcılığı əks etdirən düşüncə metodları, tənqidi düşüncə, problemlərin həlli və qərarların qəbulu;
2. Qarşılıqlı fəaliyyət və əlaqənin olduğu iş üsulları;

3. İnformasiya-kommunikasiya texnologiyaları kimi iş avadanlıqlarından istifadə və informasiya savadı;

4. Vətəndaşlıq, peşə seçimi, şəxsi və sosial məsuliyyət kimi həyati səriştələr

Bəzi tədqiqatçılar gələcək cəmiyyətdə intellekt və təhsilin milli sərvətlər qrupuna daxil ediləcəyini, insanın fiziki və mənəvi sağlamlığının, onun şəxsiyyət olaraq inkişafının, dərin və çevik peşəkarlığının, yaradıcılığa marağının, qeyri-standart məsələləri həll edə bilmə səriştələrinin isə tərəqqinin mühüm amillərinə çevriləcəyini iddia edirlər [5; 12; 13]. İctimai münasibətlər sistemində dəyişikliklər təhsil sistemindən mühüm islahatlar tələb edərək, yeni tarixi mərhələ olan post-sənaye dövrü ilə ayaqlaşmaq zərurətini irəli sürür. XXI əsrdə bütün ölkələrin siyasətində əsrin tələblərinə hazır olmaq, bunun üçün təhsildən başlamaq vacibdir [1, s.108].

Sənaye cəmiyyətindən post-sənaye və informasiya mərhələsinə keçid sübut edir ki, biliklərin yaranması və yayılması əsas rola malikdir. Biliklərin əhəmiyyətinin artması informasiyanın tədricən əsas kapitala çevrilməsi insanların həyatında təhsilin rolunu da prinsipial olaraq köklü surətdə dəyişdirir. Bəzi tədqiqatçılar göstərirlər ki, öyrəncilərin XXI əsr bacarıqlarına yiyələnməsi üçün ilk növbədə bütün təhsil sistemində transformasiya aparılmalıdır. Bu baxımdan tədris müəssisələrində insan kapitalı artırılmalı, müəllimlər həmin bacarıqları əldə etmək üçün hazırlanmalı, məktəblərarası peşəkar əməkdaşlıq genişləndirilməlidir [4; 2, s.25-26].

| **XX əsrin təhsil modeli** | **XXI əsrin təhsil modeli** |
|---|---|
| Təqribən eyni yaş və bilik səviyyəsinə aid auditoriya | Müxtəlif yaş qrupuna aid, müxtəlif bilik səviyyəsi olan auditoriya |
| Təhsildə sinif tədris sistemi | Təhsil prosesinin fərdi planlaşdırılması |
| Pedaqoq – məlumatların ötürülməsində vasitəçidir | Pedaqoq – informasiya-tədris mühitinin təşkilatçısıdır, tələbələrin hərəkətinin istiqamətvericisidir |
| İnformasiya qaynaqları məhduddur | İnformasiya qaynaqları qeyri-məhduddur |
| Hazır informasiya – təhsil mühiti (müəllimin hazırladığı) | Geniş informasiya – təhsil mühiti (müəllim və tələbələrin birgə yaratdığı mühit) |
| Tələbənin (öyrəncinin) mövqeyi – hazır informasiya istehlakçısı mövqeyidir | Tələbənin (öyrəncinin) mövqeyi – müstəqil dərketmə mövqeyidir |

| | |
|---|---|
| Təhsilin məzmunu dərsliklərdə və tədris proqramlarında əks olunur | Təhsilin məzmunu daim yenilənir, əlavələr olunur, müxtəlif mənbələrdən əldə edilir, dəyişir |
| Təhsil – öyrəncilərə artıq məlum biliklərin, vərdiş və bacarıqların ötürülməsidir | Təhsil – öyrəncinin özündə məzmun, sosial və mənəvi mədəniyyətin formalaşmasına istiqamətlənmiş dünya obrazı yaratmasıdır |

Təhsil, cəmiyyətin durumunu və inkişaf istiqamətlərini nəinki əks etdirir, hətta ona güclü təsir imkanlarını ələ alır. Təhsilin keyfiyyəti ona nəzarət sistemi də daxil olmaqla bütün təhsil sisteminin və onun ayrı-ayrı subyektlərinin ayrılmaz, əsas hissəsidir. Bununla yanaşı, təhsil elm və mədəniyyətin tərkib hissəsi olub, onun inkişafına təkan verən, şəxsiyyətin formalaşmasına təsir edən əsas vasitədir. Dünyada baş vermiş bir çox proseslər, elmi inqilablar və bir çox nailiyyətlər təhsilin keyfiyyət göstəricisi ilə əlaqəlidir [2, s.26].

XXI əsrin təhsil modelini XX əsrin təhsil modelindən fərqləndirən əsas xüsusiyyətlərə diqqət edək:

Müəllim və tələbənin rollarının əhəmiyyətli dərəcədə dəyişməsinə edilən vurğunu nəzərə alaraq, post-sənaye dövründə tədris proqramları tənqidi yanaşma, kommunikasiya, qarşılıqlı fəaliyyət və yaradıcılıq vərdişlərinin formalaşdırılmasına yönəldilməlidir. Belə ki, bu mərhələdə daha çox şəxsiyyətlərarası münasibətlərin düzgün qurulması tələb olunacaq.

**Nəticə**

XXI əsrin səriştələrinin həyata keçirilməsi özü ilə bərabər izahlı-illüstrasiyalı təhsil üsullarının (növlərinin) aktiv-fəaliyyətli üsullara keçidini də gətirir, eyni zamanda araşdırma, tədqiqetmə, problemli təhsil metodlarından istifadəni nəzərdə tutur, tədris materialından istifadə zamanı universal fəaliyyət üsullarının, abstrakt, tənqidi, yaradıcı təfəkkür metodlarının formalaşmasına səbəb olur. Müxtəlif texnologiyalardan və iş üsullarından istifadə tələbələrin fəallığını və tədrisdə sərbəstliyini formlaşdırır. Yeni tədris texnologiyalarının mənimsənilməsi pedaqoqları da daim öz üzərində işləməyə, yeni vərdişlər qazanmağa, peşəkar mübadiləyə təhrik edir. Tədqiqatlar əsasında tədris, təhsilin fərdiləşdirilməsi, mənimsənilən biliklərə dəyər verilməsi (sabah öyrətmək üçün bu gün öyrənmək) – XXI əsrin tədris prinsipləri məhz bunlardır və müasir, yaradıcı müəllimin inkişaf istiqamətlərini müəyyən edir. Göstərilən səriştələrin öyrəncilərdə mövcudluğu pedaqoqun da mövqelərinin dəyişdirilməsi tələbini irəli sürür. Pedaqoq ekspert və biliklər ötürücüsü deyil, zamanla ayaqlaşan moderator, istiqamətverici kimi çıxış edir.

Öyrəncilərdə XXI əsrin səriştələrinin formalaşdırılması məqsədilə təhsil sisteminin istiqamətinin dəyişdirilməsi təşkilati, prosedur, məzmun və kadr şərtlərinin kompleks şəkildə yenilənməsi tələbini qoyur. Bir sıra normativ sənədlər, elmi-metodik təminat və tədris metodlarının günün tələbinə uyğunlaşdırılması, məhsuldar tədris mühitinin yaradılması sözügedən səriştələrin yetişdirilməsi üçün şərtdir.

Ölkələrin milli təhsil sistemlərinin əsas vektorlarının XXI əsrin səriştələri çərçivəsində, beynəlxalq standartlarda təqdim olunan şəkildə və qabaqcıl ölkələrin müsbət təcrübəsinə əsaslanaraq qurulması mühüm əhəmiyyət kəsb edir. Fikrimizcə, təhsil sisteminin transformasiyasına onun zəruriliyinin dərk edilməsindən başlanılmalı, təhsil prosesində müəllim və tələbənin yeni mahiyyəti qəbul edilərək, motivasiyaverici mühit yaradılmalıdır. Unutmayaq ki, XXI əsrin səriştələri çoxaspektli və kompleks problemdir. Bunun həlli üçün yalnız ayrı-ayrı disiplin resurslarından deyil, təcrübədən də istifadə olunmalıdır. Qənaətimizə görə, bu cür hazırlıq formal təhsil şərtləri ilə məhdudlaşmamalı, qeyri-formal təhsil olaraq da davam etdirilməlidir.

## ƏDƏBİYYAT


1. *Bəndəliyeva G.* XXI əsr bacarıqlarına dair beynəlxalq təcrübənin tədqiqi // Azərbaycan məktəbi, 2022, № 4 (701), s. 106–112
2. *Ələkbərova Ş.* Təhsilin keyfiyyəti cəmiyyətin inkişafının göstəricisidir. // Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi Əsərləri, 2017, №6, c. 84, s. 25-28
3. *Griffin P., Care E., Wilson M.* Assessment and Teaching of 21st Century Skills. Melbourne: Springer, 2017, 314 s.
4. *Saavedra, A.R., & Opfer, D.* Learning 21stcentury skills requires 21stcentury teaching. Phi Delta Kappan, 2012, 94 (2), 8-13.
5. *Даутова О.Б.* Оброзовательная коммуникация. Традиционные и инновационные технологии. Санкт-Петербург, 2018, 176 s.
6. Гриффин П. Школам нужны аналитики: http:// www.edutainme.ru/post/griffin/ — müraciət tarixi: 03.01.2023
7. Поиск и измерение навыков 21 века: https://intalent.pro/article/ poisk-i-izmerenie-navykov-21-veka.html. — müraciət tarixi: 19.12.2022
8. Компетенции 21 века в национальных стандартах школьного образования: “Ключевые компетенции и новая грамотность: от деклараций к реальности” – https://vbudushee.ru/library/kompetentsii-xxi-veka-v-natsionalnykh-standartakh-shkolnogo-obrazovaniya/— müraciət tarixi: 03.01.2023
9. Международное бюро образования: http://www.ibe.unesco. org/en/geqaf/annexes/technical-notes/examples-countries’-definitionskeycore-competencies. — müraciət tarixi: 17.12.2022

10. Митина Л. Психология личностно-профессионального развития субъектов образования. Издательство «Нестор-История», Москва- С. Петербург, 2014, 367 s.
11. Фадель Ч., Бялик М., Триллинг Б. Четырехмерное образование: компетенции необходимые для успеха: компетенции необходимые для успеха. Москва. Точка, 2018, 212 s.
12. Фрумин И. Д., Добрякова М. С., Баранников К. А. Универсальные компетентности и новая грамотность: чему учить сегодня для успеха завтра. Нац. исслед. ун-т "Высшая школа экономики", Современная аналитика образования, № 2 (19). Ин-т образования. Москва, НИУ ВШЭ, 2018, 29 s.
13. Фрумин И.Д. Простые шаги на пути к новому образованию. Практики развития: замыслы, технологии, контексты: материалы XXV научно-практической конференции. Красноярск, 2019, с.5-11

Redaksiyaya daxil olub 31.02.2023

***UOT 159.9***

***A.A.Hümbətova***
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*
*abusova_a@mail.ru*

# MÜƏLLİMİN PEDAQOJİ DAVRANIŞ MODELİNİN PSİXOLOJİ ASPEKTLƏRİ

***Açar sözlər:*** *münasibət, müəllim, şagird, davranış modeli*

Məqalədə pedaqoji fəaliyyətdə müəllimin ünsiyyət üslubuna və yaradıcı potensialına təsir edən amillər araşdırılır. Göstərilmişdir ki, pedaqoji staj artdıqca müəllimlər daha çox kontrollu-planlı davranış modelinə üstünlük verirlər. Üstünlük verilən modeldə davranış strategiyasının monotonluğu öz növbəsində yaradıcı potensialı zəiflədir və müəllimin motivasiyasını azaldır.

***А.А.Гумбатова***

## ПСИХОЛОГИЧЕСКИЕ АСПЕКТЫ МОДЕЛИ ПЕДАГОГИЧЕСКОГО ПОВЕДЕНИЯ УЧИТЕЛЯ

***Ключевые слова***: *отношение, учитель, ученик, модель поведения*

В статье исследуются факторы, влияющие на стиль общения и творческий потенциал учителя в процессе педагогической деятельности. Было показано, что по мере увеличения педагогического опыта учителя выбирают более контролируемую модель поведения. Монотонность поведенческой стратегии в выбранной модели, в свою очередь, ослабляет творческий потенциал и снижает мотивацию учителя.

***A.A.Humbatova***

## PSYCHOLOGICAL ASPECTS OF THE TEACHER'S MODEL OF PEDAGOGICAL BEHAVIOR

***Keywords:*** *attitude, teacher, student, behavior model*

The article examines the factors influencing the teacher's communication style and creative potential during pedagogical activity. It has been shown that as pedagogical experience increases, teachers choose a more controlled behavior model. The monotonous nature of the behavioral strategy in the chosen model, in turn, weakens the creative potential and reduces the motivation of the teacher.

Müasir dövrdə insanın bir şəxsiyyət kimi təşəkkülünü təmin-tərbiyə prosesindən kənarda təsəvvür etmək çətindir. Məhz bu iki prosesin nəticəsində uşaq həm yeni bilik, bacarıq və vərdişlərə yiyələnir, həm də sosial dəyərləri,

rolları, normaları mənimsəyir. Həyati bacarıqları inkişaf etdirmək, onları dəyişən həyat şəraitinə uyğunlaşdırmaq təlimin, dəyərlər sisteminə malik bir şəxsiyyət kimi formalaşdırmaq isə tərbiyənin qarşısında duran əsas vəzifələrdən olsa da, bu iki prosesi bir-birindən təcrid etmək mümkün deyil. Onlar qarşılıqlı əlaqədə mövcuddur. Bu zaman təlim subyektlərindən müəllimin fəallığı şagirdlərin psixoloji və fərdi xüsusiyyətlərini yaxşı bilməklə təlim prosesini düzgün təşkil etməkdə, şagirdin fəallığı isə öyrənmə prosesində təşəbbüslər göstərməkdə, araşdırmalar aparmaqda özünü göstərir.

Mütəxəssislərin fikrincə [3, s.71], müəllim-şagird münasibətində müəllim şəxsiyyətinin rəngarəngliyi şagirdin psixi inkişafında böyük əhəmiyyət kəsb edir. Bu münasibət şagirdin özünügerçəkləşdirməsinə böyük imkan yaranır. A.Maslounun fikrincə [6, s.211], özünügerçəkləşdirmə – potensial imkanların, qabiliyyət və istedadın bir-birini daim əvəz edən xaotik reallaşma prosesidir. Fikrimizcə, özünügerçəkləşdirmə eyni zamanda şəxsin emosional fonda baş verən bütün münasibətlərinin gerçəkləşməsidir. Çünki hər bir insan öz daxili potensialına uyğun öz reallığını gerçəkləşdirir.

Tədqiqatlar göstərir ki, [4] müəllimin müsbət emosional münasibəti şagirdin təlim prosesində müvəffəqiyyət qazanmasına böyük təsir göstərir. Çünki pedaqoji ünsiyyət prosesində emosional münasibətlərin mahiyyəti daha dəqiq desək, müəllim-şagird münasibətinin xarakteri önə çıxır. Müəllim-şagird münasibətinin emosional xarakteri dedikdə aşağıdakılar nəzərdə tutulur:

1) rəğbətləndirici münasibətdə şagirdə verilən diqqət və qayğı yüksək emosionallıqla ifadə olunur.

2) formal emosional münasibətdə şagirdə verilən diqqət və qayğıda rəhbərlik və idarəetmə fonu müşayiət edilir.

3) məntiqsiz emosional münasibətdə müəllim-şagird arasında qərarsızlıq qiymətləndirmə üslubuna üstünlük verilir .

Fəaliyyət və ünsiyyət prosesində formalaşan qarşılıqlı münasibətlər şəxsi təcrübə sistemini müəyyən edir. A.V.Morozovun fikrincə, bu sistemdə əks olunan davranış modeli birgə fəaliyyətin uğurunun xarakterini müəyyən edir [2, s.114]. Bu məqsədlə ibtidai sinif müəllimlərin dərsdə hansı pedaqoji ünsiyyət modelindən istifadə etdikləri araşdırılıb. Bunun üçün V.İ.Zverevın Müəllimin şəxsiyyət və peşəkarlıq keyfiyyətlərinin diaqnostikası metodundan istifadə olunub. Metodika [2, s. 139] müəllimin şəxsi və peşəkarlıq keyfiyyətlərinin diaqnostika üzrə 2 blokdan ibarətdir. Bloklar üzrə təqdim olunan suallar müəyyən balla qiymətləndirilib. Toplanan bala əsasən müəllimin hansı davranış modelinə üstünlük verməsi təyin edilir. Tədqiqata cəlb olunan müəllimlərin topladıqları bala əsasən Fərqləndirici diqqət (Lokator), Dəyişməyən reaksiya (Robot), Hiperrefleks model (Hamlet), Fəal qarşılıqlı təsir (Birlik) və Təmassız model (Çin səddi) kimi davranış modelləri üstünlük təşkil edir.

Üstünlük verilən davranış modellərinin qısa şərhi aşağıdakı kimidir: davranış modeli Robot tipi olan müəllimlər şəraitin dəyişməsinə baxmayaraq, ünsiyyəti planlaşdırdıqları şəkildə qururlar. Daha dəqiq desək, bu müəllimlərin nitqi proqramlaşdırılmış şəkildə olur. Lokator modelində isə yalnız qabiliyyətli və ya zəif şagirdlərə diqqət yetirən müəllimlər sinifdə ancaq müəyyən qrup şagirdlə işləyir. Fərdi yanaşma müəllimin seçdiyi ancaq müəyyən şagirdlərə şamil edilir. Bu da müəllim-şagird kollektivində qarşılıqlı təsir əlaqəsinin pozulmasına səbəb olur. Birlik modelində sinifdə sağlam psixoloji mühit hökm sürür. Qarşıya çıxan problemlər müəllim-şagird birliyinin gücü ilə yaradıcı şəkildə həll olunur. Hamlet modelində müəllimi qarşılıqlı təsirin məzmunundan daha çox şagirdlərin onu necə qəbul etməsi maraqlandırır. Bu zaman isə müəllimin sosial-psixoloji həssaslığı kəskinləşir.

Tədqiqata həm şəhər, həm də rayon məktəblərindən 51 nəfər ibtidai sinif müəllimi cəlb olunub. Müəllimlərin 18%-nin 1-8 il, 14%-nin 9-16 il, 26%-nin 17-24 il, 42%-nin 25 ildən çox pedaqoji stajı var. Pedaqoji staja uyğun müəllimin davranış modelinin təyininin statistik məlumatları Cədvəl 1.-də verilir.

**Cədvəl 1**

**Müəllimlərin davranış modeli və staj qarşılaşması**

| Davranış modelləri | Müəllim % | Staj (il) | | | |
|---|---|---|---|---|---|
| | | 1-8 il % | 9-16 il % | 17-24 il % | 25 il çox % |
| Robot | 39 | - | - | 20% | 18% |
| Lokator | 39 | 2% | 4% | 16% | 14% |
| Birlik | 11 | 10 % | 4% | - | - |
| Hamlet | 8 | 4% | - | 2% | 2% |
| Cin səddi | 3 | - | - | - | 4% |
| Cəmi | 100% | 16% | 8% | 38% | 38% |

Diaqram 1-dən göründüyü kimi, pedaqoji stajı çox olan müəllimlər daha kontrollu-planlı davranış modelinə üstünlük verirlər. Məsələn, stajı 19 ildən yuxarı olan müəllimlərin davranış modelləri Dəyişməyən reaksiya (Robot) və Fərqləndirici diqqət modelidir (Lokator). Pedaqoji staji 1-8 il olan müəllimlər Fəal qarşılıqlı təsir modelindəki davranış üslubuna üstünlük verirlər. Robot modeli stajı 1-8 il olan müəllim heyəti üçün ümumiyyətlə səciyyəvi deyil. Lakin stajı 17-24 il olan müəllimlərin 20%-nin, stajı 25 ildən çox olan müəllimlərin isə 18%-nin bu modelin davranış üslubuna üstünlük verdikləri müəyyən olunub. Pedaqoji stajı 1-8 il olan 10 % müəllim üçün Fəal qarşılıqlı təsir (Birlik) modelindəki davranış strategiyası xarakterikdir. Qeyd edək ki, müəllimlərin pedaqoji stajı artdıqca, Birlik modelinə üstünlük vermə halı azalır.

Robot və Cin səddi modeli 1-8 il staj qrupu üçün ümumiyyətlə səciyyəvi deyil. Lokator davranış modeli pedaqoji stajı 17-24 il olan müəllimlərin 16%-də və 25 ildən yuxarı olan müəllimlərin 14%-də üstünlük təşkil edir.




**Diaqram 1. Pedaqoji staja görə davranış modellərinin paylanması**

Davranış modelləri üzrə qruplaşdırma o qənaətə gəlməyə imkan verir ki, təlim prosesində müəllim hamıya eyni prizmadan baxır. Şagirdin fərdi psixoloji xüsusiyyətlərini, potensial imkanlarını nəzərə almayan müəllim şagirdlərə fərdi yanaşmır, heç bir sosial-emosional əlaqələr qurmadan dərsi robotlaşmış şəkildə tədris edirlər. Bu zaman müəllimlərin ən çox aşağıdakıları diqqət mərkəzində saxlamağı vacibdir [5, s.96]:

- Şagirdlərə qarşı diqqətli və mərhəmətli olub, ünsiyyət yaratmağı bacarmalıdır;
- Təkcə dərsdən deyil, ümumi maraq dairəsini müəyyən edərək bu istiqamətdə söhbətlər aparmalıdır;
- Aktiv və yaxşı dinləyici olmalı, sözlərə qarşı səmimi reaksiya göstərməlidir;
- Dinləyərkən şagirdlərin söhbətlərinə həqiqi maraq göstərməlidir.

Göründüyü kimi, burada məsələ şagirdin sadəcə olaraq subyekt kimi deyil, mütləq və mütləq fəal subyekt kimi qəbul edilməsindədir. Çünki yalnız bu halda onun motivasiya, emosiya, iradi və idraki potensialını səmərəli şəkildə təlim fəaliyyətinin keyfiyyətinin yüksəldilməsinə yönəltmək mümkündür.

Tədqiqatın növbəti mərhələsində müəllimlərin motivasiya, şəxsi ustanovka və yaradıcılıq potensiallarının pedaqoji staja görə dəyərləndirilməsi aparılıb [2, s.117]. Diaqram 2-dən göründüyü kimi, pedaqoji stajı çox olan müəllimlərin yaradıcılıq potensialı üzrə topladığı ballar nisbətən aşağıdır. Eyni vəziyyət müəllimin motivasiya və şəxsi ustanovkasında da müşahidə olunur.

Aparılan müsahibə zamanı məlum oldu ki, müəllimlərin motivasiyasının azalması obyektiv və subyektiv səbəblərdən qaynaqlanır. Bu səbəblərə peşə seçimindəki yanlışlıq, stimulun olmaması, rəhbərlik tərəfindən peşə fəaliyyətlərinin qeyri-obyektiv qiymətləndirilməsi, tədris proqramlarına görə müəllimin əlavə iş yükünün olması və s. nümunələr misal göstərilib. Müəllimin öz peşəsini sevməməsi, məktəbdə sağlam rəqabətin olmaması və s. onun istər bir şəxsiyyət kimi, istərsə də mütəxəssis kimi fəaliyyətinin müvəffəqiyyətini aşağı salır. Müəllim motivasiyasının aşağı olması istər-istəməz onun şagirdlərinə, keçdiyi dərsin keyfiyyətinə öz mənfi təsirini göstərəcək. Göründüyü kimi, verdiyimiz təhsillə yaşadığımız həyat tərzi ziddiyyət yaradır.




**Diaqram 2. Pedaqoji staja görə yaradıcılıq potensialı və motivasiyanın tədqiqi**

Müəllimlərin yaradıcılıq potensialının diaqnostikası zamanı məlum oldu ki, pedaqoji stajı 1-8 il olanlar 40%, stajı 9-16 il olanlar isə 30% yüksək nəticə göstəriblər. Pedaqoji stajı 17 ildən yuxarı olan müəllimlər isə 12-18% nəticə göstəriblər. Fikrimizcə, yaradıcı təxəyyül zənginliyinə insanın yaşı, məşğul olduğu fəaliyyət növü, fəaliyyətin psixoloji xarakteri təsir göstərir. Məsələn, yaradıcı potensialın azalma səbəblərindən biri fəaliyyətin monoton xarakter olması göstərilir. İnsanın eyni bir işi mütəmadi görməsi bu işə olan yaradıcı münasibətini zəiflədir. İbtidai sinif pilləsində – 4 il ərzində eyni proqram, vahid sinif, şagirdlərin yaş xüsusiyyətləri ibtidai sinif müəllimlərinin yuxarı sinif müəllimləri ilə müqayisədə fəaliyyətlərini daha monoton edir. Periodik təkrarlanan eyni bir fəaliyyət fizikadakı riyazi rəqqasın (riyazi rəqqas - uzun, çəkisiz sapdan asılmış cisim. Cismin çəkisi sapın çəkisindən olduqca böyük olduğundan sapa çəkisiz sap deyilir.) hərəkət trayektoriyasına oxşayır. Müəyyən

bir zaman müddətində rəqqas bütün mümkün yerdəyişmələri edərək, amplituda (tarazlıq vəziyyətindən ən böyük kənaraçıxma və ya yerdəyişmə) çatır. Bundan sonra riyazi rəqqasın yerdəyişmələri getdikcə azalır və o tarazlıq vəziyyətinə qayıdır. Eynilə insan eyni bir fəaliyyət ilə mütəmadi məşğul olarkən müəyyən işlər avtomatlaşır, vərdiş halına keçir. Bəzən insan özünü bu işin artıq mütəxəssisi hesab edir. Belə fəaliyyətdə fərqli rakursları görmək bir qədər çətinləşir, yeniliklər azalır. İnnovativ texnologiyaların verdiyi imkanlar yaradıcı dərs üçün müəllim şəxsiyyətini kölgədə qoya bilməz. Texnologiya və insan arasında gedən bu mübarizədə psixoloji, emosional və s. amillərin mövcudluğu qalibin hansı tərəf olduğunu məlum edir. Bu günün müəllimi təkcə sinif və yazı lövhəsi miqyasına sığmamalı, intellektual və yaradıcı imkanları zəngin olan informasiya cəmiyyətinin müəllimi olmalıdır. Bu günün müəllimi şagirdə tez bir zamanda oxuyub-yazmağı, riyazi hesablamağı öyrətməklə işini bitirmiş hesab etdikcə, şagirdin özünügerçəkləşdirmə potensialı azalır. Çünki yaş artdıqca insan təxəyyülünün sərhədləri bir qədər konkretləşir. Aparılan tədqiqatlar (NASA) [7] zamanı müəyyən olunub ki, təxəyyül zənginliyi böyüklərlə müqayisədə uşaqlarda daha çoxdur. Məsələn, 3-4 yaşlı uşağın təxəyyülünün zənginliyi ilə 6-7 yaşlı uşağın təxəyyülü fərqlənir. 6-7 yaş üçün zahiri oxşarlıq çox əhəmiyyət kəsb etdiyi halda, 9-10 yaşlı uşaq üçün isə əsl oxşarlıq daha əhəmiyyətlidir. Göründüyü kimi, yaş artdıqca təxəyyülün zənginliyi realizm ilə ifadə olunmağa başlayır.




**Diaqram 3. İnsanın təxəyyül zənginliyinin yaşa görə dəyişməsi**

Müəllimin seçdiyi düzgün davranış modeli ilə müəyyən edilmiş vaxt ərzində qarşıya qoyulmuş təlim və tərbiyə məqsədlərinin optimal şəkildə gerçəkləşməsi təmin oluna bilər. Çünki şagird şəxsiyyətin özünüqiymətləndirməsi və iddia səviyyəsi, özünüdərketməsi, psixoloji avtoportretinin

xüsusiyyətləri, eləcə də maraqları, arzuları və s. müəllimdən problemlərə şagirdin prizmasından baxmağı və münasibətlərini ona uyğun şəkildə qurmağı tələb edir.

## ƏDƏBİYYAT


1. *Əlizadə Ə.Ə., Əlizadə H.Ə., Əlizadə S.H.* Psixopedaqogika. Bakı: Ecoprint, 2019, 368 s.
2. *Hümbətova A.A.* Kiçikyaşlı məktəblilərin intellektual potensialının inkişafında müəllimin rolu: psix. üzrə fəls. dok. ... dis. Bakı, 2022, 148 s.
3. *Bıçakcı M.Y., Demirci Z.A.* Sosyal duygusal ögrenme/ M.Y. Bıçakcı, Z.A. Demirci. Ankara: Nobel, 2022, 242 s.
4. *Канке В. А.* Теория обучения и воспитания: Учебник / В. А. Канке. М.: Юрайт, 2015, 296 с.
5. *Круглова Н.Ф.* Психологическая диагностика и коррекция структуры учебной деятельности младшего школьника. Москва, 2004, 127 с.
6. *Хон Р.* Педагогическая психология / Р. Хон. Екатеринбург: Деловая кн., 2002, 736 с.
7. Özcan B. Yeniden kreatif olmak icin ne yapmak gerek? Noktaları birlestirin!: [elektron resurs]/youtube. – 05 fevral, 2017. URL:https://barisozcan.com/yeniden-kreatif-olmak-icin-ne-yapmak-gerek-noktalari-birlestirin/


Redaksiyaya daxil olub 15.03.2023

*UOT 37:372.8:811.111*

***F.M.Hüseynova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*feridehuseynova21@gmail.com*

# İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ QİYMƏTLƏNDİRMƏNİN FUNKSİONAL MƏQSƏDLƏRİ

***Açar sözlər:*** *dəyərləndirmə, dinamik qiymətləndirmə, funksional məqsədlər, əks-əlaqə*

Müasir dövrdə ali təhsildə keyfiyyətin təminatı sahəsində aparılan elmi tədqiqatlar maraq artmaqdadır. Məlumdur ki, universitetlərdə ingilis dilinin tədrisində keyfiyyətin əldə olunması onun qiymətləndirməsi ilə ölçülür və dilin qiymətləndirilməsinə olan maraqlar təhsildə uğurlu layihələrin və innovasiyaların qazanılmaslna səbəb olur. Ali təhsil müəssisələrinin ingilis dilinin qiymətləndirilməsi sahəsində müəllim və tələbələrin istifadə edə biləcək bir təlimata ehtiyacı vardır. Bu baxımdan modern universitet həm tədqiqat, həm də tədris prosesini həyata keçirən araşdırma müəssisəsi kimi hər bir sahədə keyfiyyətin ölçülməsinə diqqət yönəltməlidir. Məqalədə ali təhsil müəssisələrində tələbələrin ingilis dili bacarıqlarının qiymətləndiirlməsi sahəsində funksional fəaliyyətləri və qiymətləndirmənin üsul və vasitələrinin tətbiqi ilə bağlı mülahizələr təqdim edilir. Perspektiv fəaliyyət kimi araşdırma, qərarların qəbulu, monitorinq, təkmilləşdirmə sahələrinin müəyyən edilməsi, təlim prosesinin planlaşdırılması, qiymətləndirmədə əks-əlaqənin qurulması və rəylərin verilməsi, motivasiyanın qurulması vasitələrinin tətbiqi yolları şərh edilmişdir.

***Ф.М.Гусейнова***

# ФУНКЦИОНАЛЬНЫЕ НАЗНАЧЕНИЯ ОЦЕНИВАНИЯ В ОБУЧЕНИИ АНГЛИЙСКОМУ ЯЗЫКУ

***Ключевые слова:*** *оценивание, динамическое оценивание, функциональные цели, обратная связь*

В современное время возрастает интерес к научным исследованиям проводимым в области обеспечения качества высшего образования. Известно, что достижение качества преподавания английского языка в вузах измеряется его оценкой, а интерес к языковой оценке приводит к успешным проектам и инновациям в образовании. Высшим учебным заведениям необходимо руководство, которое могут использовать преподаватели и студенты в области оценки английского языка. В связи с этим современный университет должен ориентироваться на измерение качества в каждой области как научно-исследовательское учреждение, осуществляющее как исследовательский, так и учебный процесс. В статье представлены суждения, связанные с функциональной деятельностью студентов в сфере оценивания владения английским языком в

высших учебных заведениях и применением методов и способов оценивания. Интерпретированы способы применения исследований, принятия решений, мониторинга, выявления зон совершенствования, планирования учебного процесса, установления обратной связи и предоставления мнений при оценивании, построения мотивации как перспективной деятельности.

***F.M.Huseynova***

## FUNCTIONAL PURPOSES OF ASSESSMENT IN ENGLISH LANGUAGE TEACHING

***Keywords:*** *evaluation, dynamic evaluation, functional goals, feedback*

The interest in scientific researches conducted in the field of quality assurance is increasing in higher education in modern education. It is known that the achievement of quality in the English language teaching of universities is measured by its evaluation, and the interest in language evaluation leads to successful projects and innovations in education. Higher education institutions need a guide that can be used by teachers and students in the field of English language assessment. In this regard, a modern university should focus on quality measurement in each field as a research institution that carries out both research and teaching process. The article presents the functional activities in the field of assessment of English language skills of students in higher educational institutions and the wide range considerations related to the using of various assessment methods and tools in teaching. The research paper highlightes the decision-making, monitoring, identifying areas of improvement, planning the training process, building feedback and giving opinions in evaluation, and building motivation as a perspective activity in assessment process.

### 1. Giriş

Universitetdə təhsil alan tələbələrin beynəlxalq aləmdə qlobal ünsiyyətə çıxışını təmin edən bacarıqlardan biri də yüksək səviyyəli ingilis dili bacarıqlarıdır. Beynəlxalq təcrübə sahələri qloballaşan dünyada ingilis dilinin rəqabətqabiliyyətli mövqeyini dəyərləndirir və təhsildə dilin qiymətləndirilməsini mühüm bir fəaliyyət kimi vurğulayır. Aydındır ki, əmək bazarında ingilis dilinin yüksək səviyyədə kommunikasiya tələbi onun qiymətləndirilməsi nəticələrinə uyğun ölçülür. Son araşdırmalar sübut edir ki, universitetlərdə ingilis dilinin tədrisi sahəsində əldə olunan bilik və səriştələrin pedaqoji prosesdə qiymətləndirilməsi həm müəllim peşəkarlığı, həm tələbələrin adekvat dil bacarıqlarının qazanılması ilə nəticələnir.

Ali təhsildə təhsil alan tələbələrin ingilis dilində dil bacarıqlarının (dinləyib-anlama, danışma, oxu, yazı, qrammatika və lüğət) qiymətləndirilməsinin səmərəli kommunikasiyanın, sosial-mədəni qərarların qəbul edilməsi və praqmatik səriştələrin əldə olunmasına ciddi təsiri vardır. Bundan əlavə, son vaxtlar ali təhsil sistemində xarici dilin tədrisində qiymətləndirmə üsullarının tətbiqinə maraq və ehtiyaclar gündən-günə artmaqdadır [8].

Müasir dövrdə təhsil, iqtisadi, sosial, texnoloji və ekoloji irəliləyişlərin uğurlu olması üçün ali təhsil müəssisələrində təhsil alan tələbələrin ingilis dili biliklərinin əmək bazarının tələblərinə uyğunluğu ilə ölçülməsi prioritet xarakter daşıyır. Bu məqsədlə ilk addım kimi pedaqoji sahədə tələb olunan yeni yanaşmalar, təhsil tenderləri, mədəniyyətlərarası dünyagörüşün formalaşması, beynəlxalq kommunikasiyanın ingilis dilində yüksək səviyyədə aparılması pedaqoji təhsilin əsas tələbi kimi tədris proqramlarının məzmununda əsas yer tutur.

**1.2. Qiymətləndirmə anlayışı**

"*Qiymətləndirmə, tələbələrin təkmilləşməsi haqqında nəticə çıxarmaq üçün sistematik bir prosesdir. Bu, tələbələrin dil öyrənmə və inkişafını artırmaq üçün məlumatın müəyyən edilməsi, toplanması, təhlili, şərh edilməsi və istifadə edilməsi prosesidir*" (H.Douglas Brown, Priyanvada Abeyvickrama) [6, s.206]. Auditoriyada tələbə fəaliyyətinin davamlı qiymətləndirilməsi onların ingilis dilindən dil bacarıqlarının qazanılma səviyyəsini davamlı olaraq aşkar etməyə kömək edir. Bu proses onların dil biliklərinin təkmilləşdirmələrinin hesablanması imkanı qazandırır və tələbələrə imtahanlarda uğur qazanma şansı verir. Qiymətləndirmə prosesi təlimdə tələbələr üçün öyrənmə və motivasiyanı birləşdirir, yaxşı tərtib edilmiş metodları vasitəsilə təlim nəticələri haqqında dəyərli məlumat verir. Eyni zamanda qiymətləndirmə, tələbələrin əldə etdikləri bilik və bacarıqların zəif və üstün cəhətləri haqqında məlumatlandırma funksiyası daşıyır [3; 4; 8]. Əlavə olaraq qeyd etmək lazımdır ki, tədrisdə ingilis dilinin qiymətləndirilməsinin gənclərin beynəlxalq kommunikasiya, xaricdə təhsil, ictimai, siyasi, sosial-mədəni müzakirələrdə iştirakına faydalı təsirləri olmuşdur. Müəllim və tələbələr təlim nəticələrinə yüksək səviyyədə nail olmaq üçün tələbələrin irəliləyişləri və nailiyyətlərinin dəyərləndirilməsi və qiymətləndirilməsinə nail olmağa çalışırlar [1; 5; 6]. Digər tərəfdən, bu prosesdə universitetdə dil qiymətləndiriciləri tələbələrin bilik və bacarıqlarının hansı səviyyədə olması ilə bağlı məlumatların toplanmasına dəstək verir və tələbələrin performansını yaxşılaşdırmağa kömək edir [1; 2].

**Problemin qoyuluşu**

Araşdırmalara əsasən, qiymətləndirmə təhsildə sistemli ənənəvi bir prosesdir. Bu prosesdə tələbələrin ingilis dilindən performansları yalnız testlər vasitəsilə qiymətləndirilir. Məlumdur ki, çoxseçimli testlər üzrə dil biliklərinin qiymətləndirilməsi dil bacarıqlarının tam mənimsənilməsini ölçməyə qadir deyil və bu baxımdan testlər üzrə qiymətləndirmə tələbə maraqlarından uzaq olur və dil bacarıqlarının qazanılması dəqiq yoxlanılmır. Bundan əlavə, qiymətləndirmə təlim prosesinin sonunda ayrılmış bir fəaliyyət kimi qısa müddətdə həyata keçirilir və çox vaxt statik xarakter daşıyır. Bu fəaliyyət dil bacarıqlarının növündən asılı olmayaraq qarışıq bir qiymətləndirmə modelinə çevrilir və tələbə məmnuniyyətin

əldə olunmaması ilə nəticələnir. Dərslərdə monitorinq aparmaq, səviyyələri müəyyən etmək üzrə qısamüddətli qiymətləndirmələr əvəzinə simvolik xarakter daşıyan kollokviumlar heç bir nailiyyətə əsaslanmır. İngilis dilində müəllim tərəfindən təkmilləşmə rəylərinin verilməməsi onun funksiyalarının yerinə yetirilməmiş olduğunu sübut edir. Bütün bunların əksinə olaraq qeyd etmək lazımdır ki, qiymətləndirmənin əsas funksiyası öyrənmə prosesi ilə sıx bağlı olmağı təşviq etməlidir.

Bu məqsədlə, tədqiqat məqaləsinin əsas məqsədi ingilis dilinin qiymətləndirilməsində funksiyalatın müəyyən etmək və dil bacarıqlarının sistemli şəkildə qiymətləndirməsinin yollarını açıqlayır, bu prosesdə müəllim və tələbənini rolunu təqdim edir. Məqalənin digər məqsədi statik qiymətləndirmə modelinin dinamik qiymətlındirmə modeli ilə əvəz olunması yollarını şərh etməkdir.

## 2. İngilis dilin bacarıqlarının qiymətləndirilməsi

Ənənəvi olaraq dil bacarıqlarının qiymətləndirilməsi bir sosial varlıq kimi bəzən dil bacarıqlarının səviyyəsini müəyyən etmək üçün qısa dialoqlar, söhbətlər əsasında təşkil edilirdi. Bu situasiya danışanlara qulaq asaraq və ya yazılanları oxumaqla kifayətlənir, çox vaxt ünsiyyətdə *"instinkt"* qiymətləndirmə rolunu nümayiş etdirir və danışanın dil qabiliyyətini biz istər-istəməz "yaxşı danışır" və ya "yaxşı yazır" deyə qiymətləndiridik [2; 6].

Bu instinktiv qiymətləndirmə ünsiyyətdə olduğumuz insanın dil qabiliyyətini və ya biliyini ehtiva edir. Çox vaxt tələbələrin qarşılıqlı münasibətdə dil bacarıqlarının belə instinktiv qiymətləndirilməsi onları öyrənməyə həvəsləndirir. Ənənəvi olaraq, universitet tələbələrinin ingilis dili bacarıqlarını qiymətləndirmək üçün ən çox yayılmış model adətən təlim prosesinin sonunda testlə həyata keçirilən "statik qiymətləndirmə"dir [1; 3; 4].

Müasir araşdırmaların dil bacarıqlarının ölçülməsində təklif statik qiymətləndirmə modelindən dinamik qiymətləndirməyə keçidin tətbiq edilməsidir. Tələbələrin dil fəaliyyətinin bütün təlim prosesi əsasında qiymətləndirilməsinin zəruriliyini nəzərə alaraq, "dinamik qiymətləndirmə" yeni bir anlayış kimi qəbul edilir. Bu tip qiymətləndirmə tələbənin tədrisin ayrılmaz bir hissəsi olması fikri ilə ənənəvi qiymətləndirməni dəyişdirmək yolunu təklif edir. Nazari bildirir ki, "dil bacarıqalrının qiymətləndirilməsi vahid bir fəaliyyət kimi bütün bacarıqlara inteqrasiya olunmalıdır" [7, s.76]. Dinamik qiymətləndirmə hər bir dil bacarığı üzrə müəyyən edilmiş ölçülə bilən tapşırıq və fəaliyyətlərin meyarları üzrə təsviri rubriklər və onlar əsasında verilən maksimal bal ölçüsünün olmasıdır. Dinamik qiymətləndirmə gündəlik toplanan nailiyyət ballarının ümumi maksimal həddi təyin edilir. Belə olan halda yüksək bal toplumu olan tələbənin imtahan verməsinə ehtiyac olmur (Troudi, Coombe & Al-Hamliy) [8, s.546].

### 3. Qiymətləndirmənin funksiyaları

Qiymətləndirmə tələbənin öyrəndiyi ixtisasın ingilis dilində düzgün anlaşılması, ixtisas sahəsində dil bacarıqlarının müəyyən səviyyələrinin əldə edilməsində bilik və səriştələri müəyyən edir və təsdiqləyir. Qiymətləndirmənin funksiyaları və məqsədi şagirdin biliyini, anlayışını, bacarıqlarını və öyrənmə standartını ölçməkdən ibarətdir. Bu baxımdan qiymətləndirmənin məqsədi öyrənənin bilik əldə etməsi və öz bacarıqlarını sübut edə biləcək bir mexanizm olmasını təsdiqləməkdir. Ali təhsildə ingilis dilinin qiymətləndirilməsinin aşağıdakı funksiyaları vardır [2; 4; 7]:

#### 1) Araşdırma funksiyası

Herera və Makias (Herrera L. və Macías D.F., 2015) qeyd edirlər ki, bu funksiya tələbə fəaliyyətləri nəticəsində aşkar edilir. Birincisi, tələbələr qiymətləndirmə vasitəsilə öz biliklərini, anlayışlarını və bacarıqlarını müntəzəm olaraq sınaqdan keçirmək gücünə malik olur və bunu təşviq edirlər. Qiymətləndirmə ən güclü öyrənmə strategiyalarından biri olduğu üçün tələbədən axtarış təcrübəsi tələb edir. Qiymətləndirmənin funksiyası öyrənmə kimi axtarışdır. Burada öyrənənlərin ilk plan üzrə dili öyrənməsindən tutmuş son nəticələrin qiymətləndirilməsinə qədər bütün fəaliyyətlər diqqətlə izlənilir. Bu funksiya həmçinin performansı yaxşılaşdırmağa və arzuolunan nəticələrə nail olmağa kömək edir [5, s.308].

#### 2) Qiymətləndirmədə qərarların qəbulu

Qiymətləndirmədə qərarların qəbulu öyrənənləri təkmilləşdirmək üçün növbəti fəaliyyətləri və növbəti addımları müəyyən etməyə qərar verir. Burada qiymətləndirmə ilə bağlı bütün qərarları müəllim qəbul etməli və dil biliklərinin təkmilləşdirilməsinə diqqət yetirilməsinə kömək etməlidir. Bu mərhələdə tələbələrin gündəlik fəaliyyətləri üzrə topladığı ballar əsasında nəticələr təhlil edilir, ümumi qərarlar verilir, tələbənin dinləyib anlama, danışma, oxu, yazı, lüğət və qrammatik biliklər inteqrativ testlər əsasında qiymətləndirilir. Qərarlara tələbənin qiymətləndirmə fəaliyyətləri, danışıq üzrə müsahibə, kazuslar, şərhləri, təqdimatları, yazı fəaliyyəti üzrə akademik esse yazı əsasında tədqiqat araşdırması dəyərləndirilir və imtahana keçməsi haqqında qərar verilir. Əgər gözlənilən bal, yəni təlim nəticələri üzrə dil bacarıqları qiymətləndirmə meyarlarına uyğun yüksəkdirsə, imtahanda iştirakına ehtiyac olmur [5; 8].

#### 3) Dil bacarıqlarının səviyyəsinin monitorinqi

Təlim prosesində müəllim tələbələrin dil bacarıqlarının ümumi şəkildə necə əldə olunması sahəsində olan problemin ehtimalını qiymətləndirməlidir. Monitorinq zamanı ümumi sorğu və müsahibələr vasitəsilə tələbələr mövzular ətrafında müxtəlif çevik cavablardan (bəli, xeyr; razıyam, razı deyiləm; uyğundur,

uyğun deyil və s.) istifadə etməklə etməlidirlər. Qiymətləndirmə problemi müəyyənləşdirir, zəif və üstün cəhətlər müəyyən edir və bunun əsasında təkmilləşmə üzrə konstruktiv plan hazırlanır. Qiymətləndirmə prinsipləri funksiyaların yerinə yetirilməsi üçün istiqamətverici biliklər və məlumatlar verir. Tələbələrin ingilis dilindən proqram tələbləri üzrə təlim nəticələri yoxlanılır, uyğun strategiya və təlim modelinin qiymətləndirmə ilə bağlı təlimatı hazırlanır, dinamik qiymətləndirmə tapşırıqları təyin edilir, müəllim fəaliyyətinin peşəkarlığı nəzərdən keçirilir və tələbənin dil bacarıqlarının qiymətləndirilməsi üsulları hazırlanır [3; 9].

**4) Tələbələrin təkmilləşdirmə üzrə müəyyən edilməsi**

Qiymətləndirmədə monitorinq əsasında toplanılan məlumatlar əsasında təkmilləşdirmə planı hazırlanır və nəticələrə uyğun fəaliyyətlər tərtib edilir. Tələbənin dil bacarıqları səviyyədən asılı olaraq proqram materialının sadələşdirilməsi əsasında yüksəlməyə doğru həyata keçirilir. Bu prosesdə tələbələrin yerləşdirmə testləri üzrə səviyyələri müəyyən edilir və onlar təkmilləşmə dərslərinə cəlb edilir. Bu dərslər adi cədvəl üzrə olan dərslərdən əlavə keçirilir və zəif dil bacarığı olan tələbələr buraya cəlb edilir. Bu dərslər performansın yaxşılaşdırılmasına istiqamətlənir və müxtəlif qiymətləndirmə tapşırıqlarının əsasında aparılır [1; 3; 7].

**5) Təlimin planlaşdırılması**

Qiymətləndirmə tədris planlaması üzrə müəllimlər üçün bir prosesdir və müəllimə növbəti addımlarını müəyyən etməyə imkan yaradır. Tələbələrin özünüqiymətləndirməsi və təlim prosesini qiymətləndirməsi bu funksiyanı təmin edir. Bu funksiya müəllimə təlim kursunu hədəfləmək üçün yeni plan qurmağa kömək edir. Müəllim burada tələbələrin maraq və ehtiyacları ilə tanış olur və öz planı üzrə çatışmazlıqları qeyd edir, bu sahədə təlim mövzusunu, strategiyasını, metod və üsulunu, eyni zamanda fəaliyyətini dəyişərək daha uyğun məqsədlər üzrə plan yaradır. Bundan əlavə, təlimin planlaşdırılması funksiyası tələbələrin müxtəlif ehtiyaclarını qarşılamağa kömək edir [1; 2; 8].

**6) Əks-əlaqənin qurulması və rəylərin verilməsi**

Bu proses tələbənin qiymətlərinin necə alındığını təsdiqləməyə kömək edir. Qiymətləndirmədə müəllim tərəfindən verilən əks-əlaqə, yəni rəylər (feedback) tələbəyə öyrənmə fürsəti qazandırır. Buna çox vaxt təkmilləşmə üçün qiymətləndirmə də deyilir və bu, tələbələri dil fəaliyyətlərində təkmilləşdirməyə yönəldir. Bununla belə, bu təkmilləşmə tələbələrin rəylərə görə görəcəyi işdən asılıdır. Burada müəllimlər öz gözləntilərinin müəyyən edilməsində əsas rol oynaya bilərlər. Rəylər əsasında tələbənin dil bacarıqları üzrə xüsusi xarakteri müəyyənləşir və mükafatlandırılır [2; 3; 6]. Əlbəttə, rəylərin yazılması üzrə müəllimlər təlimatlandırılır və yazılması qaydaları izah edilir. Rəylər son dərəcə

pozitiv mövqedən, amma konstruktiv məqsədlə yazılmalıdır. Tələbənin etdiyi səhvlər üzrə ona dəstəkverici məlumatlar yazılmalıdır ki, öz səhvlərini asanlıqla düzəldə bilsin. Bu funksiyanın yerinə yetirilməsi çox vacib bir mərhələ və eyni zamanda məlumatlandırma mənbəyi hesab edilir [5; 6; 7;].

**7) Motivasiya və həvəsləndirmə**

Qiymətləndirmədə motivasiya və həvəsləndirmə çox vacib bir yanaşmadır. Bu alət təlim mühiti və motivasiyanı təmin edən tapşırıqlar haqqında məlumat verir. Motivasiya üçün müəllim formal və qeyri-formal qiymətləndirmə üsullarını bilməlidir ki, tələbə dilin mənimsənilməsində müəllimin şifahi və yazılı rəyinin ona verdiyi faydanı başa düşə bilsin. Bəzən təlim prosesində şifahi rəylər tələbəni dil öyrənməyə daha çox motivə edir. Məlumdur ki, rəqəmsal qiymətləndirmə ən unikal qiymətləndirmə üsuludur. Onlayn qiymətləndirmə müəllimin subyektivliyində çox uzaqda olan qiymətləndirmədir. Tələbələr bu tip qiymətləındirmədən həvəslə istifadə edirlər. Dinləmə, danışıq tapşırıqlarının onlayn üsullarla yerinə yetirilməsində müəllimin düzgün cavabları şifahi dəyərləndirməsi daha çox həvəsləndirici olur. Bütün bunlar təlimdə qiymətləndirmənin təlimlə bərabər rolunu ifadə edir, tələblərdə həvəsləndirmə və motivasiyanı gücləndirir [1; 7; 8;].

**Nəticə**

Beləliklə, məqalədə qiymətləndirmənin müasir tətbiqi formaları sübut edir ki, ingilis dilindən tələbələrin qiymətləndirilməsi ənənəvi üsulda heç bir effekt vermir və gözlənilən nəticələr zəif əldə olunur. Bu məqsədlə tədqiqat məqaləsi qiymətləndirmənin yeni məzmunu, məqsədi və tələbələrə faydalı təsiri haqqında maraqlı məlumatlar vermək baxımından vacib bir prosesdir. Məqalə qiymətləndirmənin funksional təbiətini geniş açıqlayaraq, onun ali təhsildə keyfiyyətinin təmin olunması sahəsində rolunu çox vacib hesab edir. Məlum oldu ki, funksiyalar ardıcıl yerinə yetirilmədikdə tələbələrin dinamik qiymətləndirilməsi uğurlu nəticə verə bilməz. Beləliklə, tədqiqat məqaləsi faydalı bir mənbə kimi universitetlərdə ingilis dilinin qiymətləndirilməsi üzrə müəllimləri, ekspertləri və tələbələri hərtərəfli təmin edəcək.

**ƏDƏBİYYAT**

1. *Hüseynova F.* Tələbələrin ingilis dili bacarıqlarının qiymətləndirilməsində çətinliklər və müasir tələblər // Azərbaycan məktəbi, 2021, №3, s.41-48
2. Ableeva R. Dynamic assessment of listening comprehension in second language learning. Unpublished Ph. D dissertation, The Pennsylvania State University, 2010
3. *Tabatabaei S. & Bakhtiarvand, M.* Application of Dynamic Assessment in Second and Foreign Language Teaching. International Journal for Teachers of English, 2014, 4(3), pp.1-14.

4. *Baehr M.* Distinctions between assessment and evaluation. Program Assessment Handbook, Pacific Crest. 2005, pp.441-444
5. *Herrera* L. & *Macías D.F.* A call for language assessment literacy in the education and development of teachers of English as a foreign language // Colombian Applied Linguistics Journal, 2015, 17(2): pp.302-312
6. *H.Douglas Brown, Priyanvada Abeywickrama*. Language Assessment: Principles and Classroom Practices Pearson Education, 2018, 200 p. / ISBN 0134860225, 9780134860220
7. *Nazari B* Teach-to-test instruction of dynamic assessment: A critical review // Bellaterra Journal of Teaching and Learning Language and Literature, 2012, 5(4), pp.56-68
8. *Troudi, S., Coombe, C., & Al-Hamliy, M.* EFL Teachers' Views of English Language Assessment in Higher Education in the United Arab Emirates and Kuwait. Tesol quarterly, 2012, 43 (3), 546-555
9. Nuriyev, M "Application of possibilities of formative assessment in higher education" 2012, 32 s., oai:localhost:20.500.12323/2179 / https://core.ac.uk/

Redaksiyaya daxil olub 25.05.2023

*UOT 37:372.8:811.111*

***N.Q.İbrahimli***
*Naxçıvan Dövlət Universiteti*
*ibrahimlinermin92@gmail.com*

# AUTENTİK DİALOQLARIN İSTİFADƏSİNDƏ SOSİAL-PSİXOLOJİ AMİLLƏR

***Açar sözlər:*** *kommunikativ yanaşma, autentik dialoqlar, sosial-psixoloji mühit, motivasiya*

Məqalədə ingilis dilinin tədrisində kommunikativ yanaşmada autentik, yəni orijinal dialoqların istifadəsi metodikasından bəhs edilir. Məqalədə ingilis dilində kommunikativ səriştələri formalaşdıran autentik dialoqların istifadəsində nəzəri-psixoloji baxışlar və mülahizələr araşdırılmış, onun sosial-psixoloji mühitdə formalaşması yolları təqdim edilmişdir.

Məlumdur ki, dilin öyrənilməsi sosial-psixoloji mühitin yaranması ilə əlaqədardır. Bu mühit ingilis dilində şifahi nitqin qurulması prosesində yaranmalı və orijinal öyrənmənin səmərəsini əks etdirməlidir. Autentik dialoqlar tələbələrə müvafiq məlumatları yadda saxlamaq və biliyi real dünya vəziyyətinə yönəldə bilmək üçün istifadə olunan ən optimal öyrənməni təşviq edir. Buna baxmayaraq, bu əlaqənin bəzən təlimdə boşluqlarla müşahidə olunması istər-istəməz səmərəli kommunikasiyanın yaranmasına zəif təsir edir. Bu baxımdan məqalədə ingilis dilində gündəlik istifadə olunan orijinal söhbətlərin yaranmasında psixoloji amillər araşdırılaraq onun metodoloji cəhətləri təqdim edilir. Məqalədə dilçi araşdırmaçı Paulo Freirenin özünün "Dialoq Nəzəriyyəsi"ndən istifadə edilmiş və psixoloq alimin təhsil sahəsində sosial tədqiqatçılıq fərziyyələri açıqlanmışdır. Təlimdə bu amillərin nəzərə alınması təlimin təşkilində müəllim və tələbələrin ingilis dilinin effektiv istifadəsi ilə nəticələnir.

***Н.Г.Ибрагимли***

# СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ФАКТОРЫ ИСПОЛЬЗОВАНИЯ АУТЕНТИЧНЫХ ДИАЛОГОВ

***Ключевые слова:*** *коммуникативный подход, аутентичные диалоги, социально-психологическая среда, мотивация*

В статье говорится о методике использования аутентичных, то есть оригинальных диалогов в коммуникативном подходе в обучении английскому языку. В статье исследованы теоретико-психологические взгляды и соображения в использовании аутентичных диалогов, формирующих коммуникативную компетенцию на английском языке, представлены пути ее формирования в социально-психологической среде.

Известно, что изучение языка связано с созданием социально-психологической среды. Эта среда должна создаваться в процессе построения

устной речи на английском языке и должна отражать эффект аутентичного обучения. Аутентичные диалоги способствуют оптимальному обучению, помогают учащимся запоминать актуальную информацию и применять знания в реальной ситуации. Тем не менее тот факт, что эта связь иногда наблюдается при пробелах в обучении, неизбежно оказывает слабое влияние на создание эффективной коммуникации. С этой точки зрения в статье рассматриваются психологические факторы создания оригинальных разговоров на английском языке и представлены ее методологические аспекты. В статье используется «Теория диалога» лингвиста-исследователя Пауло Фрейре и разъясняются предпосылки социальных исследований в области образования психолога. Учет этих факторов в обучении приводит к эффективному использованию английского языка преподавателями и студентами при организации обучения.

***N.G.Ibrahimli***

**SOCIAL-PSYCHOLOGICAL FACTORS IN USING AUTHENTIC DIALOGUES**

***Keywords:*** *communicative approach, authentic dialogues, social-psychological environment, motivation*

The article talks about the methodology of using authentic, that is, original dialogues in the communicative approach in English language teaching. The article examined the theoretical psychological views and considerations in the use of authentic dialogues that form communicative competences in English, and presented ways of its formation in the social-psychological environment.

It is known that language learning is related to the creation of a socio-psychological environment. This environment should be created in the process of building oral speech in English and should reflect the effect of authentic learning. Authentic dialogues promote optimal learning, used to help students retain relevant information and apply knowledge to real-world situations. Nevertheless, the fact that this relationship is sometimes observed with gaps in training inevitably has a weak effect on the formation of effective communication. From this point of view, the article examines the psychological factors in the creation of authentic conversations in everyday use in English and presents its methodological aspects. In the article, the linguist researcher Paulo Freire used his own "Dialogue Theory" and the psychologist scientist explained the assumptions of social research in the field of education. Considering these factors in teaching English, it results the effective classroom management in learning process by teachers and students.

## 1. Giriş

İngilis dilində kommunikativ bacarıqların formalaşmasında orijinal, yəni autentik dialoqlar iki və ya daha çox şəxs arasında real ünsiyyətin qurulması, qarşılıqlı fikirlərdə razılığa gəlmə, problemin həllinə nail olmaq məqsədi ilə fikir mübadiləsini nəzərdə tutur. Orijinal dialoq, ədalətli fikir mübadiləsini nəzərdə

tutan, öyrənənlər arasında problemlərin aşkarlanmasına və həllinə gətirib çıxaran, dilçilikdə "Habermas nitqi" kimi bir çox şərtlərin əməl olunmasına aid söhbətlər kimi müəyyən edilir. Effektiv dialoq kimi, autentik dialoqların ingilis dilində istifadəsi ümumiyyətlə dörd mühüm xüsusiyyətə *simmetriya, qısa seqmentlər, spesifikasiyalar və xülasəyə* malikdir. Bu tip dialoqların istifadəsində sözlər, səs tonu və bədən dili vasitəsilə dinləyiciyə əsl məqsədi və şəxsi xarakteri göstərmək reallaşır [1; 2; 6].

### 1.1. Autentik dialoqların psixoloji amilləri

Orijinal dialoqların istifadəsində psixoloji amillərin nəzərə alınması onunla izah olunur ki, bu bacarıqları öyrəndikcə ünsiyyət zamanı öyrənənlər qarşıdakı insanın real xarakterini görür, onun psixoloji davranışını asanlıqla qəbul edir və kim olduğunu qiymətləndirir. Kommunikasiya zamanı öyrənən qarşılıqlı şəkildə problemləri görür, özünümüdafiə və daha açıq şəkildə araşdırma qabiliyyətinə malik olur. Bu zaman dialoqda iştirak edən insana unikal və mürəkkəb bir insan kimi baxa bilirik və bu hal ünsiyyətdə qayğıkeşliyin yaranmasına səbəb olur. Buna baxmayaraq, danışıqlar zamanı diqqətsizlik, məhdud məlumat kanalları, əks əlaqənin olmaması dilin kommunikativ şəkildə formalaşmasına mane olur [2; 5; 6; 10].

Psixoloji araşdırmalar əsasən kommunikativ səriştələrin formalaşmasında autentik dialoqların istifadəsini onun ənənəvi psixoloji *konseptual xarakteri, motivasiyanın təminatı, psixoloji proseslərdə təsiri, yeni sosial kontekstlərdə və əməkdaşlıqda rolunu* təhlil etmişdir [1; 4].

Elmi araşdırmalar autentik dialoqların bir orijinal proses kimi konseptual başlanğıcını qədim yunanların mənəviyyat və cəmiyyət qurmaq yolunda istifadə etdikləri bir antidot kimi təklif etmişlər. Orijinal dialoqlar insanlar arasında düşünülmüş bir əlaqə qurmaq məqsədi daşıyır və davamlı olaraq istifadə olunma ehtimalını artırır. Real dialoqlar təkcə öyrənənlərə real dünyanın bütöv bir hissəsi olduğunu xatırlatmır, eyni zamanda digərləri ilə rezonans doğuran etiraflar etməyə imkan verir [6; 7]. Bu dialoq üçün söhbətin sadəliyindən daha çox böyük həqiqətləri axtarmaq lazım gəlir. İştirak edən tərəflərlə əlaqə qurduqca, paylaşılan mənanın vacibliyi üçün anlayış və sözlərdən kənara çıxmaq imkanı verilir.

Bob Edelşteynin (2021) *"Daha qayğıkeş bir dünya yaratmaq üçün orijinal dialoqdan istifadə edin"* adlı elmi məqaləsində qlobal dünyada baş verən qütbləşmələr bir çox məsələləri üzə çıxarır. Tədqiqatçı alim qeyd edir ki, iqtisadiyyat, din, siyasət, irqi, etnik və gender məsələlərində qəti şəkildə razılaşmamalar özünü göstərməyə başladı. İnsanlar özlərini başqasının yerinə qoymaq qabiliyyətini itirir, "*mənim yolum düzdür*", "*sənin yolun səhvdir*" fikirləri ilə dialoqa girir və bəzən bu mövqedən çıxış edərək ortaq dil tapmaqda çətinlik çəkirlər. Daha sonra Uza5 (2005) qeyd edir ki, digər dəyərlərə əsaslanan

orijinal perspektivlik dialoqda iştirakçıda dürüstlük, açıqlıq və qarşılıqlılığa əsaslanan münasibətlərin yaradılmasını nəzərdə tutur. Dildə orijinallıq anlayışı təlimdə ictimai nitqin sosial-psixoloji şərtlərlə qurulması yollarını izah edir. Burada əvvəla, dürüstlük nümayiş etdirilməli, ictimai məkanlarda insanlara kömək etmək və bununla da onların real məlumata ehtiyacı olduğunu anlamaq lazımdır. Dürüstlük nitq zamanı qarşı tərəfə etimad və əlaqə yaratmağa kömək edir, bu zaman insanlarda dialoq zamanı güvən yaranır və daha çox mesaj dinləməyə həvəsli olurlar [3; 7; 10].

Bu dəyərlər kommunikativ əlaqələr sayəsində çətin də olsa, prosesə sadiq qalsaq, müsbət nəticə əldə etmək olur. Bu, istər ailə üzvü və ya dostla, istərsə də milli və ya beynəlxalq birlik daxilində olan münasibətə aiddir. Mövcud əlaqələrin ortaya çıxmasında sosial media və ictimaiyyətlə əlaqələr autentik dialoq ünsiyyətinin təsirlərini daha da gücləndirilməsini sübut etdi. Real dialoqlar ünsiyyətin effektiv təşkili münasibətlərinin əsas elementinə çevirdi və dialoq çərçivəsində reallığa ehtiyac artmağa başladı və internet kommunikasiyasının dialoq nəzəriyyəsindəki məhdudiyyətlər ortaya çıxdı [3; 5].

Məlumdur ki, orijinal dialoq qurmaq başqalarında inam, hörməti gücləndirir və daha dərin əlaqələr yaradır. Mövzunun müxtəlif olmasından asılı olmayaraq, insanlarla inam və əlaqələr qurmaq, nə olursa olsun, qarşı tərəfə fayda verəcəkdir. Bəzən orijinallıq təkcə başqaları ilə deyil, dildən istifadə edənin özünə də inamını artırır.

Bu mövzunun psixoloji əhəmiyyətini müzakirə edən Paulo Frier (Paulo Freire, 2005) özünün "*Dialoq Nəzəriyyəsi*"ndən istifadə etmiş və psixoloq alim təhsil sahəsində sosial tədqiqatçılıq fərziyyələri ilə bu yanaşmadan müxtəlif sahələrdə istifadə etmişdir. Autentik dialoq kontekstinin psixoloji təbiətini izah edən mütəfəkkir alim bu konteksti digərlərinin daha yaxından tanınması və özünü tanıması kimi izah etmiş və əməkdaşlıq etmək və kompromisə gəlməkdə orijinal dialoq formatına istinad edildiyini vurğulamışdır. Onun dilin tədrisi ilə bağlı müzakirələrində real dialoqlar mühüm və dəyərli mövzudur. Freire görə, tədris prosesi, xüsusilə də ikinci dildə aparılan təlimin yalnız dialoq olduqda baş verməsi zərurət hesab edilir. Bu nəzəri istinada görə, real mühitdə baş verən söhbət və dialoqlarda əvəzsiz sevgi, təvazökarlıq və güvən yaranır. Bəzən də bu dialoqlarda sevgi və ya məhəbbətlə yanaşı, digərinə özünü bağışlama da təmsil olunur. Nəticə etibarı ilə dialoq zamanı inam, uyğunlaşma və ətrafdakı reallıq haqqında tənqidi düşüncəyə sahib olmaq imkan verəcəkdir. Metodoloji yanaşmaya gəldikdə, Freire müdafiə edir ki, orijinal dialoqda qarşılıqlı əlaqədə iştirak, yaxınlaşma, divergensiya, öyrətmə və öyrənmənin mövcud olduğu məqamlar vardır [9, s. 56].

Ünsiyyətin psixologiyasını araşdıran tanınmış psixoloqlar Ə.Əlizadə, M.Hüseynzadə, S.Səmədov orijinal dialoqlarda aşağıdakı psixoloji cəhətlərin, *qavrayış, hislər, duyğular, təsəvvür, təfəkkür, təxəyyül, hafizə və nitqin*

formalaşmasını qeyd edirlər.

**Cədvəl 1. Autentik dialoqlarda psixoloji sahələrin inkişafı**

| *Hazır dialoqlar* | *Autentik dialoqlar* |
|---|---|
| *Qavrayış* | *Qavrayış* |
| *Hafizə* | *Hisslər* |
| *Nitq* | *Duyğular* |
| | *Təsəvvür* |
| | *Təfəkkür* |
| | *Təxəyyül* |
| | *Hafizə* |
| | *Nitq* |

Cədvəldən (Cədvəl 1) göründüyü kimi, orijinal dialoqların istifadəsində təkcə qarşılıqlı əlaqələrin qurulması deyil, eyni zamanda ünsiyyətdə bir-birini qavrama, hiss etmə, bəzən də baş verənlərə duyğulanma da baş verir. E.g.:

*A: Are you worried? What happened?*
*B: I am upset today!*
*A: Whoa! Don't be angry! Calm down!*
*B: I'll try.Thank you!*
*A: What can I do for you?*
*B: Thanks, you're enough!*

Nümunədən göründüyü kimi, ingilis dilində real kommunikasiya psixoloji proseslərin təzahüründə əks olunur, ünsiyyət proseslərin dinamikasına müsbət təsir edir və şəxsiyyətin formalaşmasında yeni bir tərz yaradır. Göründüyü kimi, ünsiyyət sayəsində insanın hal-vəziyyəti dəyişir, müəyyən ictimai vəzifənin yerinə yetirlməsinə istiqamətlənir, sosial davranışını, rəftarını və hətta praktik fəaliyyətinə təsir göstərməyə çalışır. Burada eyni zamanda yaxşı təsəvvürlər əldə etmək üçün tənhalıq psixologiyasına son qoyulur, insan düşdüyü halın kontekstində tək olmadığına sevinir. Məlum olur ki, qarşılıqlı anlaşmada *somatik ünsiyyətin* rolu da öz təsirini göstərir, yəni bədən dili vasitəsilə dəstək vermə, digərinin keçirdiyi psixi prosesə qoşulma, gərginliyi aradan götürə bilən ifadələrin düzgün işlənməsinə fikirvermə, tənqidi yanaşma və nitqin təsiri qüvvəsi öz rolunu oynayır [7; 8; 9; 10].

Digər psixoloji təlimatlar autentik dialoqların effektiv təşkilini aşağıdakı kimi təsvir edir.

a) *Danışmazdan əvvəl düşünmək*

Bu amilin o qədər də çətin olmaması insanın nə dediyini və nə danışdığını düşünməyə vadar edir. Bu hal sadəcə sükutu doldurmaq üçün deyil, bir çox yeni potensial imkanlar görmək bacarığı formalaşdırır.

b) *Dialoqda daimi əlaqə qurmaq*

Çox vaxt dialoqda müzakirələri dayandırmaq və real ünsiyyət baş verdikdə əlaqədən uzaqlaşmaq halları yaranır. Bu zaman dialoqda istifadə etmək üçün yeganə qızıl qayda cavab verənin həmişə əvvəlki ilə birbaşa əlaqə saxlamasıdır. Bu hal baş vermədikdə, dialoq sanki bloka düşür və əlaqə qırıldığından problemin həllinə güvən itir.

Dialoq zamanı tez-tez baş verən dörd əsas bloku – *passivlik, endirim, həddindən artıq təfərrüat və yenidən müəyyənləşməni* nəzərə almaq lazımdır:

Digər psixoloji problemlər autentik dialoqlarda söhbət zamanı motivasiyanın zəif olması, əlaqənin olmaması, diqqətsizlik, məhdudlaşdırılmış məlumat kanalları, sual verməmək mədəniyyəti, həddindən artıq formallıq, e-poçta həddindən artıq etibar, rol modellərinin olmaması və emosiya qorxusunun olmasıdır [4; 5; 10].

Motivasiya ünsiyyətdə fərqli bir psixoloji konstruksiyadır, davranışlar, səylər, münasibət, maraq və dəyərlər həm də öyrənənlər və müəllimlər üçün faydalı olur. Aşağıdakı vasitələr tələbələri orijinal dialoqların istifadəsinə motivə edə bilər:

- Videofilmlərin nümayişi və qısa söhbətlərin təqdimatı
- Videosöhbətlər üzrə dinləyib-anlama tapşırıqlarının təqdimatı
- Rollu oyunlar və simulyasiyaların tətbiqi
- Müxtəlif mövzulu problem situasiyaların nümayişi
- İnformasiya boşluqlarının doldurulması və cütlükdə təqdimatı
- Uzun dialoqlu mətnlərin verilməsi və qısa şərhi [2; 4; 6; 11].

Uğurlu motivasiya üçün öyrənənləri cəlbi üçün bəzi faydalı təlimatlar bunlardır:

a) Öyrənəni mövzu üzrə dialoq üçün qısa bir müddətə saxlayın;
b) Onlara fikirlərini cəld ötürmək üçün xəbərdarlıq edin;
c) Dialoqun məşqi zamanı nəyi etdiyinə əmin olun;
d) Onları fonologiya və ya qrammatik nöqtə ilə məhdudlaşdırın.
e) Qeyri-məhdud şəkildə kommunikativ məqsədə apardığına əmin olun.

Auditoriyada tələbələri həvəsləndirmək üçün iki motivasiya təminat strategiyalarını təqdim edir:

- Dialoqlar üzrə qısa cavabları öyrənməklə linqvistik çətinliklər yarada biləcək müəyyən sətirləri dinləmək və şifahi şəkildə təkrarlamaq imkanı təklif edir;

- Cümlələrin qısaldılmasında psixomotor fəaliyyəti yaratmağa kömək edir;

- Nümunə və seçilmiş qrammatik formaları uyğun kontekstlə əlaqələndirir.

Bu kimi motivasiya üsulları tələbələrin ingilis dilində sərbəst düşüncələrini artırmağa həvəsləndirir, danışıq zamanı özlərini necə idarə etməyi

izah edir. Birgə yaradılan daha dərin söhbət eyni anda kommunikativ münasibətlərdə formalaşır. Bəzən bu dialoqlar zamanı dominantlıq hiss olunsa da, söhbət zamanı o da dərhal aradan qalxır, qorxu yox olur, birgə ortaqlıq və sevgi yaranır [1; 2; 7].

**Nəticə**

Beləliklə, ingilis dilində kommunikativ bacarıqların formalaşmasında autentik dialoqların səmərəli istifadəsi onun psixoloji amillərinin nəzərə alınması ilə şərtlənir. Bu amillərin təlim prosesində tətbiq edilməsi bir çox nəzəriyyələrin öyrənilməsinə əsaslanır və bu nəzəriyyələr orijinal dialoqların işlənmə xüsusiyyətlərini açır və bir çox sosial-psixoloji mühitin mövcudluğunu tələb edir.

Məlum olur ki, real ünsiyyətdə baş verən söhbət və dialoqlar bir çox dəyərlərin formalaşmasını təmin edir. Bu dialoqlar dil istifadəçilərində bir-birinə sevgi, təvazökarlıq və güvən yaradır. Bəzən də bu dialoqlarda sevgi və ya məhəbbətlə yanaşı, digərinə özünü bağışlama da təmsil olunur, psixoloji amil kimi dialoq zamanı öyrənənlərdə inam, uyğunlaşma və ətrafdakı reallıq haqqında tənqidi düşüncəyə sahib olmaq imkanı qazandırır.

**ƏDƏBİYYAT**


1. *İsmayılova D.Ə.* Gündəlik dialoqlar. Bakı: Mütərcim, 2001, 167 s.
2. *Qazıyeva M.* Xarici dilin tədrisində nitq ünsiyyəti üçün vacib olan psixoloji xüsusiyyətlər / “Mədəniyyətlərarası dialoq: linqvistik, pedaqoji və ədəbi aspektlər” beynəlxalq elmi konfransın materialları. Bakı: Mütərcim, 2010, s.191-195
3. *Исмаилова Д.А.* Методика обучения диалогической речи современного английского языка на начальных курсах языковых вузов. Баку: Мутарджим, 2002, 248 с.
4. *Ореховская Н.* Социальные коммуникации: Учебник. М.: Инфра-М, 2014, 224с.
5. *Alexander R. J.* Developing dialogic teaching: Genesis, process, trial. Research Papers in Education, 2018, 33(5), 561-598
6. *Arla G. Bernstein, Carol A.* Isaac, Gentrification: The role of dialogue in community engagement and social cohesion // Journal of Urban Affairs, 2021, 10.1080/07352166.2021.1877550, 45, 4, pp.753-770
7. *Bob Edelstein, L.M.F.T., M.F.T.* Using Authentic Dialogue to Create a More Caring World, 2021
8. *Bubules, N.C., & Bruce, C.B.* Theory and research on teaching as dialogue. In V. Richardson (ed), 2001
9. *Freire P.* ‘Education as the practice of freedom’, in Education for Critical Consciousness, Continuum, New York, 2005 pp. 3-78
10. Uzar R. Authenticity in language learning. The Teacher, 2005, 8-9 (31), pp.44-47

11. *Yunxia Zhu*. Using Authentic Cross-Cultural Dialogues to Encourage International Students' Participation in Tutorial Activities - DOI:10.1177/108056990707000106, 2007

Redaksiyaya daxil olub 25.05.2023

*UOT 37*

***İ.N.İsayev***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*iramin.isaev@mail.ru*

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN MİLLİ TƏHSİL KONSEPSİYASININ BƏZİ İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *Heydər Əliyev, Azərbaycan məktəb tarixi, milli təhsil konsepsiyası, təhsildə ənənə və varislik, təhsil*

Azərbaycan milli təhsil konsepsiyası dövlətin təhsil siyasətini müəyyənləşdirən fundamental sənəddir. Xalqın zəngin tarixi təcrübəsi, dövlətçilik ənənəsi, milli-mənəvi dəyərlərin uca tutulması, layiqli vətəndaş yetişdirilməsi və ayrı-ayrı dönəmlərin ortaya qoyduğu tələblər bir bütöv olaraq milli təhsil konsepsiyasının hazırlanmasında əsas götürülmüşdür. Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin uzaqgörənliklə həyata keçirdiyi təhsil siyasəti bütün parametrlərdə təhsildə uğurların qaynağıdır. Azərbaycan Cümhuriyyəti Respublikası zamanındakı təhsil islahatları, sovetlər dönəminin mövcud təhsil siyasəti, dünya düzənində gedən proseslər Ulu Öndərin fikir və mülahizələrində son dərəcədə dəqiq qiymətləndirmələrlə özünə yer almışdır. Zəngin həyat təcrübəsi, fitri idarəçilik istedadı keçən əsrin 70-ci illərindən günümüzə qədər əldə olunan nailiyyətlər üçün əsas olmuşdur. Təhsil sahəsindəki qanunlar, konsepsiya və strategiya, dövlət standartları, proqramlar və s. dahi şəxsiyyətin təhsil sahəsində həyata keçirməyə çalışdığı məqsədyönlü siyasətin nəticəsi olaraq ortaya çıxmışdır. Bütün bunlar Azərbaycan dövlətinin memarı Heydər Əliyevin təhsil haqqında təsəvvürlərinin, fikir və mülahizələrinin sistemli şəkildə araşdırılmasını və mahiyyətinin ortaya çıxarılmasını bir zərurət olaraq qarşıya qoyur.

***И.Н.Исаев***

# ГЕЙДАР АЛИЕВ И НЕКОТОРЫЕ НАПРАВЛЕНИЯ КОНЦЕПЦИИ АЗЕРБАЙДЖАНСКОГО НАЦИОНАЛЬНОГО ОБРАЗОВАНИЯ

***Ключевые слова:*** *Гейдар Алиев, школьная история Азербайджана, концепция национального образования, традиция и наследие в образовании, образование*

Национальная концепция образования Азербайджана является основополагающим документом, определяющим образовательную политику государства. За основу подготовки концепции национального образования были взяты богатый исторический опыт народа, традиции государственности, возвеличивание национальных и нравственных ценностей, воспитание достойных граждан и требования разных эпох. Образовательная политика, проводимая основателем Азербайджанского государства Гейдаром Алиевым, является источником успеха образования по всем параметрам. Образовательные

реформы в Азербайджанской Республике, нынешняя образовательная политика советского времени, процессы, происходящие на мировом уровне, проходили в мыслях и суждениях великого лидера с чрезвычайно точными оценками. Богатый жизненный опыт и врожденный управленческий талант стали основой достижений с 70-х годов прошлого века и до наших дней. Законы, концепция и стратегия в сфере образования, государственные стандарты, программы и др. появились в результате целенаправленной политики, которую гениальная личность пытался проводить в сфере образования. Все это делает необходимым систематическое исследование и раскрытие сути идей, мыслей и мнений Гейдара Алиева, создателя Азербайджанского государства.

***I.N.Isayev***

## HAYDAR ALIYEV AND AZERBAIJAN NATIONAL SOME DIRECTIONS OF THE CONCEPT OF EDUCATION

***Keywords:*** *Haydar Aliyev, Azerbaijan school history, national education concept, tradition and heritage in education, education*

The concept of national education in Azerbaijan is a fundamental document that defines the state education policy. The rich historical experience of the people, the tradition of statehood, the upholding of national and moral values, the upbringing of worthy citizens and the requirements of different periods are the basis for the development of the concept of national education as a whole. The far-sighted education policy pursued by the founder of the Azerbaijani state, Heydar Aliyev, is a source of success in education in all parameters. The educational reforms of the time of the Republic of Azerbaijan, the current educational policy of the Soviet period, the processes taking place in the world order were reflected in the thoughts and opinions of the Great Leader with extremely accurate assessments. Rich life experience and innate management talent have been the basis for the achievements of the 70s of the last century to the present day. Laws, the concept and strategy in the field of education, state standards, programs, etc. appeared as a result of a targeted policy that a brilliant personality tried to pursue in the field of education. All this makes it necessary to systematically study and reveal the essence of the ideas, thoughts and opinions of the architect of the Azerbaijani state Heydar Aliyev on education.

Azərbaycan dövlətinin memarı Heydər Əliyevin, zəngin və çoxşaxəli fəaliyyətinin ana xətlərindən birini təhsil, məktəb, gənc nəslin milli ruhda tərbiyəsi sahəsində gördüyü və görməyə çalışdığı fundamental işlər təşkil etmişdir. Keçən əsrin 70-ci illərindən bu yana demək olar ki, təhsil sahəsində görülən bütün işlər, atılan addımlar onun xeyir-duası, konseptual yanaşmalarının əsas götürülməsi timsalında baş vermişdir. Ayrı-ayrı görkəmli şəxslərin, ictimai xadimlərin yubiley tədbirlərindəki çıxışları, respublika müəllimlərinin qurultaylarındakı tövsiyə xarakterli təklifləri, gənclərlə görüşlərindəki söhbətlər və s. – hamısı bu və ya digər dərəcədə məktəb, təlim,

tərbiyə, təhsil məsələlərinə bağlanmışdır. Çağdaş dünya düzənində gedən proseslər, onun öyrənilməsi və mənimsənilməsi, milli dəyərlər əsasında bu proseslərin uzlaşdırılması Ulu Öndərin fəaliyyətinin bütün dövrlərində mühüm önəm daşımışdır. Ümumiyyətlə, xalqların tarixi taleyində təhsilin müstəsna funksional rolu həmişə böyük ziyalı nəsilləri tərəfindən uca tutulmuş və strateji hədəf kimi əsas götürülmüşdür. Azərbaycanın dövlət müstəqilliyindən sonra elm, təhsil sahəsində qəbul olunan bütün qərar və qətnamələr, həyata keçirilən milli təhsil konsepsiyası və s. öz qaynağını məhz tarixi təcrübədən, dövlətin təhsil sahəsində yeritdiyi uğurlu siyasətindən götürmüşdür.

**Ümummilli lider Heydər Əliyev və dövlət təhsil siyasəti**

Ümummilli lider Heydər Əliyev özünəməxsus uzaqgörənliklə çağdaş təhsilin qarşısında duran ümdə vəzifələri müəyyənləşdirərək yazırdı: "İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsədi Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycanın cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır. Hər bir insan gərək eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun! Sadəcə ona görə yox ki, Azərbaycan vətəndaşıdır. Gərək dövlətinə sadiq, millətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun. Ona görə də orta təhsil sisteminə çox ciddi fikir vermək lazımdır" (5).

Ulu öndər Heydər Əliyevin ümumən proqram xarakterli müddəalarına kompleks yanaşıldıqda aydın olur ki, onun təhsil konsepsiyasının paradiqmasının əsasını milli-mənəvi dəyərlərə söykənən, keçmiş təhsilin mütərəqqi ənənələri üzərində qurulmuş, dünya təhsilinin qabaqcıl təcrübəsindən qaynaqlanan vətəndaş yönümlü milli təhsil quruculuğunun həyata keçirilməsi təşkil edir. Bu isə özündə cəmiyyətdə yüksək intellektuallığın bərqərar olması, milli və ümumbəşəri dəyərlərin vətəndaş hazırlığında rolunun dəyərləndirilməsi, təhsil işinin məzmunu, təlim-tərbiyə prinsipləri, metod və vasitələrinin təkmilləşdirilməsi yüksək intellekt və təfəkkürə malik yeni insanın formalaşdırılmasını ehtiva edir.

Heydər Əliyevin təhsil sahəsində islahatların aparılmasında zəngin bilik və bacarığa, təcrübəyə malik olması hələ keçən əsrin 70-ci illərində sovet təhsil sistemində aparılan islahatlara rəhbərlik etdiyi vaxtlarda özünü göstərmişdir. Məhz həmin dövrdə ölkə üçün önəmli və vacib olan təhsil problemlərinin həllinin Heydər Əliyevə həvalə edilməsi təsadüfi deyildi. Bu barədə Heydər Əliyev yazırdı: "Bu gün çox böyük iftixar hissi ilə deyə bilərəm ki, o vaxtlar Sovet İttifaqı kimi böyük bir dövlətin maarif, təhsil sahəsində islahatların hazırlanmasına və həyata keçirilməsinə rəhbərlik edirdim... Demək istəyirəm ki, məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam" (1, s.441).

Heydər Əliyevin təhsil konsepsiyasının məntiqinin həyatiliyini biz Azərbaycanda təhsil ənənələrinə ehtiramında, onu təhlil edərək müsbət cəhətləri

üzə çıxarıb, bugünkü təhsil sistemində tətbiq etmək bacarığında aydın görürük. Müstəqil respublikamızda təhsil islahatları apararkən keçmişə diqqət yetirməli, öyrənməli, o, yararsız nəzəriyyə və təcrübə kimi kənara atılmamalıdır. Keçmiş təhsilə yaradıcı yanaşaraq müasir reallıqlara rəğmən inkişaf istiqamətini müəyyənləşdirmək üçün vacib vasitə sayırdı. Konsepsiyasına sadiq olan Ulu öndər Heydər Əliyev: "Bizim keçmişimizi, tariximizi bu gün ləkələmək istəyən, Azərbaycanın həyatı haqqında ədalətsiz fikirlər söyləyən adamların da hamısı o dövrdə təhsil alıbdır. Bəli, Azərbaycanın o dövrdəki məktəblərində, universitetlərində təhsil alıbdır. Müftə, pulsuz təhsil alıbdır.., – deyə keçmişə öz ehtiramını bildirir, hamını da belə olmağa çağırırdı. Heydər Əliyev hələ XIX əsrdən başlayaraq XX əsrin əvvəllərinə qədər Azərbaycanda milli təhsil uğrunda mübarizənin mahiyyətini, inkişaf tendensiyalarını aydınlaşdıraraq, 1918-ci ildə yaranmış ilk Xalq Cümhuriyyətinin indiki təhsil sisteminin inkişafında rolunu yüksək qiymətləndirir. "Xalq Cümhuriyyətinin böyük xidməti ondan ibarətdir ki, Azərbaycanda ilk ali təhsil müəssisəsi yaradıbdır. Ancaq bu ali təhsil müəssisəsinin yaranması ondan əvvəl Azərbaycanda gedən ictimai-siyasi proseslərin məntiqi nəticəsi olmuşdur. Azərbaycanda indi mövcud olan təhsil sistemi 1920-ci ildən sonrakı dövrdə yaranıbdır" (1, s.439). Diqqəti cəlb edən cəhətlərdən biri odur ki, göründüyü kimi, Heydər Əliyev haqlı olaraq keçmiş sovet təhsil sistemini kənara atılmalı, yararsız, lazımsız, nəzəriyyələr, prinsiplər sistemi kimi qəbul etməmiş, onu bugünkü təhsilimizin mühüm tərkib hissəsi hesab etmiş və yüksək qiymətləndirmişdir. "Mən açıq demək istəyirəm, bu təhsil sistemi (sovet – İ.İ.) çox yaxşı bir sistemdir. ...Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasaydı, Azərbaycan elmi inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz onda Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və on illərdə əldə etdiyimiz nailiyyəti heç vaxt unutmamalıyıq" (1, s.439). Lakin 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra ölkənin ictimai-sosial, iqtisadi həyatında zamanın tələbinə uyğun yenidənqurma işlərinin aparılması pərdəsi altında hakimiyyətdə təmsil olunanların səriştəsizliyi üzündən tarixən xalqımız tərəfindən formalaşdırılımış mənəvi dəyərləri kənara ataraq bütün sahələrdə olduğu kimi, təhsil sistemində də üzdəniraq "yenidənqurma" işlərinə başlandı. Ulu öndər belə yanaşmaları rədd edərək, 19 aprel 1999-cu il "Təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiya"sındakı nitqində bu kimi zərərli tendensiyalarla razılaşmağın mümkünsüzlüyünü bildirdi. Bu mənada 1992-ci ildə qəbul edilmiş "Təhsil haqqında" Qanun haqqında tənqidi düşüncələrini belə ifadə etdi: "...Təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola bilməz. Ümumiyyətlə, bizim həyatımızın bütün sahələrində dəyişikliklər təkamül xarakteri, tədrici

dəyişikliklər xarakteri daşıyır. Heç vaxt yol vermək olmaz ki, on illərlə yaranmış şeyi bir gündə vurub dağıdasan, ondan sonra heç bilmədiyin yeni bir şey yaradasan... Təəssüflər olsun ki, Azərbaycanda bu mühüm sahəyə 1992-ci ildə qəbul olunmuş təhsil qanunu ilə böyük zərbə vurulmuşdur. Mən təəssüf edirəm ki, təhsil sahəsində çalışan məsul şəxslər və təhsil işçiləri Azərbaycanın təhsil sisteminə vurulan bu zərbəni indiyədək təhlil etməyiblər, araşdırmayıblar və buna lazımi qiymət verməyiblər" (1, s.437). Elə bu səbəbdən də Heydər Əliyev qətiyyətlə təhsil islahatlarını günün tələbləri səviyyəsində müvəffəqiyyətlə aparmaq üçün yeni təhsil qanununun qəbul edilməsi vacibliyini irəli sürür. Qəbul olunacaq təhsil qanununun elmi-pedaqoji əsasları ilə əlaqədar strateji düşüncələrini konseptual formada ümumiləşdirməsi əlçatmaz siyasi xadim Heydər Əliyevin yüksək pedaqoji təfəkkürə malik şəxsiyyət olduğunu sübut edir: "Təhsil sahəsində qəbul edəcəyimiz qanunda və islahat proqramında da məsələyə çox dəqiq, həssas münasibət göstərməliyik. Mənim fikrimcə, bu ondan ibarət olmalıdır ki, Azərbaycanda təhsil sistemində indiyə qədər əldə edilmiş müsbət təcrübə və özünü doğrultmuş, müsbət nəticələr vermiş sistem saxlanılmalı, inkişaf etdirilməli və müasirləşdirilməlidir. Nöqsanlar, yaxud mənfi təcrübə aradan götürülməlidir. Dünya təcrübəsindən Azərbaycanın milli xüsusiyyətlərinə uyğun olan prinsiplər, qaydalar təhsil sistemində tətbiq edilməlidir" (1, s.442).

**Təhsil islahatları dövlətin iqtisadi, siyasi, mədəni inkişafının əsas qaynağı kimi**

Ölkədə aparılması vacib olan təhsil islahatlarına önəm verməsi Heydər Əliyevin dövlətiçiliyimizin inkişaf edib möhkəmləndirilməsi, dünya dövlətləri içində özünəməxsus yer və mövqe qazanması üçün vacib şərt hesab etməsindən irəli gəlirdi. Buna görə də Ulu öndər Heydər Əliyev ölkənin sosial-siyasi, iqtisadi vəziyyətinin yüksəldilməsində əsas kriteriya kimi təhsilin aktuallığını filosoflara məxsus müdrikliklə irəli sürür. Təhsildə yüksək göstəricilərə nail olmaq üçün elm və təhsil sistemində innovasiya və texnologiyalardan səmərəli istifadə etməyi tövsiyə edən yüksək əqidə və idrak sahibi Heydər Əliyev yazırdı: "İslahatlar, xüsusən təhsil, elm sahəsində islahatlar çox ağıllı, düşünülmüş şəkildə həyata keçirilməlidir..., dəb naminə yox, yalnız və yalnız əldə etdiyimiz səviyyədən daha yuxarı qalxmaq üçün təhsilin səmərəliliyini, elmin səmərəliliyini artırmaq üçün aparılmalıdır". Buna görə də Ulu öndər təhsili bütün ictimaiyyətin və xüsusən də ziyalıların, pedaqoji peşə sahiblərinin fəaliyyətinin prioriteti, dövlətçiliyimizin müdafiəsi üçün də əsas sayır; "Biz bütün qüvvəmizi toplasaq, ziyalılardan, din xadimlərindən istifadə etsək, onlar bu işi mütəşəkkil apara bilsələr, hərbi hissələrdə lazımi iş görərək, tərbiyə, əxlaq, mənəviyyat məsələlərini döyüşçülərə aşılaya bilsələr, onların mənəviyyatını, iradəsini möhkəmləndirə bilsələr, bu bizim həm siyasi, həm də

ideoloji işimiz olacaqdır. Lakin bu iş nəzəri şəkildə deyil, mütəşəkkil aparılmalıdır", - deyə bu işdə özü kimi inamlı, cəsarətli, ləyaqətli və dözümlü olmağı tövsiyə edirdi: "Mən əminəm ki, müəllimlərimizin, ziyalılarımızın, alimlərimizin əksəriyyəti belə düşünür, belə yaşayır və bütün bu çətinliklərə baxmayaraq, öz vəzifələrini şərəflə yerinə yetirir və bundan sonra da yetirəcəklər" (1, s.285) – tövsiyələri ilə xalqına öz inamını ifadə edən Ulu öndər bu strateji konsepsiyanın həyata keçirilməsini təhsil müəssisələrinin qarşısında qoyulan təxirəsalınmaz vəzifə hesab edirdi.

Heydər Əliyev fenomeninin apardığı məqsədyönlü təhsil siyasətinin mühüm tərkib hissələrindən biri də müstəqil dövlətçiliyimizi möhkəmləndirəcək, inkişaf etdirəcək, qoruyub saxlaya biləcək yeni insan tərbiyəsidir. Heydər Əliyev yazır: "Heç kəs yerində donub dura bilməz. Kim ki, donur, o, artıq cəmiyyət üçün o qədər də lazım deyildir. Hər kəs inkişafda olmalıdır. Hesab edirəm, elə nəsil yetişdirməliyik ki, təkcə bizim vaxtımızda yox, bizdən sonra da onlar Azərbaycanın xətalara düşməsinə imkan verməsinlər. Onlar doğru yolla, milli hissiyyatlar yolu ilə getməlidirlər". Dövlətin milli ideoloji konsepsiyasını işləyib hazırlayan Ulu öndər milli təfəkkür tərzinə malik yeni insanın formalaşmasında milli tərbiyəyə daha çox üstünlük verir. Çünki Heydər Əliyev mənəviyyatı xalqın, millətin varlığı hesab edir. Bunun məzmununa vətənpərvərliyi, milli mənlik şüurunu, ləyaqəti və xalqın dilinə, dininə, adət-ənənələrinə, ədəbiyyatına, tarixinə ehtiram və s. keyfiyyətləri daxil edir. Məhz bu kimi keyfiyyətlərin gənc nəslə aşılanması Heydər Əliyevin milli təhsil konsepsiyasının əsasını təşkil edir. Heydər Əliyev xalqın milli özünüdərki üçün mənəvi dəyərlərin böyük dəyişdirici qüvvəyə malik olduğunu göstərirdi. Elə bu səbəbdən idi ki, milli-mənəvi dəyərləri özündə təcəssüm etdirərək, milli dövlətçiliyimizin möhkəm təməlini qoyub, onu yüksək zirvəyə qaldıran, özü də xalqımızın mənəvi dəyərlərinə çevrilmiş Heydər Əliyev 13 avqust 2001-ci il tarixində milli-mənəvi dəyərlərin qorunması ilə bağlı bəyanatda deyir: "Hər xalqın öz adət-ənənəsi var, öz milli dəyərləri var. Biz öz milli-mənəvi və dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıblar və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir... Biz öz mənəvi dəyərlərimizi bütün istiqamətlərdə qorumuşuq, saxlamışıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu milli, mənəvi əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik" (2, s.78). Bununla milli şüuru, zəngin mənəviyyatı ilə ümumbəşəriliyi özündə ehtiva edərək dünya miqyasında millətini ləyaqətlə təmsil edib onu tanıtmış Heydər Əliyev mənəvi dəyərlərimizə ehtiramını bildirməklə vətən balalarının tərbiyəsinin bu metodologiya əsasında qurulmasını pedaqoji ictimaiyyət qarşısında təxirəsalınmaz bir vəzifə kimi qoyur. Heydər Əliyev inkişafımızın müasir mərhələsində Avroatlantik məkana qovuşma prosesində Avropadan

dəyərlənməyi, Avropa ailəsinin üzvü kimi qarşıda duran vəzifələrdən danışarkən, ölkəmizin hər bir üzvünün, uşaqdan böyüyə qədər, milli mənsubiyyətini, şüurunu, mənliyini, ailəyə, torpağa bağlılığını vicdan, borc və ləyaqətini itirməmək şərti ilə inteqrasiyanın vacibliyini irəli sürür: “Mən ölkəni dünyəvi, amma öz mili köklərinə bağlı olan bir dövlət kimi görmək istəyirəm. Hər bir ölkənin öz xüsusiyyətləri var. Mən öz köklərimizlə fəxr edirəm”.

**Heydər Əliyevin təhsildə millilik konsepsiyası**

Xalqımızın böyük oğlu Heydər Əliyevin milli-mənəvi dəyərlər ruhunda tərbiyə konsepsiyasında aparıcı keyfiyyətlərdən biri vətənpərvərlikdir. “Hər bir insan ilk növbədə anasını, vətənini, torpağını, millətini sevməli, bu hislərlə yaşamalıdır” (2, s.109). Ana dilinə məhəbbət hissinin aşılanmasını isə bunun mühüm komponenti hesab edən Heydər Əliyev xalqın inkişaf edib formalaşmasında, varlığını sübut edib, digər millətlər içərisində özünə mövqe qazanmasında dilin rolunu qiymətləndirməklə ona böyük siyasi əhəmiyyət verir. Həm də dili mənəvi dəyərlərimizin yeganə daşıyıcısı hesab edir. Çünki hər bir xalqın mənəvi dəyərlərini yaşadan, onu nəsildən-nəslə ötürən dildir. Dil müstəqil Azərbaycanın milli sərvətidir. Onu qoruyub inkişaf etdirmək hər bir adi vətəndaşın, siyasətçinin, alimin, müəllimin vətənə, millətə olan məhəbbətini – vətənpərvərliyini ifadə edir. Məhz Ulu Öndərin özü bu müqəddəs hissin daşıyıcısı və nümunəsidir. Onun zəngin təfəkküründən süzülüb gələn aşağıdakı düşüncələri bunu sübut edir: “Öz dilini inkişaf etdirən alim, müəllim, öz tarixini yazan, inkişaf etdirən, tarixini əks etdirən alim, öz mənəviyyatını araşdıran, təhlil edən və ümumiləşdirən, elmləşdirən, xalqına yüksək səviyyədə çatdıran alim – onlar hamısı birlikdə öz xalqının, millətinin, milli şüurunun, milli ruhunun, vətənpərvərlik ruhunun inkişaf etməsinə, irəlidə getməsinə xidmət göstərir”. Hər bir azərbaycanlı yaşadığı yerdən asılı olmayaraq dilinə münasibəti də dəyişməz qalmalı, ona daima ehtiramla yanaşmalıdır: “Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daima doğma Azərbaycanla bir vurmalıdır” (5). Müəyyən coğrafi məkan və zaman daxilində Heydər Əliyev Azərbaycan xalqının yaratdığı dili müxtəlif nöqteyi-nəzərlərə qarşı təkzibolunmaz məntiqi düşüncə tərzi ilə müqavimət göstərərək tarixən formalaşmış, millətinin dilini onun öz adı ilə adlandırılmasında əsl əməli vətənpərvərlik nümunəsi göstərmişdir. Mərhum Prezidentimiz Heydər Əliyevin “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi” barədə tarixi fərmanı da məhz “qəlbi daima Azərbaycanla bir vuran” şəxsiyyət olduğunu bir daha sübut edir.

Milli-mənəvi dəyərlər ruhunda tərbiyəyə üstünlük verərək gəncliyimizin gələcəyinə nikbin baxış nümayiş etdirən Heydər Əliyev onlarla fəxr etdiyini söyləyir: “Fəxr edirəm ki, bizim Azərbaycanın gözəl-göyçək, istedadlı balaları, övladları var, fəxr edirəm ki, Azərbaycanın gələcəyi bu qədər gözəl təməl

əsasında qurulur. Siz bugünkü həyatınızla, təhsilinizlə, öz istedadınızı inkişaf etdirməklə Azərbaycanın gələcəyinin binasını qurursunuz, böyük binanı qurursunuz. Müstəqil Azərbaycanın daim müstəqillik içində yaşayan Azərbaycanın böyük binasını qurursunuz". Belə möhtəşəm "böyük binanı quran" və bu istəyə sadiq olan vətən balalarının tərbiyəsində mənəvi dəyərlərə istinadı vacib sayaraq: "Biz çalışmalıyıq ki, gənclərimiz Azərbaycan xalqına xas olan mənəvi, milli ənənələr əsasında tərbiyə edilsinlər" (5), – deyərək öz ülvi hislərini bildirən Heydər Əliyev onlara aşılanacaq mənəvi keyfiyyətlərdən geniş bəhs edir.

Heydər Əliyev dahiyanə uzaqgörənliklə müstəqil respublikamızda dövlət quruculuğunun bütün sahələrində olduğu kimi, təhsil sahəsində də aparılan islahatların tədricən və dönmədən həyata keçiriləcəyinə böyük inam bəsləyirdi: "Mən onu demək istəyirəm ki, əgər biz təhsil sistemində öz arzularımızı istədiyimiz qədər yerinə yetirə bilmiriksə, bu ona görə deyil ki, dövlət, hökumət bunu istəmir. Ona görədir ki, biz imkanlarımızın çərçivəsindən kənara çıxa bilmirik. Bilməlisiniz ki, biz bu imkanlarımızı ilbəil genişləndiririk və genişləndirəcəyik. Mən buna yüz faiz inanıram, ona əminəm. Bunların hamısı təhsilin inkişafında öz əksini tapacaqdır" (3).

Doğrudan da Ulu öndər Heydər Əliyevin təhsil konsepsiyası onun layiqli və ləyaqətli davamçısı Respublika Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz buna görə də ölkə Prezidenti İlham Əliyevin apardığı məqsədyönlü, davamlı dövlət siyasətinin nəticəsi olaraq təhsil sahəsində də islahatlar davam etdirilərək vahid konsepsiya əsasında konkret dövlət proqramı hazırlandı. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, "Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurikulumu)" təsdiq edildi. Təhsilin normativ hüququ bazası möhkəmləndirildi, infrastrukturun yeni tələblərə uyğun qurulması sahəsində əməli işlər görüldü və bu ardıcıl olaraq davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təsdiq edildi. Bu dövlət sənədində beş istiqaməti – şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılmasını, innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən nüfuzlu təhsil verənlərin formalaşdırılmasını, təhsildə yeni idarəetmə sisteminin formalaşdırılmasını, müasir tələblərə cavab verən infrastrukturun, yeni maliyyələşdirmə mexanizminin yaradılması kimi qlobal problemləri özündə birləşdirir.

**Nəticə**

Azərbaycan dövlətinin həyata keçirdiyi təhsil islahatları bütün aspektləri ilə Ulu Öndərin tarixi uzaqgörənliklə müəyyənləşdirdiyi strategiyaya

əsaslanmaqla möhtəşəm bir mənzərəni ortaya qoymaqdadır. Əldə olunan uğurlar, Təhsil haqqında Azərbaycan Respublikasının qəbul etdiyi qanun, milli təhsil konsepsiyası, fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı, ümumtəhsil pilləsinin dövlət standartları və proqramları və s. hamısı müəyyənləşmiş dövlət siyasətinin yüksək səviyyədə həyata keçirilməsini faktlaşdırmaqla həm də gediləcək yolun perspektivlərini diqqət önünə gətirir. Heydər Əliyevin təhsil siyasətinin həyata keçirilməsinin reallaşdırılmasına yönələn bu strategiyada görüləcək işlərlə əlaqədar gələcək hədəflər də müəyyənləşdirilir. Bütün bunlar Heydər Əliyev siyasətinin təhsildə uğurlu davamı kimi qiymətləndirilməlidir.

## ƏDƏBİYYAT


1. Heydər Əliyev. Təhsil millətin gələcəyidir. Bakı, 2002, 580 s.
2. Heydər Əliyev. Müstəqillik yolu. Bakı, 1997, 135 s.
3. Heydər Əliyev. Respublikanın təhsil işçiləri və ali məktəblərə daxil olmuş tələbələrlə görüşdə nitqi / “Azərbaycan” qəz., Bakı, 31 avqust 1999-cu il.
4. Heydər Əliyev: Müdrik fikirlər. Bakı: Çaşıoğlu, 2000, 416 s.
5. *İsayev İ.* H.Əliyev şəxsiyyəti və düşüncəsi mənəvi dəyərimizdir / Ulu Öndər-90. Bakı, 2013, s.93-102


Redaksiyaya daxil olub 22.05.2023

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2023, C.71, №2, s. 168-175
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2023, V.71, №2, pp. 168-175

*УДК 37*

***А.Я.Гасымова***
*Бакинский славянский университет*
*aynurmehdiyeva84@gmail.com*

# РОЛЬ СЕМИНАРСКИХ ЗАНЯТИЙ В РЕАЛИЗАЦИИ СОДЕРЖАНИЯ ОБРАЗОВАНИЯ В ВЫСШИХ ПЕДАГОГИЧЕСКИХ ШКОЛАХ

***Ключевые слова:*** *содержание образования, преподаватель, семинар, студент, самостоятельная работа*

Семинары, использовавшиеся в древнегреческих и римских школах, до сих пор применяются в университетах и колледжах. Семинар является одной из форм организации обучения в вузах и колледжах. Студенты и преподаватели участвуют в семинарах, которые предполагают интерактивное обсуждение темы в группах. Семинары представляют собой сложный многокомпонентный процесс, который шире и богаче лекций по своим педагогическим и методическим возможностям. Эффективность семинарских занятий определяется деловым сотрудничеством студента и преподавателя, активностью обеих сторон и умением продуктивно работать. Проектирование, правильное и точное планирование семинарских занятий, заблаговременная подготовка вопросов для интервью требует от преподавателя особых навыков и умений.

***A.Y.Qasımova***

# ALİ PEDAQOJİ MƏKTƏBLƏRDƏ TƏHSİLİN MƏZMUNUNUN REALLAŞDIRILMASINDA SEMİNAR MƏŞĞƏLƏLƏRİNİN ROLU

***Açar sözlər:*** *təhsilin məzmunu, müəllim, seminar, tələbə, müstəqil iş*

Qədim yunan və Roma məktəblərində istifadə edilən seminarlardan bu gün də ali məktəblərdə və kolleclərdə istifadə edilir. Seminar universitetlərdə və kolleclərdə təlimin təşkili formalarından biridir. Qruplarda mövzunun interaktiv müzakirəsini nəzərdə tutan seminarlarda tələbələr və müəllimlər iştirak edir. Seminarlar pedaqoji-metodik imkanlarına görə mühazirələrdən geniş və zəngin, çoxkomponentli mürəkkəb prosesdir. Seminar məşğələlərinin səmərəliliyi tələbə və müəllimin işgüzar əməkdaşlığı, hər iki tərəfin fəallığı və məhsuldar işləmək bacarığı ilə şərtlənir. Seminar məşğələlərinin layihələndirilməsi, düzgün və dəqiq planlaşdırılması, müsahibə suallarının əvvəlcədən hazırlanması müəllimdən xüsusi bacarıq və qabiliyyət tələb edir.

***A.Y.Gasimova***

# THE ROLE OF SEMINAR CLASSES IN THE IMPLEMENTATION OF THE CONTENT OF EDUCATION IN HIGHER PEDAGOGICAL SCHOOLS

***Keywords:*** *content of education, teacher, lecture, student, independent work*

Seminars used in ancient Greek and Roman schools are still used in universities and colleges. The seminar is one of the forms of organizing training in universities and colleges. Students and teachers participate in workshops that involve interactive discussion of the topic in groups. Seminars are a complex multi-component process that is wider and richer than lectures in terms of its pedagogical and methodological capabilities. The effectiveness of seminars is determined by the business cooperation between the student and the teacher, the activity of both parties and the ability to work productively. Designing, correct and accurate planning of seminars, preparing interview questions in advance requires special skills and abilities from the teacher.

Семинары, использовавшиеся в древнегреческих и римских школах, до сих пор применяются в университетах и колледжах. Семинар является одной из форм организации обучения в вузах и колледжах. Студенты и преподаватели участвуют в семинарах, которые предполагают интерактивное обсуждение темы в группах. Несмотря на то, что технология и формы проведения семинаров с древних времен изменились, цели и задачи, поставленные перед ними, остались неизменными. Во всех исследованиях, повествующих об особенностях организации процесса обучения в высшей школе, *семинар* считается одной из основных форм практических занятий в высших учебных заведениях, отмечается, что он служит для усвоения методических основ преподаваемых предметов, а также способствует их глубокому и всестороннему изучению.

Семинары представляют собой сложный многокомпонентный процесс, который шире и богаче лекций по своим педагогическим и методическим возможностям. Эффективность семинарских занятий обуславливается деловым сотрудничеством студента и преподавателя, активностью обеих сторон и умением продуктивно работать. Проектирование, правильное и точное планирование семинарских занятий, заблаговременная подготовка вопросов для интервью требует от преподавателя особых умений и навыков. Некоторые русские исследователи считают важным обсуждение вопросов, не затронутых в лекции, на семинарских занятиях. Такой подход к проблеме нельзя считать правильным. Студенты должны уметь применять теоретические знания, полученные на лекции, на семинарских занятиях. Естественно, семинарские занятия не должны быть повторением того, что сказал лектор, а должны дополнять

вопросы о которых повествуют, способствовать их углублению и расширению.

Теоретические знания, полученные на лекции, на практических занятиях преобразуются в навыки и компетенции. Общая информация, сообщаемая студентам на лекциях, дополнительно углубляется и расширяется на практических занятиях. Например, при объяснении темы «Методы обучения» на лекции по педагогике проводится классификация методов обучения (по обучающей задаче, по источникам знаний, по виду познавательной деятельности, по учебным целям , по учебно-познавательной деятельности, по этапам обучения, по общим особенностям и т.д.), в общей форме представлены характерные особенности традиционных и активных методов обучения (рассказ, объяснение, школьная лекция, интервью, иллюстрация, демонстрация, обучающая дискуссия, упражнение, видеометод, работа над книгой и др.). В ходе семинарских занятий преподаватель выступает в роли фасилитатора, а студент в качестве исследователя. В ходе лекции можно упоминать названия активных методов обучения (мозговой штурм, ЗУХ, аукцион, кластер, словесные ассоциации, синектика, дискуссия и т. д.), но невозможно истолковать суть каждого из них на примерах. Разделив студентов на малые группы, возможно объяснить им содержание, цель, алгоритм и условия каждого метода. Если на традиционных семинарских занятиях студенты в основном повествовали то, что узнали на лекции, в форме диалога, то при новом подходе предпочтение отдается групповой работе, проектной работе, презентации. В это время коллективно обсуждаются проекты, доклады, презентации (посредством слайдов), рефераты, подготовленные студентами самостоятельно (можно получить консультацию у преподавателя). На одном семинарском занятии возможно обсуждение презентации 3-4 групп. Обучение студентов этим методам на примерах семинарских занятий по педагогике включает *дискуссионные методы* (обсуждение, дебаты, дискуссионные карты, классический диалог, «аквариум»), *ролевые игры* (ролевой диалог, моделирование, инсценировка, презентация, эссе и др.), *методы проведения исследования* (решение проблемы, кубирование, диаграммы Венна, разработка проектов, анкетирования, «дерево решений», рефлексия, изучение конкретного события и т. д.) создающие наиболее точные представления по теме. Создание у студентов умения эффективно организовать урок сопровождается умением студентов делать презентации на последующих семинарских занятиях. Опыт показывает, что студенты группы, основательно освоившие активные методы обучения (интерактивные) по другим предметам (например, Познание мира и методика их преподавания в начальных классах по специальности «Учитель начальных классов», технология и методика ее преподавания в начальных классах, философия

образования и т. д., на семинарских занятиях студенты по специальности «Учитель азербайджанского языка и литературы» (азербайджанский язык и методика его преподавания, литература и методика его преподавания и т. д.) могут эффективно применять все то, чему они научились. На наш взгляд, высокий уровень творческих способностей выпускников педагогических специальностей по сравнению с предыдущими годами связан с применением в учебном процессе активных методов обучения.

В современный период в преподавании педагогических дисциплин в педагогических вузах наиболее часто применяются новые типы семинаров (семинар-беседа, семинар-дискуссия, семинар-исследование, просеминар и др.).

*На семинарах-беседах* расширяются познавательные возможности студентов, развиваются индивидуально-психологические особенности, становится легче выявить уровень их образованности и степень активности.

*На семинаре-дискуссии* правильное решение педагогических задач достигается путем столкновения различных мнений. Этот подход напоминает мозговой штурм, вид интерактивного метода обучения.

*Семинар-исследование* проводится больше на степени магистратуры, нежели на уровне бакалавриата.

*Просеминары* обычно проводятся в первый учебный год. Они, в основном, предназначены для подготовки к семинарским занятиям. На них студентов знакомят с особенностями самостоятельной работы, технологией работы над книгами и другими первоисточниками. Наблюдения показывают, что большинство студентов первого учебного года не могут работать с книгой, они дословно переписывают информацию из книги в семинарские тетради. На просеминаре следует обучать студентов умению творчески работать с первоисточниками. В противном случае им будет трудно развивать исследовательские навыки в последующие годы.

Если семинар предназначен для обсуждения конкретного вопроса или проблемы, практическая и лабораторная работа определяет активность студентов по определенному алгоритму.

Практические занятия, в основном за счет обеспечения практического применения теоретических знаний, полученных в ходе лекции, формируют в них профессиональные умения и компетенции. Изучение учебных планов по подготовке учителей показывает, что для преподавания некоторых предметов предусмотрены не лекции и семинары, а лишь практические занятия. Например, если по специальности «Учитель азербайджанского языка и литературы» по предмету делового и академического общения на иностранном языке (15 кредитов) предусмотрено только практическое занятие, а по предмету ИКТ в образовании (5 кредитов) предусмотрено как лекционное, так и практическое занятие, по предметам методика

преподавания литературы (7 кредитов) и предмету выразительное чтение (5 кредитов) запланированы как лекции, так и семинары, и практические занятия.

Исследование научно-педагогической литературы показывает, что фронтальные, групповые и индивидуальные формы лабораторных занятий широко использовались при изучении предмета педагогики в педагогических вузах Азербайджана в 70-х и 80-х годах. На лабораторных занятиях, связанных с педагогикой, наглядно изучались различные учебно-воспитательные задачи. К сожалению, в настоящее время, ни в одном из учебных планов вузов, готовящих учителей, нет лабораторных занятий по преподаванию предмета педагогики. Если сопоставить лабораторные работы и практические занятия, то можно прийти к интересному выводу. Итак, практические и лабораторные занятия в основном служат достижению одной и той же цели. Практическая работа дополняет выполнение лабораторной работы. В то же время отметим, что понятие «практическое занятие» шире понятия «лабораторное занятие», поскольку охватывает более широкое поле деятельности.

В педагогических вузах самостоятельная работа студентов занимает решающее место в реконструкции учебного процесса. Самостоятельная работа студентов в высшей школе считается одной из форм организации обучения. В последние годы организация самостоятельной работы будущих учителей исследуется как одна из актуальных проблем педагогики высшей школы. В педагогических вузах самостоятельной работе студентов отводится широкое место, внедряются новые формы и обогащается содержание (самостоятельная работа, подготовка проектов, написание эссе и т. д.).

Ф.Рустамов считает важным учитывать следующие принципы при организации самостоятельной работы студентов: *«1) принцип систематичности и последовательности; 2) принцип синергетического подхода; 3) принцип эффективного использования времени; 4) принцип научной организации студенческой работы; 5) принцип независимости»* [2, с.255-259].

В педагогике самостоятельная работа определяется как планомерная, организационно-методически направленная познавательная деятельность студентов без непосредственной помощи преподавателя для достижения учебных целей. Наиболее распространенными формами самостоятельной работы, представленными студентам факультета педагогики и психологии БСУ, являются следующие: 1) прослушивание лекций и введение необходимых конспектов; 2) использование учебников и учебных пособий, интернет ресурсов по теме; 3) подготовка проектов на семинарских занятиях, демонстрация презентаций посредством слайдов; 4) написание самостоятельных работ по педагогическим предметам; 5) написание

курсовых работ; 6) написание выпускных работ для итоговой Государственной Аттестации; 7) занятия научными исследованиями по линии Студенческого Научного Общества.

В 2020 году итоговый Государственный аттестационный экзамен (выпускная работа) не был предусмотрен Программой образования, утвержденной Министерством Образования для педагогических специальностей. Сомнительно, что студенты, не написавшие дипломную работу, в будущем смогут написать качественную диссертацию, при поступлении в магистратуру. По этой причине следует серьезно относиться к формированию исследовательских умений у студентов бакалавриата, а тем, у кого слабый исследовательский уровень, следует давать рефераты и творческие задания.

Наряду с этим, следует отметить, что осуществление самостоятельной работы сопряжено с определенными трудностями:

1) отсутствие четкой методики формирования навыков самостоятельной работы;

2) время студентов реально не распределяется и используется неэффективно;

3) отсутствие оптимальной координации учебной, познавательной и научной деятельности студентов;

4) недифференцированность самостоятельной работы в зависимости от особенностей предмета и специальности;

5) слабое влияние самостоятельной работы на развитие творческой активности студентов;

6) отсутствие у студентов мотивации к желанию и стремлению выполнения самостоятельной работы и т.д.

Все это также приводит к тому, что студенты сталкиваются с определенными трудностями в процессе самостоятельной работы (отсутствие навыков, необходимых для самостоятельной работы, и умения применять теоретические знания на практике).

В связи с этим становится актуальным вопрос организации самостоятельной работы студентов в педагогических вузах по новому содержанию и более эффективно.

Педагогические исследования предлагают ряд способов организации самостоятельной работы студентов. По этой причине существуют разные подходы к классификации самостоятельных работ. Некоторые исследователи классифицируют самостоятельную работу по ее внешним признакам. Например, Т.А.Мамедов самостоятельную работу студентов делит на «учебную, научную и общественную работу» [3, с.12]. По характеру учебной деятельности В.П.Стрезикозин разделяет самостоятельную работу на работу над учебниками и учебными пособиями, словарями и энциклопедиями,

выполнение учебных заданий, лабораторную работу, работу, связанную с использованием иллюстрации, карты, схемы, графика и раздаточного материала [5, с.72]. Б.П.Есипов классифицирует самостоятельные работы по дидактической цели: приобретение новых знаний, применение полученных знаний на практике, повторная проверка знаний, умений и навыков студентов [4, с.112].

Разделение самостоятельной работы студентов по дидактической цели также ценится в исследованиях азербайджанских ученых-педагогов (М.Мурадханов, И.Велиханлы, С.Ибрагимова, А.Гасанов, Г.Ахундова, М.Дадашова и др.). Некоторые исследователи (М.Мехдизаде, М.Исмиханов, Ф.Рустамов, Т.Дадашова) классифицируют самостоятельную работу по характеру познавательной деятельности. По мнению М.Исмиханова, *«самостоятельная работа в обучении – это вид учебной деятельности, проявляющийся в способности студента решать поставленную учебную задачу с определенным усилием и самостоятельностью»* [1, с.12]. Здесь упущено то, что самостоятельная работа характеризуется как учебная деятельность, так как несамостоятельная учебная работа также является учебной деятельностью.

Совершенствование форм организации обучения путем внедрения новых средств, методов и образовательных технологий в учебный процесс в педагогических вузах является одним из основных направлений реформ в сфере высшего педагогического образования.

1. В современный период в высшем педагогическом образовании широко применяются компьютерные технологии. Как мы уже упоминали выше, компьютерные технологии значительно стимулируют эффективность обучения. В то же время отметим, наряду с этим, и другие средства обучения не теряют своей значимости.

2. В результате единства технологии обучения программированию (структурирование, презентация и проверка) и информационных технологий, предложенной американским исследователем Б.Ф.Скиннером и усовершенствованной Н.Краудером, появилась и развивается технология дистанционного обучения, исключающая личный контакт преподавателя-студента.

3. Интенсифицировать и совершенствовать преподавание педагогических дисциплин можно путем широкого использования интерактивных, развивающих технологий обучения, игровых технологий, технологий проблемного обучения, технологий активного обучения, а также модульных технологий обучения.

4. Новые технологии, применяемые в преподавании педагогических дисциплин, должны стать не только средством обучения, но и контролем уровня усвоения обучающимися содержания образования. Педагогический

контроль, являясь частью образовательного процесса, влияет как на результат, так и на усвоение студентами заданного содержания. Мониторинг учебных достижений студентов позволяет получить информацию об уровне их усвоения и ориентированного на студента содержания.

Таким образом определяется степень эффективности деятельности, проводятся сравнения и готовятся проекты по совершенствованию процесса обучения.

***Актуальность статьи*** определяется тем, что системно разъясняется роль семинарских занятий в реализации содержания образования в педагогических вузах в современную эпоху.

***В новизне статьи*** обобщается накопленный опыт реализации содержания высшего педагогического образования в высших школах Азербайджана.

***Практическая значимость статьи.*** В современный период повысить качество образования возможно, используя теоретические идеи и опыт, связанные с ролью семинара в реализации содержания образования в педагогических вузах.

## ЛИТЕРАТУРА


1. *İsmixanov M.A.* İbtidai təlimdə şagirdlərə müstəqil iş bacarıqlarının aşılanması / M. A. İsmixanov. Bakı: Maarif, 1987, 148 s.
2. *Rüstəmov F.A.* Ali məktəb pedaqogikası / F.A.Rüstəmov, T.Y.Dadaşova. Bakı: Elm və təhsil, 2007, 568 s.
3. *Məmmədov T.Ə.* Ali pedaqoji təhsil sistemində tələbələrin tədris, elmi və ictimai fəaliyyətinin qarşılıqlı əlaqəsi: Ped. üzrə fəls. dok. … dis. avtoref. Bakı: ADPU, 1989, 26 s.
4. *Есипов Б.П.* Самостоятельная работа учащихся на уроках / Б. П. Есипов. М.: Учпедгиз, 1961, 239 с.
5. *Стрезикозин В.П.* Организация процесса обучения в школе / В.П. Стрезикозин. М.: Просвещение, 1968, 280 с.


Redaksiyaya daxil olub 05.04.2023

*UOT 37*

***M.H.Nəzərov, P.Y.Mədədov, S.B.Quliyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*muslimnazarov@mail.ru, m.polad@mail.ru, sevinc0610@mail.ru*

# TƏHSİL PROSESİNİN TƏŞKİLİNDƏ İNNOVATİV TƏLİM TEXNOLOGİYALARININ TƏTBİQİ

***Açar sözlər:*** *təhsil, interaktiv təhsil, innovasiya, texnologiya, innovativ texnologiya, təlim prosesi*

Məqalədə təlim prosesində innovativ texnologiyalardan istifadədən və innovativ texnologiyaların insan fəaliyyətinin bütün sahələrində, o cümlədən təhsildə istifadə olunması istiqamətlərindən, innovativ pedaqoji texnologiyaların təhsil sistemindəki rolu və əhəmiyyətindən bəhs edilir.

Təhsilin informasiyalaşdırılmasının ən mühüm vəzifələrindən biri kimi gələcək mütəxəssisin informasiya mədəniyyətinin formalaşdırılmasının mərhələləri, ilk növbədə, informasiya prosesləri, modelləri və texnologiyaları barədə biliklər müəyyənləşdirilir.

Müasir informasiya texnologiyalarından istifadənin əsas pedaqoji məqsədləri müəyyənləşdirilir, təhsildə innovartiv təlim texnologiyalarından istifadə vasitələri təhlil olunur.

***М.Г.Назаров, П.Я.Мададов, С.Б.Гулиева***

# ПРИМЕНЕНИЕ ИННОВАЦИОННЫХ ТЕХНОЛОГИЙ ОБУЧЕНИЯ В ОРГАНИЗАЦИИ УЧЕБНОГО ПРОЦЕССА

***Ключевые слова:*** *образование, интерактивное обучение, инновация, технология, инновационная технология, учебный процесс*

В статье говорится об использовании инновационных технологий в учебном процессе и направлениях использования инновационных технологий во всех сферах деятельности человека, в том числе и в образовании, о роли и значении инновационных педагогических технологий в системе образования.

В качестве одной из важнейших задач информатизации образования определен этап формирования информационной культуры будущего специалиста, прежде всего знаний об информационных процессах, моделях и технологиях.

Определены основные педагогические цели использования современных информационных технологий, проанализированы средства использования инновационных технологий обучения в образовании.

***M.H.Nazarov, P.Y.Madadov, S.B.Guliyeva***

## APPLICATION OF INNOVATIVE LEARNING TECHNOLOGIES IN THE ORGANIZATION OF THE EDUCATIONAL PROCESS

***Keywords:*** *education, interactive education, innovation, technology, innovative technology, learning process*

The article talks about the use of innovative technologies in the training process and the directions of using innovative technologies in all areas of human activity, including education, the role and importance of innovative pedagogical technologies in the education system.

As one of the most important tasks of informatization of education, the formation of the information culture of the future specialist, the stage of its formation, first of all, knowledge about information processes, models and technologies is determined.

The main pedagogical goals of using modern information technologies are determined, the means of using innovative learning technologies in education are analyzed.

Bu gün aydın olur ki, əsrlərin və minilliklərin dəyişməsi həyatın sosial nizamında qaçılmaz dəyişikliklərə gətirib çıxarır. İnformasiya texnologiyalarının həyatın bütün sahələrində sürətlə yayılması ilə müşayiət olunan cəmiyyətin inkişafının posttexnogen mərhələsinə keçid təhsilə mövcud yanaşmaların yenidən nəzərdən keçirilməsini və yenilərinin axtarışını tələb edir.

Bununla əlaqədar olaraq, cəmiyyətin maddi və mənəvi həyatının hadisələrinin və əlaqələrinin bütün zənginliyini layihələndirməyə və reallıqda təkrar istehsal etməyə qadir olan keyfiyyətcə yeni təhsil sistemi yaradılmalıdır.

Cəmiyyətin məqsədləri ilə təhsil alanların məqsədləri də bir-biri ilə bağlıdır: böyüyən nəsil nə qədər savadlıdırsa, onun kortəbii məqsədləri sosial-pedaqoji məqsədlərdən bir o qədər fərqlənir. Bu ziddiyyətin aradan qaldırılması təhsildə iştirak edən tərəflərinin fəaliyyətinin tədricən yaxınlaşmasını və son nəticədə onların şəxsi mənalarının üst-üstə düşməsini nəzərdə tutur. Bu baxımdan təhsil sisteminin formalaşmasına mühüm təsir göstərən ötən əsrdə yaranmış və cari əsrdə də davam edə biləcək tendensiyaların təhlili xüsusi aktuallıq və əhəmiyyət kəsb edir.

Təhsildə innovasiyalar təhsilin təkamülü üçün perspektivli olan, təhsilin bütün forma və metodlarının inkişafına müsbət təsir göstərən müxtəlif təşəbbüslər və innovasiyalar əsasında yaranan aktual əhəmiyyətli və sistemli şəkildə özünü təşkil edən yeniliklərdir. Müasir təhsilin inkişafı ilə əlaqədar “innovativ fəaliyyət” konsepsiyası təhsilin məzmununun və təhsil prosesinin təşkilati-texnoloji əsaslarının məqsədyönlü transformasiyası kimi qəbul edilə bilər, təhsil xidmətlərinin keyfiyyətinin və təhsilin rəqabət qabiliyyətinin artırılmasına yönəldilə bilər.

Sosial innovasiyaların əsasını Azərbaycan təhsilinin modernləşdirilməsi və informasiyalaşdırılması təşkil edir. Təhsilin müasirləşdirilməsinin əsas məqsədi təhsil sisteminin davamlı inkişafı mexanizmini yaratmaq, onun XXI əsrin çağırışlarına, ölkənin inkişafının sosial və iqtisadi tələblərinə, fərdin, cəmiyyətin tələbatlarına uyğunluğunu təmin etməkdən ibarətdir. Azərbaycan təhsilinin modernləşdirilməsi ən geniş ixtisaslar, təhsil səviyyələri, təhsil müəssisələri və informasiya və təhsil resursları üzrə tələbələrin təhsil ehtiyaclarının maksimum dərəcədə ödənilməsinə yönəlmiş bütün təhsil sisteminin çevrilməsinin innovativ prosesidir. Eyni zamanda, həm tələbənin yerindən, həm də ehtiyac duyduğu təhsil resursundan və ya xidmətindən asılı olmayaraq təhsil gözlənilən effekti verməlidir. Modernləşmənin nəticəsi, ilk növbədə, ölkənin müasir həyatının cari və gələcək tələblərinə uyğunluğu ilə müəyyən edilən təhsilin yeni keyfiyyətinə nail olmaqdır.

Hazırda rəqabətli sosial mühitdə insanın keyfiyyət xüsusiyyətlərinin yüksəldilməsi, şübhəsiz ki, qeyri-adi, fərqli təfəkkür və yaradıcı fəaliyyət tələb edir. Təhsil sahəsində informasiyalaşdırma tədrisin təşkilinin forma və üsullarını təkmilləşdirməklə yanaşı, bütün tədris prosesinin idarə edilməsi və nəzarətinin yeni üsullarının yaranmasına şərait yaradır. İnformasiya texnologiyalarından düzgün istifadə tədris-metodiki materialları toplamağa, tədris materiallarından istifadənin səmərəliliyini artırmağa, şəxsi proqramlarla işləməyə imkan verir, dərsə hazırlıq və onun aparılması səmərəli olur, müəllim didaktik materialı təkrarlayır, tələbələrin bilik səviyyəsinə nəzarət edir.

Müvafiq olaraq günün tələbi ilə təhsilin inkişafı ilə əlaqədar dövlət və cəmiyyət üçün yeni dəyərlər nəzərə alınmaqla yeni dəyişikliklər meydana çıxır, təhsil sistemində köklü dəyişikliklərin aparılması problemləri qarşıya qoyulur. Bu sahədə qətiyyətli addımlar atmağa yalnız xüsusi çox vacib dəyərlər təsir edir.

Əgər pedaqoji elm hər gün yeni faktlarla, tendensiyalarla doldurulursa, deməli, o, şübhəsiz ki, irəliləyir. Bu baxımdan pedaqoji nəzəriyyənin əsaslarına və strukturuna əsaslanaraq, pedaqogikanın metodologiyası bir elmi-pedaqoji nəzəriyyə formalaşdırır, biliklərin toplanması üsullarını və yollarını müəyyən edir

Tədris prosesində kompüterdən istifadə xalq təhsili sistemlərində aparılan islahatların əsas həlqəsidir. Cəmiyyətin və bugünkü məktəbin tələblərinə uyğun olaraq kompüterin imkanları nəzərə alınmadan tədrisin metod və formasında köklü dəyişiklik aparmaq mümkün deyil.

İqtisadiyyatın bütün sahələrində kompüterdən, informasiya texnologiyalarından istifadə etməyi bacaran müasir mütəxəssislərlə təmin olunması müvafiq sahələr üzrə informasiya sistemləri üzrə mütəxəssislərin hazırlanması problemini gündəmə gətirir. Bu problem respublikanın bütün ali məktəblərində qaldırılır və daha da gücləndirilməsini tələb edir.

Hazırda təhsil məktəblərində ali məktəblərimiz ən müasir kompüterlərlə təchiz olunub, çoxlu dərsliklər, dərs vəsaitləri və təlimatlar nəşr olunur. Bununla

belə bu problemi həll etməklə qarşı tərəfin bütün çətinliklərini aradan qaldırmaq, dövrün tələblərinə uyğun şüurlu təhsil və biliklər vermək olar. Ona görə də biliyin orijinal məzmununda biliyin informasiyalaşdırılması zəruridir, bunlar:

- gələcək təhsil təkcə kompüterdən, informasiya texnologiyalarından asılı deyil, uşaqların biliklərini və yaradıcılıq fəaliyyətini təkmilləşdirmək üçün kompüter əsasında yeni elmi əsaslar yaratmaq lazımdır;
- kompüterdən istifadə qaydalarının öyrədilməsində iki yol yaradılmalıdır: birincisi, yeni texnologiyalara yönəlmiş yeni tədris vəsaitlərinə ehtiyac; ikincisi, müəllimlə tələbə arasında ünsiyyətin əsası;
- təhsil sistemınə yeni pedaqoji texnologiyaların tətbiqindən sonra kompüter təhsilinin şagirdlərin şüurunun və psixologiyasının inkişafına təsirinə nəzarət etmək zərurəti yaranır.

Beləliklə informasiyalaşdırma – informasiya ehtiyatlarının formalaşdırılması, təqdim edilməsi, istifadə olunması əsasında dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların, vətəndaşların informasiya tələbatlarının və bu sahədəki hüquqlarının təmin edilməsinin optimal şəraitinin yaradılması üçün təşkilati, sosial-iqtisadi və elmi-texniki prosesdir [8].

Təhsilin informasiyalaşdırılması təhsilin məzmununun keyfiyyətinin yüksəldilməsi ideyasının həyata keçirilməsinə, elmi-tədqiqat işlərinin aparılmasına, onların tətbiqinə yönəlir, milli təhsildə bütün fəaliyyət növlərində ənənəvi informasiya texnologiyalarının daha səmərəli olanlarla əvəz edilməsini nəzərdə tutur.

Təhsil sisteminin modernləşdirilməsi və təhsil müəssisələrinin idarə edilməsi probleminin həlli istiqamətində ən önəmli innovativ yanaşmalardan biri də təhsilin informasiyalaşdırılmasıdır.

Təhsilin informasiyalaşdırılmasını təhsil sistemindəki bütün fəaliyyət növlərində ənənəvi informasiya texnologiyalarını daha təsirli əvəz etməklə təhsilin keyfiyyətini yüksəltməyə yönəlmiş bir proses kimi başa düşülür [3, s.187].

Təhsilin informasiyalaşdırılmasının ən mühüm sahələri bunlardır:

- təhsil müəssisəsi səviyyəsində virtual informasiya mühitinin formalaşdırılması;
- təhsildə informasiya texnologiyalarının sistem inteqrasiyası, təlim, elmi tədqiqat və təşkilati idarəetmə proseslərinin dəstəklənməsi;
- vahid təhsil informasiya məkanının qurulması və inkişafı;
- yeni elmi-texniki və elmi-metodiki informasiya ilə daimi təminat;
- kompüter proqramları ilə təhsil sisteminin informasiya təminatı problemlərinin həllinə yönəlmiş geniş informasiya mərkəzləri şəbəkəsinin yaradılması.

Təhsildə innovativ texnologiyaların tətbiqi müasir təhsil texnologiyalarına

əsaslanan tədrisə yeni yanaşmalar tələb edir. Təhsil texnologiyası təhsildə müəyyən bir təhsil hadisəsinin müəyyən edilmiş xüsusiyyətlərinin (məzunların müəyyən keyfiyyətləri, təhsilin məzmunu, təhsil işçilərinin ixtisasartırması və s.) alınmasını müəyyən edən vasitələr sisteminin təhsildə məqsədyönlü istifadəsidir. Müasir təhsil texnologiyaları, ilk növbədə, hər bir şagirdin şəxsiyyətinin yaradıcı inkişafına töhfə verən yaradıcı təhsil üçün işləməlidir.

Təhsil texnologiyası hər hansı təhsil proseslərinə (təhsil sisteminin idarə edilməsi, təhsil müəssisəsinin inkişafı, pedaqoji kollektivin formalaşdırılması və s.) aid olan hərəkətlərin məcmusuna təhsil texnologiyasının strukturuna məqsəd qoyma, monitorinq və qiymətləndirmə kimi komponentlər daxildir, müasir təhsil sisteminin əsasını isə informasiya texnologiyaları təşkil edir. Təhsildə innovativ texnologiyalar təkcə informasiya texnologiyalarına əsaslanan təhsilin inkişafını deyil, həm də müvafiq informasiya və təhsil mühitinin yaradılmasını tələb edir. Buna əsaslanaraq birincisi, məsafədən və dövlət sərhədlərindən asılı olmayaraq insanlar arasında ünsiyyət üçün imkanlar yaradır, ikincisi, vahid informasiya-təhsil mühiti insanların özləri tərəfindən yaradılmış, müasir informasiya və təhsil texnologiyalarına əsaslanan, internet mühitində təhsil prosesinin aparılması üçün hamını eyni texnoloji vasitələrlə təmin edən idarə olunan psixoloji-pedaqoji sistem kimi müəyyən edilə bilər. Vahid təhsil informasiya mühiti çərçivəsində təşkilati, pedaqoji və informasiya texnologiyaları ilə təmin edilən açıq təhsil sisteminin formalaşdırılması və inkişafı həyata keçirilir. Bu mühitdə idarəetmə və struktur həllərin köməyi ilə açıq sistemlərin yaradılması zamanı əldə edilən mobilliyi, sabitliyi, səmərəliliyi və digər müsbət keyfiyyətləri təmin etmək məqsədilə informasiya mübadiləsi üçün interfeyslər, formatlar və protokollar üçün açıq standartlar təmin edilir.

Elmin tərəqqisi həm də onun metodoloji istiqamətlərindən asılıdır. Ona görə də hazırda təhsil müəssisələrində texnologiyanın nəzəri və praktiki yeniliklərindən istifadə olunur. M.H.Nəzərov, N.Z.Quliyev, X.M.Nəzərova "Pedaqoji texnologiyalar" [1] adlı dərs vəsaitində aşağıdakı təsnifatları təklif edirlər: struktur məntiq texnologiyası, inteqrasiya texnologiyası (müxtəlif fənn biliklərinin bir-biri ilə əlaqəsi), oyun texnologiyası, təlim texnologiyası, informasiya texnologiyası, ünsiyyət texnologiyası, layihə təlim texnologiyası, məntiqi təfəkkürün inkişafı texnologiyası, modul təlim texnologiyası, multikultural təhsil texnologiyası və s.

Bu təsnifat hazırda geniş istifadə olunur, çünki təhsilin əsas yolu tədrisdir. Tədris müəllim və şagirdin tədrisin səmərəli təşkili üçün konkret məqsədi yerinə yetirdiyi vahid pedaqoji prosesdir.

Hazırda tələbələrin lazımi məlumatları tapmaq, onu emal etmək və müəyyən nəticələr çıxarmaq bacarığına böyük diqqət yetirilir. Eyni zamanda, bir qrup həmyaşıdları ilə sosial qarşılıqlı əlaqə və dostluq etmək bacarığı əldə edilir. Məktəblərin qarşısına qoyulan məqsəd və vəzifələrin dəyişməsi nəticəsində tədris

prosesində innovativ texnologiyalardan istifadə zərurəti yaranır.

Təhsildə innovativ texnologiyalar üç elementin kompleksi ilə təmsil olunur:

1. Tələbələrə ötürülən məzmun. Müasir dünyaya adekvat olan səriştələrin formalaşmasına yönəlməlidir. Bu məzmun yaxşı qurulmalı, vizual olaraq multimedia şəklində təqdim edilməli və müasir kommunikasiyalar vasitəsilə ötürülməlidir.

2. Tələbələrin fəal iştirakına yönəlməli olan tədris metodu. Bilik passiv şəkildə deyil, uşaqların birbaşa iştirakı ilə əldə edilməlidir.

3. Məlumat, texnoloji, təşkilati və kommunikasiya komponentləri daxil olmaqla öyrənmə vasitələri.

Müasir təhsil texnologiyalarının əsas məqsədləri aşağıdakılardır:

- tələbələr arasında yeni biliklər əldə etməyə, işləməyə və yenidən öyrənməyə imkan verəcək fundamental biliklərin formalaşdırılması;

- yaradıcı şəxsiyyət tipinin formalaşması, qrup və analitik iş qabiliyyəti, dözümlülük, layihə təfəkkürünün formalaşdırılması.

Deməli, aydın olur ki, tədris prosesində innovativ metodlardan istifadə zəruridir. Ancaq bu halda suallar yaranır: bu texnologiyalar nə olmalıdır və kim onları təcəssüm etdirməlidir?

Təbii ki, ikinci sualın cavabı özünü göstərir. Təhsildə yenilik edən insanlar müəllim olmalıdır. Bəs müasir şəraitin tələb etdiyi təhsili almamış insanlar təhsil prosesinə necə yeni bir şey gətirə bilər? Bu o deməkdir ki, ilkin mərhələdə müəllimlərin yenidən hazırlanması lazımdır. Müasir məktəbdə, fikrimizcə, bütün pedaqoji kollektiv yenidən hazırlıq keçməli və ya yeni tendensiyalarla tanış olmağa imkan verən hər cür kurslardan keçməlidir. Hal-hazırda respublikamızda müxtəlif səviyyələrdə müəllimlər arasında bir çox müsabiqələr keçirilir, onları təhsildə innovativ metodların tətbiqinə stimullaşdırır. Telekommunikasiya şəbəkələrində müxtəlif seminarlar keçirilir. Qlobal internetdə sinifdə yeniliklər etməyə imkan verən çoxlu məlumat var.

Müasir məktəblərin pedaqoji fəaliyyətində innovativ texnologiyaların böyük arsenalı mövcuddur. Onların tədris prosesində istifadəsinin mümkünlüyü müəllimlərin dəyişiklikləri qəbul etməyə hazır olmasından və təbii ki, təhsil müəssisələrinin texniki dəstəyindən asılıdır. Bir çox məktəblərdə siniflər interaktiv lövhələr və multimedia qurğuları ilə təmin edilir, müəllimin yeri internetə çıxışı olan fərdi kompüter və ya noutbukla təchiz edilmişdir.

Praktik müəllimlər gündəlik işlərində fəal və interaktiv formaları özündə birləşdirən innovativ texnologiyalardan və müasir tədris metodlarından istifadə edirlər. Aktiv metodlar tələbələrin bilavasitə iştirakını, onların tədris prosesində fəal mövqeyini nəzərdə tutur. İnteraktiv formalar eşitmə-vizual qavrayış vasitəsilə əldə edilmiş biliklərin daha yaxşı mənimsənilməsinə imkan verir. Bu üsullar tələbələrin komandanın bir hissəsi kimi işləməyə, qrup bilikləri almağa dəvət

edildiyi, lakin eyni zamanda fərdi məsuliyyət daşıdığı zaman qrup öyrənmə formalarına aiddir. Müəllimlər bu cür dərs formalarının aparılmasının məqsədəuyğunluğunu qeyd edirlər:

- dərslər-ekskursiyalar;
- dərslər – məşhur insanlar, müxtəlif sənaye mütəxəssisləri, yaradıcı insanlar ilə görüşlər;
- yaradıcılıq dərsləri – tamaşaların səhnələşdirilməsi, qəzet və ya filmin yaradılması;
- filmlərə və videolara baxmaq;
- “beyin həmləsi” və ya “qərar ağacı” kimi üsullardan istifadə etməklə mürəkkəb məsələlərin və problemlərin həlli.
- qrup tapşırıqları.

Nəticədə, şagirdlərdə yeni material əldə etmək, onu təhlil etmək bacarığı formalaşır, oxuduqlarından nəticə çıxarmağı, əldə edilən məlumatları ümumiləşdirməyi və sistemləşdirməyi, müzakirə və mübahisə etməyi öyrənirlər. Təbii ki, tədris prosesində innovativ metodlardan istifadə artıq zərurətə çevrilir. Ənənəvi üsullar öz yerini yenilərinə verir, çünki yeniliklər özünü tez istiqamətləndirən və müstəqil qərar qəbul etməyi bacaran “yeni” insanı formalaşdırmağa imkan verir.

Amma ənənədən yeniliyə bu keçid kortəbii olmamalıdır. Bütün dəyişikliklər diqqətlə tərtib edilməlidir və bir neçə sahədə olmalıdır: psixoloji və pedaqoji, sosial-pedaqoji və birbaşa pedaqoji.

Beləliklə, innovativ texnologiyalar insan fəaliyyətinin bütün sahələrində, o cümlədən təhsildə istifadə olunur. Zamanın keçməsi və həyat tərzinin dəyişməsi yeniliklərə ehtiyacı diktə edir. Hər hansı bir yeniliyin tətbiqi kortəbii deyil, planlı, diqqətlə təhlil edilən prosesdir.

Tədris prosesində istifadə olunan innovativ texnologiyaların müxtəlifliyini konkret nəzərdən keçirək:

Fənn təhsilində innovativ texnologiyalar iki qrupa bölünə bilər:

1. Ümumi texnologiyalar:
- informasiya və kommunikasiya texnologiyaları (İKT);
- təhsil və təhsilin keyfiyyətinin idarə edilməsinə informasiya və analitik dəstək;
- didaktik;
- sağlamlığa qənaət.

2. Öyrənməyə fərdi yanaşmaya əsaslanan texnologiyalar:
- şəxsiyyət yönümlü;
- innovativ texnologiyaların tətbiqinə psixoloji və pedaqoji dəstək;
- intellektual inkişafın monitorinqi;
- təhsil;

- qabaqcıl təlim texnologiyası.

Təhsil prosesinə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi müxtəlif bilik sahələrinin informatika ilə inteqrasiyasını nəzərdə tutur. Bu, tələbələrin təfəkkürünün informasiyalaşdırılmasına və onların müasir dünyada informasiyalaşdırma proseslərini dərk etməsinə gətirib çıxarır.

İKT-nin üstünlüklərinə aşağıdakılar daxildir: tədris olunan materialın görünməsi, yaradıcı iş üslubu, müxtəlif mövzular üzrə istənilən məlumat mənbəyinə maneəsiz çıxış, məlumatların yenilənməsinin səmərəliliyi.

Dərslərdə İKT-dən istifadənin əsas müsbət cəhəti audiovizuallaşdırma vasitəsilə çatdırılan məlumatın qavranılmasının mümkünlüyüdür.

Müəllimin fəaliyyətində bu texnologiyalardan istifadə məlumatların işlənməsinə və dərslərə hazırlığa sərf olunan vaxtı azalda bilər.

Bununla belə, müəllim dərsdə İKT-dən istifadə edərkən unutmamalıdır ki, istifadə olunan texniki vasitələr müəllim kimi onu əvəz etmir, yalnız ona lazım olan materialı daha aydın və əyani şəkildə təqdim etməyə imkan verir.

Təhsilin keyfiyyətinin idarə edilməsinə informasiya və analitik dəstək, bu texnologiyanın istifadəsi zamanı uşağın, sinfin, paralel siniflər qrupunun və bütövlükdə məktəbin fasiləsiz inkişafını izləməyə imkan verir. Bu üsul şagirdlər tərəfindən fənlərin mənimsənilməsinə nəzarət, ayrı-ayrı müəllimlərin işinə nəzarət proseslərinin tərkib hissəsinə çevrilmişdir. Bu texnologiya İKT-nin istifadəsi ilə birlikdə daha səmərəli işləyir. Bunun bariz nümunəsi "Şəbəkə şəhəri" sistemində elektron gündəliklərin və elektron jurnalların tətbiqini göstərmək olar ki, burada hər bir şagirdin və bütövlükdə məktəbin nailiyyətlərinin dinamikasını da izləmək olar.

Bu yolla əldə edilən bütün məlumatların məktəb rəhbərliyi tərəfindən vaxtında öyrənilməsi mənfi tendensiyalara tez reaksiya verməyə və nəticədə savadlı idarəetmə qərarları vasitəsilə təhsilin keyfiyyətini yüksəltməyə imkan verir.

Didaktik texnologiyalara aşağıdakılar daxildir: oyunlar; qrup tapşırıqları; layihələrin hazırlanması; dərslik ilə müstəqil iş.

Oyunların metodu tələbələri maraqlandırmağa, cəlb etməyə imkan verir. Nəticədə lazımi bilikləri əldə edir, məlumatları mənimsəyir. İbtidai sinif şagirdləri arasında istifadə etmək çox vacibdir.

Qrup tapşırıqları uşaqların dialoq aparmaq qabiliyyətinin inkişafına kömək edir, problemlərin həlli üçün bir neçə variantı nəzərə alır və müzakirə yolu ilə konsensusa gəlir.

Layihələr hazırlayarkən məktəbdənkənar həyatda qəbul edilməli olan böyük bir bacarıq və bacarıq bazası formalaşır. Əsər yaratmaq üçün tələbələr informasiya mənbələrini tapmalı, onları öyrənməli, alınan məlumatları sistemləşdirib yığcam formada həyata keçirməlidirlər. Eyni zamanda layihənin hazırlanması yaradıcı yanaşma tələb edir. Tamamlanmış iş birbaşa tələbə tərəfindən yaradılmış foto və ya

videomateriallarla müşayiət olunur [1, s.153].

Hazırda təhsildə sağlamlığa qənaət edən texnologiyalara böyük önəm verilir. Bu, əlverişli psixoloji iqlimin saxlanmasına və sağlam həyat tərzinin təbliğinə yönəlmiş təlim prosesinə sistemli yanaşmadır.

Effektiv təhsilin ən vacib aspektlərindən biri dərslər zamanı rahat, qonaqpərvər mühitdir. Tamamilə bütün müəllimlər psixoloji cəhətdən sabit işləməyə çalışırlar. Axı bu, müəllimlə şagird arasındakı maneənin azaldılmasına, deməli, hər bir şagirdin yaradıcılıq qabiliyyətinin üzə çıxmasına kömək edir. Uyğun yumor, kiçik kənarlaşmalar, səhvlərin nəzakətlə düzəldilməsi, zehni fəaliyyətin stimullaşdırılması – bunlar müəllimə sinifdə rahat psixoloji atmosferə nail olmağa imkan verən üsullardır.

Uşaq sağlamlığına qayğı bir neçə sahəni əhatə edir. Birincisi, lazımi gigiyenik və psixoloji aspektlərin yaradılmasıdır. İkincisi, sağlam həyat tərzinin təbliğidir. Üçüncüsü, müxtəlif xəstəliklərin qarşısının alınması.

Şəxsiyyətyönümlü təlim texnologiyaları uşaq şəxsiyyətinin formalaşmasında bütün təhsil sisteminin mərkəzində duraraq, ailədə və təhsil müəssisəsində rahat şərait təmin edir, onun inkişafı üçün münaqişəsiz və mövcud təbii potensialın reallaşmasına şərait yaradır. Şəxsiyyətyönümlü təlim texnologiyası yeni təhsil proqramlarının məzmununun tələblərinə cavab verən inkişaf edən bir mühitdə tətbiq olunur [1, s.230].

Bu yenilikləri tətbiq edərkən müəllim çoxsəviyyəli, modul təlim, “kollektiv qarşılıqlı təlim” metodlarından istifadə edir.

Orta ümumtəhsil məktəblərində bir sinifdə şagird sayı çox olduğundan şagirdyönümlü təlim texnologiyalarından istifadə çətinləşir. Xüsusi islah müəssisələrində bu texnologiyalardan istifadə çox yayğındır ki, bu da siniflərdə az sayda şagird ilə əlaqələndirilir. Bundan əlavə, bu tip təhsil müəssisələrinin uşaqlarında tez-tez birdən çox sapma olur ki, bu da öyrənməyə, şagirdyönümlü bir yanaşmaya təcili ehtiyac yaradır.

Hər bir pedaqoji texnologiya özünü inkişaf etdirmək və şəxsi yaradıcılıq qabiliyyətlərini təkmilləşdirmək, əlverişli şərait yaratmaq üçün zəruri olan obyektiv metodoloji imkanları əhatə edir.

İnteraktiv təlim metodu təhsil sahəsində yeni konsepsiya deyil. Bir çox müəllim və tələbə artıq bu üsulla tanışdır. Bir çox təhsil müəssisələri bu tədris metodunun effektivliyindən xəbərdardırlar.

İnteraktiv təlim metodunun əsas məqsədi təkcə tələbələrin şəxsi və kollektiv qabiliyyətlərini təkmilləşdirmək deyil, həm də onların məlumatı düzgün qavramasına, informasiyanın müzakirəsində iştirakına və müxtəlif problemlər üzrə qərar qəbul etməsinə nəzarət etməkdir.

İnteraktiv təlim metodları tələbələrin müəllimlə, məzmunla və birgə öyrənmədə öz aralarında fəal qarşılıqlı əlaqəsinə əsaslanan təlim metodlarıdır [12] .

İnteraktiv təlim metodunun funksiyaları aşağıdakılardır:

Birincisi, interaktiv təlim metodun əsas funksiyası:

- onlarla necə işləməyi öyrətmək;
- onları öz qabiliyyətlərindən səmərəli istifadə etməklə tanış etmək.

İnteraktiv metodun ikinci funksiyası tələbələrin qabiliyyətlərinin inkişafı, yəni tələbələrin intellektual qabiliyyətlərinin təkmilləşdirilməsidir:

- onlara fikirlərini düzgün ifadə etməyi öyrətmək;
- onlara vəziyyəti düzgün qiymətləndirməyi öyrətmək;
- mühüm problemlər haqqında düzgün qərar qəbul etməyi öyrətmək.

Eyni zamanda, interaktiv təlim metod sizə özünüzü qrupda saxlamağı, fikrinizi konkret və açıq şəkildə ifadə etməyi öyrədəcək. Hər bir müəllim və ya təşkilatçı tədris prosesi zamanı ənənəvi və ya yeni metodlardan istifadə edir. Beləliklə, texnologiyanın təşkili məktəbə öz istiqamətini gücləndirməyə imkan verir. Ona görə də müxtəlif qurumların rəhbərləri etiraf etməlidirlər ki, daimi dəyişikliklərin yaranması düzgün fakt kimi qəbul edilir.

Müəssisələrin (məktəblər, universitetlər və s.) tələblərinə uyğun olaraq, hər gün dərsdə video, audioqurğular və kompüterlərdən istifadə əhəmiyyətli nəticədir. Bu cür instalyasiyalar tələbələrin (şagirdlərin) marağını artırır, onlara yenidən baxıb dinləmək imkanı verir. Sonra onlar alınan məlumatları dəqiqləşdirə biləcəklər. Lazım gələrsə, tələbələr:

a) distant təhsil imkanı.

b) biliyin keyfiyyətinə və dil biliyinə təsir edən zəruri məlumatı axtarmaq bacarığı;

c) hərəkət tələb edən tapşırıqların öyrənilməsində (rəsm, rəqs, əl işi, idman və s.).

e) müxtəlif fiziki, kimyəvi, bioloji nəticələri bilmək imkanı əldə edəcəklər.

İnnovativ texnologiya tələbələrin peşəkar bacarıqlarını təkmilləşdirir, bunun sayəsində tələbə öz biliyini xarici dünyaya nümayiş etdirə biləcək.

Tədris prosesində informasiya texnologiyalarından istifadə şagirdlərin zehni fəaliyyətinin inkişafına kömək edir. Müasir tədris prosesinin tələblərinə cavab verən interaktiv metodlar təlimin tədris və tərbiyə aspektlərinin keyfiyyətini əhəmiyyətli dərəcədə artırır. Məktəb dərsi interaktiv metodlardan geniş istifadə üçün pedaqoji bacarıqların tramplinidir. Tədris prosesində innovativ texnologiyalardan istifadə təlim motivasiyasının artmasına, şagirdlərin yaradıcılıq qabiliyyətlərinin inkişafına səbəb olur.

## ƏDƏBİYYAT

1. *Nəzərov M.H, Quliyev N.Z, Nəzərova X.M.* Pedaqoji texnologiyalar: Dərs vəsaiti. Bakı: ADPU, 2020, 467 s.

2. *Nəzərov M.H.* Təhsilin sosiomədəni əsasları: Monoqrafiya. Bakı: Elm və təhsil", 2017, 256 s.
3. *Nəzərov M.H, Quliyev N.Z.* Cəmiyyətin inkişafinda təhsilin informasiyalaşdıırıl-masının rolu // Geostrategiya, Bakı, 2021, № 03(63), s.186-192
4. *Капустин Н.П.* Педагогические технологии адаптивной школы: Учебное пособие для вузов. М.: Академия, 2010, 214 с.
5. *Колесникова Т.А.* Применение инновационных технологий в образовательном процессе современной школы // Научное обозрение. Педагогические науки, 2017, № 6-2, с.261-269
6. *Рапацевич Е.В.* Инновации в образовании: роль среды информационных технологий // Успехи современного естествознания. 2013, №10, с.86-88
7. *Захарова Т.В.* Исследование развития коммуникативной компетентности в младшем подростковом возрасте в условиях реализации // Научное обозрение. Педагогические науки, 2017, № 6-1, с.51-59
8. Azərbaycan Respublikasinin "İnformasiya, informasiyalaşdırma və informa-siyanın mühafizəsi" haqqında qanunu / E-qanun.gov.az.framework/3525
9. https://geostrategiya.az/news.php?id=179
10. https://cyberleninka.ru/article/n/rol-informatsionnyh-tehnologiy-v-obrazovanii-1
11. https://natural-sciences.ru/ru/article/view?id=32975
12. https://sberuniversity.ru/edutech-club/glossary/937/

Redaksiyaya daxil olub 12.04.2023

***UOT 811.512.162***

***S.C.Novruzəliyeva***
*Azərbaycan Tibb Universiteti*
*sevda.novruzaliyeva@mail.ru*

# KOMMUNİKASİYA VƏ EQONUN NEQATİV TƏSİRLƏRİ

***Açar sözlər:*** *cəmiyyət, ailə, kommunikasiya, eqo, nəfsani istək, təvazö, mərhəmət, sevgi*

Eqo kommunikativ prosesdə çağdaş insanların üzləşdiyi bir problemdir. Məqalə həmin problemin çözülməsinə, ondan çıxış yollarının aranmasına həsr olunub.

Sözügedən məqalənin "Eqo anlayışına giriş", "Eqo neqativ proses kimi", "Eqo və qadınlar", "Eqonu yenən prinsiplər" adlı dörd başlığı var. Hər başlıqda eqoya və onun neqativ təsirlərinə ayrı-ayrı prizmalardan yanaşılır, dünyaca tanınan alimlərdən, övliyalardan, yazarlardan, padşahlardan, sərkərdələrdən, Buddadan, Qurandan, Peyğəmbərdən 19 sitat gətilirilib.

Məqalə müəllifinin ruscadan və türkcədən çevirdiyi sitatlar məqalənin ana dirəyi olub, ona yön və istiqamət verir.

***С.Дж.Новрузалиева***

## КОММУНИКАЦИЯ И НЕГАТИВНЫЕ ЭФФЕКТЫ ЭГО

***Ключевые слова:*** *общество, семья, коммуникация, эго, похотъ, смирение, сострадание, любовь*

Эго – это проблема, с которой современные люди сталкиваются в коммуникативном процессе. Данная статья посвящена решению этой проблемы и поиску путей выхода из нее.

Рассматриваемая статья имеет четыре заглавия: «Введение в понятие эго», «Эго как негативный процесс», «Эго и женщины», «Принципы, побеждающие эго». В каждом заглавии эго и его негативные последствия рассматриваются с отдельных призм, цитируются 19 цитат всемирно известных ученых, святых, писателей, царей, полководцев, Будды, Корана и Пророка.

Цитаты, переведенные автором статьи с русского и турецкого языков, составляют основу статьи и задают ей направление.

***S.J.Novruzaliyeva***

## COMMUNICATION AND NEGATIVE EFFECTS OF EGO

***Keywords:*** *society, family, communication, ego, desire, humility, compassion, love*

Ego is a problem that modern people face in the communicative process. This article is dedicated to solving that problem and finding ways out of it.

The article in question has four titles: "Introduction to the concept of ego", "Ego as a negative process", "Ego and women", "Principles of the ego". In each title, the ego and its negative effects are approached from separate prisms, 19 quotes from world-renowned scientists, saints, writers, kings, generals, Buddha, Quran, and the Prophet are cited.

The quotes translated by the author of the article from Russian and Turkish are the backbone of the article and give it direction.

İnsanlararası görüşlərdən danışarkən eqo və onun gətirdiyi neqativ hallardan da söz açmalıyıq. Kontrol altına alınmayan eqonun fəsadları özünü kommunikasiyaya girən şəxslərin danışıq və davranışlarında göstərir. Eqoya tuş gələn insan özünü dünyanın beyin mərkəzi sayır, özü üçün xəyalında yaratdığı dünyanın ağasıdır, burada kimsəni özündən üstün görmür, hamını özündən aşağı duyur və o, bu xəyali dünyada ən güvənli, ən ağıllı, ən savadlı, ən dəyərli persondur. Bu davranış çevrədəki insanlar arasında simpatiya (rəğbət) yaratmır, əksinə, apatiya (nifrət) oyadır. Belə davranış psixoloji baxımdan sağlam sayılmır, əsəb pozluğunun ortaya qoyduğu bir fəsad olaraq anlaşılır.

**Eqo anlayışına giriş**

Eqo daşıyıcısı olan kimsə təkəbbürlü, qəzəbli və kinli olur. Təkəbbür qəzəbə, qəzəb kinə, kin də qeyri-normal insan psixikasına yol açır. Kommunikasiyada eqolu insanların ən çox işlətdiyi ifadələr bunlardır: ən yaxşıyam, ən gözələm, ən bacarıqlıyam, ən bilikliyəm, öncə mən, sonra hər kəs, kimsədən üzr istəmərəm, hamı məndən üzr istəsin, kimsənin ayağına getmərəm, əsla xəta etmirəm, nə edirəm düz edirəm, o kimdir mənə ağıl öyrətsin və bu kimi başdan yuxarı sözlər.

Eqodan söz açarkən “alt şüur”, “mənlik”, “üst mənlik” adlı üç eqoya aydınlıq gətirməliyik. Tanınmış psixoloq Ziqmund Freyd hesab edir ki, *“Alt şüur içimizdəki doyumsuz heyvandır”* [5, s.203]. Bu doyumsuz heyvan yalnız öz ehtiyaclarını düşünür, ancaq öz istəklərini güdür və nəfsani arzularına doğru çabalayır. Onu mənəviyyat-ədəb-əxlaq baxımından heç nə maraqlandırmır, bu üstün duyğular ona yaddır.

Eqonun “mənlik”, “üst mənlik” bölümləri isə kommunikativ prosesdə yaxşı ilə pisi, doğru ilə yanlışı ayırd etməyə yardımçı olurlar. Qısası, alt şüura qulluq edən davranış kontrol altına alınmayan eqoya yol açır, mənliyə və üst mənliyə qulluq edən davranış isə kontrol altına alınan eqoya, yəni normanı aşmayan, bəyənilən eqoya (azacıq ölçüdə olan eqoya) gətirib çıxarır. Örnək üçün deyək ki, körpələr alt şüur ilə yeyir, içir, acıyır, susayır, ağrıyır, ağlayır və gülürlər. Mənlik və üst mənlik duyğuları isə onlarda bir az yaşa dolandan sonra

yaranmağa və get-gedə artmağa başlayır. Ata-anaya, vətənə sevgi, bilik, dini inanc, toplumda (cəmiyyətdə) yerini tanımaq üst mənliyə aid işlərdir. İnsan embrion (rüşeym) olaraq ana bətninə düşəndə ulu Tanrının fərmanı ilə onun beyin neyronlarına alt şüur, mənlik və üst mənlik kodları yazılır. Bunların birincisi uşaq doğulan kimi açılır, çünki açılmasa, körpə ölər. Qalan ikisi isə zaman axarında açılır.

**Eqo neqativ proses kimi**

Dediyimiz kimi, eqo insanın duyğularında, düşüncələrində və davranışlarında yuva salır. Bu bəla iki yöndən ziyan gətirir. Birincisi, ziyanın çoxu eqolu insanın ailəsinə, qonşularına, yaxın və uzaq qohumlarına, iş yoldaşlarına dəyir. İkincisi, eqoya tutulanın özünə, varlığına, sağlığına, sosial mövqeyinə, insani dəyərlərinə ziyan dəyir. Eqosu olan sonda (müəyyən zaman keçəndən sonra) tək qalır, hamı onunla ünsiyyətdən yayınır. Göründüyü kimi, eqoist öz davranışları ilə özünü ucaltdığını zənn edir, amma əslində özünü və şəxsiyyətini alçaldır.

"Mən" anlamında latınca "eqo" ifadəsi çağdaş dövrümüzdə "özünü bəyənmək, özünü yüksək tutmaq, ancaq özünü düşünmək, ancaq öz mənafeyini güdmək" anlamına gələn neqativ (qınanan) davranış formasıdır. Eqo bir ilan olaraq insan ürəyində yuva qurur, balalayıb artır, insana mənfi (bəyənilməz) notlar diktə edərək, insanı öz gözündə böyüdərək, insanın həyatını cəhənnəmə döndərir. Tomas Mürrey eqonu bu baxımdan qınayaraq yazır ki, *"Özünü bəyənmək elə bir cəhənnəm ilanıdır ki, insanın ürəyinə hiyləgərcəsinə süzülüb girir"* [10, s.162].

Eqolu insan yalnız özünü və ailəsini düşünür, özünün və ailəsinin mənafeyini prioritet sayır, hamını özündən aşağı görür, cəmiyyətdə baş verən proseslərə baş qatmır, can yandırmır. Cəmiyyətdə formalaşan, ondan bəhrələnən eqoist bir insan ona naxələf çıxır, insanlıq borcunu, vətəndaşlıq mövqeyini, humanist baxışını ortaya qoymur. Göründüyü kimi, eqonun (özünü bəyənmənin yuva qurduğu bir qəlbdə insanlıq, vətəndaşlıq və humanizm kimi ülvi duyğulara yer qalmır. Eqonun qınandığı Azərbaycan Milli Ensiklopediyasında vurğulanır ki, "*Eqo insanın davranışında yalnız öz mənafeyini güdməsi, cəmiyyətin və başqalarının mənafeyini nəzərə almaması şəklində ifadə olunur" (2, s.479).*

Eqo öz diktəsini dinin şeytan dediyi nəfsani istəklərdən alır. Bu istəklər insana yaxşı heç nə vəd etmir, tam əksinə, insanı aldadaraq, onu bic-bic yollarla uçuruma doğru aparır. Uçuruma düşən qurtuluş tapa bilmir. Öncə mənəvi, ardınca da fiziki olaraq məhv olur. Al Paçino eqoya işarə edərək deyir ki, *"Loğvalıq və özünü böyük görmək şeytanın nökərləridir. Əgər sən onları yönəldə bilməsən, onlar səni yönəltməyə başlayacaqlar"* [3, s.501]. Nəfsani istəyin yönəltdiyi fərd cəmiyyətdə kommunikasiyaya girdiyi fərdləri aşağılayır,

onların insani dəyərlərini saya almır, bir sözlə, pozucu və ziyanverici bir fərdə dönür.

Şara hava dolduqca böyüdüyü kimi, nəfs də insan qəlbinə girişincə onu öz gözündə böyüdür. Bu faciəvi duruma düşən insan özünə qıraqdan baxa bilmir, özünə başqalarının gözü ilə baxa bilmir, baxa bilmədiyi üçün özünün neqativ davranışını, ünsiyyətdə olduğu adamların ona tuşlanan ikrah dolu yanaşmasını ayırd edə bilmir. Neçə ki, ayırd edə bilmir, eqo adlı ilan onun yaxasını buraxan deyil. Elə ki, öz ətəyini eqonun görünməz əlindən qurtardı, o zaman bu insan islah olub cəmiyyətin yararlı ünsürünə çevrilməyə başlayacaq. İnsanların haradasa başaqlara (sünbüllərə) oxşarı var. Belə ki, taxılın, çəltiyin sünbülündəki dənlər boş ikən, yəni hələ qarın bağlamamışkən sünbüllərin başı dimdik olub, havaya yönəlir. Sünbüldəki dənlər dolduqca, başqa sözlə, dənlər qarın bağlayıb artdıqca, sünbüllər başlarını aşağı dikirlər. Deməк, eqolu insan (yan-yörəsindəki insanlardan özünü üstün görən insan) dəni olmadığı üçün başını havaya tutan sünbüllər kimidir. Amma özünü təvazökar aparan, insana insan kimi yanaşan insan başını aşağı dikən sünbülləri xatırladır. Aristotelin ifadəsi ilə desək, *"İnsanlar başaqlara bənzərlər. İçləri boş ikən başları havadadır, dolunca başları əyilirlər"* [1, s.302].

Qonşuluqda, iş yerində, gündəlik davranışda eqo adlı mənəvi xəstəliyə düçar olan kimsə xoşbəxt sayıla bilməz. Xoşbəxt o kəsdir ki, sahib olmadıqlarına üzülmür, sahib olduqları isə onu qudurtmur. Demək, xoşbəxt insanda hüzur var (hamı ilə xoş keçinir). Eqolu insanda xoşbəxt yaşamın izi belə yoxdur, çünki onun qəlbində, davranışında, sözündə, gördüyü işində hüzur yoxdur, xoşbəxtliyin payı yoxdur. Göründüyü kimi, eqo insanı bədbəxt edir. İş ondadır ki, o, öz bədbəxtliyini görə bilmir, görə bilmədiyinə görə özünü öyülməyə layiq sayır, bir halda ki o, nə normal, nə də öyüləsi adamdır. Ona görə Qautama Budda doğru deyirdi ki, *"Xoşbəxt insan eqosunun öhdəsindən gələ bilən insandır" [11].*

Bəşər özünü tanıyandan, yazıya sahib olandan lovğalıq qınanıb və qınanır. Səma kitabı olan Qurani-Kərimdə də buna barışmaz yanaşma sərgilənir. *"Allah özünü bəyənənləri, lovğalıq edənləri sevməz"* [6, s.83] ayəsi eqonu pisləyən çoxsaylı ayələrdən biridir. Məhəmməd peyğəmbərin onlarla kəlamı var ki, onlarda eqo qamçılanır. Belə ki, *"Müsəlman qardaşını kiçik görməsi pislik olaraq insana yetər"* [8, s.103] hədisində Peyğəmbər bizlərə səslənir ki, bir başqasını kiçik görmək, ona xor baxmaq pislik olaraq anlaşılır.

Kommunikativ prosesdə eqo bir bəladır. Eqolu insanlar başqasının uğurlarına sevinmir, başqasının gözəl yaşamından örnək almayıb, ona qısqanır, hər an başqasının, hətta yaxınlarının xoş günlərini eşitmək istəmirlər. Belə neqativ davranış yiyəsi olan insan dünyanın ən zəngin insanı olsa da, düzünə qalsa, dünyanın ən bədbəxt insanıdır. Bir kəs ki, sevinmir, sevindirmir, başqasının gözəl günləri onun pislik dolu iç aləmini qovurur, o kimsə iztirab

içindədir (içi içini yeyir). Artur Şopenhauer haqlıdır, deyəndə ki, *"Eqoizm iztirabın əsas mənbəyidir"* [4, s.206].

Allahın qullarını (bəndələrini) kiçik görmək, onları aşağılamaq yalnız o kəsin işidir ki, özünü böyük görə, böyük sana. Haqsız yerə özünü böyük saymaq, insanlarla davranışda özünü böyük şəxs kimi aparmaq insanı günaha, Yaradana qarşı itaətsizliyə sürükləyir. Günlərin birində Haqq yolundan çıxan insan mütləq cəzasına çatır, ömrünün son illərini əlil olub yataqda qalır, ələbaxımlı bir həyat keçirir, onun-bunun yardımına möhtac olur. Böyük övliya olan Bayazid Bistami dediyi kimi, *"Allahın qullarını kiçik görərək, özünü böyük sanmaq qulun Haqq qatındakı dəyərini yox edər"* [12]. Tanrı qatında qulun dəyəri yox olanda qul günah dəryasında üzməklə (çoxlu sayda günah işlətməklə) dünyasını (hüzur içində yaşamını) və Axirət gününün müjdəli mükafatı olan Cənnəti itirir.

Hər bir insanın təbiətində eqo var. İş ondadır ki, var olan eqo azacıq olsa, insanın xeyrinədir, şəxsiyyətinin qorunmasına yardımçıdır. Durum onda pis olur ki, eqo çox ola, ölçünü aşa. Demək, aşırı (normanı aşan) eqo ziyanvericidir, məhvə sürükləyəndir. Ona görə Viktor Huqo deyirdi ki, *"Ən yaxşılar belə eqoist düşüncələrdən uzaq deyildir"* [8, s.103].

**Eqo və qadınlar**

Qadının eqosu kişinin eqosundan daha faciəvi, daha dağıdıcıdır. Eqolu qadın ailə başçısı olan ərini əl-ayaq açmağa qoymur, ona böyüklük edir, onu qohumlarının gözündən salır. Belə anadan dünyaya gələn oğul-qız da eqoya yüklənir. Beləliklə, qadın eqosu ailəyə facə gətirir, ailədə hüzuru, böyük-kiçikliyi aparır. Çox nadir hallarda olur ki, eqolu qadın əri ilə ömrünün sonuna kimi kəbində qalsın. Boşanmaların səbəbləri çoxdur. Bir qisminin birbaşa səbəbi cavan qadınlarda olan eqodur. Çarls Çaplin çox haqlı olub, deyəndə ki, *"Eqoist qadın yuvasının yıxılmasına səbəb olur"* [3, s.83].

Eqoist qadın ailəni dağıdırsa, bunun əksi olan güvənli, təvazökar (sadə davranışlı), səbirli, xeyirxah qadın ailəsinin təməlini möhkəmləndirir, həyat yoldaşına sayğı və sevgi bəsləyir. Qadın güvənli-təvazökar-səbirli-xeyirxah olanda ona ağıllı qadın deyirlər. Ağıllı qadın ailəsinin başçısı olmur, ailənin başçısı olan ərinin köməkçisi olur. Ailə təməlinin düsturunu verən Pifaqor demişkən, *"Ağıllı qadın! Əgər istəyirsən ərin boş vaxtlarını səninlə keçirsin, elə davranmalısan ki, səndə gördüyü həzz və rahatlığı, güvən və təvazökarlığı heç yerdə tapmasın" [5, s.196]*. Cəmiyyətə fayda vermək baxımından qadının xeyirxahı ilahi xəzinədir, güvənli, təvazökar, səbirli qadınlardan da üstündür. Dünya fatehlərindən olan Napoleon Bonapart demişkən, *"Gözəl qadın gözlərə, xeyirxah qadın isə ürəyə xoş gəlir. Biri görüntü olaraq gözəldir, o biri xəzinə olaraq"* [13, s.62].

Təkbaşına qalmış meyvəsiz bir ağac baxımsızlıq üzündən quruyub gedər. Onu kimsə görməz, çünki adam yaşayan yerdə deyil. Meyvəsini kimsə yeməz, çünki bir insan yoxdur ki, meyvəsini görə. Kölgəsində kimsə daldalanmaz, çünki yan-yörəsində insan yoxdur. Onu quru odun kimi işlədən də olmaz, çünki bir kimsə onu görmədən çürüyüb sıradan çıxar. Eqoist insan eynən bu ağac kimidir. Çarls Çaplin doğru söyləyir ki, *"Eqoist insan təkbaşına qalmış meyvəsiz bir ağac kimi quruyub gedər"* [3, s.244].

Xoşbəxt insan o kəsdir ki, başqalarına köməyi dəyir. Ən xoşbəxt insan odur ki, başqalarına köməyi dəyməklə yanaşı, başqalarının xoşbəxtliyindən özünə pay çıxara bilir. Deməк, eqoist xoşbəxt olmaz, Quranda adı keçən Qarun kimi xəzinəsi olsa da, toplam varidatı 300 milyard civarında olan Rokfellerlər sülaləsindən maliyyə maqnatı olsa da.

Eqoist olan fərd başqalarının acısını (dərdini, kədərini) duymaz, çünki, dediyimiz kimi, qəlbi paslı olduğu üçün qapalıdır. Eqoist başqalarının acısından ötrü ağlayıb, gözündən yaş da tökməz, çünki paslı qəlbi ağlaya bilmir ki, gözdən yaş gələ. Gözdən yaş gəlməsi mərhəmət göstəricisi olub, qəlbin ağlamasıdır. İbn Xəldun çox haqlı olub, yazanda ki, *"Mərhəmət məsum (suçsuz) olduğu üçün hər qəlbə qonaq gəlməz"* [7, s.102]. Göründüyü kimi, eqoist bilməz mərhəmət nədir, bilmədiyi üçün fiziki anlamda insandır, məna-ədəb-əxlaq-təvazö baxımından insan deyil, yararsız olduğu üçün yararlı heyvandan da aşağı mövqedə dayanan bir canlı varlıqdır. Demək, eqoist bir fərddir ki, onunla danışmağa dəyməz. Min heyif ki, bu, acı həqiqətdir.

İctimai-siyasi bir hadisə olan müharibə şəhərləri, kəndləri və yerüstü tikililəri sıradan çıxarır, çoxsaylı günahsız insanları ölümə verir, ailələrə fəlakət yaşadır, uşaqları ata-anasız edir. Müharibə görmüş ölkə uzun müddət özünə gələ bilmir, iqtisadiyyata yüz milyardlarla ziyan dəyir. Müharibə görməmiş xalqlar müharibə acısını Azərbaycan xalqı kimi duya bilməz. Erməni işğalçıları ucbatından minlərlə oğlunu itirən, minlərlə cavanı şikəst olan, yurdunda qaçqına dönən, bir çox yurdları yerlə bir olan Azərbaycan xalqı müharibənin ağrılı yükünü 30 ildir öz çiynində qürurla daşıyır.

Çətin bir durum qarşısında qorxaqlıq, dönüklük və xainlik anlamında xəyanət, ikrah doğuran, pislənən insani davranışlardır. Eqoizimi damğalayan Ernest Heminquey yazır ki, *"Müharibədən də pis şeylər vardır. Qorxaqlıq (ondan) pisdir, xəyanət (ondan) pisdir, eqoizim (ondan) pisdir"* [5, s.46]. Görün eqoizim necə bir bəladır ki, böyük bir yazar sadaladığı dörd mənfi faktora eqozimi də qatır.

Heç bir eqonun sonu yaxşı bitməyib, heç kəs real həyatda eqoistin sonda xoşbəxt olduğunu eşitməyib. Xalqından, yerindən asılı olmayaraq dünyanın hər yerində lap qədim dönəmlərdən eqoya, eqoistə nifrət bəslənilib. Bunun bariz örnəklərini dastanlarda, romanlarda, poemalarda, hekayələrdə, təsviri sənətdə, dini qaynaqlarda görürük. Eqo günəşdən xəbərsiz olub, bərkliyi

və soyuqluğu ilə öyünən buz kimidir. Günəş qızaranda yekələnən buz əriməyə üz qoyduğu kimi, özü ilə öyünən eqoist də zaman axarında zavala üz qoyur və sonda acınacaqlı bir durumda fani dünyanı tərk edir. Mevlana Rumi eqonu (təkəbbürü, özünü böyük görməni) qınayaraq vurğulayır ki, *"Təkəbbür eynən günəşdən xəbərsiz olan buzun özünü bir şey zənn etməsi kimidir"* [14].

**Eqonu yenən prinsiplər**

Təbiətdə hər dərdin dərmanı var, hər zəhərin də bir padzəhri var. Eqo adlı bir dərdin də dərmanları var. Bu dərmanların başında təvazö (sadəlik) durur. Eqo şəxsiyyəti alçaldır, təvazö onu qaldırır. Eqo sayğını yox edir, təvazö onu var edir. Eqo zəhlə tökür, təvazö ürəkləri fəth edir. Eqo bərəkətin kökünü kəsir, təvazö bərəkət saçır. Təvazö üçün bir örnək olan Fatih Sultan Mehmet öz müəlliminə işarə edərək başqalarına deyib ki, *"Bəli, padişah mənəm. Ancaq siz yenə də çiçəkləri ona verin. Çünki o, mənim müəllimimdir"* [14]. Sultan öz müəllimini uca tutmaqla, elmi uca saymaqla eqonun tam əksi olan təvazö üçün bir örnək vermiş olub.

Eqoya qarşı olan, onu səngidən ikinci prinsip mərhəmət (başqasının halına acıma) sayılır. Mərhəmət dünyanın ruhuna hopan tanrısal (ilahi) bir özəllikdir. Ana öz körpəsinin yolunda min-min əzaba qatılırsa, bunu edən şəfqət adlı platonik bir duyğudur. İnsan təmənna güdmədən bir başqasına əl tutursa, onun işini düzüb-qoşursa, bacı qardaşa, qardaş bacıya kömək edirsə, öyüdə ehtiyac duyana birisi öyüd verirsə, bunları edən mərhəmət adlı digər bir platonik duyğudur. Tanrının mərhəməti bütün yer üzünü sarıyıb. Bu mərhəmət olmasa, Günəş yer üzünü isitməz, qaranlıq gecədə Ay parlamaz, səmadan yağış yağmaz, ağac çiçəklənib meyvə verməz, otlar göyərməz, bir sözlə, həyat sönər. Məhəmməd peyğəmbərin bir hədisində deyildiyi kimi, *"Şübhəsiz ki, Allahın yüz rəhməti vardır. Bu rəhmətin birisinin üzündən varlıqlar bir-birinə mərhəmət edirlər. Qalan doxsan doqquzu isə Qiyamət gününə saxlanılıb"* [9, s.25]. Buradakı "rəhmət" ifadəsi Allahın bütün varlıqlara, o sıradan insanlara etdiyi təmənnasız yaxşılıq anlamına gəlir, "mərhəmət" ifadəsi isə insanın bir başqa insanın halına acıyıb kömək etməsidir.

İnsanda ali duyğu olan sevgi eqonu yenən üçüncü prinsipdir. Eqo qoymur ki, sevgi insan qəlbinə yer alsın, onu yararlı fərdə döndərsin. Sevgisi olmayan qəlb qapanır, tutumu daralır, bir başqasının çətin durumuna acımır, bir sözlə, insan oğlu get-gedə davranış baxımından heyvanlaşır. Elə davranışlar var ki, onlar ya eqonun özüdür ya da ona yaxın anlayışlardır. Asılılıq, özünü bəyənmək, yığıcılıq, başqalarına hökm etmək eqonun yaxın və uzaq sinonimləridir. Artur Şopenhauer düzgün vurğulayır ki, *"Sevməyə ancaq o zaman başlamaq olar ki, özündə asılılıq, eqoizm, özünü sevmək, yığıcılığa meyillilik və başqalarına hökm etmək alışqanlığı kimi özəllikləri bir yana qoyasan"* [7, s.29].

Kommunikasiyaya girən hər kəs qarşısındakından sevgi, yardımlaşma istəyir, eqolu davranış istəmir. Sevgi cəzb edir, eqo təkanlayır. Sevgi yol göstərir, eqo yol azdırır. Sevgi ucaldır, eqo alçaldır. Sevgi ruh verir, eqo ruhdan salır. Sevgi bacarıq verir, eqo bacarıqsızlıq verir. Göründüyü kimi, sevgi və eqo antonim anlayışlardır, həmişə və hər yerdə bir-birinə barışmaz düşmənlərdir. Mistik quru olan Oşo eqonu buz dağına bənzədərək, sevgi ilə onu əritməyi tövsiyə edərək bu minvalla okeanın (sevgi okeanının) bir parçasına dönməyi məsləhət edərək deyir ki, *"Eqo bir buz dağıdır, onu ərit, onu dərin sevginin içində ərit. Bu yolla o yox olsun və sən okeanın parçası halına gəl"* [13, s.250].

**Məqalənin aktuallığı**

- Azərbaycanda ictimai formasiyanın (quruluşun) dəyişməsi ilə əlaqədar eqoist tendensiyaların cəmiyyətin düzəninə mənfi təsirlərinin artan miqyasını nəzərə alaraq, məqalə müəllifi bu mövzuya üz tutur.
- Peyğəmbər-filosof-yazar-alim-hökmdar-sənət adamı olmaqla dünyaca tanınan şəxslərin kəlamları və məqalə müəllifinin mülahizələri ilə kommunikativ prosesdə (insanlararası ünsiyyətdə) eqonun neqativ və dağıdıcı roluna aydınlıq gətirilir.

**Sitatları yazanlar**

Miladdan öncə VI əsrdə Buddizmin banisi Qautama Budda, miladdan öncə VI əsr yunan filosofu Pifaqor, miladdan öncə IV əsr yunan filosofu Aristotel, VIII əsrdə yaşayan Məhəmməd peyğəmbər, XIX əsr fars sufisi Bayazid Bistami, VIII əsr sufi şairi Mevlana Rumi, XIV əsr ərəb filosofu İbn Xəldun, XV əsr Türkiyə sultanı Fatih Mehmet, XIX əsr Fransa imperatoru Napoleon Bonapart, XIX əsr alman filosofu Artur Şopenhauer, XIX əsr fransız yazarı Viktor Huqo, XIX əsr Avstriya psixoloqu Ziqmund Freyd, XIX əsr amerikan aktyoru Tomas Mürrey, XIX əsr amerikan aktyoru Çarlz Çaplin, XX əsr amerikan yazarı Ernest Heminquey, XX əsr hindistanlı mistik quru Oşo, XX əsr amerikan aktyoru Al Paçino kimi şəxsiyyətlərdən sitatlar yer alır.

## ƏDƏBİYYAT

1. *Aristotel.* Böyük etika. Bakı: Yeni nəşrlər evi, 2006, 432 s.
2. Azərbaycan Milli Ensiklopediyası: 10 cilddə, VII c., Bakı, "Azərbaycan Milli Ensiklopediyası" Elm Mərkəzi, 2016, 608 s.
3. *Dadaşov A.* Dünya kinosu. Bakı: Şərq-Qərb, 2016, 686 s.
4. *Seyidova S.* Alovlu natiqin aforizmləri // Dil və ədəbiyyat, Beynəlxalq Elmi-nəzəri jurnal, Bakı, 2015, №2(94), s.60-64
5. *Fromm E.* Sağlam cəmiyyət. Bakı: Qanun, 2019, 367 s.
6. Qurani-Kərim / Azərbaycan dilində. Bakı: Nurlar, 2017, 604 s.
7. *Sinelnikov V.* Stresə qarşı peyvənd, Bakı: Qanun, 2019, 255 s.

8. *Tarle Y.* Napoleon. Bakı: “Max ofset”, 2020, 176 s.
9. *Hadis-i Şerif.* Buhari. İstanbul: İslam Yayın evi, 2021, 306 s.
10. *Тамбов М.Д.* Элементы речевой агрессии в современном газетном тексте // Филологические науки (научнй журнал), Москва, 2015, №1, с.40-45
11. https://.youtube.com/Olumsuz-sözler/Gautama Buddha
12. https://.youtube.com/Leyla/Beyazid Bistani
13. https://.youtube.com/Güzel-sözler/İbn Haldun
14. https://.youtube.com/Güzel-sözler/Mevlana

Redaksiyaya daxil olub 15.03.2023

*UOT 37*

***N.İ.Zamanova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*zamanovanazakat13@gmail.com*

# REYTİNQ QİYMƏTLƏNDİRİLMƏ RƏQƏMSAL DÜNYADA

***Açar sözlər:*** *reytinq qiymətləndirmə, meyarlar, Şanxay qiymətləndirilməsi, Britaniya qiymətləndirilməsi, keyfiyyət təminatı*

Məqalədə Azərbaycan Dövlət Pedaqoji Universitetinin reytinq qiymətləndirilməsinin təhsil müəssisəsinin keyfiyyətinin yüksədilməsinə, rəqabətliliyin yaranmasına yol açdığından bəhs edilir. Eyni zamanda keyfiyyətin əldə edilməsi üçün təhsil ocağının lokal, regional və əsasən beynəlxalq müstəvidə araşdırılmasının zəruri olduğu söylənilmişdir. Qiymətləndirilmənin meyarları digər təhsil müəssələrinin meyarları ilə müqayisəsi nəzərə çatdırılaraq zaman itkisinə yol vermədən innovativ dəyişikliyin aparılması vurğulanmışdır. Təhsil müəssisəsinin müstəqil hüquqi statusunun olması ilə onun inkişafının təmin ediləcəyi diqqətə çatdırılır. Eyni zamanda akademik heyətin qiymətləndirilməsi onların fəaliyyətinin beynəlxalq müstəvidə inkişafına təkan verdiyi bildirilmişdir.

***Н.И.Заманова***

## РЕЙТИНГОВАЯ ОЦЕНКА В ЦИФРОВОМ МИРЕ

***Ключевые слова:*** *рейтинговая оценка, критерии, шанхайская оценка, британская оценка, обеспечение качества*

В статье отмечается, что рейтинговая оценка Азербайджанского государственного педагогического университета открывает путь к повышению качества учебного заведения и возникновению конкурентоспособности. При этом для достижения качества было сказано, что необходимо исследовать образовательное учреждение на местном, региональном и, главным образом, международном уровне. Критерии оценки были сопоставлены с критериями других учебных заведений, и было подчеркнуто, что инновационные изменения должны осуществляться без потери времени. Обращается внимание, что при самостоятельном правовом статусе образовательного учреждения будет обеспечено его развитие. В то же время было указано, что оценка профессорско-преподавательского состава способствует развитию их деятельности на международном уровне.

***N.I.Zamanova***

**RATING ASSESSMENT IN THE DIGITAL WORLD**

***Keywords:*** *rating assessment, criteria, Shanghai assessment, British assessment, quality assurance*

The article mentions that the rating evaluation of the Azerbaijan State Pedagogical University opens the way to the improvement of the quality of the educational institution and the emergence of competitiveness. At the same time, in order to achieve quality, it was said that it is necessary to investigate the educational institution at the local, regional and mainly international level. The evaluation criteria were compared with the criteria of other educational institutions, and it was emphasized that innovative changes should be carried out without wasting time. It is brought to attention that with the independent legal status of the educational institution, its development will be ensured. At the same time, it was stated that the evaluation of the academic staff promotes the development of their activities at the international level.

Dövlətin, iqtisadiyyatın və cəmiyyətin inkişafı, sürətli innovativ dəyişiklikləri qarşılıya bilən, yeniliyi vaxtında tətbiq edən güclü təhsil müəssisələrinin mövcudluğundan asılıdır. Təhsil müəssisəsinin gücü həmin ölkənin gücünə də işarədir. Buna görə təhsil müəssisələri yenilikləri qarşılamaq məqsədi ilə keyfiyyətin əldə edilməsi üçün yollar axtarışındadır.

Dünyada vahid təhsil modeli yoxdur və bu təbii haldır. Hər ölkənin ictimai, iqtisadi və siyasi səviyyəsinə görə öz təhsil sistemi var. Amma bütün ölkələrin və xalqların istəyi keyfiyyətli təhsil, tələb və təklifi qarşılaya bilən, istehsal etdiyi ictimai əmtəənin əmək bazarında istənilən, arzuedilən olmasıdı. Təhsil müəssisəsinin və eləcə də təhsil alanın da istəyi keyfiyyətli təhsildir.

Bu baxımdan Azərbaycan Dövlət Pedaqoji Universiteti də yeniliyin əldə edilməsi, rəqabətə davamlı təhsil və tədris axtarışındadır.

Gələcəyin inkişaf alqoritmlərinə təsir gücünə malik, hər kəsə təhsil vermək missiyasını və eyni zamanda gələcəyin əmanətçilərini yetişdirmək ali pedaqoji təhsil müəssisəsinin əsas məqsədi və amalıdır. Son illər bu təhsil müəssisəsi keyfiyyətin əldə edilməsi üçün Azərbaycan Dövlət Pedaqoji Universiteti: “2018-2021 illər üzrə strateji inkişaf planı”, “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında Ali təhsil sistemində beynəlxalq rəqabətliliyin artırılması üzrə Dövlət Proqramı” [6], “Azərbaycan Respublikası Təhsil nazirliyi, ADPU-nun Tədrisin Keyfiyyətinin Yüksəldilməsinə dair 10 illik strateji inkişaf planı” [7], “Azərbaycan Respublikasının ömrü boyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi” [8] və s. sənədləri proqram və layihələri təhsilin keyfiyyətin artırılmasına, rəqabətliliyin təminatına hesablanmışdır. Bunlara əlavə olaraq keyfiyyətin yüksədilməsi üçün professor-müəllim

heyətinin fəaliyyətinin ölçülməsi, adətən bir şkalası yaradılaraq 2021-ci ilədək 72, əlavələr edilməklə 2022-ci ildə 85 göstərici üzrə reytinq qiymətləndirilməsi aparılmışdır. Akademik heyətin fəaliyyətinin bir neçə aspektdə qiymətləndirilməsi təhsil müəssisəsində dinamikliyə səbəb olmuşdur. 2018-ci ildən başlayaraq 2022-ci il də daxil olmaqla keçirilən reytinq qiymətləndirmə 1200 nəfərədək akademik heyəti əhatə etmişdir. Tədris müəssisəsində müsbət mənada hərəkətliliyə səbəb olmuşdur, eyni zamanda həll etməli bir çox problemlərin də üzə çıxarılmasına təsir edə bilmişdir. Adından da göründüyü kimi, ADPU-da professor-müəllim heyətinin reytinq qiymətləndirilməsi bütövlükdə təhsilin, təhsil müəssisəsinin, eyni zamanda akademik heyətin hansı səviyyədə olmasının bütün gerçəkliklə göz önünə çıxmasına səbəb oldu.

Bu meyarlar ölkəmizdə və eyni zamanda başqa ölkələrdə təhsil müəssisələrinin meyarlarına baxışı və əlbəttə, müqayisəsini də bərabərində gətirir. Bu baxımdan informasiya cəmiyyətinin tələbatlarının təminatında vacib olan amilləri sadalasaq, elm və təhsil dinamik, statik, situativ olub, eyni zamanda hər ölkənin inkişafına uyğun milli situativliyin gözlənilməsidə ən mühüm amildir.

Təhsilin dinamik, situativ və milli situativliyini nə dərəcədə təmin edə bilirik?

Strateji planlaşdırma, yaxın gələcəkdə hədəfləri dəqiq müəyyənləşdirməyə nail ola bilirikmi?

Rəqəmsal dünyada informasiya cəmiyyətinin tələbatlarını təmin edə bilirikmi?

Rəqabətliliyin təminatında gözlənilən hədəfə nail oluna bilinirmı?

XXI əsr informasiya cəmiyyətində innovatıv texnologiya ilə yeni nəslin tələbatlarını, onların istədiyi tədrisi təşkil edə bilirikmı?

Ölkəmizdən müntəzəm olaraq intellekt köçünün davam etməsini dayandıra və bu gücdən istifadə edə bilirikmi?

Sinxron, asinxron təhsil bütün təhsil alma yollarını qabaqlayır. Təhsil ocaqları öz mövcudluğunu qorumaq məcburiyyətindədir. ADPU-nun reytinq qiymətləndirilməsi bir çox məsələlərin araşdırılmasına, aktivliyin sürətlənməsinə yol açır. Eyni zamanda daxili auditoriyanın qiymətləndirilməsi meyarları təhsil müəssisəsinin lokal mövqeyi ilə regional və əlbəttə, beynəlxalq nüfuzu haqqında ilkin fikir mübadiləsinin aparılması yollarını da açır. Reytinq qiymətləndirmə bir çox tədqiqatların aparılmasını gərəkdirir.

1. Təhsil müəssisəsinin lokal mövqeyi bir əsrdən artıqdır ki, fəaliyyət göstərir, Cümhuriyyət dönəmindəki fəaliyyəti, sovet dövründəki və müstəqillikdən bu günə kimi fəaliyyətinin nəticələrinin müqayisəsi.
2. Regiondakı mövqeyi, qonşu ölkələrdəki təhsil ocaqları ilə müqayisəsi, ölkəmizdə xarici tələbə sayı.
3. Beynəlxalq müstəvidə yeri.

Reytinq qiymətləndirmə araşdırmalara təkan verir və tədqiqatların bir çox aspektdə aparılmasını zəruri edir. *"Lakin professor-müəllim heyətinin fəaliyyətinin bir çox aspektlərini özündə əks etdirən reytinq qiymətləndirməsi üzrə tədqiqatlar yox səviyyəsindədir. Bu səbəbdən bu tip tədqiqatların geniş öyrənilməsi məqsədəuyğundur"* [4].

Təhsil müəssisələrində akademik heyətin reytinq qiymətləndirilməsi – müqayisə üçün BDU (www/bdu.edu.azreytinqqiymət) [14] və ADPU-nun [15] meyarları eləcə də mahiyyət etibarı ilə də oxşardır.

ADPU-da professor-müəllim heyətinin 2018-2021-ci illər üzrə topladığı balların statistikasına nəzər yetirsək, 2018-ci ildə akademik heyətin topladığı bal 3,4%, 2019-2020-ci illərdə 5%, 2020-2021-ci illərdə akademik heyətin topladığı ballar 35% artmışdır [4]. Reytinq qiymətləndirmənin ilkin nəticəsindən göründüyü kimi, akademik heyətin topladığı balların artan sıra ilə davam etməsinin şahidi oluruq. Reytinq qiymətləndirmə, təhsil müəssisələrinin hərəkətliliyinə səbəb olur, akademik heyətin məsuliyyətini artırır, maddi dəstəyi, əməkdaşlar arasında rəqabətliliyi artırır.

ADPU-da akademik heyətin topladığı balların müqayisəli statistikası: 2019 Reytinq, 2021 Reytinq [4].



Pandemiya dövründə də heyətin mümkün vasitələrdən istifadə edərək fəaliyyətinin davam etdiyinin şahidi oluruq. Bu qiymətləndirmə təhsil müəssisəsinin çox istiqamətli araşdırılmasını da zəruri edir. Bu istiqamətdən yola çıxaraq qabaqcıl təhsil müəssisələrinin uğurlarının araşdırılmasını gərəkdirir. Dünyanın qabaqcıl təhsil müəssisələrində keçən əsrin axırlarından başlayaraq təhsilin kommersiya yönümlüyü, tələbə idxalı üzrə rəqabətliliyinin, tədrisin tədqiqatla paralelliyi mövcud olduğu mühitdə bizim təhsil ocaqlarında dəqiq strateji hədəflərimiz nə qədər real görünür? Bu qiymətləndirmə akademik heyətin fəaliyyətinin nəticədə beynəlxalq meyarlara yönəlməsinə imkan verir. Amma nüfuzlu universitetlərin (Academic Ranking of World Universities) [3] ilk 10-luq, 50, 100, 500-cü yerlərin sıralanmasına baxdıqda, bu sıralamadan çox uzaqda olduğumuzu  görürük. Times Higher Education World University Rankings universitetlərin əsas göstəricilərini – tədris, elmi-tədqiqat, biliyin ötürülməsi, beynəlxalq perspektivi nəzərə alan yeganə qlobal qiymətləndirmə sistemidir. Bu sistemdə universitetlərin hərtərəfli və balanslaşdırılmış müqayisəsini təqdim edən 5 göstəricidən istifadə olunur:

- ✓ Tədris: öyrənmə mühiti (30%);
- ✓ Tədqiqat: həcm, gəlir və nüfuz (30%);
- ✓ İstinadlar: tədqiqatın təsiri (30%);
- ✓ Gəlir sənayesi: innovasiya (2.5%);
- ✓ Beynəlxalq perspektiv: müəllim və professor heyəti, tələbələr və tədqiqat (7,5%).

Həm Asiyada həm də Avropada olan fərqli təhsil müəssisələrinin qiymətləndirmə meyarlarına nəzər salaq.

Ələttə, ölkəmizdəki təhsil müəssisələrinin meyarları müqayisəedilməz dərəcədə fərqlidir. Şanxay və Britaniya qiymətləndirmə meyarlarının fərqliliklərinə diqqət edək.

Xatırladaq ki, ilk dəfə təhsil müəssisəsinin reytinq qiymətləndirilməsi, 2003-cü ildə Şanxay Universitetinin (Shanghai Jiao Tong University) Ali Təhsil İnstitutu (Institute of Higher Education) tərəfindən Çin universitetlərinin dünyanın aparıcı universitetlərindən təhsilin keyfiyyətinə və elmi tədqiqatın əhatəliliyinə görə geridə qalma dərəcəsinin qiymətləndirilməsi məqsədi ilə işlənmişdir.

Elmi-tədqiqat fəaliyyətinin qiymətləndirilməsi üçün Şanxay reytinqində xüsusi işlənmiş 4 göstəricidən istifadə olunur. Hər bir göstəriciyə görə, ən yüksək xal almış müəssisəyə 100 xal mənimsədilir. Yerdə qalan müəssisələr ən yüksək xala nisbətən faizlə təyin edilirlər. Şanxay reytinqinin göstəriciləri aşağıdakılardır [13]:

| **Kriteriya** | **Göstərici** | **Göstəricinin çəkisi** | **Məzmun** |
|---|---|---|---|
| Təhsilin keyfiyyəti | **Alumni** | 10% | Ali məktəbin Nobel mükafatı və Filds medalı almış məzunlarının ümumi sayı. Məzun dedikdə, bakalavr, magistr, yaxud doktorluq dərəcəsini bu ali məktəbdə alanlar nəzərdə tutulur. |
| Akademik heyətin keyfiyayəti | **Award** | 20% | Ali məktəbdə işləyən Nobel mükafatçıları və Filds medalçılarının sayı |
| | **HiCi** | 20% | Elmin 21 sahəsi üzrə (riyaziyyat, kompüter elmləri, fizika, tibb, mühəndislik, sosiologiya və s.) ən çox istinad olunan tədqiqatçıların sayı |
| Tədqiqatın keyfiyyəti | **N&S*** | 20% | Son 5 ildə Nature və Science jurnallarında çap olunan məqalələrin sayı |
| | **PUB** | 20% | SCIE və SSCI indeksli jurnal və konfranslarda nəşr olunan məqalələrin sayı. |
| Bir akademik kadra düşən məhsuldarlıq | **PCP** | 10% | Əvvəlki 5 göstəricinin çəkili cəminin ali məktəbin tam ştatlı akademik kadrlarının sayına nisbəti. Əgər tam ştatlı akademik kadrların sayı əldə oluna bilmirsə, onda əvvəlki 5 göstəricinin çəkili cəmi istifadə olunur |

Nobel və Türinq mükafatçıları və Filds medalçıları olan ali məktəb məzunları (Alumni) və işçilərinin (Award) sayının hesablanması üçün əmsalların mürəkkəb sistemi tətbiq edilir.

$$\mathbf{Q} = 0.1\times\mathbf{Alumni} + 0.20\times\mathbf{Award} + 0.20\times\mathbf{HiCi} + 0.20\times\mathbf{N\,\&\,S} + 0.20\times\mathbf{PUB} + 0.10\times\mathbf{PCP}\,,$$

burada **Q** – universitetin reytinq göstəricisidir.[10]

**Böyük Britaniya qiymətləndirməsi**

Times Higher Education – QS World University Rankings (QS-THES) reytinqi Böyük Britaniyanın "TSL Education Ltd" adlı təşkilatı ilə "Quacquarelli Symonds" şirkətinin birgə layihəsidir. 2004-cü ilin noyabrından ildə bir dəfə dövri olaraq nəşr olunan "The Times Higher Education Supplement" qəzetinin "Top 200 World Universities" reytinqində bu meyarlar götürülmüşdür [12].

- Akademik cəmiyyətin və tədqiqatçıların universitet haqqında rəyi
- Alimlərin elmi əsərlərinin istinad indeksi
- Xarici tələbə və müəllimlərin payı

Təhsilin keyfiyyəti, akademik heyətin keyfiyyəti, tədqiqatın keyfiyyəti, bir akademik işçiyə düşən məhsuldarlıq, xarici tələbə sayı, elmin, təhsilin kommersiya yönümlülüyü, bir sözlə, təhsil müəssisələrinin beynəlxalq müstəvidəki innovativliyə istinadən keyfiyyətinin əldə edilməsinə nail olmaq olar.

ADPU-da keçrilən akademik heyətin qiymətlindərilməsi meyarlarının müntəzəm olaraq beynəlxalq müstəviyə nəzərən təhkmilliləşdirilməsi zəruridir.

Təhsil müəssisələri tamamilə müstəqil, qanunların aliliyi, dəyişikliklərin mane və zaman itkisi olmadan həyata keçirmək üçün çox əlverişli mühit olarsa, keyfiyyətə nail olmaq olar.

Orta məktəblərdə xüsusilə dəqiq fənlərin tədrisində daima monitorinq aparılmalı, ADPU orta məktəblərlə fənlərin tədrisinin keyfiyyətində körpü rolunu oynaya bilər. Eyni zamanda pedaqoji universitetin olan metodistlər orta məktəblərdəki fənlərin keyfiyyətli tədrisində əsas həlqə və bələdçi rolunu üstələyə bilər.

Şərq-qərb, şimal-cənub yollarının kəsişməsində iqliminin mülayim subtropik, insanlarının tolerant olduğu ölkəmizdə əcnəbi tələbə sayını dəfələrlə artıra bilərik, əgər keyfiyyətli təhsilə nail olsaq.

## ƏDƏBİYYAT


1. *Əliquliyev R.M., İsmayılova N.T.* Bibliometriya: müasir vəziyyəti, problemləri və inkişaf perspektivləri. Bakı: İnformasiya Texnologiyaları, 2015, 78 s.
2. *Cahangirov A.B.* Təhsilimiz: dünəndən sabaha. A.Cahangirov Optimistin baxışları / A.B.Cahangirov. Bakı: Şərq-Qərb, 2020, 384 s.
3. *İsaxanlı H.A.* Müasir dünyada ali təhsil sistemində nələr baş verir və 2008-2012-ci illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə dövlət proqramı necə olsa yaxşıdır / H.A.İsaxanlı. Bakı: Xəzər Universiteti, 2008,116 s.
4. *Şərifov Q.* Reytinq qiymətləndirməsinin universitetin professor-müəllim heyətinin fəaliyyətinə təsiri // Azərbaycan məktəbi, 2022, №3(700), s.11-20
5. *Hertzel D.H.* Bibliometrics history, encyclopedia of library and information

science (second edition), New York: Dekker, 1987
6. https://e-qanun.az/framework/39622
7. https://adpu.edu.az › haqqimizda › strateji-plan
8. https://president.az › articles › view
9. http://www.issi-society.info/
10. http://www.arwu.org/
11. https://www.timeshighereducation.com/
12. http://www.topuniversities.com/
13. http://www.shanghairanking.com/.
14. http://bsu.edu.az/az/news/bdu_
15. www.adpu.edu.az.reytinq

Redaksiyaya daxil olub 07.02.2023

# YAZI QAYDALARI

- "Pedaqoji Universitetin Xəbərləri" dövri elmi jurnalının "Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər" seriyası əvvəllər nəşr olunmamış elmi məqalələri qəbul edir.
- Məqalələr **Azərbaycan, ingilis, türk** və **rus** dillərində jurnalın elektron ünvanına – **jhss@adpu.edu.az, n.q.aslanova@gmail.com** göndərilir.
- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.
- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.
- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 11 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.
- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.
- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, s. 8].
- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.
- Məqalələrin həcmi: 5-12 səhifə.
- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.
- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.
- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# WRITING RULES

- “Humanitarian, social and pedagogical-psychological sciences” series of the periodic scientific journal “Transactions of Pedagogical University” accepts previously unpublished scientific articles.
- The articles can be sent in **Azerbaijani, English, Turkish** and **Russian** languages to the journal’s electron address – **jhss@adpu.edu.az, n.q.aslanova@gmail.com**.
- Articles should be written in **Microsoft Word** writing program Times New Roman alphabet in the font size 12 punto with interval between line in the range of 1.0 characters. Page sizes: from the right and left 2.0 sm, from above 2.5 sm and the bottom 2.2 sm.
- **The title** should be written in black and capital letters in the middle.
- The structure of the article should be consist of the following format: author's first name/patronymic/last name, position, scientific degree and title, a summary and the key words in three languages (100-150 words, 11 punto) and the list of literature. Summaries written in three languages should be equal to each other and match the content of the article.
- **The drawings, pictures, graphics and tables** in the articles should be correct, clear and given in the text and writings that belong to them should be written underneath.
- References indicating in square brackets should be numbered in alphabetical order and given at the end of the article. For example: [1, 8]
- Information about any reference given on the list of literature must be complete and accurate. The bibliographic description of the source reference should be based on its kind (monographs, textbooks, scientific papers, etc.). The name of the article or thesis must be shown when referring to the symposium, conference materials or to the theses.
- The volume of the articles: 5-12 pages.
- Articles are published on the basis expert review (in confidence) by the decision of the Editorial Board of the journal. Editorial Board may return the article to the author to make corrections.
- Unpublished articles are not returned.

*Nəşriyyatın direktoru:* Hüseyn Hacıyev
*Texniki redaktor:* Mustafa Şəfiyev
*Korrektor:* Sevinc Mamoyeva

Çapa imzalanmışdır: 27.06.2023
Kağız formatı 70×100$^{1/16}$, 12,875 ç.v.
Sifariş 206. Sayı 100.

**ADPU-nun nəşriyyatı**
Bakı, Ü.Hacıbəyli, 68